# 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi

# Qiymətləndirmə hesabatı

**Kristian Privat**
**Beynəlxalq məsləhətçi**

**Rahim Saatov**
**Milli məsləhətçi**

# 2019

# MÜNDƏRİCAT

**MİNNƏTDARLIQ……………………………………………………………………………………4**
**İXTİSARLAR…………………………………………………………………………………………5**
**QISA XÜLASƏ………………………………………………………………………………………7**

**I. Giriş……………………………………………………………………………………………18**
**II. Ölkə konteksti………………………………………………………………………………19**
**III. 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi ……………………………………………………………………22**
**IV. Qiymətləndirmənin konteksti……………………………………………………………24**
**V. Qiymətləndirmənin ümumi məqsədi, xüsusi məqsədləri, əhatə dairəsi və məhdudiyyətlər……………………………………………………………………………25**
**VI. Qiymətləndirmə yanaşması və metodologiyası……………………………………26**

**A. Qiymətləndirmə meyarları və sualları……………………………………………26**
**B. Qiymətləndirmə yanaşması……………………………………………………………27**
**C. Qiymətləndirmə metodologiyası………………………………………………………28**

1. Hazırlıq görüşləri və ilkin hesabat
2. Məlumatların toplanması və məlumat mənbələri
3. Masaüstü təhlili və yazılı mənbələr əsasında ilkin təhlil
4. Maraqlı tərəflərin təhlili
5. Azərbaycana missiya
6. Nəticə qrupları ilə görüşlər
7. Digər qruplarla görüşlər
8. BMT təşkilatlarının rəhbərləri və yüksək səviyyəli hökumət nümayəndələri ilə görüşlər və müsahibələr
9. Qeyri-hökumət maraqlı tərəflərlə və gənclər təşkilatları ilə görüş
10. İstiqamətləndirici sənədlər və etik standartlar
11. Digər görüşlər və yerlərə səfərlər
12. Qiymətləndirmənin insan hüquqları və gender bərabərliyi aspektlərini nəzərə alması
13. UNAPF və DİM-lər arasında əlaqələr
14. Yekun görüş
15. Təhlil üsulları və hesabat layihəsinin hazırlanması
16. Keyfiyyət təminatı və idarəetmə prosesi

**VII. QİYMƏTLƏNDİRMƏNİN AŞKAR ETDİYİ FAKTLAR……………………………………38**

**A. UNAPF-ın uyğunluğu və strateji mövqeyi………………………………………38**

1. Beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları konvensiyaları ilə uyğunluq
2. Milli prioritetlərə münasibətdə uyğunluq
3. İnkişaf məsələləri, onların təməlində dayanan səbəblər və problemlərə münasibətdə uyğunluq
4. BMT Sisteminin müqayisəli üstünlüyü
5. UNAPF-ın tərtibi
**B. UNAPF-ın effektivliyi……………………………………………………………………….……..45**
1. UNAPF-ın gözlənilən nəticələrə münasibətdə effektivliyi
2. Nəticələrin əldə olunmasında müsbət faktorlar və çətinliklər
**C. Əlaqələndirmə və prosedurlar……………………………………………………..……55**
1. BMT təşkilatları arasında sinergiyalar, birgə proqramlaşdırma və proqramlar
2. Qeyri-rezident təşkilatların cəlb olunması
3. Əlaqələndirmə mexanizmləri - İstiqamətləndirici Komitə, Nəticə Qrupları və digər qruplar
4. Məlumatların toplanması və təhlili
5. Nəticələrin ölçülməsinin çətinliyi
6. Müştərək iş planları
7. İllik İcmallar, aralıq İcmal və icra hesabatları
8. Hökumətin UNAPF-a sahibliyi
9. Tərəfdaşlıq və strateji ittifaqlar
10. Birgə kommunikasiyanın effektivliyi
11. Resursların cəlb olunmasında səmərəlilik
**D. Səmərəlilik………………………………………………………………………………………77**
**E. Proqramlaşdırma prinsipləri………………………………………………………..……79**
1. Heç kəsi kənarda qoymamaq və insan hüquqlarına əsaslanan yanaşmalar
2. Gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması
**F. Dayanıqlılıq……………………………………………………………………………..………89**

**VII. ÖYRƏNİLMİŞ DƏRSLƏR………………………………………………………………..……92**
**VIII. NƏTİCƏLƏR……………………………………………………………………………………..…93**
**IX. TÖVSİYƏLƏR……………………………………………………………………….................……..95**

**ƏLAVƏLƏR……………………………………………………………………………………………….102**
Əlavə 1: UNAPF qiymətləndirməsi üçün texniki tapşırıq
Əlavə 2: UNAPF Nəticə Qruplarının görüşləri üçün sualların siyahısı və gündəliklər
Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar
Əlavə 4: UNAPF üzrə Qiymətləndirmə Missiyasının proqramı
Əlavə 5: Ədəbiyyat və istinad siyahısı
Əlavə 6: Görüş və müsahibə aparılan şəxslərin siyahısı

Əlavə 7: Məsləhətçilərin tərcümeyi-halı
Əlavə 8: Maraqlı tərəflərin təhlili
Əlavə 9: Qiymətləndirmə çərçivəsi

## MİNNƏTDARLIQ

Bu hesabatın müəllifləri bütün maraqlı tərəflərə, o cümlədən BMT-nin Rezident Əlaqələndiricisi Qulam M. İshaqzaiyə, BMT təşkilatlarının rəhbərlərinə və əməkdaşlarına, Məlumatların İdarəolunması, Nəticələrin Monitorinqi və Hesabatvermə Məsələləri üzrə Müşavir Gülər Fətəliyə, Nəticə Qruplarının, Tematik Qrupların və digər qrupların bütün üzvlərinə, çoxsaylı hökumət və qeyri-hökumət , habelə beynəlxalq inkişaf tərəfdaşlarına minnətdarlığını bildirir.

Bütün maraqlı tərəflər dəyərli töhfələr vermiş, məlumatlar təmin etmiş və baxışlarını bölüşmüşdür ki, bu da məsləhətçilərə etibarlı mənbə kimi çıxış edən sənədlərlə məlumatları yoxlamaq imkanı verdi. Bu qiymətləndirmə hesabatının müəllifləri ümid edir ki, bu hesabat yaxın gələcəkdə, xüsusilə 2021-2025-ci illər üçün Dayanıqlı İnkişaf üzrə BMT Əməkdaşlıq Çərçivəsi (UNSDCF) sənədinin hazırlanmasında faydalı olacaqdır.

# İXTİSARLAR

| | |
|---|---|
| İƏS | İşgüzar Əməliyyatlar Strategiyası |
| VÖQ | Vahid Ölkə Qiymətləndirməsi/Vahid Ölkə Təhlili |
| CEDAW | “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiya |
| UHK | “Uşaq hüquqları haqqında” Konvensiya |
| VCT | Vətəndaş cəmiyyəti təşkilatı |
| QMQ | Qiymətləndirmə üzrə Metodiki Qrup |
| FAO | Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| GƏZ | Gender əsaslı zorakılıq |
| ÜDM | Ümumi Daxili Məhsul |
| İQ | İstixana qazları |
| GTQ | Gender üzrə Tematik Qrup |
| HDİ | İnsan İnkişafı İndeksi |
| İHY | İnsan hüquqlarına əsaslanan yanaşma |
| IAEA | Atom Enerjisi üzrə Beynəlxalq Agentlik |
| İKT | İnformasiya və Kommunikasiya Texnologiyaları |
| MK | Məcburi köçkün |
| IFAD | Kənd Təsərrüfatının İnkişafı üzrə Beynəlxalq Fond |
| BMİ | Beynəlxalq maliyyə institutları |
| BƏT | Beynəlxalq Əmək Təşkilatı |
| BVF | Beynəlxalq Valyuta Fondu |
| BMqT | Beynəlxalq Miqrasiya Təşkilatı |
| MİP | Müştərək iş planı |
| HKKQ | heç kəsi kənarda qoymamaq |
| MQ | Monitorinq və Qiymətləndirmə |
| MAPS | Aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək |
| MİM-lər | Minilliyin İnkişaf Məqsədləri |
| ARİ | Aralıq icmal |
| DİMƏŞ | Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası |
| QHT | Qeyri-hökumət təşkilatı |
| İƏİT | İqtisadi İ Əməkdaşlıq və İnkişaf Təşkilatı |
| ƏİH | Əməliyyatlar üzrə İdarəetmə Heyəti |
| BGT | Birgə gender təftişi |
| DƏSİ | Dördillik Əhatəli Siyasi İcmal |
| NƏİ | Nəticə əsaslı idarəetmə |
| DİM | Dayanıqlı İnkişaf Məqsədləri |
| SMART | Spesifik, ölçülə bilən, əldə oluna bilən, real, vaxtla məhdudlaşan |
| TT | Texniki Tapşırıq |
| UNAPF | 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi |
| UNCG | BMT-nin Kommunikasiya Qrupu |
| UNCT | BMT-nin Ölkə üzrə İdarə Heyəti |
| UNDAF | BMT-nin İnkişafa Yardım üzrə Çərçivə Sənədi |
| UNDCO | BMT-nin İnkişaf üzrə Əlaqələndirmə Ofisi |
| UNDG | BMT-nin İnkişaf Qrupu |

| | |
|---|---|
| BMTİP | BMT-nin İnkişaf Proqramı |
| UNECE | BMT-nin Avropa İqtisadi Komissiyası |
| UNEG | BMT-nin Qiymətləndirmə Qrupu |
| UNEP | BMT-nin Ətraf Mühit Proqramı |
| UNESCO | BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı |
| UNFCCC | BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası |
| UNFPA | BMT-nin Əhali Fondu |
| BMTQAK | BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı |
| UNİCEF | BMT-nin Uşaq Fondu |
| UNİDO | BMT-nin Sənayenin İnkişafı Təşkilatı |
| UNOPS | BMT-nin Əməliyyat Xidməti |
| UNODC | BMT-nin Narkotik və Cinayətkarlıq üzrə İdarəsi |
| BMTİHAK | BMT-nin İnsan Haqları üzrə Ali Komissarlığı |
| UNRCO | BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi |
| UNSDCF | BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi |
| UNSDG | BMT-nin Dayanıqlı İnkişaf Qrupu |
| UNV | BMT-nin Könüllülük Proqramı |
| UNYAC | BMT-nin Gənclərdən ibarət Məşvərət Şurası |
| UDİ | Universal Dövri İcmal |
| 2020 Gələcəyə baxış | Azərbaycan 2020: gələcəyə baxış inkişaf konsepsiyası sənədi |
| ÜƏP | Ümumdünya Ərzaq Proqramı |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |
| ÜTT | Ümumdünya Ticarət Təşkilatı |

# QISA XÜLASƏ

## GİRİŞ, ÜMUMİ MƏQSƏD, XÜSUSİ MƏQSƏDLƏR VƏ ƏHATƏ DAİRƏSİ

Bu hesabatda 2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədinin qiymətləndirilməsinin nəticələri təqdim olunur. UNAPF Azərbaycanın milli inkişaf gündəliyinə BMT-nin töhfə verdiyi üç əsas nəticə sahəsinə köklənir. Bunlar aşağıdakılardır:

- **1-ci prioritet sahə:** Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi;
- **2-ci prioritet sahə:** İnstitusional potensialın gücləndirilməsi və effektiv dövlət və sosial xidmətlər;
- **3-cü prioritet sahə:** Ətraf mühit sahəsində idarəçiliyin təkmilləşdirilməsi, həmçinin təbii və insan fəaliyyəti nəticəsində baş verən fəlakətlərə qarşı dayanıqlılığın artırılması

Beləliklə, bu qiymətləndirmə növbəti Dayanıqlı İnkişaf üzrə BMT Əməkdaşlıq Çərçivəsi (UNSDCF) sənədinin hazırlanmasında analitik alət kimi istifadə ediləcək təməl elementlərdən biri hesab edilir. Növbəti UNSDCF sənədi BMT-nin İnkişaf Qrupunun yeni təlimatlarına uyğun olaraq hazırlanacaq. Bu qiymətləndirmə DİM-lər çərçivəsində müəyyən hədəflərə daha inteqrasiyalı şəkildə və milli inkişaf prioritetləri və 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi çərçivəsində nail olunması baxımından növbəti UNSDCF sənədinin daha praqmatik ola bilməsi üçün yolları göstərir. 2016-cı ildən 2019-cu ilin iyun ayına kimi dövrü əhatə edən qiymətləndirmədə UNAPF-ın aşağıdakı xüsusiyyətləri qiymətləndirilir: a) uyğunluq, strateji mövqe və tərtibat; b) effektivlik; c) səmərəlilik; d) dayanıqlılıq; e) beş proqramlaşdırma prinsipi; və f) əlaqələndirmə.

Qiymətləndirmə BMT-nin tərəfdaşlarına və təşkilatlarına gözlənilən UNAPF nəticələri əsasında BMT-nin inkişaf dəyişikliklərinə töhfəsi barədə birgə düşünmək və müşahidə oluna bilən hər hansı nəticə və/yaxud dəyişikliklərə töhfə verə biləcək konkret BMT tədbirlərini müəyyən etmək imkanı verir.

Qiymətləndirməni BMT-nin təşkilatları və Azərbaycan hökumətini təmsil edən tərəf müqabilinin (İqtisadiyyat Nazirliyi) dəstəyi ilə, BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi (UNRCO) sifariş edib, beynəlxalq və milli məsləhətçidən ibarət qiymətləndirmə qrupu aparıb.

Hazırkı UNAPF qiymətləndirməsinin ümumi məqsədi UNAPF-ın növbəti planlaşdırma dövründə istifadə etmək və BMT-nin Azərbaycandakı əlaqələndirmə işini təkmilləşdirmək üçün əsas nəticələri və öyrənilmiş dərsləri müəyyən etmək, həmçinin ölkədə razılaşdırılmış milli hədəf və prioritetlərə münasibətdə hesabatlılığın artırılmasına dəstək göstərməkdir.

UNAPF qiymətləndirməsinin xüsusi məqsədləri aşağıdakılardır:

UNAPF nəticələrinə əsaslanaraq BMT sisteminin milli inkişaf prioritetlərinə töhfəsini qiymətləndirmək və sübutlara (hesabatlılıq) əsaslanan qiymətləndirmə meyarlarından istifadə edərək mühakimələr yürütmək

- Müəyyən olunan fəaliyyət göstəricilərinin niyə məhz cari səviyyədə olmasının səbəblərini aydınlaşdıraraq, fəaliyyətə şərait yaradan və ya əngəl olan məsələləri üzə çıxararaq, UNCT-nin töhfəsinə təsir göstərmiş amilləri müəyyən etmək (öyrənmə);
- Növbəti UNSDCF dövrü üçün konkret və fəaliyyət yönümlü strateji tövsiyələr təmin etmək üçün keçmişdən və hazırkı əməkdaşlıqdan öyrənilmiş dərsləri müəyyən etmək.

İstifadə edilən metodologiya aşağıdakılardan ibarət olmuşdur:

- BMT-nin Rezident Əlaqələndiricisinin Ofisində Məlumatların İdarəolunması, Nəticələrin Monitorinqi və Hesabatvermə Məsələləri üzrə Müşavirlə hazırlıq görüşləri.
- İlkin sənədlərin masaüstü təhlili.
- Qiymətləndirmə çərçivəsinə malik müfəssəl ilkin hesabatın hazırlanması
- Maraqlı tərəflərin təhlili
- Beynəlxalq məsləhətçinin Bakı şəhərində milli məsləhətçi ilə birlikdə 9-17 iyul 2019-cu il tarixlərində həyata keçirdiyi qiymətləndirmə missiyası
- BMT-nin rezident əlaqələndiricisi ilə brifinq
- UNAPF-ın 3 Nəticə Qrupu ilə görüş
- Əsas nazirliklər və milli qurumlarla müsahibələr
- BMT-nin təşkilatlarının, o cümlədən qeyri-rezident təşkilatların rəhbərləri ilə müsahibələr
- Qeyri-hökumət  və gənclər təşkilatları ilə görüşlər
- İnkişaf tərəfdaşları ilə görüş
- Monitorinq və Qiymətləndirmə Qrupu, Kommunikasiya Qrupu və Əməliyyatlar üzrə İdarəetmə Heyəti ilə görüşlər
- Üç Tematik Qrupla (Gender, İnsan hüquqları, DİM-lər) birgə görüş
- Missiyanın yekununda BMT-nin Rezident Əlaqələndiricisinin Ofisində Məlumatların İdarəolunması, Nəticələrin Monitorinqi və Hesabatvermə Məsələləri üzrə Müşavirlə yekun görüş.

Bütün məlumat mənbələri qiymətləndirmə meyarları və suallar üzrə məlumatların yaxşı səviyyədə yoxlanmasına imkan verdi.

## AŞKAR EDİLƏN FAKTLAR

**Uyğunluq**

Uyğunluq baxımından  qiymətləndirmə mütəxəssisləri müəyyən etdi ki, UNAPF Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin hədəflərini və onu müşayiət edən Dayanıqlı İnkişaf Məqsədlərini (DİM) əks etdirir. UNAPF beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları ilə bağlı öhdəliklər, normalar və standartlar baxımından uyğundur

UNAPF milli prioritetlər, o cümlədən "Azərbaycan 2020: Gələcəyə baxış", 2030-cu il  Gündəliyinin icrasına yönələn yeni dövlət yatırımları və səylər baxımından da çox uyğundur. UNAPF sənədində bir sıra digər strategiyalar qeyd olunub və onların  "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasının icrasına töhfə verməsi gözlənilir. UNAPF-ın icrası müddətində onunla uzlaşan digər milli strategiyalar, siyasətlər, proqramlar və qanunlar qəbul olunmuşdur.

Qiymətləndirmə UNAPF-ın Azərbaycanın inkişaf məsələləri, onların əsasında duran səbəblər və problemlərini həll etmək üçün uyğun olduğunu təsdiq edir. UNAPF-da əhalinin həssas qruplarının ehtiyaclarına və hamı üçün yaşayış standartlarının yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir ki, bu da, DİM-lərin "heç kəsi kənarda qoymamaq" prinsipi ilə uyğunluq təşkil edir. Eyni zamanda, UNAPF öz yanaşmaları ilə daha da yuxarı səviyyəyə irəliləmək, Azərbaycanda yeni inkişaf məqsədlərinin fəaliyyət kursunu müəyyənləşdirmək üçünsiyasi qərarları qəbul edənlərə yardım etmək və yeni nəsil milli məqsədlərdə bərabərliyin, keyfiyyətin və dayanıqlığın daha çox vurğulanmasını təmin etmək niyyətində idi. UNAPF-ın hazırlanması zamanı ilkin vəziyyətin qiymətləndirilməsi və digər növ tədqiqatlardan əlavə, Ölkə Təhlili aparılıb və bu, inkişaf məsələlərinin tam əhatə olunmasına kömək edib

**Müqayisəli üstünlüklər**

BMT-nin, o cümlədən onun bəzi qeyri-rezident təşkilatlarının müqayisəli üstünlükləri və əlavə dəyəri UNAPF çərçivəsində milli tərəfdaşlar tərəfindən müxtəlif formalarda istifadə olunub.

**Tərtibat**

Tərtibat baxımından, UNAPF Hökumət və BMT arasında gələcəyə ortaq baxışın müəyyən edilməsi üçün önəmlidir və kifayət qədər geniş imkanlar yaradan çərçivədir. Lakin onun diqqət mərkəzi və tərtibatı ilə bağlı məhdudiyyətlər var. Xüsusilə Nəticələr Çərçivəsinin "SMART" (spesifik, ölçülə bilən, əldə oluna bilən, real, vaxtla məhdudlaşan) meyarlarına kifayət qədər cavab verməməsi xüsusi qeyd olunmalıdır. Göstəricilərin bəziləri elə tərtib olunub ki, nəticələrin qiymətləndirilməsinə və effektiv monitorinqinə imkan vermir. Bəzi göstəricilər yüksəkdir və BMT-nin əhəmiyyətli dərəcədə töhfə verməsi üçün həddən artıq iddialıdır. Daha bir çətinlik xüsusilə təşviqat və siyasət sənədlərinin hazırlanması ilə bağlı hədəflər baxımından nəticələrin monitorinqi və qiymətləndirilməsi ilə bağlıdır.

**Gözlənilən nəticələr baxımından effektivlik**

UNAPF-ın effektivliyinə gəldikdə, UNAPF nəticələrinin milli prioritetlərə nail olunmasına bir töhfə olaraq, o cümlədən UNAPF-ın hər üç prioritet sahəsində - milli potensialların və qurumların gücləndirilməsi, dövlət siyasətlərinin formalaşdırılması və icrası, məlumatların toplanması və təhlilində müəyyən irəliləyiş əldə olunub.Ayrı-seçkiliyə məruz qalanlara və əlverişsiz vəziyyətdə olanlara prioritet qaydada diqqət yetirilib. Həmçinin Hökumətə çoxsahəli məsələlərdə dəstəyin göstərilməsi, DİM-lərə nailolmanın sürətləndirilməsi, gənclərin və qadınların səlahiyyətləndirilməsi və insan hüquqları sahəsində irəliləyiş əldə olunub. Ümumilikdə, qiymətləndirmə belə nəticəyə gəlir ki, UNAPF nəticələri çərçivəsində planlaşdırılan dəstək tədbirlərinin əksəriyyəti 2016-2018-ci illərdə icra olunub və ya 2019-2020-ci illərdə icra olunacaqdır.

UNAPF nəticələri istiqamətində irəliləyişə töhfə verən bəzi faktorlara stabil siyasi mühit və hökumətlə BMT arasında yaxşı münasibətlərin olması daxildir. Çətinliklərə gəldikdə, dövlət orqanları arasında əlaqələndirmənin məhdudluğu UNAPF-ın icrasını məhdudlaşdıran amillərdən biri kimi çıxış etmişdir.

**BMT-nin təşkilatları arasında sinergiyalar, birgə proqramlaşdırma və proqramlar**

Əlaqələndirmə və prosedurlar baxımından, UNAPF məlumatları mütəmadi bölüşərək BMT-nin müştərək proqramları arasında daha yaxşı sinergiyaların əldə olunmasına töhfə verib. Bu, bir sıra müştərək proqramlarla nəticələnib. UNAPF həmçinin qurumlararası əməkdaşlığı artırıb və BMT-nin təşkilatlarını

nəticə qruplarında iştiraka və ya onlara həmsədrlik etməyə, birlikdə Müştərək İş Planlarının hazırlanmasına və monitorinqinə cəlb edib. BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) daxilində də yaxşı əməkdaşlıq mövcuddur. Belə ki, təşkilatlar mümkün dərəcədə bir-birinə dəstək göstərir. Lakin sinergiyalar daha da artırıla bilər. Müştərək proqramların hazırlanması və icrası ilə bağlı çətinliklərə əməliyyatlarla bağlı olan və praktiki amillər, məsələn, ikiqat xərclər, fərqli təşkilati iş strategiyaları, maliyyələşmə üçün rəqabətin artması daxildir. Bəzi məsələlər UNCT səviyyəsində, digərləri isə Baş Qərargah səviyyəsində həll oluna bilər.

**Qeyri-rezident təşkilatların cəlb olunması**

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi UNAPF əsasında və Azərbaycan üçün birgə proqramlaşdırma məqsədilə qeyri-rezident BMT təşkilatlarının digər təşkilatlarla və müvafiq dövlət qurumları ilə əlaqələndirilməsinə dəstək göstərib. Qeyri-rezident təşkilatların bir çox layihələri UNAPF nəticələrinə və milli prioritetlərə nail olunmasına töhfə verib. Bununla belə, UNAPF və UNCT-in müxtəlif təşkilatların təcrübələrindən daha çox istifadə etməsi və Hökumətə onların özünəməxsus təcrübələrindən tam faydalanmaq imkanı verməsi zəruridir.

**Əlaqələndirmə mexanizmləri**

Mövcud əlaqələndirmə mexanizmləri, o cümlədən UNAPF üzrə İstiqamətləndirici Komitə, Nəticə Qrupları, Tematik Qruplar (İnsan hüquqları, gender, DİM-lər) və digər qruplar (Kommunikasiya, Monitorinq və qiymətləndirmə, Əməliyyatlar üzrə İdarəetmə Heyəti) nəticələrin birlikdə uzlaşdırılmasını təmin etməyə kömək etmiş, beş nəticə üzrə çoxaspektli sahələrdə nəticələrin əldə olunması, monitorinq, hesabatvermə və planlaşdırma işində effektivlik və səmərəliliyin artmasına dəstək göstərmişdir. Bununla belə, əməliyyatlarla bağlı müəyyən çətinlikləri aradan qaldırmaq və mümkün dərəcədə vətəndaş cəmiyyəti təşkilatları, akademik dairələr və özəl sektor kimi bəzi maraqlı tərəflərin iştirakına şərait yaratmaq üçün müəyyən aspektlər yaxşılaşdırıla bilər.

**Məlumatların toplanması və təhlili**

Müxtəlif BMT təşkilatları, Dövlət Statistika Komitəsi və digər dövlət qurumları arasında geniş əməkdaşlıq mövcuddur. Onların hamısı məlumatların toplanması və təhlili sahəsində milli potensialı gücləndirmişdir. Buna baxmayaraq, bəzən BMT məlumatların nə dərəcədə tam etibarlı olduğunu bilmir, məlumatların təhlili məhdud şəkildə aparılır və müxtəlif mənbələrin hazırladıqları statistik məlumatlar arasında uyğunsuzluqlar mövcuddur. Bu, cari vəziyyətin və məhdudiyyətlərin öyrənilməsi, habelə dəstək tədbirlərinin adekvat şəkildə planlaşdırılması, nəticələrin səmərəli şəkildə ölçülməsi və siyasətlərin hazırlanması və qərarların qəbulu üçün sübutlardan istifadə sahəsində maneələr yarada bilər.

**Nəticələrin ölçülməsi**

Nəticələrin ölçülməsinə gəldikdə, UNAPF-ın bir sıra nəticə göstəriciləri həddindən çox yüksək təyin olduğundan bu, onların ölçülməsini çətinləşdirir və bu göstəricilər üzrə BMT-nin töhfəsini müəyyən etmək çətindir və ya mümkün deyil. Bu göstəricilər çox zaman xüsusilə Azərbaycan kimi yuxarı-orta gəlirli ölkədə BMT-nin hər hansı birbaşa və ya önəmli təsir göstərməsinin demək olar ki, mümkün olmadığı göstəricilərdir. Ən yaxşı halda, məhsullara nailolmalar əsasında nəticələrin bəzilərini BMT ilə əlaqələndirmək mümkündür.

Bundan əlavə, Nəticələr Çərçivəsinin yalnız nəticə səviyyəsində hazırlandığını və hər hansı məhsulları göstərmədiyini nəzərə alsaq, məhsulların nəticələrə necə töhfə verdiyini anlamaq çətindir. Bununla yanaşı, UNAPF əldə olunacaq məhsulların göstərilə biləcəyi Fəaliyyət Planı olmadan hazırlanıb. Hazırkı Müştərək İş Planlarında olan məhsulların sayı isə xeyli yüksəkdir - 47. Hər nəticə üzrə bir neçə məhsulun olması nəticələr iyerarxiyasının ən yüksək səviyyəsində nailiyyətlərin monitorinqini və qiymətləndirilməsini asanlaşdıra bilərdi və UNAPF-ı daha strateji sənəd və prosesə çevirə bilərdi.

**Müştərək iş planları**

UNAPF Nəticə Qrupları hər strateji prioritet sahəsi üçün bir Müştərək İş Planı (MİP) olmaqla, 3 birillik və ikiillik MİP hazırlayıb. Bu planlarda həmin il üçün UNAPF-ın geniş miqyaslı strateji nəticələrini əldə etmək üçün tələb olunan məhsullar, konkret tədbirlər və resurslar öz əksini tapır. İrəliləyişi qiymətləndirmək üçün BMT təşkilatları MİP-lərdə müəyyən edilmiş məhsul göstəricilərinə əsasən hesabat verərək, göstəricilərin cari vəziyyətini  və rəng kodlaşdırmasından istifadə edərək əldə olunan irəliləyişi göstərmişdir ki, bu da əhəmiyyətli və təqdirəlayiq işdir. BMT və tərəfdaşları nəticələrin daha effektiv və səmərəli şəkildə əldə olunması üçün öz məhsullarını daha yaxşı uzlaşdırmaq məqsədilə müştərək iş planlarının hazırlanmasından istifadə edə bilsə də, 47 məhsul üzrə planlaşdırma, monitorinqin aparılması və izləmək çətin olmuşdur ki, bu da növbəti UNSDCF sənədində nəzərə alına bilər.

**İllik icmal, aralıq icmal və icra hesabatları**

Birgə illik icmal görüşlərinin hesabatlarının, UNAPF üzrə iki İllik İcra Hesabatlarının və Rezident Əlaqələndiricinin illik hesabatlarının hazırlanması UNCT tərəfindən atılan təqdirəlayiq addımlardır və bu qiymətləndirmə üçün çox faydalı mənbələr oldu. 2018-ci il üzrə illik icra hesabatının istifadəçilər üçün rahat formatda hazırlanması UNCT-yə hesabatda təqdim olunan məlumatları daha geniş kommunikasiya məqsədləri üçün istifadə etməyə imkan verib. Qiymətləndirmə zamanı həmçinin müəyyən edildi ki, çox faydalı və vaxtında təyin olunan Aralıq İcmal aparılıb. Aralıq İcmal UNCT-yə UNAPF-ın qlobal DİM hədəfləri ilə uyğunluğuna nəzər salmaq və göstəriciləri və onların gələcəkdə ölçülməsini yaxşılaşdırmaq imkanı verdi.

**Hökumətin sahibliyi**

Çoxsaylı nazirliklərin Nəticə Qruplarında və Monitorinq və Qiymətləndirmə Qrupunda həmsədr kimi iştirakı UNAPF sənədinə müəyyən dərəcədə birgə sahibliyi əks etdirir. Bununla belə, Hökumət bu çərçivə sənədinə əhəmiyyətli dərəcədə sahiblənmir. Belə ki, Hökumət BMT ilə gördüyü işi UNAPF-ın daha geniş çərçivəsində görülən iş hesab etmir. UNAPF-ın əhatə etdiyi məsələlər əsas tərəf müqabili kimi bir nazirliklə məhdudlaşmır. Üstəlik, sadəcə iqtisadi sektoru deyil, həm də sosial sektoru və insan hüquqlarını əhatə edən vahid milli inkişaf planının olmaması hökumətin BMT-nin dəstək göstərəcəyi prioritet sahələrin müəyyənləşdirilməsinə daha mütəmadi şəkildə istiqamət vermək imkanlarını məhdudlaşdırır.

**Tərəfdaşlıq və strateji ittifaqlar**

Çoxsaylı tərəfdaşlıqlar təşkilat səviyyəsində olsa belə, UNAPF nəticə sahələri üzrə effektli tərəfdaşlıqların və strateji ittifaqların yaxşılaşdırılmasına kömək edib. UNCT-nin dayanıqlı inkişaf naminə fəaliyyətinə

dəstək üçün müxtəlif maraqlı tərəflərlə yeni tərəfdaşlıq münasibətləri formalaşdırılıb və köhnə tərəfdaşlıqlar gücləndirilib. Bununla belə, UNCT-ə qeyri-hökumət maraqlı tərəflərlə tərəfdaşlıq və strateji ittifaqları gücləndirmək və tərəfdaş QHT/vətəndaş cəmiyyəti təşkilatlarının maliyyə idarəetməsindəki çətinliklərlə bağlı tədbirlər görmək tövsiyə edilir. Bu çətinliklər icma səviyyəli tədbirlərə birbaşa dəstəyi məhdudlaşdırır və tədbirlərin effektivliyini azaldır. QHT-lər BMT tərəfindən göstərilən dəstəyi yüksək qiymətləndirir və daha fəal və geniş dəstəyintəmin edilməsini xahiş edirlər.

**Birgə kommunikasiya**

Kommunikasiya Qrupu tədbirlərə dəstək göstərmək və birgə tədbirləri təşkil etmək ilə BMT-nin Ölkə üzrə İdarə Heyətinə "Vahid kommunikasiya" baxımından kömək edir. Bu qrup UNAPF-la uzlaşdırılmış üçillik kommunikasiya planı hazırlayıb və öz işində il ərzində həyata keçiriləcək konkret tədbir və fəaliyyətləri əks etdirən illik iş planını rəhbər tutur. Qrup getdikcə əsas diqqətini daha çox geniş ictimaiyyətin iştirakı ilə keçirilən tədbirlərin keçirilməsinə yönəldir. Qrup, həmçinin, aylıq xəbər bülletenləri dərc edir və məşhur şəxslər və bloqqerlər kimi influenserləri cəlb edərək onların vasitəsilə daha geniş auditoriyaya çıxmağa çalışır.

**Resursların cəlb olunması**

UNAPF-ın icrası üçün nəzərdə tutulan resurs zərfi 71 840 500 ABŞ dolları məbləğində müəyyən edilmişdir; lakin hazırkı UNAPF-dan əvvəlki iki il ərzində dövlət büdcəsində azalma tendensiyasına baxmayaraq, bəzi BMT təşkilatları UNAPF-ın hazırkı nəticələr çərçivəsini tərtib edərkən ola bilsin ki, çox iddialı olub. UNCT mümkün dərəcədə resursların cəlb olunmasına fərdi yanaşmanın tətbiqindən uzaqlaşmalı, qüvvələri birləşdirərək əlavə dəyər yaratmaq üçün daha əlaqələndirilmiş yanaşmaya keçmək üçün imkanları araşdırmalıdır.

**Səmərəlilik**

UNAPF nəticələrinin həm hökumət, həm də BMT təşkilatlarının hər biri üçün əməliyyat xərclərinin azaldılması və ya təkrarlanmaların qarşısını almaq üçün əməkdaşlığın yaxşılaşdırılması baxımından ağlabatan dərəcədə aşağı xərclərlə əldə olunub-olunmadığını müəyyən etmək çətindir. Əməliyyatlar üzrə İdarəetmə Heyəti (ƏİH) UNAPF dövrünün qalan müddəti (2018-2020) ilə uzlaşan İşgüzar Əməliyyatlar Strategiyası hazırladı. Bu, çərçivənin proqramlaşdırma tərəfinin əməliyyatlar tərəfindən tam dəstəklənməsinə imkan verdi. UNCT diqqəti İşgüzar Əməliyyatların Uzlaşdırılmasının İdarə edilməsi, Vahid Satınalma, Vahid İnsan Resursları, Vahid Maliyyə və Vahid İKT prinsiplərinə yönəltməyə qərar verib. Əməliyyatlar üzrə İdarəetmə Heyəti hazırda diqqətini ofis məkanlarının təşkilinə yönəldir. Təşkilatlar tərəfindən fərqli platformaların istifadə edilməsi insan resursları, maliyyə, inzibati alət və əməliyyatların optimallaşdırılması baxımından çətinliklər yaradır. Bunların bəziləri UNCT-in nəzarəti xaricindədir.

**Proqramlaşdırma prinsipləri**

Proqramlaşdırma prinsiplərinə gəldikdə, "heç kəsi kənarda qoymamaq", insan hüquqları və gender bərabərliyi UNAPF üçün və BMT-nin Hökumətə milli inkişaf prioritetlərinə nail olunmasında və beynəlxalq öhdəliklərin yerinə yetirilməsində birgə dəstəyi üçün təməl prinsiplərdir. Bununla belə, çərçivə sənədində bu prinsiplərin hansı formada çoxsahəli xarakter daşıdığı barədə məlumat məhduddur. İnsan hüquqlarına əsaslanan yanaşma nəticələr çərçivəsində bəzi , xüsusilə müqavilə orqanlarına istinad edən nəticələrdə

əks olunub. UNAPF-ın nəticə və strategiyaları Azərbaycanın ratifikasiya olunmuş insan hüquqları sazişlərinin standart və prinsiplərinə əsaslanıb və ya ən azı nəzərə alıb. Lakin, İnsan hüquqlarına əsaslanan yanaşmalar UNAPF-ın icrasında aşağıdakı addımları vasitəsilə sistemli, davamlı və məqsədyönlü şəkildə əks etdirilməyib: 1) səbəb-nəticə təhlili 2) rol-model təhlili 3) potensialdakı boşluqların təhlili. Əhalinin həssas qruplarının kimlərdən ibarət olması, harada olması və ehtiyaclarını müəyyən etmək, BMT-nin necə töhfə verə biləcəyini dəqiqləşdirmək üçün kifayət qədər təhlili aparılmayıb.

Həmçinin, tərəfdaş hökumət qurumlarının həssas qrupların ehtiyacları və dezaqreqasiya olunmuş məlumatların vacibliyi ilə bağlı potensialı davamlı şəkildə gücləndirilməyib. UNAPF-ın İnsan hüquqları üzrə Tematik Qrupu və Gender üzrə Tematik Qrupu vasitəsilə insan hüquqları komitələrinə hesabatverməyə texniki dəstək göstərilsə də, əhalinin həssas qruplarına yönələn birgə dəstək tədbirləri vasitəsilə BMT-nin insan hüquqları məsələlərinə dair hökumətlə dialoqu gücləndirilə bilərdi.

UNAPF-ın tərtibində və icrasında gender bərabərliyi öz əksini tapır (spesifik məqsəd və hədəflər, cins üzrə dezaqreqasiya olunmuş məlumat və göstəricilər), lakin onun çoxsahəli xarakteri barədə UNAPF-da təqdim olunan məlumat məhduddur. Gender bərabərliyi Nəticələr Çərçivəsində əks olunur. Nəticə 2.1 bütünlüklə genderə həsr olunsa da, göstəricilərin nəticənin məqsədi ilə tam uzlaşdırılmadığı görünür. Gender bərabərliyi Nəticə 2.3-də də öz əksini tapır. Burada qadınlar və kişilər üzrə dezaqreqasiya olunmuş məlumatları ehtiva edən bir neçə göstərici yer alır. Bununla belə, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsini gələcək UNSDCF strategiyalarına və nəticə çərçivələrinə, həmçinin 2019-cu ilin iyun ayında dərc olunmuş UNSDCF Təlimatına uyğun şəkildə daha yaxşı inteqrasiya etmək üçün bir neçə üsul mövcuddur. BMT təşkilatları hər il bəzi proqramlaşdırma tədbirlərini birgə həyata keçirir: məsələn, əlillik (BMTİP və UNFPA) və ya reproduktiv sağlamlıqla bağlı siyasət (UNFPA və ÜST) sahəsində. Lakin Maliyyə vəsaitlərinin cəlb olunması və ikiqat inzibati xərclər, həmçinin təşkilatların spesifik prioritetləri ilə bağlı olaraq birgə layihələrin həyata keçirilməsi hər zaman mümkün olmur. Demək olar ki, hər bir BMT qurumu genderlə bağlı müəyyən layihə və ya fəaliyyətlər həyata keçirir; lakin birgə proqramlaşdırma məhduddur. Maliyyələşmə çətinlikləri ilə əlaqədar olaraq, BMT-nin Gender Qrupunun və BMT təşkilatlarının potensialının gücləndirilməsi və gender strategiyasının hazırlanması həyata keçirilmir. UNCT çərçivəsində gender aspektlərinin aktuallaşdırılması səviyyəsinin qiymətləndirilməsi məqsədilə aparılan Birgə Gender Təftişi də birbaşa UNAPF-la bağlı olan mühüm tövsiyələr irəli sürüb.

**Dayanıqlılıq**

Dayanıqlılığa gəldikdə, UNAPF çərçivəsində həyata keçirilən və milli tərəfdaşlar tərəfindən saxlanılan və ya hökumət tərəfindən davam etdirilən, təkrarlanan və ya genişləndirilən əməkdaşlıq layihələrinə dair çoxsaylı konkret nümunələr mövcuddur. UNAPF nəticələrin dayanıqlılığının artmasına töhfə verib, lakin dayanıqlılıqla bağlı qəti fikir söyləmək üçün UNAPF-ın ötən proqram müddəti baxımından hələ tezdir (üç il yarım).

Yerli QHT-lərlə əməkdaşlıq da əldə olunan nəticələrin dayanıqlılığına töhfə verib, çünki bəzən icma səviyyəsində yerli QHT-lər daha effektiv olub. Bununla belə, resursların, layihələrə sahibliyin, əməkdaşlığın və əlaqələndirmənin, sonrakı tədbirlərin olmaması, layihələrin mərhələlərlə yekunlaşdırılmaması və layihələrinin nəticələrinin milli proqram və ya siyasətə daxil edilməməsi və s. UNAPF-ın faydalarının müəyyən müddət sonra saxlanması potensialına mane olur.

## ÖYRƏNİLMİŞ DƏRSLƏR

UNAPF-dan **öyrənilmiş birinci dərs** ondan ibarətdir ki, bu cür bir çərçivədə nəticə və göstəricilərin nə qədər yüksək səviyyədə ola biləcəyinə dair məhdudiyyət mövcuddur. Onlar çox iddialı olarsa, onları milli strategiya sənədlərinə və yol xəritələrinə daxil etmək daha yaxşı olar, çünki BMT onlara nail olunmasına əhəmiyyətli dərəcədə töhfə verə bilməz. Məhsulların əldə olunması sırf ayrılmış büdcədən asılıdır - bu, dövlət büdcəsi və ya BMT təşkilatlarının xarici mənbələrdən cəlb etməyə çalışdığı vəsaitlər ola bilər. UNAPF-ın hökumət və ya UNCT-nin dəqiq müdaxilələrini proqnozlaşdırmadığını, əvəzində tərəfdaşlığın çərçivəsini müəyyən etdiyini nəzərə alaraq, müzakirələr adətən mövcud maliyyələşmə çərçivəsində və həyata keçirilməsi mümkün olan məhsullara yönəlir.

**İkinci dərs** ondan ibarətdir ki, digər hökumət qurumları ilə daha yüksək səviyyədə əlaqələndirmə səlahiyyətlərinə malik hökumət qurumu tərəfindən UNAPF-ın icrasının əlaqələndirilməsi onun icrasının effektivliyini artıra bilər.

**Üçüncü dərs** ondan ibarətdir ki, dayanıqlılığı təmin etmək, vəziyyəti və ehtiyacları müfəssəl təhlil etmək üçün layihələrin icrasına başlandığı andan  tərəflər arasında açıq müzakirələrin aparılması ehtiyacı hər zaman mövcuddur. Layihəyə ehtiyacın olması təsdiq ediləndən sonra, layihənin hökumət tərəfindən dövlət proqramı, siyasəti, tədbirlər planı və ya büdcəsi çərçivəsində yayılması və ya miqyasının genişləndirilməsi önəmlidir. Bu halda layihə milli planlaşdırma və büdcə tərtibatına daxil ediləcək və inkişaf proseslərinə sistemli və dayanıqlı töhfələr verəcəkdir.

**Dördüncü dərs** ondan ibarətdir ki, bir sıra qeyri-rezident təşkilatların layihələri UNAPF-ın nəticələrinə və milli prioritetlərə nail olunmasına töhfə verib.  BMT-nin Rezident Əlaqələndiricisi qeyri-rezident təşkilatları BMT-dəki digər təşkilatlarla və ya müvafiq hökumət qurumları ilə əlaqələndirməyə səy göstərsə də, UNCT müxtəlif qeyri-rezident təşkilatların təcrübəsini daha çox nəzərə almalı və hökumətin onların özünəməxsus təcrübələrindən tam faydalanmasına şərait yaratmalıdır.

**Beşinci dərs** ondan ibarətdir ki, müxtəlif maraqlı tərəflərə (məsələn, mümkün olduqda, vətəndaş cəmiyyəti təşkilatları və ya akademik dairələr ) mövcud əlaqələndirmə mexanizmlərində, o cümlədən UNAPF-ın İstiqamətləndirici Komitəsində və nəticə qruplarında iştirak etmək imkanının verilməsi nəticələrin birgə uyğunlaşdırılması, nəticələrin əldə olunmasında effektivliyin və səmərəliliyin artırılması, həmçinin beş nəticə üzrə və kəsişən sahələrdə monitorinq, hesabatvermə və planlaşdırma üçün vacibdir.

**Altıncı dərs** ondan ibarətdir ki, bir çox tərəfdaşlıqların agentlik  səviyyəsində olmasına baxmayaraq , UNAPF nəticə sahələri üzrə effektli tərəfdaşlıq və strateji ittifaqların yaxşılaşdırılmasına kömək edib. UNCT-nin dayanıqlı inkişaf naminə fəaliyyətinə dəstək üçün müxtəlif maraqlı tərəflərlə yeni tərəfdaşlıq münasibətləri formalaşdırılıb və köhnə tərəfdaşlıqlar gücləndirilib.  BMT icma səviyyəli tədbirlərə birbaşa dəstəyi sınaqdan keçirmək istəyirsə, qeyri-hökumət maraqlı tərəflərlə tərəfdaşlığı və strateji ittifaqları gücləndirməlidir.

## NƏTİCƏLƏR

Qiymətləndirmənin gəldiyi **birinci nəticə** ondan ibarətdir ki, UNAPF nəticələri beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları ilə bağlı öhdəliklər, norma və standartlar baxımından uyğundur və milli prioritetlər və strategiyalar, DİM-lərin milliləşdirilməsi və yeni milli qanun, siyasət və strategiyalarla uzlaşır. Çərçivə sənədinin hazırlanması zamanı həyata keçirilən və inkişaf problemlərini, onların təməlində dayanan səbəb və çətinliklərini daha inandırıcı məlumatlara əsaslanaraq həll etməyə kömək edən ölkə təhlili ilə yanaşı, ilkin vəziyyətin qiymətləndirməsi və ya digər tədqiqat növləri aparılmışdır. DİM-lərin icrasına BMT-nin müqayisəli üstünlüklərindən və yaratdığı əlavə dəyərdən tam istifadə edə bilən həmçinin birlikdə kompleks yanaşma sərgiləyə bilən və bütün səviyyələrdə birgə nəticələr əldə etmək üçün sahələrarası sinergiyalar yarada bilən bir inkişaf sistemi və hökumət fayda verə bilər.

**İkinci nəticə** ondan ibarətdir ki, UNAPF-ın Nəticələr Çərçivəsinin tərtibi BMT sisteminin ölkədə edə biləcəklərini daha yaxşı əks etdirə bilərdi. UNAPF Hökumətlə BMT arasında ortaq gələcəyə baxış və missiyanı müəyyən etmək üçün mühüm alətdir; lakin nəticələr və göstəricilər elə tərtib olunmalıdır ki, nəticələrin effektiv monitorinqinə və qiymətləndirilməsinə imkan versin və BMT-nin gördüyü dəstək tədbirləri (məhsullar) ilə əlaqəli olan nəticələri və BMT-nin töhfələrini (nəticələr) əks etdirsin. Bir sıra göstəricilər yuxarı səviyyəyə yönələn tərəfdaşlıq çərçivəsinin xüsusilə təşviqat və siyasət sənədlərinin hazırlanması ilə bağlı hədəflərin ölçülməsi və qiymətləndirilməsinin çətin olduğu yuxarı-orta gəlirli bir ölkədə belə, BMT üçün çox yüksək və həddindən artıq iddialıdır.

**Üçüncü nəticə** ondan ibarətdir ki, UNAPF ümumilikdə gözlənilən nəticə və məhsullara nailolma baxımından effektiv olub və milli prioritetlərə nailolmada, o cümlədən UNAPF-ın hər üç prioritet sahəsində - milli potensialların və qurumların gücləndirilməsi, dövlət siyasətlərinin formalaşdırılması və icrası, məlumatların toplanması və təhlilində müəyyən irəliləyiş əldə olunub. Ayrı-seçkiliyə məruz qalanlar və əlverişsiz vəziyyətdə olanlara prioritet qaydada diqqət yetirilib. Həmçinin Hökumətə kəsişən sahələrdə dəstəyin göstərilməsi, DİM-lərə nailolmanın sürətləndirilməsi, gənclərin və qadınların səlahiyyətləndirilməsi və insan hüquqları sahəsində irəliləyiş əldə olunub. Ümumilikdə, qiymətləndirmə belə nəticəyə gəlir ki, nəticə sahələri üzrə planlaşdırılan dəstək tədbirlərinin əksəriyyəti 2016-2018-ci illərdə icra olunub və ya 2019-2020-ci illərdə icra olunacaqdır.

**Dördüncü nəticə** ondan ibarətdir ki, UNAPF məlumatların mütəmadi bölüşülməsi vasitəsilə BMT təşkilatlarının proqramları arasında daha yaxşı sinergiyaların əldə olunmasına töhfə verib. Bu, bir sıra müştərək proqramlarla və müəyyən qədər birgə proqramlaşdırma ilə nəticələnib. UNAPF həmçinin nəticə qruplarında həmsədrlik və ya birlikdə Müştərək İş Planlarının hazırlanması və monitorinqi vasitəsilə təşkilatlararası əməkdaşlığı və iştirakı artırıb. BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) daxilində də yaxşı sinergiya mövcuddur. Belə ki, təşkilatlar mümkün dərəcədə bir-birinə dəstək göstərir. Lakin sinergiyalar daha da artırıla bilər və onların nazirliklərarası əməkdaşlığı tam əhatə etmədiyi görünür. Birgə proqramların hazırlanması və icrasında hələ də əməliyyat xarakterli çətinliklər qalır. Onların bir qismi UNCT tərəfindən ölkə səviyyəsində, digərləri isə təşkilatların baş qərargahları səviyyəsində həll oluna bilər.

**Beşinci nəticə** ondan ibarətdir ki, Nəticələr Çərçivəsinin yalnız nəticə (outcome) səviyyəsində hazırlandığını və məhsulları (output) göstərmədiyini nəzərə alsaq, məhsulların nəticələrə necə töhfə verdiyini anlamaq çətindir. Onlar yalnız MİP-lərdə qeyd olunur. Bununla yanaşı, UNAPF əldə olunacaq

məhsulların göstərilə biləcəyi Fəaliyyət Planı olmadan hazırlanıb. Nəticədə məhsullar Müştərək İş Planlarında müəyyən olunub. Bunun məsuliyyəti isə UNDAF üzrə 2010-cu il Təlimatının üzərinə düşmür. Çünki həmin təlimatlarda məhsulları ya nəticələrlə birlikdə Nəticələr Çərçivəsində, ya da UNDAF üzrə Fəaliyyət Planında yerləşdirmək tövsiyə olunurdu. Lakin 2017-ci il Təlimatı faydası daha az olan alətlərin hazırlanmasına gətirib çıxara bilərdi, monitorinq və qiymətləndirmə funksiyası isə MİP-lərdə məhsul səviyyəsinə enə bilərdi.

**Altıncı nəticə** isə məhsulların müəyyən olunmasında aydın meyarların olmamasıdır. Belə ki, MİP-lərdə fərqli məhsullar (o cümlədən ayrı-ayrı təşkilatlar üçün fərdi tədbirlər) əksini tapıb. Nəticədə, hazırkı Müştərək İş Planlarında 47 məhsul var. Bir neçə təşkilat üzrə bir neçə tədbiri qruplaşdırdıqdan sonra, yaxud bir neçə birləşdirilmiş məhsullar üzrə (məsələn, hər nəticə üzrə 3-4 məhsul), nəticələrin iyerarxiyasında ən yüksək səviyyədə nailiyyətləri monitorinq etmək və qiymətləndirmək xeyli asanlaşardı. Bu, UNAPF-ın daha strateji bir sənədə çevrilməsinə imkan verər və hesabatvermə proseslərini sadələşdirərdi.

**Yeddinci nəticə** ondan ibarətdir ki, BMT-nin, o cümlədən bəzi qeyri-rezident təşkilatların müqayisəli üstünlükləri və əlavə dəyəri UNAPF çərçivəsində milli tərəfdaşlar tərəfindən müxtəlif formalarda istifadə olunub.

**Səkkizinci nəticə** ondan ibarətdir ki, sabit siyasi mühit və hökumətlə BMT arasında yaxşı münasibətlərin olması UNAPF nəticələri istiqamətində irəliləyişə töhfə verib. Lakin dövlət orqanları arasında əlaqələndirmənin məhdudluğu UNAPF-ın icrasını məhdudlaşdıran amillərdən biri olub.

**Doqquzuncu nəticə** ondan ibarətdir ki, Hökumət BMT ilə gördüyü işi UNAPF-ın daha geniş çərçivəsində görülən iş hesab etməsə də və UNAPF-ın əhatə etdiyi məsələlər əsas tərəf müqabili kimi bir nazirliklə məhdudlaşmasa da, çoxsaylı nazirliklərin nəticə qruplarında və Monitorinq və Qiymətləndirmə Qrupunda iştirakı UNAPF sənədinə müəyyən dərəcədə birgə sahibliyi əks etdirir.

**Onuncu nəticə** ondan ibarətdir ki, UNAPF-ın İnsan hüquqları üzrə Tematik Qrupu və Gender üzrə Tematik Qrupu vasitəsilə insan hüquqları komitələrinə hesabatvermə ilə bağlı texniki dəstək göstərilsə də, BMT-nin insan hüquqları məsələlərinə dair hökumətlə dialoqu əhalinin həssas qruplarına yönələn birgə dəstək tədbirləri vasitəsilə gücləndirilə bilər.

**On birinci nəticə** ondan ibarətdir ki, UNAPF-ın tərtibində və icrasında gender bərabərliyi öz əksini tapır və demək olar ki, hər bir UNCT üzvü genderlə bağlı layihə və ya fəaliyyətlər həyata keçirir. Lakin ümumilikdə BMT təşkilatları arasında genderlə bağlı birgə proqramlaşdırma məhduddur. UNCT çərçivəsində gender aspektlərinin aktuallaşdırılması səviyyəsinin qiymətləndirilməsi məqsədilə aparılan Birgə Gender Təftişi də birbaşa UNAPF-la bağlı olan mühüm tövsiyələr irəli sürüb. Ehtiyacların olmasına baxmayaraq, maliyyələşmə çətinlikləri ilə əlaqədar olaraq, Gender üzrə Tematik Qrupun və BMT təşkilatlarının potensialının gücləndirilməsi və gender strategiyasının hazırlanması həyata keçirilmir. BMT İnkişaf Sisteminin islahatına uyğun olaraq, Rezident Əlaqələndiricinin Ofisi tərəfindən gender məsələləri üçün ayrıca büdcə ayrıla bilər. Növbəti UNSDCF sənədində gender əsaslı yanaşmaları daha yaxşı inteqrə etmək məqsədilə, UNCT-nin gender aspektlərinin aktuallaşdırılması və bu sahə üzrə təşkilatlar arasında əməkdaşlığın yaradılması ilə bağlı fəaliyyət nəticələrinə dair ilkin vəziyyət və hədəf məlumatları çeşidləyərkən, Gender üzrə Qiymət Cədvəli (Gender Scorecard) kimi beynəlxalq səviyyədə təsdiqlənmiş metodologiyadan istifadə edilə bilər.

# TÖVSİYƏLƏR

**1-ci tövsiyə:** UNCT və Hökumət DİM-lər Kontekstində ortaq gələcəyə baxış və missiyanı müəyyən etmək üçün və yeni təlimata və BMT İnkişaf Sistemində aparılan islahata dair gələcəyə baxışa uyğun olaraq, növbəti UNSDCF-in faydalılığını və tərtibatını yaxşılaşdırmalıdır.

**2-ci tövsiyə:** Hökumət növbəti əməkdaşlıq çərçivəsinə sahibliyini və əlaqələndirməni gücləndirməlidir.

**3-cü tövsiyə:** BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) UNAPF-ın effektivliyini artırmaq məqsədilə müxtəlif maraqlı tərəflərlə nəticə sahələri üzrə effektiv tərəfdaşlıqlar və strateji ittifaqları yaxşılaşdırmalıdır.

**4-cü tövsiyə:** UNCT və Hökumət QHT-lərin və vətəndaş cəmiyyəti təşkilatlarının növbəti əməkdaşlıq çərçivəsi sənədində daha strateji səviyyədə iştirakını stimullaşdırmalıdır.

**5-ci tövsiyə:** UNCT-yə birgə proqramlaşdırmanı gücləndirmək və ünvanlı birgə proqramları icra etmək tövsiyə olunur.

**6-cı tövsiyə:** UNCT və Hökumət nəticə qrupları və tematik qruplar vasitəsilə əməkdaşlığını artırmalı, onlardan istifadə edərək UNAPF-ı strateji şəkildə idarə etməlidir.

**7-ci tövsiyə:** UNCT və Hökumət UNAPF-ın və növbəti UNSDCF-in monitorinqini və idarəetməsini strateji şəkildə həyata keçirmək üçün effektiv nəticə əsaslı idarəetmə və Monitorinq və Qiymətləndirmə sistemlərindən istifadəni gücləndirməlidir.

**8-ci tövsiyə:** UNCT, Dövlət Statistika Komitəsi və hökumət qurumları DİM-lərin və növbəti əməkdaşlıq çərçivəsinin icrasında əldə olunan irəliləyişin ölçülməsində məlumatların toplanması və təhlilinin əhəmiyyətini nəzərə alaraq, bu sahədə milli potensialın yaxşılaşdırılması məqsədilə birgə əməkdaşlığı gücləndirməlidir.

**9-cu tövsiyə:** UNCT 2019-cu ilin iyun ayında dərc edilən təlimatda tövsiyə olunan UNSDCF-in "Heç kəsi kənarda qoymamaq" və "İnsan Hüquqlarına Əsaslanan Yanaşma" rəhbər prinsiplərinin daha çox aktuallaşdırılmasını təmin etməlidir.

**10-cu tövsiyə:** UNCT 2019-cu ilin iyun ayında dərc edilən təlimatda tövsiyə olunan UNSDCF-in "Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi" rəhbər prinsipinin daha çox aktuallaşdırılmasını təmin etməlidir.

**11-ci tövsiyə:** UNCT əlaqələndirilmiş nəticələrə nail olmaq, bərabərliyə yönələn və yuxarı və aşağı səviyyələrə istiqamətlənən əlaqəlilikləri gücləndirmək, , kompleks və bir-birinə yaxın müdaxilə modelləri hazırlamaq və test etmək üçün kompleks yanaşma qəbul etməli və sahələrarası əməkdaşlıqlar yaratmalıdır.
**12-ci tövsiyə:** UNCT qeyri-rezident təşkilatların Vahid Ölkə Qiymətləndirməsi/Təhlili, UNAPF və UNSDCF proseslərində iştirakı və cəlb olunması üçün daha inklüziv və münbit mühit yaratmalıdır.

# I. GİRİŞ

Bu hesabatda 2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədinin qiymətləndirilməsinin nəticələri təqdim olunur. Hesabat UNAPF üzrə Qiymətləndirməyə dair Texniki Tapşırığa əsaslanır. (**Əlavə 1: UNAPF üzrə Qiymətləndirməyə dair Texniki Tapşırıq)**

UNAPF BMT-nin milli inkişaf gündəliyinə töhfə verdiyi üç əsas nəticə sahəsinə köklənir.

| |
|---|
| **1-ci prioritet sahə: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi** |
| **2-ci prioritet sahə: İnstitusional potensialın gücləndirilməsi və effektiv dövlət  və sosial xidmətlər** |
| **3-cü prioritet sahə: Ətraf mühit sahəsində idarəçiliyin təkmilləşdirilməsi, həmçinin təbii və insan fəaliyyəti nəticəsində baş verənfəlakətlərə qarşı dayanıqlılığın artırılması** |

Beləliklə, bu qiymətləndirmə növbəti Dayanıqlı Inkişaf üzrə növbəti BMT Əməkdaşlıq Çərçivəsi (UNSDCF) sənədinin hazırlanmasında analitik alət kimi istifadə edilən təməl elementlərdən biri hesab edilir. Növbəti UNSDCF sənədi BMT-nin İnkişaf Qrupunun yeni qaydalarına uyğun olaraq hazırlanacaq. Bu qiymətləndirmə DİM-lər çərçivəsində müəyyən hədəflərə daha inteqrasiyalı şəkildə və milli inkişaf prioritetləri və 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi çərçivəsində nail olunması baxımından növbəti UNSDCF sənədinin daha praqmatik ola bilməsi üçün yolları göstərir.

2016-cı ilin iyun ayından 2019-cu ilin iyun  ayına qədərki dövrü əhatə edən qiymətləndirmədə UNAPF aşağıdakı xüsusiyyətlər üzrə qiymətləndirilir: a) uyğunluq, strateji mövqe və tərtibat; b) effektivlik; c) səmərəlilik; d) dayanıqlılıq; e) beş proqramlaşdırma prinsipi; və f) əlaqələndirmə.

Qiymətləndirmə Azərbaycandakı BMT İnkişaf Sisteminə
inkişaf dəyişikliklərinə verdiyi töhfələri və gözlənilən UNAPF nəticələrini əsas götürərək, hər hansı bir müşahidə olunan nəticələrə və / və ya dəyişikliyə səbəb ola biləcək xüsusi tədbirləri müəyyənləşdirmək imkanı yaratdı.

Qiymətləndirmə BMT-nin Ölkə üzrə İdarə Heyəti və Azərbaycan hökumətini təmsil edən tərəf müqabilinin (İqtisadiyyat Nazirliyi) dəstəyilə, BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi (UNRCO) tərəfindən sifariş edilmiş, beynəlxalq məsləhətçi (c-b Kristian Privat) və milli məsləhətçidən (c-b Rəhim Saatov) ibarət qiymətləndirmə qrupu tərəfindən aparılmışdır (bax: **Əlavə 7: Məsləhətçilərin tərcümeyi-halı).**

BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) BMT-nin İnkişaf Qrupunun (UNDG) BMT-nin İnkişafa Yardım üzrə Çərçivə Sənədlərinə dair təlimatlarına əsasən qiymətləndirilib. UNAPF sənədində UNAPF dövrünün sonuncu ilində yekun qiymətləndirmənin aparılması nəzərdə tutulur. Bu qiymətləndirmədə milli inkişaf prioritetlərinə və məqsədlərə verilən töhfələr, UNAPF Nəticələrinin uyğunluğu, nəticələrə nail olmada effektivlik və səmərəlilik, nəticələrin dayanıqlılığı qiymətləndiriləcəkdir. Milli təşkilati və insan potensiallarının gücləndirilməsinə BMT sisteminin töhfə vermə qabiliyyətinə ayrıca diqqət yeti Qiymətləndirmə növbəti Çərçivə sənədi və ondan irəli gələrək ayrı-ayrı təşkilatların Ölkə üzrə Proqramlarının və layihələrinin hazırlanması üçün məlumat mənbəyi kimi çıxış etmək məqsədini daşıyır.

Bu hesabat BMT-nin Qiymətləndirmə Qrupunun (UNEG) təmin etdiyi rəhbər qaydalar əsasında milli məsləhətçinin dəstəyilə beynəlxalq məsləhətçi tərəfindən hazırlanmışdır.[1] Burada ölkə konteksti, BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (2016-2020) sənədinin təsviri, qiymətləndirmənin konteksti, qiymətləndirmənin ümumi məqsədi, xüsusi məqsədlər və əhatə dairəsi, eləcə də qiymətləndirmə yanaşması və metodologiyası təsvir olunub.  Sənədin çoxsaylı əlavələrində təqdim olunan əlavə məlumat və alətlər qiymətləndirmə zamanı istifadə olunub.

# II. ÖLKƏ KONTEKSTİ

Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra nəzərəçarpan səviyyədə iqtisadi inkişafa nail olmuş, yuxarı orta gəlirli ölkələr sırasına daxil olmuşdur. Ölkə son 20 il ərzində enerji ehtiyatları sayəsində yüksəlişə nail olmuş, bu illər ərzində dünyanın ən sürətlə artan  iqtisadiyyatlarından birinə malik olmuş və regional müstəvidə öz mövqeyini getdikcə möhkəmləndirmişdir.  İqtisadi artım neft-qaz ehtiyatlarının axtarışı, yüksək səviyyədə dövlət xərcləri və bazar iqtisadiyyatının dəstəklənməsinə yönələn islahatlar sayəsində mümkün olmuşdur.

Azərbaycan yuxarı orta gəlirli ölkə statusuna malikdir. 2004-2013-cü illərdə ÜDM-in orta artım tempi 12.4% olmuş, Hökumətin məqsədyönlü səyləri nəticəsində qeyri-neft payı getdikcə artmışdır. Bununla belə, iqtisadi artımın neft sektorundakı artımdan asılılığı hələ də yüksək səviyyədə qalır. Neft qiymətlərinin qeyri-sabitliyi ölkənin məruz qaldığı çoxsaylı xarici faktorlardan biridir və bu da uzunmüddətli perspektivdə daha dayanıqlı və inklüziv artıma nail olmaq üçün əsaslı sistem dəyişikliklərinin vacibliyini bir daha təsdiq edir.[2] Hökumət tərəfindən hazırlanmış strateji sənəd olan "Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyasına[3] uyğun olaraq, diqqət ÜDM-in ikiqat artırılmasına və Dünya Bankının adambaşına düşən ümumi milli məhsula əsaslanan təsnifatına əsasən Azərbaycanın yuxarı orta gəlirli ölkələr arasındakı mövqeyinin gücləndirilməsinə yönəldilib. Bu cür kontekstual elementlər UNAPF-ın 1-ci prioritet sahəsində (Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi) əhatə olunub.

UNAPF Azərbaycan Respublikasının yüksək ümumi insan inkişafı (HDI) kontekstində hazırlanıb. HDI indeksi 0.747 olan Azərbaycan (əhalisi 9.6 milyon nəfərdən yuxarı)[4] 2014-cü ilin Qlobal İnsan İnkişafı Hesabatında[5] 187 ölkə arasında 76-cı olub. Gözlənilən ömür uzunluğu 1980-2012-ci illər arasında 6 il artıb və eyni müddət ərzində təhsil illəri 0.4 il artaraq 11.7 ilə çatıb. Təhsil və səhiyyə infrastrukturunun

---

[1] UNEG-in əsas təlimatlarına aşağıdakılar daxildir: "UNDAF üzrə qiymətləndirmələr üçün tez-tez verilən suallar", UNEG, 2010; "Qiymətləndirmə üzrə texniki tapşırıq və ilkin hesabatlar üçün keyfiyyətə dair yoxlama siyahısı", UNEG, 2010; "Qiymətləndirmə hesabatları üçün keyfiyyətə dair yoxlama siyahısı", UNEG, 2010; "UNEG-in UNDAF qiymətləndirmələri üçün texniki tapşırıqların hazırlanmasına dair təlimatı", 2012, və "İnsan hüquqları və gender bərabərliyinin qiymətləndirməyə inteqrasiya edilməsi", UNEG Təlimatı, 2014

[2] "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək", Missiya Hesabatı, Azərbaycan, 2017

[3] Bax: https://www.undp.org/content/dam/azerbaijan/docs/sustain_development/AZ_Vision2020_government_draft_en.pdf.

[4] Dövlət Statistika Komitəsinin məlumatları, 2015.

[5] İİH 2014, s. 161, bax: http://hdr.undp.org/sites/default/files/hdr14-report-en-1.pdf.

yaxşılaşdırılmasına önəmli investisiyalar edilib. Minilliyin İnkişaf Məqsədləri (MİM) istiqamətində irəliləyiş əsas etibarilə müsbət olub. [6]

Azərbaycan xidmətlərin “bir pəncərə” prinsipi əsasında təqdim edilməsi üçün “ASAN Xidmət” (Azerbaijan Service and Assessment Network - Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) modelini yaratmış və uğurla tətbiq etməyə davam etməkdədir. Bu model bürokratiyanı, gözləmə vaxtlarını və səlahiyyətlərdən şəxsi mənafe üçün istifadə imkanlarını kəskin dərəcədə azaltmışdır. Məşğulluq, əmək və sosial müdafiə sahəsində idarəçiliyi təkmilləşdirmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) adlı daha bir publik hüquqi şəxs və Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriya yaradılıb. Bu kontekstual elementlər UNAPF-ın 2-ci prioritet sahəsində (İnstitusional potensialın gücləndirilməsi və effektiv dövlət və sosial xidmətlər) əhatə olunub. Son illər ərzində Azərbaycanda İKT-nin inkişafı və informasiya cəmiyyətinə keçidin sürətləndirilməsi ilə bağlı dövlət tərəfindən mühüm işlər həyata keçirilmişdir. Hal-hazırda ölkə əhalisinin 80%-i, ev təsərrüfatlarının isə 78.2%-i internet istifadəçisidir. Dünya İqtisadi Forumunun 2019-cu ilin "Qlobal Rəqabətlilik Hesabatı"nda Azərbaycan hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına görə dünyanın 141 ölkəsi arasında 43-cü yerdə qərarlaşmışdır və bu göstəriciyə görə Azərbaycan dünyanın orta göstəricisini 1,5 dəfə üstələyir. Hazırda ölkədə kişilərin 84%-i, qadınların isə 76%-i internetdən istifadə edir.

Azərbaycan istixana effekti yaradan qazların emissiyasına əhəmiyyətli dərəcədə töhfə verməsə də, ölkənin iqtisadiyyatının karbohidrogenlərin hasilatından asılılığını nəzərə alaraq, Hökumət iqtisadi inkişafın mənfi ekoloji təsirlərini azaltmaq (xüsusilə də istixana effekti yaradan qazların emissiyasının 75.9%-nə cavabdeh olan enerji sektorunda) üçün yeni istiqamətlər müəyyən etməlidir. Azərbaycan Paris Sazişi çərçivəsində 2030-cu ilədək istixana effekti yaradan qazların emissiyalarını 35% azaltmağı öhdəsinə götürüb. Digər tərəfdən, Azərbaycanın şirin su ehtiyatlarının məhdudluğu və Xəzər dənizinin sahilində yerləşməsi ilə əlaqədar olaraq iqlim dəyişmələrinə həssaslığı yüksək dərəcədədir [7] və bu baxımdan mübarizə mexanizmlərini və uyğunlaşma imkanlarını gücləndirməlidir. Azərbaycan BMT-nin ətraf mühitin mühafizəsi ilə bağlı bütün əsas konvensiyalarına, o cümlədən iqlim dəyişmələri, biomüxtəliflik və torpaqların deqradasiyası ilə bağlı konvensiyalara qoşulub. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını 1995-ci ildə qəbul edib və 2017-ci ilin yanvar ayında Paris Sazişini ratifikasiya edib. Bu kontekstual elementlər UNAPF-ın 3-cü prioritet sahəsində əhatə olunub (Ətraf mühit sahəsində idarəçiliyin təkmilləşdirilməsi, həmçinin təbii və insan fəaliyyəti nəticəsində baş verənfəlakətlərə qarşı dayanıqlılığın artırılması).

Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində Azərbaycanın Dağlıq Qarabağ regionunda və onun ətrafında silahlı münaqişə nəticəsində əhalinin kütləvi yerdəyişməsinə məruz qaldı. Nəticədə təqribən bir milyon nəfərdən artıq insan öz evlərini tərk edərək qaçqın və ya məcburi köçkünə çevrildi. Bununla belə, 1998-ci ildə qəbul edilmiş “Vətəndaşlıq haqqında” qanuna uyğun olaraq Ermənistandan qaçqın düşən əhali (həmçinin Mərkəzi Asiyadan Məhsəti türkləri) naturalizasiya qaydasında vətəndaşlara çevrildilər və Azərbaycanda sosial, mədəni və siyasi hüquqlardan tam istifadə edirlər. Dövlət statistikasına əsasən, 20 ildən artıq bir müddət keçməsinə baxmayaraq, Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafındakı işğal olunmuş 7 rayondan olan 620 min nəfər (31 dekabr 2018-ci il tarixinə olan məlumat) məcburi köçkün

[6] 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi, s. 15.
[7] Azərbaycanın İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına İkinci Milli Məlumatı

olaraq qalır. 1994-cü ildə bağlanmış kövrək atəşkəsə baxmayaraq, yerdəyişmə ölkə üçün əsas çətinliklərdən biri olaraq qalır. İki tərəf arasında siyasi həll yolu tapılmayıb[8].

Ev təsərrüfatlarının nəzərəçarpan hissəsinin yoxsulluq vəziyyətindən çıxdığını, lakin orta sinif sıralarına çata bilmədiyini nəzərə alaraq, Azərbaycan "orta gəlir tələsi"nə düşməmək və tərəqqinin saxlanmasında çətinliklərlə üzləşir[9]. Azərbaycanın yüksələn İnsan İnkişafı İndeksi ölkənin yüksək insan inkişafı kateqoriyasına daxil olmasına imkan versə də, bərabərsizliyi nəzərdə aldıqda, ölkənin reytinqi 10% aşağı düşür.

Ölkədə demoqrafik vəziyyətlə bağlı aparılmış ən son tədqiqatdan əldə olunmuş nəticələr gender bərabərliyi ilə bağlı bir sıra mühüm sahələrdə irəliləyişin əldə olunduğunu göstərir. Bu sahələrə kişi və qadınların gözlənilən ömür uzunluğunun artması və qadınlar arasında savadlılıq səviyyəsinin yüksəlməsi daxildir. Tədqiqat həmçinin onu göstərir ki, hazırda qadınların daha yuxarı yaşda nikaha daxil olmaq ehtimalı daha yüksəkdir, onlar daha az uşağa sahibdir, şəhər və ya kənd yerlərində yaşama imkanları demək olar ki bərabərdir, ev təsərrüfatından kənarda gəlir gətirən fəaliyyətlərlə daha çox məşğul olurlar.[10] Bununla belə, mövcud normativ çərçivələr, bir sıra fərdi, institusional və struktur yönümlü maneələr gender bərabərliyi sahəsində islahatların səmərəliliyinə və dayanıqlılığına kəskin mənfi təsir göstərir. Bundan əlavə, səmərəli icra və hesabatlılıq mexanizmlərinin olmaması yuxarıda qeyd olunan öhdəliklərin effektivliyinə mənfi təsirlər göstərməyə davam edir.

Azərbaycanın əmək bazarı hələ də tələb və təklif arasında uyğunsuzluq, məşğulluğun yetərli səviyyədə olmaması, gənclər arasında işsizliyin yüksək səviyyədə olması, kövrək və qeyri-rəsmi məşğulluq,əmək bazarında regional bərabərsizliklər kimi struktur xarakterli çətinliklərlə səciyyələnir. Azərbaycanda əhalinin yaş tərkibində gənclərin üstünlük təşkil etməsi səbəbindən gənclər ölkənin bir çox yerlərində işsizlərin əksəriyyətini təşkil edir.[11] Hazırda Azərbaycanda ümumi işsizlik səviyyəsi 4.9%-dir. Bu göstərici 15-29 yaşlı gənclər arasında 9%-dir[12]. Minimum əmək haqqında 93% artım olub. Minimum pensiyada 72% artım olub və bu, 600 000 şəxsi əhatə edib. 300 000 nəfər əlilliyi olan şəxs üçün müavinətlər və təqaüdlər orta hesabla 100% artıb. 500 000 nəfərə yaxın məcburi köçkünün müavinət və təqaüdləri 50% artıb. 2018-ci ildən bəri sosial müdafiə sahəsində rəqəmsal texnologiyaların və innovasiyaların geniş tətbiqi və Prezidentin 2019-cu ilin əvvəllərindən bəri imzaladığı müvafiq sərəncamlarına uyğun olaraq iki sosial təminat paketinin icrası əsasında aparılan kompleks islahatlarla bağlı olaraq, bu dəyişikliklər 4.2 milyon nəfərin gəlirlərinin artmasına önəmli dəstək göstərib[13].

Azərbaycan Hökuməti qarşıdakı çətinlikləri və onların həllində vahid yanaşmaların zəruriliyini aydın şəkildə başa düşür. O, hökumət strukturunda islahatlara başlamış və riskləri yumşaltmaq üçün bəzi tədbirlər görmüş və bununla maliyyə sektorunda islahatlara start verilmiş və əsas diqqəti sahibkarlığın təşviqinə və qeyri-neft sektorunun dayanıqlı artımına (xüsusən, ünvanlı dövlət dəstəyi ilə təmin olunan kənd təsərrüfatı, turizm və texnologiyalar sektorlarında) və ixracat yönümlü artıma yönəltmişdir. Hökumət

[8] 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi, s.13

[9] BMT-nin Azərbaycanda 2030-cu il Gündəliyinin icrasına dəstəyi, "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək", İyun 2018

[10] "Əhalinin vəziyyətinin təhlili: Azərbaycanda demoqrafik keçiddən ötəri". UNFPA/BMTİP, Bakı, Azərbaycan, 2015

[11] MAPS hesabatı

[12] Dövlət Statistika Komitəsi, 2019

[13] Məlumat Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim olunub.

əhalinin həssas qruplarının ümumi həyat şəraitini yaxşılaşdırmaq üçün nəzərəçarpan səylər göstərməyə davam edir və qaçqınların və məcburi köçkünlərin müdafiəsi və onlara yardım göstərilməsi ilə bağlı məsuliyyəti tam şəkildə üzərinə götürür. Buna baxmayaraq, digər ölkələrdən olan qaçqınların və sığınacaq axtaran şəxslərin böyük əksəriyyəti etibarlı hüquqi statusa malik deyil. Onlar pulsuz ibtidai və orta təhsil və ilkin səhiyyə xidmətindən yararlansalar da, qanunla verilən layiqli məşğulluq hüququna malik deyil və maliyyə yardımına və ixtisaslaşmış tibbi yardıma ehtiyac duyurlar. Bundan əlavə, aydın hüquqi statuslarının olmaması onların bütün sosial müavinətlərə, məsələn, yoxsulluq müavinətinə, yaşlılıq və əlillik təqaüdlərindən yararlanmalarını əngəlləyir. 2012-ci ildə qəbul edilmiş "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası orta və uzunmüddətli strateji milli hədəfləri bir araya gətirərək, bir sıra sektorlar üzrə milli strategiyalar və Strateji Yol Xəritələri üçün, habelə beynəlxalq inkişaf təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi üçün ümumi çərçivə yaratmışdır.

UNAPF sənədində Azərbaycandakı əsas inkişaf çağırışlarını təsvir edən cədvəl təqdim olunur. Buraya aşağıdakılar daxildir: iqtisadi, sosial-mədəni, təşkilati və idarəçilik, ətraf mühit və coğrafi səbəblər. Bu, UNAPF konteksti barədə əlavə təsəvvür yaradır.

# III. 2016-2020-Cİ İLLƏR ÜÇÜN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI-AZƏRBAYCAN TƏRƏFDAŞLIQ ÇƏRÇİVƏSİ (UNAPF) SƏNƏDİ

İnklüziv və birgə iştiraka əsaslan proseslər çərçivəsində hazırlanmış 2016-2020-ci illər üzrə UNAPF "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında əksini tapan milli məqsəd və prioritetlərlə uzlaşır. UNAPF hazırlanarkən BMT-nin Azərbaycandakı rolunun inkişafa yardımın təmin edilməsindən tərəfdaşlığa doğru təkamül etdiyi nəzərə alınmışdır.

Hazırkı tərəfdaşlıq çərçivəsi **üç strateji prioritet sahəyə** yönəlir: 1) Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi; 2) İnstitusional potensialın gücləndirilməsi, səmərəli dövlət və sosial xidmətlər 3) Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, həmçinin təbii və insan fəaliyyəti nəticəsində baş verən fəlakətlərə qarşı dayanıqlılığın artırılması. Bu prioritetlər çərçivəsində insan hüquqlarına əsaslanan yanaşma, gender bərabərliyi, gənclər, monitorinq və qiymətləndirmə üçün spesifik potensialın gücləndirilməsi (institusional, texniki, idarəetmə) və ümumi dəlillər bazasının təkmilləşdirilməsi kimi bir-biri ilə kəsişən məsələlər mövcuddur. Bu üç strateji prioritet sahə çərçivəsindəki dəstək tədbirlərinə aşağıdakılar daxildir, lakin bunlarla məhdudlaşmır:

- Birinci prioritet strateji sahə çərçivəsində BMT təşkilatları aşağıdakı istiqamətlərdə tədbirlərin icra edilməsində Azərbaycan Hökumətinə dəstək göstərir: gənclər, qadınlar, qaçqınlar və vətəndaşlığı olmayan şəxslər üçün məşğulluq imkanlarının və layiqli iş yerlərinin artırılması; sahibkarlığın və kiçik bizneslərin təşviqi; qeyri-neft sektoru üçün işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və təhsili; kənd təsərrüfatının və kənd yerlərinin inkişafına dəstək göstərilməsi və ərazilərin minalardan təmizlənməsi.

- İkinci strateji prioritet sahə aşağıdakı sahələrə köklənir: milli maraqlı tərəflərin əhalinin dinamikası, qadınlar, gənclər və həssas qruplara xüsusi diqqət yetirməklə sübutlara əsaslanan ədalətli dövlət siyasətlərinin, proqramlarının və büdcələrinin hazırlanması və həyata keçirilməsi,

əhalinin həssas qruplarının vəziyyətini beynəlxalq tövsiyələrə uyğun olaraq müstəqil şəkildə müşahidə etmək və hesabat vermək və onların vəziyyətini beynəlxalq standartlara və dövlətin beynəlxalq öhdəliklərinə uyğunlaşdırmaq potensialının gücləndirilməsi. Bu prioritet sahə həmçinin əhalinin həssas qruplarının milli müdafiə sistemlərinə çıxışının yaxşılaşdırılması və onların öz hüquqları barədə və pozuntuların səmərəli şəkildə aradan qaldırılması yolları barədə maarifləndirilməsi, müdafiə, təhsil, səhiyyə və qidalanma xidmətlərinin yüksək keyfiyyətli və hər kəs üçün, xüsusilə ən həssas qruplar, qaçqınlar, məcburi köçkünlər, vətəndaşlığı olmayan şəxslər və insan alveri qurbanları üçün əlçatan olmasının təmin edilməsinə yönəlir. Mərkəzi milli strategiya və siyasətlər Azərbaycanın inkişafla bağlı nailiyyətlərini qoruyub saxlamaq üçün həm mərkəzi, həm də yerli səviyyələrdə institusional dövlət xidməti potensialının səmərəliliyinin təmin olunması zərurətini göstərir. . Son illərdə daha səmərəli və məsuliyyətli idarəçiliyin möhkəmləndirilməsi və hüquq gündəliyində irəliləyiş qeydə alınsa da, hökumət və BMT-nin İnkişaf Sistemi səmərəli və məsuliyyətli dövlət və ictimai xidmətlərin vacibliyini təsdiq edir. BMT daha effektiv inkişaf siyasətləri, qərarların qəbulu və xidmətlərin təchizi üçün vəzifə və öhdəliklərin aydınlaşdırıldığı tərəfdaşlıqların qurulmasına səy göstərir. İnstitusional potensialın gücləndirilməsi yolu ilə, BMT sosial birliyə kömək etməyə səy göstərəcək, bunun hökumət və əhali arasında baş tutmasını təmin etməyə yönələn səylərə dəstək göstərəcək. Hüquq əsaslı yanaşmalara hörmət edən gücləndirilmiş yerli idarəçilik sistemləri qərarların qəbulu proseslərində yerli iştirakı gücləndirə bilər.

- Üçüncü strateji prioritet sahə aşağıdakı sahələrə köklənir: istixana effekti yaradan qazların emissiyası üzrə monitorinq, təhlil və hesabatvermənin yaxşılaşdırılması üçün qurumların və mexanizmlərin gücləndirilməsi; enerji sahəsində istixana effekti yaradan qazların emissiyasını azaltmaq üçün iqlim dəyişikliyinin yumşaldılmasına yönələn tədbirlərin və ekoloji təhlükəsiz təcrübələrin təşviqi; sahilyanı və dəniz ekosistemlərinin daha yaxşı planlaşdırılması, idarə edilməsi və dayanıqlılığının təmin edilməsi; torpaq və meşə resurslarını qorumaq və onlardan dayanıqlı şəkildə istifadə etmək üçün siyasətlərin işlənib hazırlanması və təşkilatlara və yerli fermerlərə dəstəyin göstərilməsi; idxal və ixrac olunan məhsullara xüsusi diqqət yetirməklə, bitkilərin diaqnostikası və təftişi sahəsində potensialların gücləndirilməsi və ictimai səhiyyə sahəsində proqramların hazırlanması və icrası üzrə potensialların gücləndirilməsi.

2016-2020-ci illər üzrə UNAPF-ın nəticələr çərçivəsində **5 nəticə** müəyyən olunub. Bu nəticələr müştərək iş planları (MİP) vasitəsilə fəaliyyətə daxil edilib. Bunlar aşağıdakılardır:

1-ci strateji prioritet sahə:

- Nəticə 1.1: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmənin dərinləşməsi, dayanıqlı artım səviyyəsinin yüksəlməsi və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerlərinin yaradılması.

2-ci strateji prioritet sahə:

- Nəticə 2.1: 2020-ci ilədək Azərbaycanın şəffaf,sübutlara əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması
- Nəticə 2.2: 2020-ci ilədək Azərbaycanda beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olma, beynəlxalq standartlara uyğun icra, monitorinq və hesabat vermə üçün potensialın gücləndirilməsi
- Nəticə 2.3: 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək göstərilməsi

3-cü strateji prioritet sahə:

- Nəticə 3.1: 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi

UNAPF-ın hazırlandığı dövrdə 2010-cu il Təlimatı spesifik "Dəyişiklik nəzəriyyəsi"nin hazırlanmasını tələb etmirdi. Lakin UNAPF sənədində hər bir strateji prioritet sahəsinə cavabdeh olan BMT təşkilatları tərəfindən hər bir nəticə üçün müvafiq dəyişiklik nəzəriyyəsinin hazırlanacağı qeyd olunsa da, bu baş vermədi. Müştərək iş planları (MİP-lər) BMT-nin təşkilatları və icraçı tərəfdaşlar arasında resurslardan istifadə üzrə razılaşma formalaşdırır. . Bu sənədlərdə təhvil veriləcək dəqiq məhsullar, cavabdeh tərəflər, habelə dəqiq xərclər və mövcud resurslar müəyyən olunur. MİP-lərin hazırlanması, icrası, monitorinqi və qiymətləndirilməsi üç Nəticə Qrupu tərəfindən əlaqələndirilir. Bu qruplara Hökumət və BMT nümayəndələri həmsədrlik edir. Əldə olunmuş irəliləyişi və fəaliyyət göstəricilərini vaxtında ölçməyə və icra prosesinə düzəlişlər etməyə imkan verən Müştərək İllik İcmallar həyata keçirilir. UNAPF-ın icrası ilə bağlı illik icra hesabatları hazırlanır.

İdarəçilik strukturlarına gəldikdə, yüksək səviyyəli hökumət nümayəndələri, BMT İnkişaf Sisteminin və əsas inkişaf tərəfdaşlarının nümayəndələrindən ibarət olan yüksək səviyyəli İstiqamətləndirici Komitə UNAPF-ın icrasına strateji istiqamət verir və nəzarəti həyata keçirir. İstiqamətləndirici Komitəyə İqtisadiyyat naziri və BMT-nin Rezident Əlaqələndiricisi həmsədrlik edir.

BMT-nin müxtəlif təşkilatlarının Azərbaycana akkreditə olunmuş nümayəndələrindən ibarət Ölkə üzrə İdarə Heyəti Rezident Əlaqələndiricinin rəhbərliyi altında BMT İnkişaf Sisteminin ölkədəki inkişaf tədbirlərin səmərəliliyinə cavabdehdir.

Bundan əlavə, BMT-nin Gender üzrə Tematik Qrupu, İnsan Hüquqları üzrə Tematik Qrupu, Kommunikasiya Qrupu və Əməliyyatlar üzrə İdarəetmə Heyəti UNAPF-ın icrasına, habelə birgə siyasətlərin hazırlanmasına və normativ fəaliyyətlərə töhfə verir. Monitorinq və Qiymətləndirmə üzrə Birgə İşçi Qrup UNAPF-da nəzərdə tutulan nəticələrlə bağlı monitorinq, qiymətləndirmə və hesabatvermə üçün əsaslı və effektli monitorinq və qiymətləndirmə sisteminə nail olmaq məqsədilə üç nəticə qrupuna texniki yardım göstərir.

BMT-nin Ölkə üzrə İdarə Heyəti birgə əməkdaşlıq səyləri sayəsində UNAPF-ın (2016-2020) icrasında nəzərəçarpan irəliləyiş əldə edib. Bu, illik icra hesabatlarında və Rezident Əlaqələndiricinin illik hesabatlarında öz əksini tapır.

2018-ci ilin ikinci yarısında UNCT Hökumətlə tərəfdaşlıq çərçivəsində iki tədbir vasitəsilə UNAPF-ın icrasının aralıq icmalını həyata keçirib: 1) UNAPF-ın Sürətli Kompleks Qiymətləndirməsi (SKQ) qlobal DİM hədəflərinə əsasən aparılıb və 59% səviyyəsində uzlaşma olduğunu göstərib; 2) UNAPF-ın Nəticələr və Resurslar Çərçivəsinə baxış keçirilib, təklif olunan dəyişikliklər müzakirə edilib və Hökumətlə razılaşdırılıb.

# IV. QIYMƏTLƏNDIRMƏNIN KONTEKSTI

"Ölkə konteksti" bölməsində vurğulananlarla yanaşı milli səviyyədə meydana çıxan spesifik məsələlər texniki tapşırıqda və ilkin mərhələdə vurğulanmasa da, Rezident Əlaqələndiricinin Ofisi, BMT təşkilatları, hökumət və digər tərəfdaşlarla aparılan əlavə müzakirələr UNAPF-ın icrasına təsir göstərə biləcək kontekstin daha dərin təhlilinə imkan verib
UNAPF üzrə bu qiymətləndirmənin maraqlı tərəfləri əsasən dövlət və hökumət qurumları və bəzi vətəndaş cəmiyyəti təşkilatlarıdır (VCT-lər)ç hansılar ki BMT-ninfəaliyyətlərinə cəlb olunsa da, çərçivənin planlaşdırılması, icrası və hesabatverməyə cəlb olunmurlar. İlkin mərhələdə maraqlı tərəflərin hərtərəfli təhlili aparılmışdır (Daha ətraflı məlumat üçün bax: **Əlavə 8: "Maraqlı tərəflərin təhlili").**

Beynəlxalq səviyyədə, üzv dövlətlərinin bağladığı tarixi sazişlər və təyin etdikləri qlobal gündəliklər gələcəyə dair yeni baxışları ərsəyə gətirib - bu gələcək insanlar və planet üçün daha bərabər, inklüziv və dayanıqlı, hamı üçün sülh, ədalət və ortaq artıma söykənən inkişaf, həmçinin Dayanıqlı İnkişaf Məqsədlərində (DİM-lər) və 2030-cu il Gündəliyində nəzərdə tutulduğu kimi, heç kəsin kənarda qoyulmamasını ehtiva edir.

UNDAF qiymətləndirməsinə 2030-cu il Gündəliyindən başqa, BMT İnkişaf Sisteminin islahatları və istiqamətləri təsir göstərmişdir.[14] BMT-nin Baş Katibinin bu yaxınlarda təqdim olunan BMT İnkişaf Sisteminin mövqeyinin yenidən təşkilinə dair hesabatında göstərildiyi kimi, cari BMT-nin İnkişafa Yardım Çərçivəsi 2030-cu il Gündəliyinə dəstək olaraq nəzərdə tutulan yeganə ən mühüm ölkə üzrə planlaşdırma aləti kimi mövqe tutacaq.[15] Baş Katib həmçinin qeyd edib ki, UNDAF çərçivələri Dayanıqlı İnkişaf Məqsədlərini inteqrə etməli, BMT-nin hər bir ölkədəki milli inkişaf prioritetlərinə aydın və fəaliyyətyönümlü cavabı olmalıdır. Bu çərçivələr 5 il müddətində milli kontekstə və müvafiq regional dinamikaya uyğun olaraq, ortaya çıxan çətinliklərə reaksiya verərkən analoji şəkildə müfəssəl və inteqrasiyalı yanaşma tətbiq edəcək.

# V. QİYMƏTLƏNDİRMƏNİN ÜMUMİ MƏQSƏDİ, XÜSUSİ MƏQSƏDLƏRİ VƏ ƏHATƏ DAİRƏSİ

---

[14] https://undg.org/2030-agenda/ və https://undg.org/programme/2030-agenda-section/
[15]"2030-cu il Gündəliyinin icrası üçün BMT İnkişaf Sisteminin mövqeyinin yenidən təşkili: sağlam planetdə ləyaqət, tərəqqi və sülh vədimiz", Baş Katibin hesabatı, 21 yanvar 2017, A/72/684–E/2018/7, (səhifə 12-13 və digərləri).

Hazırkı UNAPF qiymətləndirməsinin ümumi məqsədi UNAPF-ın növbəti planlaşdırma dövründə istifadə etmək və BMT-nin Azərbaycandakı əlaqələndirmə işini təkmilləşdirmək üçün əsas nəticələri və öyrənilmiş dərsləri müəyyən etmək və ölkədə razılaşdırılmış milli hədəf və prioritetlərə münasibətdə hesabatlılığın artırılmasına dəstək göstərməkdir.

UNAPF qiymətləndirməsinin xüsusi məqsədləri aşağıdakılardır:

- UNAPF nəticələrinə əsaslanaraq və dəlillərə əsaslanan qiymətləndirmə meyarlarından istifadə edərək mühakimələr yürütməklə, BMT İnkişaf Sisteminin milli inkişaf prioritetlərinə töhfəsini qiymətləndirmək (hesabatlılıq);
- Müəyyən olunan fəaliyyət göstəricilərinin niyə məhz cari səviyyədə olmasını aydınlaşdırmaq, fəaliyyətə şərait yaradan və ya əngəl olan məsələləri üzə çıxararaq UNCT-nin töhfəsinə təsir göstərmiş amilləri müəyyən etmək (öyrənmə);

- Növbəti UNAPF dövrü üçün konkret və fəaliyyət yönümlü strateji tövsiyələr təmin etmək üçün keçmişdən və hazırkı əməkdaşlıqdan öyrənilmiş dərsləri müəyyən etmək.

Əhatə dairəsi baxımından, bu, hazırkı UNAPF dövrünün (2016-2020) yekun qiymətləndirməsidir və 2016-cı ildən 2019-cu ilin ortalarına qədərki icra dövrünü əhatə edir. Məsləhətçilər UNAPF-ın icrasının son 3.5 ili ərzində əldə olunmuş nəticələri gözdən keçirdi öyrənilmiş dərsləri tədqiq etdi, Birgə Proqramlaşdırma üçün sahələri müəyyən etdi və ortaya çıxan çətinlikləri və imkanları təhlil etdi. UNAPF-ın icrasının 2020-ci ilədək davam edəcəyini nəzərə aldıqda, bu zamanlama ideal olmasa da, UNDG-nin yeni UNSDCF üçün yol xəritəsi UNCT-dən qiymətləndirməni hal-hazırda aparmağı tələb edir.
Tərəfdaşlara gəldikdə, qiymətləndirmənin dəlil və nəticələri əsas maraqlı tərəflərin baxışlarını əks etdirib. Coğrafi əhatə dairəsinə gəldikdə, qiymətləndirmə UNAPF-ın icrasının bütün səviyyələrini (həm milli, həm də submilli) əhatə edib. Proqramlar üzrə əhatə dairəsi baxımından isə, 5 nəticəni əhatə edib.

Bu qiymətləndirmənin əsas məhdudiyyəti ondan ibarətdir ki, çox az iş günü ərzində (beynəlxalq məsləhətçi üçün 35 iş günü, milli məsləhətçi üçün 25 iş günü) hazırlanıb. 10 iş gününü əhatə edən hazırlıq mərhələsi çox vaxt apardı və qiymətləndirmə missiyası ölkədə əlavə 10 iş günü tələb edirdi. Hesabatın hazırlanması və əsasən BMT təşkilatlarından daxil olan çoxsaylı şərhlərin inteqrə edilməsi üçün ümumilikdə 15 iş günü ayrılıb. Qiymətləndirmənin geniş iş həcmini və BMT-nin İnkişaf Qrupunu və BMT-nin Qiymətləndirmə Qrupunun artan tələblərini, keçirilmiş görüşlər əsasında məsləhətçilərə verilən sənədlərin sayını, texniki tapşırıqda qoyulan (32) və sonradan ilkin hesabatda nəzərdən keçirilmiş (41) qiymətləndirmə suallarının sayını nəzərə aldıqda, günlərin sayı yetərli deyildi. Milli ekspertlə işləmək beynəlxalq məsləhətçi üçün faydalı olmaqla yanaşı, milli məsləhətçinin idarə edilməsi, işinin əlaqələndirilməsi və töhfələri ilə bağlı istiqamətləndirilməsi onun üçün əlavə iş yaratmışdır.

Məsləhətçilər gələcəkdə bu cür mürəkkəb qiymətləndirmə üçün oxşar ölkələrdə olduğu kimi 60-70 iş gününün planlaşdırılmasını tövsiyə edir. Bundan əlavə, UNCT üzvləri vəziyyət barədə düşünməli və məsləhətçilərin mənafeyinə zidd olmadan UNSDCF qiymətləndirmələrinin keyfiyyətini artırmaq üçün müvafiq tədbirlər görməlidir. Keyfiyyət təminatı ilə bağlı aşağıdakı bölməyə nəzər salın.

# VI. QİYMƏTLƏNDİRMƏ YANAŞMASI VƏ METODOLOGİYASI

## A. QIYMƏTLƏNDIRMƏ MEYARLARI VƏ SUALLARI

Bu UNAPF İƏİT-in İnkişafa Yardım Komitəsinin standart qiymətləndirmə meyarları qrupuna əsasən qiymətləndirilib: BMT-nin proqram tədbirlərinin uyğunluğu, effektivliyi, səmərəliliyi və dayanıqlılığı.

Bu qiymətləndirmə üçün əsas meyarlar və müvafiq suallar aşağıdakı kimi müəyyən edilib:

a) **Uyğunluq:** UNAPF-ın strategiya və məzmununun və onun icra mexanizmlərinin nəzərdə tutulan benefisiarların (o cümlədən milli qurumlar, icmalar və siyasət çərçivələri) ehtiyac və imkanlarını nəzərə alması;

b) **Effektivlik**: UNAPF nəticələrinə nə dərəcədə nail olunması;

c) **Səmərəlilik:** İnsan və maliyyə resursları ilə investisiyanın inkişaf nəticələrinə nailolma baxımından qayıdışı, o cümlədən "Vahid icra" prinsipinin əməliyyat xərclərini azaldıb-azaltmaması və UNAPF-ın icrasında səmərəliliyi artırıb-artırmaması; və

d) **Dayanıqlılıq**: Nəticələrin zamanla nə dərəcədə qorunub saxlana bilməsi.

Bundan əlavə, qiymətləndirmə daha üç meyara nəzər alıb:

e) **Tərtibat**: UNAPF-ın tərtibinin onun BMT İnkişaf Sistemində "planlaşdırma və icra üçün ən vacib alət kimi, canlandırılmış, strateji, çevik, nəticə və fəaliyyət yönümlü UNDAF" kimi mövqe tutması gözləntisinə nə dərəcədə cavab verməsi;

f) **Beş proqramlaşdırma prinsipi:** UNAPF-da beş proqramlaşdırma prinsipindən çoxsahəli şəkildə istifadə. Bu, 2017-ci ilin UNDAF Təlimatında göstərilən prinsipləri nəzərdə tutur: “heç kəsi kənarda qoymamaq”, insan hüquqları, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi; dayanıqlılıq və dözümlülük, hesabatlılıq

g) **Əlaqələndirmə**: Azərbaycandakı BMT İnkişaf Sisteminin bəyan olunan birgə əlavə dəyərinin doğruluğu:

Metodoloji yanaşma UNAPF-ın proqram tədbirlərinin bu meyarların işığında nəzərdən keçirilməsindən ibarət olub. Bu meyarlar və suallar UNAPF-ın inkişaf nəticələrə verdiyi töhfəni təhlil etməyə kömək edib. Meyarlar və suallar beynəlxalq məsləhətçi tərəfindən texniki tapşırıqdakı sualların ilkin siyahısına uyğun olaraq yenidən nəzərdən keçirilib və təkmilləşdirilib. Bundan əlavə, texniki tapşırığa uyğun olaraq və ilkin mərhələdə aparılmış müzakirələr nəticəsində "Beş proqramlaşdırma prinsipi" məsləhətçilərin təklifi ilə əlavə meyar kimi əlavə edilib. Onlar UNAPF-da beş proqramlaşdırma prinsipindən çoxsahəli istifadə kimi müəyyən edilir.

İlkin texniki tapşırığa daxil edilmiş qiymətləndirmə meyarlarının və suallarının ilkin siyahısı **Əlavə 1: Texniki tapşırıq**da təqdim olunur. İlkin mərhələdə düzəliş edilmiş və yenidən strukturlaşdırılmış, məlumat mənbələri və məlumat toplama üsullarını da əks etdirən siyahı **Əlavə 9: Qiymətləndirmə çərçivəsi**ndə təqdim olunur. Meyar və sualların yenidən baxılmış siyahısından istifadə edilərək, müsahibə və görüşlərdə müzakirələri yönləndirmək üçün konkret suallar hazırlanmışdır və onlar **Əlavə 3**-də təqdim olunur.

## B. QIYMƏTLƏNDIRMƏ YANAŞMASI

Bu qiymətləndirmə yanaşması birgə iştirak şəraitində həyata keçirilib, tərtibi və icrası çevik olmaqla, maraqlı tərəflərin iştirakı və sahibliyini təmin edib, öyrənmə və rəy verməyi asanlaşdırıb. Masaüstü təhlil,

əsas maraqlı tərəflərlə müsahibələr və görüşlər aparılıb, bütün məlumat mənbələri çarpaz yoxlanılıb. Bu inklüziv yanaşmaya BMT əməkdaşlarından əlavə geniş spektrli tərəfdaşlar və maraqlı tərəflər cəlb olunub.

UNAPF qiymətləndirmələri strateji tapşırıq kimi nəzərdə tutulur. Bu qiymətləndirmə strateji səviyyədə təyin olunub. Bu o deməkdir ki, qoyulan qiymətləndirmə suallarına cavab tapmaq üçün qiymətləndirmə strateji amillərə yönəlib və UNAPF-ın uyğunluğunun və effektivliyinin, həmçinin UNAPF nəticələrinin, tədbirlərinin və strategiyalarının səmərəliliyinin və dayanıqlılığının qiymətləndirilməsini təmin edib. Qiymətləndirməyə bütün UNAPF məhsullarının və fəaliyyətlərinin müfəssəl qiymətləndirilməsi daxil olmayıb. Əvəzində, UNAPF-ın əsas nailiyyətlərinə və bütün digər qiymətləndirmə meyarlarına və suallarına köklənib.

Bundan əlavə, qiymətləndirmə BMT İnkişaf Sistemi və Hökumət arasındakı əməkdaşlığı, həmçinin BMT-nin və UNAPF-ın yaratdığı əlavə dəyərə diqqət yetirib. Qiymətləndirmə həmçinin araşdırma, təşkilatlar arasında əməkdaşlığın səviyyəsi və növləri, birgə proqramlaşdırma, kommunikasiya və təşviqat strategiyaları, BMT-nin ölkədə oynadığı strateji rol və tərəfdaşlarının gələcək üçün gözləntilərinə yönəlib. Buraya həmçinin görülən dəstək tədbirlərinin BMT təşkilatları tərəfindən ayrı-ayrılıqda və ya birlikdə əldə olunan nəticələrə necə gətirib çıxarmasının təhlili də daxil olub.

UNCT-nin UNAPF-ı hansı formada idarə etməsi və icra etməsi də qiymətləndirilib. Buraya UNAPF-ın təsdiqindən sonra təşkil olunan mexanizmlər, bu mexanizmlərin bütün UNAPF dövrü ərzində fəaliyyəti və onların hazırladığı nəticələr (məsələn, MİP-lər, illik icmallar, aralıq icmal və illik icra hesabatları) daxil edilib.

Qiymətləndirmə səbəb-nəticə əlaqəsini aydınlaşdırmaq üçün Con Maynenin kitabına istinad edərək töhfələrin təhlili üsulundan istifadə edib.[16]

## *C. Qiymətləndirmə metodologiyası*

Qiymətləndirmə metodologiyasının icmalı aşağıda təqdim olunur:

- Rezident Əlaqələndiricinin Ofisində Məlumatların İdarəolunması, Nəticələrin Monitorinqi və Hesabatvermə Məsələləri üzrə Müşavirlə hazırlıq görüşləri.
- İlkin sənədlərin masaüstü təhlili, bax: **Əlavə 5: Ədəbiyyat və istinad edilən sənədlərin siyahısı.**
- Qiymətləndirmə çərçivəsinə malik müfəssəl ilkin hesabatın hazırlanması, bax: **Əlavə 9: Qiymətləndirmə çərçivəsi.**
- Maraqlı tərəflərin təhlili, bax: **Əlavə 8: Maraqlı tərəflərin təhlili**.
- Beynəlxalq məsləhətçinin milli məsləhətçi ilə birlikdə 9-17 iyul 2019-cu il tarixlərində həyata keçirdiyi qiymətləndirmə missiyası. Bax: **Əlavə 4: UNAPF üzrə Qiymətləndirmə missiyasının proqramı.**
- BMT-nin Rezident Əlaqələndiricisi ilə brifinq
- Müxtəlif tərəfdaşlarla görüşlər, bax: **Əlavə 6: Görüş və müsahibə aparılan şəxslərin siyahısı.**
- Üç nəticə qrupunun üzvləri ilə görüş. Bax: **Əlavə 2: UNAPF-ın nəticə qruplarının görüşləri üçün sualların siyahısı və gündəliklər.**
- Əsas nazirlik və milli qurumların rəsmiləri ilə müsahibələr. Bax: **Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**

[16] Töhfənin təhlili: Səbəb-nəticə əlaqəsinin araşdırılmasına yanaşma, “ILAC Brief” №16, Con Meyn, May 2008

- BMT-nin təşkilatlarının, o cümlədən qeyri-rezident təşkilatların rəhbərləri ilə müsahibələr. Bax: **Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**
- Qeyri-hvə gənclər təşkilatları ilə görüşlər, bax: **Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**
- İnkişaf tərəfdaşları ilə görüşlər, bax: **Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**
- Monitorinq və Qiymətləndirmə Qrupu, Kommunikasiya Qrupu və Əməliyyatlar üzrə İdarəetmə Heyəti ilə görüşlər. Bax: **Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**
- Üç Tematik Qrupla (Gender, İnsan hüquqları, DİM-lər) birgə görüş. Bax **Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**
- Missiyanın yekununda BMT-nin Rezident Əlaqələndiricisinin Ofisində Məlumatların İdarəolunması, Nəticələrin Monitorinqi və Hesabatvermə Məsələləri üzrə Müşavirlə yekun görüş

Bütün məlumat mənbələri bütün qiymətləndirmə meyarları və suallar üzrə məlumatların yaxşı səviyyədə yoxlanmasına imkan verdi.

**1. Hazırlıq görüşləri və ilkin hesabat**

Beynəlxalq məsləhətçi və Məlumatların İdarəolunması, Nəticələrin Monitorinqi və Hesabatvermə Məsələləri üzrə Müşavir arasında bir neçə Skype görüşü və e-poçt vasitəsilə müzakirələr aparılıb. Məsləhətçinin hazırladığı ilkin hesabata müfəssəl metodologiya, qiymətləndirmə prosesi üçün iş planı, eləcə də yenilənərək bu hesabata daxil edilmiş bir neçə əlavə daxil idi.

İlkin hesabat qeyd və şərhlər üçün UNAPF Qiymətləndirməsi üzrə Metodiki Qrupa (QMQ) təqdim olundu. Beynəlxalq məsləhətçi konteksti, məqsədləri və vaxt çərçivəsini nəzərə alaraq bu qiymətləndirmə üçün ən yaxşı mümkün yanaşmaları və metodologiyanı razılaşdırmaq üçün qiymətləndirmənin ilkin mərhələsində BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi və QMQ ilə Skype vasitəsilə görüş keçirdi. Bu görüşdə məsləhətçi yanaşma və metodologiyanın əsas elementlərini vurğulamaq üçün PowerPoint təqdimatını nümayiş etdirdi.

**2. Məlumatların toplanması və məlumat mənbələri**

Məlumat mənbələri əsas sənədlər və digər müfəssəl sənədlər idi (aşağıya nəzər salın).

Məlumat toplama üsullarına masaüstü təhlili, BMT nümayəndələri ilə görüşlər/müsahibələr, UNAPF üzrə nəticə qrupları ilə görüşlər, 1, 2 və 3-cü prioritet sahələrə məsul milli maraqlı tərəflərlə görüşlər/müsahibələr, tematik qruplarla birgə görüşlər, UNAPF üzrə Monitorinq və Qiymətləndirmə Qrupu, BMT-nin Kommunikasiya Qrupu və Əməliyyatlar üzrə İdarəetmə Heyəti , qeyri-hökumət maraqlı tərəflərləvə inkişaf tərəfdaşları ilə görüşlər daxil idi. Məlumat mənbələri və məlumat toplama üsulları barədə ətraflı məlumat üçün bax: **Əlavə 9: Qiymətləndirmə çərçivəsi.**

Məsləhətçilər məlumat mənbələrinin çarpaz tutuşdurulması vasitəsilə informasiya boşluqlarını maksimum dərəcədə aradan qaldırdılar.

Həm kəmiyyət, həm də keyfiyyət əsaslı məlumatlar toplanıldı. Lakin qiymətləndirmənin xarakteri və konteksti, vaxt və resursların məhdudluğu ilə əlaqədar olaraq, keyfiyyət əsaslı məlumatlara daha çox diqqət yetirilərək, tapşırığın BMT İnkişaf Sistemi, hökumət və tərəfdaş vətəndaş cəmiyyəti təşkilatları üçün

yük yaratmaması tələb olunurdu. Bu baxımdan, nəticələrə istiqamətlənmə və vaxt məhdudiyyətləri nəzərə alınaraq, əsas UNAPF nəticələrinə nail olmaq üçün yalnız əldə olan ikincil məlumatlardan istifadə edildi.

Qiymətləndirmə tapşırığının vaxt məhdudiyyətini nəzərə alaraq, qiymətləndirmə qrupundan UNAPF göstəriciləri ilə bağlı statistik məlumatların əsaslı toplanılması xahiş edilmədi. Qiymətləndirmə artıq UNAPF-ın maraqlı tərəfləri tərəfindən toplanmış və mövcud sənədlərdə təqdim olunmuş məlumatlardan istifadə etdi. Bəzi dezaqreqasiya olunmuş məlumatlar mövcud idi və nailiyyətlərin qiymətləndirilməsində istifadə edildi.

## 3. Masaüstü təhlil və yazılı mənbələr əsasında ilkin təhlil

Bu, yuxarıda təqdim olunan meyar və suallar əsasında UNAPF üzrə fəaliyyət nəticələrini qiymətləndirmək və cari proqram dövrünün qalan müddəti və növbəti proqram dövrü üçün tövsiyələr vermək üçün aparılan dəlillərə əsaslanan qiymətləndirmə idi. Qiymətləndirmənin BMT-nin İnkişaf Sistemi və Hökumətin mövcud və əlaqəli analitik sənədlərində olan mövcud dəlillərə əsaslanacağı gözlənilirdi.

Əsas sənəd UNAPF, o cümlədən onun Nəticələr Çərçivəsi, gözlənilən nəticələri, göstəriciləri, ilkin vəziyyətləri və hədəfləri və müştərək iş planları idi. Digər sənədlərə UNAPF üzrə illik icra hesabatları, illik icmal görüşünün hesabatları, aralıq icmal, UNCT və Rezident Əlaqələndiricinin hesabatları, təşkilat səviyyəsində qiymətləndirmələr, İstiqamətləndirici Komitənin, UNCT -nin və nəticə qruplarının görüşlərinin protokolları və digər sənədlər idi.

## 4. Maraqlı tərəflərin təhlili

UNAPF qiymətləndirməsi qiymətləndirmənin müxtəlif mərhələlərində əsas maraqlı tərəfləri (əsasən hökumət, vətəndaş cəmiyyəti təşkilatları və inkişaf/BMT tərəfdaşları) cəlb etməklə birgə əməkdaşlıq fonunda keçirilib.

İlkin mərhələdə UNAPF qiymətləndirməsinin əsas istifadəçilərini və maraqlı tərəflərini (əsasən hökumət qurumları və bir neçə vətəndaş cəmiyyəti təşkilatları) müəyyən etmək üçün maraqlı tərəflərin əhatəli təhlili aparılıb. Ətraflı məlumat üçün bax**: Əlavə 8: Maraqlı tərəflərin təhlili**.

Əsas maraqlı tərəfləri cəlb etmək, qiymətləndirməyə sahibliyi artırmaq və görüşlər və müsahibələr vasitəsilə müxtəlif maraqlı tərəflərin baxışlarını əks etdirmək üçün iştirakçılığa əsaslanan yanaşma qəbul edildi. Nəticə Qrupları ilə görüşlər, müsahibələr vasitəsilə, habelə BMT və hökumətin faktlarla bağlı düzəlişlərini əldə etmək üçün birinci və ikinci hesabat layihələrinin bölüşülməsi yolu ilə maraqlı tərəflərin qiymətləndirmə hesabatı ilə bağlı rəyləri əldə olundu.

Bu təhlil qiymətləndirmədə hər hansı mümkün təhrifi aradan qaldırmaq və BMT-nin Rezident Əlaqələndiricisi tərəfindən qiymətləndirmə üçün seçilmiş müsahiblərdən ibarət seçməni müəyyən etmək üçün faydalı olmuşdur. Təhlil büdcə və vaxt məhdudiyyətləri fonunda aparıldığından, məsləhətçilərin ən əlçatan (coğrafi, linqvistik və s. baxımdan) maraqlı tərəflərlə və UNAPF-ın birbaşa benefisiarları olan, yaxud icraçı təşkilatlarla əlaqəli maraqlı tərəflərlə görüşməsi qərara alınıb. QHT-lərlə aparılan görüşlərlə yanaşı, yekun benefisiarlardan və UNAPF-ın tədbirləri nəticəsində vəziyyətləri pisləşə bilən və ya təcrid olunmuş qruplardan informasiya toplanmayıb.

## 5. Azərbaycana missiya

Beynəlxalq məsləhətçi Azərbaycanda (Bakıda) doqquz günlük missiya həyata keçirib və yeni zamanda milli məsləhətçi missiya ilə işinə başlayıb. Missiya 9-18 iyul 2019-cu il tarixlərində baş tutub və BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi və Rezident Əlaqələndirici ilə keçirilən birifinqlə başlayıb. Bundan sonra, BMT təşkilatların rəhbərləri, hökumət nümayəndələri, UNAPF Nəticə Qruplarının həmsədrləri ilə görüşlər və müsahibələr, nəticə qruplarının üzvləri ilə seminarlar, tematik qruplar və donor təşkilatlarla görüşlər keçirilib. Məsləhətçilər missiyanın sonunda brifinq keçirib. Bax: **Əlavə 4: UNAPF üzrə Qiymətləndirmə missiyasının gündəliyi.**

Missiya müddətində qiymətləndirmə qrupu müxtəlif maraqlı tərəflərlə görüşüb. Aşkar edilən faktları çarpaz yoxlamaq, həmçinin məlumatların və əldə olunan nəticələrin etibarlı və inandırıcı olmasını təmin etmək üçün müxtəlif respondent qrupları ilə müxtəlif sual siyahılarından istifadə olunub. Qiymətləndirmə açıq və birgə iştirak şəklində aparılıb və respondentlərlə konfidensial şəkildə, habelə gender, mədəniyyət, institusional və digər faktorlara həssas yanaşma ilə rəftar edilməsini təmin etmək üçün bütün səylər göstərilib.

## 6. Nəticə qrupları ilə görüşlər

BMT təşkilatları və əsas hökumət qurumlarının nümayəndələrin vasitəsilə nəticə qrupları UNAPF-ın icrasına dəstək göstərib. Qruplar prioritet komponentlərə dəstək göstərmək üçün yaradılıb və həm rezident, həm də qeyri-rezident təşkilatların iştirakından faydalanıb. BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi ilə müzakirələrdən sonra texniki görüşləri sədr və həmsədrlərin iştirakı olmadan nəticə qruplarının üzvləri ilə keçirmək qərara alınıb. Bu görüşlər BMT təşkilatları və hökuməti təmsil edən tərəf müqabilinin (İqtisadiyyat Nazirliyi) dəstəyilə, Rezident Əlaqələndiricinin Ofisi tərəfindən təşkil olunub. Məsləhətçilər konkret sualların siyahısını hazırlayıb. Bax: **Əlavə 2: UNAPF-ın nəticə qruplarının görüşləri üçün sualların siyahısı və gündəliklər.**
Keçirilmiş üç görüş BMT və onun tərəfdaşlarına BMT sisteminin Azərbaycanın inkişaf çağırışlarına töhfəsi barədə birgə düşünməsinə, gözlənilən UNAPF nəticələri əsasında BMT-nin müşahidə edilə bilən hər hansı nəticə dəyişikliklərinə töhfə vermiş konkret BMT tədbirlərini müəyyən etməsinə və qiymətləndirmə suallarına cavab verməsinə imkan verdi.

Burada öyrənilmiş dərslərdən biri ondan ibarət oldu ki, bu görüşlər qiymətləndirmə suallarına əsaslanan sorğu anketi ilə və hər qrupun birləşdirilmiş cavabı ilə müşayiət olunmalı idi - bu ideya ilkin mərhələdə araşdırıldı. Bu görüşlərdə əldə olunan məlumatlar kifayət qədər dəqiq olmadığından və bəzən ziddiyyətli olduğundan, məsləhətçilərin ondan istifadəsi çətin idi. Bu, hesabatın hazırlanmasını çətinləşdirdi.

## 7. Digər qruplarla görüşlər

Məsləhətçilər həmçinin UNAPF-ın icrasında rol oynamış digər qruplarla görüşdülər: UNAPF Monitorinq və Qiymətləndirmə Qrupu, BMT-nin Kommunikasiya Qrupu, Əməliyyatlar üzrə İdarəetmə Heyəti və gender, insan hüquqları və DİM-lər üzrə tematik qruplar. Bu görüşlər üçün spesifik sual siyahıları hazırlandı. Bax: **Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**

Qiymətləndirmənin insan hüquqları və gender bərabərliyi aspektlərini nəzərə almasında tematik qrupların əhəmiyyətini nəzərə alaraq, onların birgə iclasını keçirmək qərara alındı. Məsləhətçilər proqramlaşdırma

prinsiplərini və çoxsahəli məsələləri müzakirə etmək üçün bu qruplarla görüşdü. Qiymətləndirmə üçün yanaşma və metodologiyanın formalaşdırılmasında bu, xüsusilə mühüm idi. Bu hesabatın bir neçə bölməsində qiymətləndirməyə insan hüquqları və gender bərabərliyinin inteqrasiya edilməsi üçün BMT-nin Qiymətləndirmə Qrupunun rəhbər qaydalarına istinad edildi.[17] Bundan əlavə, qiymətləndirmə meyarları və sualları ilə bağlı bölmədə İƏİT-in İnkişafa Yardım Komitəsinin ənənəvi meyarlarına Texniki Tapşırıqda olmayan spesifik meyarlar əlavə olunub (beş proqramlaşdırma prinsipi).

Məsləhətçilər digər qruplarla ayrı-ayrılıqda görüşüb. Məsləhətçilər Monitorinq və Qiymətləndirmə Qrupu ilə UNAPF-ın strukturunu, gözlənilən nəticə və göstəricilərin "SMART" meyarlara nə dərəcədə cavab verdiyini, monitorinq və qiymətləndirmə çərçivəsini, monitorinq və hesabatverməni müzakirə edib. BMT-nin Kommunikasiya Qrupu ilə aparılan müzakirədə əsas diqqət qrupun UNAPF üzrə kommunikasiyaya dəstəyin göstərilməsindəki roluna yetirilib. Əməliyyatlar üzrə İdarəetmə Heyəti ilə müzakirədə əsas diqqət səmərəliliyə və əməliyyatlar və proqramlaşdırma arasında əlaqələrə yetirilib.

Digər qruplarla görüşlərə də oxşar dərslər şamil edilir. Müzakirələr maraqlı idi, lakin sorğu anketinin olması görüşlər üçün faydalı olardı və məsləhətçilər kifayət qədər dəqiq olmayan qeydlərdən asılı olmaq əvəzinə hər bir qrupdan daha dəqiq məlumatlar ala bilərdi. Bəzi suallara verilən cavablarda kifayət qədər məlumatlar yer almadı və məlumatları digər mənbələrlə çarpaz yoxlamaq üçün xeyli səy göstərildi.

## 8. BMT təşkilatlarının rəhbərləri və yüksək səviyyəli hökumət nümayəndələri ilə görüşlər və müsahibələr

Nəticə və tematik qruplarla keçirilmiş görüşlərdən əldə olunan məlumatlardan əlavə, məsləhətçilər BMT təşkilatlarının rəhbərləri və hökumətin yüksək vəzifəli nümayəndələri ilə, xüsusilə hər prioritet sahəyə (1-ci, 2-ci və 3-cü) məsul olan nümayəndələrlə, habelə digərləri ilə müsahibə aparıb. Bu, nəticə qruplarının həmsədrlərindən əlavə informasiya toplamaq üçün edilib. Bu görüşlərin əsas məqsədi əldə olunmuş nəticələri daha dərin təhlil etmək, qiymətləndirmə meyarlarını və suallarını əhatə etmək və UNAPF-ın və növbəti UNSDCF-in icrasında UNCT-nin və ölkənin faydalana biləcəyi öyrənilmiş dərsləri müəyyən etmək idi. Görüşlər digər məlumat toplama üsullarına dəyər əlavə edib.
Bu məsləhətləşmələr uyğunluq, strateji mövqe, effektivlik, habelə BMT-nin UNAPF nəticələrinin əldə olunmasına fərdi və birgə töhfələri barədə məlumat əldə etməyə kömək edib. Onlar gələcək barədə təsəvvür yaradıb. İstifadə olunan qiymətləndirmə suallarının siyahısı üçün nəzər salın: **Əlavə 3: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**

Bu prosesdən öyrənilmiş dərslərdən biri ondan ibarətdir ki, BMT-nin təşkilatlarının rəhbərləri ilə fərdi müsahibələr qiymətləndirmə üçün dəyərli olsa da, məsləhətçiləri daha ümumiləşdirilmiş baxışlarla təmin etmək üçün UNCT səviyyəsində görüşün keçirilməsi faydalı olardı.

## 9. Qeyri-hökumət təşkilatları və gənclər təşkilatları ilə görüşlər

Məsləhətçilər vətəndaş cəmiyyəti təşkilatları, qeyri-hökumət tərəfdaşları, gənclər təşkilatları, xüsusilə də həssas və təcrid olunmuş qrupları təmsil edən təşkilatlarla görüşdülər. Təşkilatların seçməsi BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi tərəfindən seçilib. Qeyd edilməlidir ki, UNAPF çərçivəsində çalışan az

[17] Qiymətləndirmədə insan hüquqları və gender bərabərliyinin inteqrasiyası üçün təlimat, UNEG-in təlimatı, 2014, bax: http://uneval.org/document/detail/1616.

sayda QHT-lər və gənclər təşkilatları var; onlarla üç görüş keçirilib. Bu görüşlər üçün istiqamətləndirici sual siyahısı hazırlandı. Bax: **Əlavə 5: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**

## 10. Rəhbər qaydalar və etik standartlar

Qiymətləndirmə BMT-nin İnkişaf Qrupunun (UNEG) 2016-cı ildə qəbul edilmiş norma və standartları və UNEG və UNDG-nin 2019-cu il UNDAF üzrə qiymətləndirmə təlimatına uyğun olaraq aparılıb. UNEG-in qiymətləndirmə hesabatları üzrə yaddaş siyahısından da istifadə olunub və bu hesabatın bir sıra bölmələrində digər təlimatlara da istinad edilib. Qiymətləndirmə həm də etik məsələləri və mülahizələri, o cümlədən UNEG-in Etik Qaydaları, UNEG-in "BMT sistemində qiymətləndirmə üçün Davranış Kodeksi", İƏİT-in İnkişafa Yardım Komitəsinin qiymətləndirmə ilə bağlı prinsipləri, qaydaları və keyfiyyət standartlarını tətbiq edib.[18]

UNEG-in qiymətləndirmədə rəhbər tutulan etik standartlarına qiymətləndirmə mütəxəssislərinin öhdəlikləri (müstəqillik, qərəzsizlik, mötəbərlik, maraqların münaqişəsi, hesabatlılıq) və təsvir olunan məsələlərlə bağlı iştirakçılar üçün etik təminatlar (şəxsi ləyaqətə və fərqliliyə hörmət, öz müqəddəratını təyin etmə hüququ, ədalətli təmsilçilik, əhalinin həssas qrupları üzrə qaydalara əməletmə, konfidensiallıq və zərərin önlənməsi) daxil olub.

Məsləhətçilər bu görüşlərdə UNEG-in aşağıdakı etik mülahizələrini nəzərə alıb:

- **Konfidensiallıq**: Qiymətləndirmə mütəxəssisi şəxslərin məlumatı konfidensial şəkildə təmin etmək hüququna hörmət etməli və iştirakçıları bu konfidensiallığın əhatə dairəsi və hədləri barədə məlumatlandırmalıdır. Onlar həssas məlumatların mənbəsinin izlənilərək tapıla bilməməsini və bununla da müvafiq şəxslərin cavab addımlarından qorunmasını təmin etməlidir.
- **Zərərin önlənməsi**: Qiymətləndirmə bu prosesdə iştirak edən şəxslərə mənfi təsir göstərə bilər. Buna görə də, qiymətləndirmə mütəxəssisi qiymətləndirmədə iştirak edən şəxslərə qarşı riskləri və onlara düşən yükü minimallaşdırmağa və faydaları maksimuma çatdırmağa, qiymətləndirmənin tamlığına xələl gətirmədən mənfi və ya tənqidi qiymətləndirmə nəticəsində dəyə biləcək hər hansı zərəri azaltmağa səy göstərməlidir.[19]

BMT təşkilatları və BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi bu görüşlərdə iştirak etməyib. Çünki qiymətləndirmə müstəqillik məsələsini nəzərə alaraq, genişləndirilmiş dialoq və inkişaf nəticələri və çağırışları ilə bağlı ümumi təsəvvürlər vasitəsilə inkişaf sahəsində əməkdaşlığı, öyrənmək və yaxşılaşdırmaq məqsədini daşıyırdı.

Qiymətləndirmə çərçivəsində uşaqlarla müsahibə aparılmadığından, rəsmi etik təsdiq tələb olunmayıb.

## 11. Digər görüşlər və sahə səfərləri

---

[18] Həmçinin, bax: UNEG-in 2016-cı ildə dərc olunmuş norma və standartları (http://www.uneval.org/document/detail/1914), həmçinin UNEG-in "BMT sistemində qiymətləndirmə üçün Davranış Kodeksi" (http://www.unevaluation.org/document/detail/100) və UNEG-in Qiymətləndirmə üzrə Etik Qaydaları (http://www.unevaluation.org/ethicalguidelines).

[19] UNEG-in Qiymətləndirmə üzrə Etik Qaydaları (http://www.unevaluation.org/ethicalguidelines).

UNAPF-a maliyyə dəstəyi vermiş digər inkişaf tərəfdaşları ilə görüş təşkil olunub. Özəl sektorun nümayəndələri ilə görüş müzakirə edilsə də, onların çərçivə barədə məlumatlı olmamaları və əsasən ayrı-ayrı BMT təşkilatları ilə əməkdaşlıq etdikləri səbəbindən görüş nəzərdə tutlmadı. . UNAPF-ın işlənib hazırlanması prosesində bu cür görüşlər üçün digər fürsətlər yarana bilər.

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi ilə yerlərə səfərlər müzakirə edilsə də, bu da təşkil olunmayıb. Məlumatların çarpaz yoxlanması üçün digər məlumat toplama üsullarından istifadə etmək tövsiyə olundu. Reprezentativliyi təmin etmək üçün kifayət qədər çoxsaylı səfərlər edilməli və bu səfərlər UNAPF-ın üç prioritet sahəsi üzrə geniş spektrli maraqlı tərəfləri əks etdirməli idi. Belə səfərlərin təşkili isə həm qiymətləndirmə məsləhətçilər, həm də sifarişçilər üçün yerlərdə kifayət qədər vaxt sərf etməsini tələb edir.

## 12. Qiymətləndirmədə insan hüquqları və gender bərabərliyi aspektlərinin nəzərə alınması

Bu qiymətləndirmənin insan hüquqları və gender bərabərliyi aspektlərini mümkün qədər nəzərə alması üçün önəmli səylər göstərilib. Qiymətləndirmə UNDAF Təlimatının bir-biri ilə əlaqəli üç prinsipini təhlil edib: Heç kəsi kənarda qoymamaq, insan hüquqlarına əsaslanan yanaşma və qadınların səlahiyyətlərinin artırılması. Bu prinsiplər 2017-ci ildən bəri (yeni UNDAF təlimatı həmin il dərc olunub və bu, ilk müştərək iş planı ilə eyni vaxta təsadüf edib) UNAPF-ın icrasında rəhbər tutulub. Bu təhlil qiymətləndirmənin nəticələrində, həmçinin bu üç prinsipə köklənməklə beş prinsiplə bağlı bölmədə təqdim olunur. Digər prinsiplər (nəticə əsaslı idarəetmə, potensialın inkişaf etdirilməsi və ətraf mühitin dayanıqlılığı) digər bölmələrdə əhatə edilir.

Bu təhlil üçün yanaşma və metodologiyada UNEG-in "Qiymətləndirmədə insan hüquqları və gender bərabərliyinin inteqrasiyası üçün təlimat"ından istifadə edilib".[20] Qiymətləndirmədə həmçinin UNEG-in "BMT-SWAP Qiymətləndirmə Fəaliyyəti Göstəricisi" barədə təlimatından istifadə edilib.[21]

İlkin hesabatda yeni meyar ("beş proqram prinsipləri" ) əlavə olunub. Bu, texniki tapşırığın bəzi suallarının birləşdirilərək, yeni və daha spesifik sualların yaradılması yolu ilə edilib. Bu, insan hüquqları və gender bərabərliyinə diqqəti təmin edib və bu prinsiplərin UNAPF sənədinə daxil edilməsi və indiyədək UNAPF dövründə tətbiqi barədə aydın ümumi mənzərəni təmin edib. Bu, öz növbəsində UNSDCF-in gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılması ilə bağlı rəhbər prinsipinin 2019-cu ilin iyun qayında dərc olunmuş təlimata uyğun olaraq daha çox aktuallaşdırılması ilə bağlı konkret tövsiyələr üçün zəmin yaratdı.[22]

Məsləhətçilər həmçinin UNAPF sənədində və onun icrasında bu prinsiplərin necə nəzərə alındığını anlamaq üçün sənədləri (UNAPF sənədi, icra hesabatları və s.) diqqətlə gözdən keçirdilər.
Qeyd olunduğu kimi, qiymətləndirmə heyəti üç tematik qrup ilə birgə görüşlərə şərait yaratdı ki, bu da qiymətləndirmənin insan hüquqları və gender bərabərliyi aspektlərini nəzərə almasına imkan verdi. Məsləhətçilərin sahələrarası elementləri müəyyən edə bilməsi və onların UNAPF sənədinə və onun icrasına necə inteqrasiya olunduğunu anlaya bilmələri üçün bu proqram prinsipləri ilə bağlı dərin qrup

---

[20] Qiymətləndirmədə insan hüquqları və gender bərabərliyinin inteqrasiyası üçün təlimat, UNEG-in təlimatı, 2014, http://uneval.org/document/detail/1616.
[21] BMT-SWAP Qiymətləndirmə Fəaliyyəti Göstəricisi üzrə Texniki Arayış, UNEG, 2018.
[22] BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi, Daxili Təlimat, 3 iyun 2019.

müzakirələri aparıldı. Bu, həmin görüş üçün hazırlanmış sualların xüsusi siyahısı ilə həyata keçirilmişdir. Bax: **Əlavə 5: Spesifik görüşlər üçün istiqamətləndirici suallar**

İnsan hüquqlarına və gender bərabərliyinə verilən əhəmiyyət bu qiymətləndirmənin niyə müxtəlif maraqlı tərəflərin, o cümlədən həssas və təcrid olunmuş əhali qruplarını təmsil edən qeyri-hökumət maraqlı tərəflərin baxışlarını mümkün qədər çox əks etdirməyə çalışdığını izah edir. Qeyri-hökumət maraqlı tərəflər və gənclər təşkilatları ilə spesifik görüşlər təşkil edildi.

Bu, həmçinin, "Maraqlı tərəflərin təhlili"ndə müzakirə edildi və maraqlı tərəflərin beş əsas növünü və spesifik nümunələri ayırd etməklə insan hüquqları və gender bərabərliyi inteqrə olundu:

- Hər hansı tədbirlə bağlı qərarvermə səlahiyyətinə malik öhdəlik daşıyıcıları, məsələn, idarəedici orqanlar və ya istiqamətləndirici komitələr;
- Hər hansı tədbir üçün birbaşa məsuliyyət daşıyan öhdəlik daşıyıcıları, məsələn, proqram menecerləri;
- İkinci dərəcəli öhdəlik daşıyıcıları, məsələn, özəl sektor və ya valideynlər;
- Dəstək tədbirinin nəzərdə tutulan və nəzərdə tutulmayan benefisiarları olan hüquq daşıyıcıları (fərdi şəkildə və ya onların adından çıxış edən vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə); və
- Dəstək tədbirində təmsil edilməli olan, lakin tədbirin təsir etmədiyi və ya mənfi təsir etdiyi hüquq daşıyıcıları (fərdi şəkildə və ya onların adından çıxış edən vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə).

Bu qiymətləndirmənin insan hüquqları və gender aspektlərini mümkün qədər nəzərə alması üçün, aşağıdakı məsələlər tədqiq olundu:

- Qiymətləndirmə insan hüquqlarına əsaslanan yanaşmanın UNAPF sənədində nə dərəcədə əks olunduğunu və ondan UNAPF-ın icrasında necə istifadə olunduğunu təhlil etdi. Xüsusilə, Təhlil UNAPF strategiyalarının, nəticə və göstəricilərinin insan hüquqları sahəsində ratifikasiya olunmuş sazişlərin standartlarına (o cümlədən beynəlxalq əmək standartlarına) və müqavilə orqanlarının hesabatlarında təqdim olunan əsas tövsiyələrə cavab verib-vermədiyinə kökləndi. Məsləhətçilər həmçinin UNAPF sənədində və onun icrasında insan hüquqlarına əsaslanan yanaşmanın səciyyəvi addımlarının dəlillərinin olub-olmadığını müəyyən etməyə çalışıb: 1) səbəb-nəticə təhlili 2) rol-model təhlili 3) potensialdakı boşluqların təhlili.

- Qiymətləndirmə heyəti həmçinin UNAPF strategiyaları, nəticələri və göstəricilərinin aşağıdakı əsas işlək insan hüquqları prinsiplərinə nə dərəcədə əsaslandığını müəyyən etmək üçün dəlillər axtarıb: 1) ayrı-seçkiliyə yol verməmə və bərabərlik, 2) iştirak və inklüzivlik, 3) hesabatlılıq və qanunun aliliyi.

- Qiymətləndirmə UNAPF nəticələrinin, məhsullarının və göstəricilərinin BMT-nin tədbirlərində heç kəsin kənarda qoyulmamasını təmin edəcək şəkildə ölçmək üçün uyğun olub-olmadığını qiymətləndirdi. Belə ki, qiymətləndirmə spesifik olaraq həssas qruplara uğurlu şəkildə ünvanlanmış və inkişaf nəticələrini onlara çatdıran proqram tədbirlərinə dair dəlillər axtarıb.

- Qiymətləndirmə gender bərabərliyi, gender ədalətliliyi və qadınların səlahiyyətlərinin artırılması konsepsiyalarının UNAPF-da nə dərəcədə və hansı formada əks olunduğunu (təyin olunmuş konkret hədəflər və məqsədlər, cins üzrə dezaqreqasiya olunmuş məlumatlar və göstəricilər və s.

baxımından) təhlil edib. Buraya UNAPF strategiyalarının, nəticələrinin və göstəricilərinin gender təhlilindən necə istifadə etməsinin qiymətləndirilməsi və qadın və kişilərin problemlərlə necə fərqli şəkildə üzləşməsinin öyrənilməsi daxildir. Qiymətləndirmə heyəti maraqlı tərəflərdən insan hüquqlarına əsaslanan yanaşmanın və gender bərabərliyinin UNAPF-ın icrası zamanı necə tətbiq olunduğuna dair nümunələr göstərməyi xahiş etdi. Bundan əlavə, qiymətləndirmə heyəti UNAPF çərçivəsində gender bərabərliyinin aktuallaşdırılması, büdcə ayırmalarının izlənməsi və ümumilikdə gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılmasının əhatə olunması barədə təsəvvür əldə etmək üçün SWAP gender üzrə qiymət cədvəli əsasında qiymətləndirməyə (və ya oxşar tapşırıq) əsaslanan tövsiyələrin və UNCT fəaliyyət planının olub-olmaması barədə maraqlandı.

- Son olaraq, qiymətləndirmə heyəti gender bərabərliyinin və qadınların səlahiyyətlərinin artırılmasının növbəti UNSDCF strategiyalarına və nəticələr çərçivəsinə daha yaxşı inteqrasiya edilməsinin yollarını müəyyən etdi.

### 13. UNAPF və DİM-lər arasında əlaqə

UNAPF-ın 2015-ci ildə imzalanmasından sonra yerli və qlobal miqyasda bəzi mühüm proseslər baş verdi, o cümlədən DİM-lərin milliləşdirilməsi prosesinə start verildi ki, bu da texniki tapşırıqlara uyğun olaraq, UNAPF sənədində prioritetlərin, nəticələrin və hədəflərin strateji təhlilini şərtləndirdi.

Yuxarıda qeyd olunan birgə görüşə DİM-lər üzrə Tematik Qrup da daxil olub. Masaüstü təhlil və müsahibələrlə yanaşı, bu, məsləhətçilərə növbəti UNSDC üçün aşağıdakı ehtiyacların tədqiq edilməsində kömək etdi: (i) UNAPF nəticələrinə milliləşdirilmiş DİM-lərin fonunda baxış (qlobal DİM-lərlə bağlı artıq edilib;) (ii) UNSDCF-i cari milli inkişaf prioritetləri ilə daha yaxından uzlaşdırmaq üçün gələcək fəaliyyətlər üçün yeni istiqamət təmin etmək; (iii) DİM-lərlə UNSDCF-dəki cari BMT proqramları arasında əlaqələri inkişaf etdirmək; və (iv) proqramlaşdırma üçün tövsiyələr hazırlamaq. Bundan əlavə, məsləhətçilər aralıq icmal vasitəsilə hazırlanmış sənədləri nəzərdən keçirdilər və bu hesabatın bir neçə bölməsində bütün məsələlərdən bəhs etdilər.

### 14. Yekun görüş

Məsləhətçilər qiymətləndirmə prosesində aşkar edilən ilkin faktları və tövsiyələri ümumiləşdirmək üçün BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi, UNCT, Qiymətləndirmə üzrə Metodiki Qrup və İdarə Heyəti üçün təqdimat yolu ilə UNAPF qiymətləndirməsinin yekun görüşünü keçirməyi planlaşdırırdı. Lakin məsləhətçilərin missiyasının yekunlaşdığı vaxt bir çox üzvlər ölkədə olmadığı üçün bu, baş tutmadı.

### 15. Təhlil metodları və hesabatın layihəsinin hazırlanması

Məhsul səviyyəsində nəticələrin BMT ilə əlaqələndirilməsi və nəticə səviyyəsində töhfələrin təhlili ilə bağlı olaraq, qiymətləndirmə heyəti BMT-nin gözlənilən nəticələrə nəzərəçarpan töhfə verib-vermədiyini müəyyən etmək və bunların milli inkişaf prioritetlərinə doğru irəliləyişə təsir edib-etmədiyini öyrənmək üçün "töhfənin təhlili" və çoxsaylı məlumat mənbələrinin çarpaz yoxlanması üsulundan istifadə etdi.

UNAPF tədbirlərindən əvvəl və sonra davranışların necə dəyişdiyini və ya qurumların fəaliyyət nəticələrini öyrənmək üçün sənədlərin təhlilində, görüşlərdə və müsahibələrdə "əvvəl" və "sonra" meyarlarından istifadə edildi. Bu təhlil müəyyən edilmiş dəyişikliklər üçün alternativ izahatları müəyyən etdi və onların UNAPF tədbirlərinə nəzərən ağlabatanlığını yoxladı. Təhlil UNAPF tədbirləri olmadan vəziyyətin necə ola biləcəyi ilə bağlı təsəvvür qazanmaq üçün görüşlər və müsahibələr zamanı maraqlı tərəflərə suallar ünvanladı.
Bu səylərə baxmayaraq, nəticələrin strateji qiymətləndirilməsi zamanı gözlənilən nəticələr və məhsulların əldə olunması vasitəsilə BMT İnkişaf Sisteminin dəyişikliyə töhfəsini müəyyən etmək çətin olmuşdur. Əvəzində, qiymətləndirmə ağlabatan əsaslandırmanın olub-olmamasını araşdırmışdır.

Məsləhətçilər aşkar edilən ilkin faktları, öyrənilmiş dərsləri, gəlinən nəticələri və cari və gələcək proqramlaşdırma dövrləri üçün tövsiyələri əks etdirən ilkin hesabatı təqdim etdilər. Tövsiyələr Məsləhətçilər tərəfindən  hazırlanmış, lakin vaxt məhdudiyyəti ilə əlaqədar əsas maraqlı tərəflərlə müzakirə edilməmişdir.

Hesabat UNEG təlimatlarına, xüsusilə "Qiymətləndirmə hesabatları üçün keyfiyyət üzrə yaddaş siyahısı" və "UNDAF qiymətləndirmələri üçün tez-tez verilən suallar"a uyğun olaraq hazırlanıb.

Hesabatın birinci layihəsi UNCT tərəfindən faktlarla bağlı təklif olunan düzəlişləri və yaxşılaşdırılmalı aspektləri müəyyən etmək üçün BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi tərəfindən yayılmışdır. Məsləhətçilər bu rəyləri nəzərə alaraq hesabatın ikinci layihəsini hazırlamış və bu layihə UNCT-ə və hökumətə (tərcümə edildikdən sonra) təqdim olunmuşdur. Onlar həmçinin keyfiyyətə baxış (aşağıdakı bölməyə nəzər salın) nəticəsində qəbul edilmiş bütün səyləri ümumiləşdirərək, hesabatın üçüncü layihəsini hazırlamış və BMT-nin Rezident Əlaqələndiricisinin Ofisinə təqdim etmişdir.

## 16. Keyfiyyət təminatı və idarəetmə prosesi

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi ilkin hesabatı keyfiyyət təminatı təhlili üçün UNİCEF-in Cenevrədəki Regional Mərkəzi tərəfindən regiondakı ölkələrdə UNDAF üzrə qiymətləndirmə proseslərinə dəstək göstərmək üçün cəlb olunmuş "Universalia" şirkətinə təqdim etdi. Bu təhlilin nəticəsi məsləhətçilərə təqdim olundu və bu rəylərdə onlara ilkin hesabatın keyfiyyətini yaxşılaşdırmağa kömək edən maraqlı məsələlər qaldırılırdı.

Keyfiyyət təminatının digər aspektləri bu qiymətləndirməyə daxil edilib. Qiymətləndirmə prosesinə istiqamət vermək üçün UNCT və Hökumətin nümayəndələrindən ibarət Qiymətləndirmə üzrə İdarəetmə və Nəzarət Şurası yaradıldı. UNAPF üzrə qiymətləndirmə hesabatının hazırlanması, hesabatın keyfiyyəti və onun Qiymətləndirmə Şurasına vaxtında təqdim olunmasına görə ümumi cavabdehlik beynəlxalq məsləhətçinin üzərində düşüb. Qiymətləndirmə Şurası aşağıdakıları təmin edib: 1) qiymətləndirmə prosesləri UNEG-in norma, standart və etik qaydalarına cavab verib, 2) qiymətləndirmə nəticələri müvafiq olub və tövsiyələr icra edilə bilən olub, və 3) qiymətləndirmə nəticələri yayılıb və qiymətləndirmədən istifadə və öyrənmək üçün əlçatan olub. Qiymətləndirmə üzrə Metodiki Qrupu (QMQ) Qiymətləndirmə Şurasının rəhbərliyi və nəzarəti altında yaradılmış və UNCT üzvlərindən və əsas maraqlı tərəflərdən (milli hökumət və qeyri-hökumət tərəfdaşları) ibarət olub. QMQ qiymətləndirmənin strukturu bağlı qeyd və şərhlərini təmin edib, məlumat mənbələrinə çıxışa kömək edib, qiymətləndirmənin əsas məhsulları, xüsusən qiymətləndirmə hesabatı barədə  qeydlərini təqdim edib.

# VII. QİYMƏTLƏNDİRMƏNİN AŞKAR ETDİYİ FAKTLAR

## A. UNAPF-ın uyğunluğu və strateji mövqeyi

Texniki Tapşırıqda uyğunluq və strateji mövqe UNAPF-ın hədəflərinin və tərtibatının ölkənin ehtiyacları, milli prioritetləri, beynəlxalq və regional öhdəlikləri (insan hüquqları, dayanıqlı inkişaf və ətraf mühitlə bağlı) ilə uyğunluq dərəcəsini müəyyən etmişdir..

**1. Beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları konvensiyalarına münasibətdə uyğunluq**

**Aşkar edilən fakt: Dəlillər göstərir ki, UNAPF Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin və Dayanıqlı İnkişaf Məqsədlərinin hədəflərini əks etdirib. UNAPF həm də beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları ilə bağlı öhdəliklər, normalar və standartlar baxımından uyğunluğunu saxlayır.**

UNAPF Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin və Dayanıqlı İnkişaf Məqsədlərinin hədəflərini əks etdirib. UNAPF Minilliyin İnkişaf Məqsədlərinə və daha geniş kontekstdə Minilliyin Bəyannaməsinə söykənərək, dayanıqlı inkişafın sosial, iqtisadi və ekoloji aspektlərini gücləndirmək üçün səylərin birləşdirilməsinə yönəlir. 2030-cu il Gündəliyi 2015-ci ilin sentyabr ayında Nyu-York şəhərində yüksək səviyyəli xüsusi sammitdə təsdiq olunub və BMT İnkişaf Sisteminin dayanıqlı inkişafın dəstəklənməsi və ölkə səviyyəsində effektiv nəticələrin əldə olunması baxımından məqsədəuyğun olmasını təmin etmək üçün yeni gələcəyə baxış və vahid BMT İnkişaf sisteminin cavabına ehtiyac duyulub..

Lakin qeyd olunmalıdır ki, 2015-ci ildə bu UNAPF hazırlanarkən 2030-cu il Gündəliyi hazırlanma mərhələsində idi və UNCT-nin UNAPF-ı 2030-cu il Gündəliyi və DİM-lərlə tam uzlaşdırmaq üçün kifayət qədər vaxtı olmaya bilərdi.

UNAPF sənədi həm də beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları ilə bağlı öhdəlik, norma və standartlar ifadə olunan beynəlxalq öhdəlikləri əks etdirib. Sənəddə qeyd olunur ki, UNAPF 2015-ci ildən sonrakı dövr üzrə milli məsləhətləşmələr nəticəsində verilən tövsiyələri, habelə çoxsaylı beynəlxalq baxış proseslərinin gəldiyi nəticələri nəzərə alıb. Buraya aşağıdakılar daxildir:

- Universal Dövri İcmal (UDİ)
- “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiya (CEDAW),
- BMT-nin “Uşaq hüquqları haqqında” Konvensiyası (CRC),
- BMT-nin “Əlilliyi olan şəxslərin hüquqları haqqında” Konvensiyası (CRPD),
- Vətəndaşlığı olmayan şəxslər və qaçqınlarla bağlı beynəlxalq konvensiyalar, Məcburi Köçkünlüyə dair Rəhbər Prinsiplər,
- "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında” Konvensiya,
- Əhali və İnkişaf üzrə Beynəlxalq Konfrans (ICPD)
- 2014-cü ildən sonrakı dövrdə, eləcə də Dayanıqlı İnkişaf üzrə 2012-ci il BMT Konfransı (Rio+20),
- BMT-nin Baş Assambleyasının Qeyri-infeksion xəstəliklər haqqında Qətnaməsi (2011),
- "Səhiyyə 2020" siyasəti,

- BMT-nin 2015-ci ilin mart ayında Yaponiyanın Senday şəhərində keçirilən Fəlakət Risklərinin Azaldılması üzrə Dünya Konfransı,
- Limada keçirilən BMT-nin İqlim Dəyişikliyi Konfransı (COP20) və Parisdə keçirilən Tərəflərin Konfransı (COP21) (Dekabr, 2015-ci il).

UNAPF sənədindən həmçinin görünür ki, Azərbaycan 172 beynəlxalq müqavilə, protokol və digər sənədlərə, o cümlədən Birləşmiş Millətlər Təşkilatının insan hüquqlarına dair əsas müqavilələrinin əksəriyyətinə qoşulmuş və ya onları ratifikasiya etmişdir. Əlavə olaraq, Azərbaycan İnsan Hüquqlarına dair ikinci Milli Fəaliyyət Planını qəbul etmiş və bir sıra müvafiq məhkəmə və hüquq islahatlarını həyata keçirmişdir. UNAPF sənədində həmçinin göstərilir ki, UNAPF-nin strateji prioritet sahələrinin müəyyən olunmasında birgə keçirilmiş Ölkə üzrə Təhlilin[23] və UNDAF Qiymətləndirməsinin nəticələrindən istifadə olunub.

UNAPF sənədində və onun icrasında beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlərə və insan hüquqlarına dair öhdəlik, norma və standartlara verilən əhəmiyyət məsləhətçilərin təhlil etdiyi sənədlər, keçirdikləri görüşlər tərəfindən də təsdiq edilir:

- UNAPF-ın icrası və Hökumətin milli inkişaf prioritetlərinə nail olmasına və beynəlxalq öhdəliklərini yerinə yetirməsinə BMT İnkişaf Sisteminin və Hökumətin müştərək dəstəyi insan hüquqları və gender bərabərliyi kimi təməl prinsiplərə əsaslanır.
- UNDAF-ın icrası insan hüquqlarını (əsas insan hüquqları sazişləri, insan hüquqları mexanizmlərinin, o cümlədən müqavilə orqanlarının, xüsusi prosedurların və UDİ-nin tövsiyələri) nəzərə alır və təşviq edir.

## 2. Milli prioritetlərə münasibətdə uyğunluq

**Aşkar edilən fakt: UNAPF milli prioritetlər, o cümlədən "Azərbaycan 2020: Gələcəyə baxış", 2030-cu il Gündəliyinin icrasına yönələn yeni dövlət sərmayələri və səylər baxımından da son dərəcə uyğundur. UNAPF sənədində qeyd olunan bir sıra digər strategiyaların "Azərbaycan 2020: Gələcəyə baxış" strategiyasının icrasına töhfə verməsi gözlənilirdi. UNAPF-ın icrası müddətində qəbul olunan digər milli strategiyalar, siyasətlər, proqramlar və qanunlar sənədin hazırlanmasından sonra da aktual olaraq qalıb.**

UNAPF sənədinin "Öhdəliyin bəyan edilməsi" hissəsində əsas milli prioritetlərlə əlaqə aydın təsbit olunur:

> "Azərbaycan Respublikasında inklüziv, ədalətli və dayanıqlı inkişafa dəstək olaraq, Hökumət və Birləşmiş Millətlər Təşkilatının Ölkə üzrə İdarə Heyəti 'Azərbaycan 2020: gələcəyə baxış' İnkişaf Konsepsiyasının, habelə 2015-ci ildən sonrakı əsas inkişaf məsələlərinin və Dayanıqlı İnkişaf Məqsədlərinin yerinə yetirilməsinə dəstək göstərmək üçün birgə işləmək öhdəliyini öz üzərlərinə götürürlər. Bununla onlar ölkənin inkişafla bağlı prioritet məsələlərini milli tərəfdaşlar, inkişaf məsələləri üzrə beynəlxalq tərəfdaşlar, vətəndaş cəmiyyəti, özəl sektor, beynəlxalq maliyyə institutları və digər maraqlı tərəflərlə əməkdaşlıq etməklə həll edəcəklər."

[23] Ölkə Təhlili, Azərbaycan Respublikasında BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT), May 2014.

UNAPF hamı üçün daha geniş imkanları və layiqli əməyi təmin edən, beynəlxalq səviyyədə rəqabətqabiliyyətli və iqtisadi baxımdan şaxələnmiş bir ölkəyə çevrilməyi, regionlar arasında bərabərsizliklərin azaldılmasını, yaxşı idarəçiliyin gücləndirilməsini və keyfiyyətli sosial xidmətlərdən faydaların artırılmasını nəzərdə tutan 'Azərbaycan-2020: gələcəyə baxış' İnkişaf Konsepsiyasında ifadə olunmuş Hökumətin məqsədlərinə əsaslanıb. 'Azərbaycan-2020: gələcəyə baxış' İnkişaf Konsepsiyasında ifadə olunmuş milli strateji prioritet sahələr aşağıdakı cədvəldəki UNAPF nəticələri ilə uzlaşır: [24]

**Cədvəl 1. 'Azərbaycan-2020: gələcəyə baxış' İnkişaf Konsepsiyası və UNAPF nəticələri arasında əlaqələr**

| **Azərbaycan-2020: gələcəyə baxış'** | **UNAPF nəticələri** |
|---|---|
| Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru:<br>• Səmərəli dövlət tənzimləməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşdırılması<br>• İqtisadi strukturun təkmilləşdirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi<br>• Elmi potensiala və innovativ fəaliyyətə dəstək. | Nəticə 1.1: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmə dərinləşir, dayanıqlı artım səviyyəsi yüksəlir və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerləri yaradılır. |
| Nəqliyyat, tranzit daşıma və logistika infrastrukturunun təkmilləşdirilməsi və regionların tarazlaşdırılmış inkişafı<br><br>İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı və informasiya cəmiyyətinə keçidin təmin edilməsi<br><br>İnsan kapitalının inkişaf etdirilməsi və effektiv sosial təminat sisteminin yaradılması<br>• Əhalinin sağlamlığının yaxşılaşdırılması və səhiyyə sisteminin gücləndirilməsi<br>• Müasir təhsil sisteminin formalaşdırılması<br>• Sosial müdafiə sisteminin təkmilləşdirilməsi<br>• Gender bərabərliyinin və ailənin inkişafının təmin edilməsi<br>• Gənclərin potensialının və idmanın inkişaf etdirilməsi<br>• Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi<br>• Vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi<br>• Məhsuldar və inklüziv məşğulluğun təşviqi | Nəticə 2.1: 2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması<br><br>Nəticə 2.2: 2020-ci ilədək Azərbaycanda beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olma, beynəlxalq standartlara uyğun icra, monitorinq və hesabat vermə üçün potensialın gücləndirilməsi<br><br>Nəticə 2.3: 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək göstərilməsi |
| Mədəni irsin qorunması və səmərəli idarə olunması<br><br>Ətraf mühitin qorunması və ekologiya məsələləri | Nəticə 3.1: 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi |

[24] Bax: UNAPF sənədi, səhifə 27.

UNAPF sənədində onun icrası üçün vacib olan bir sıra digər strategiyalar qeyd edilib.. Məsələn, "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya", "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün Dövlət Proqramı", Azərbaycan Respublikasında demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı (2015-2025), Azərbaycan Respublikasına Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası və "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"

- UNAPF hazırlandıqdan bəri bir sıra strategiyalar Çərçivə üçün aktual olmuşdur. Məsələn: Iqtisadi islahatlar üzrə yeni iqtisadi Strateji Yol Xəritələri hazırlanıb və müəyyən edilmiş əsas sahələr UNAPF-ın üç prioritet sahəsi ilə uzlaşır (yaşıl iqtisadiyyat, dövlət və sosial xidmətlərin keyfiyyətinin artırılması və inklüziv əmək bazarları).
- "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası" (2019-2030-cu illər)
- Sənayenin şaxələndirilməsininön plana çəkilməsi
- "Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi və Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində səylər
- DİM hədəf və göstəricilərinin milliləşdirilməsi, 2017 və 2019-cu illərdə Yüksək Səviyyəli Siyasi Foruma Könüllü Milli İcmal (VNR) hesabatlarının təqdim olunması
- Prezident sərəncamı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması
- Azərbaycan Respublikasında həyata keçirilən özünüməşğulluq Proqramına Beynəlxalq Əmək Təşkilatı tərəfindən dəstək

UNAPF-ın icrası müddətində digər milli strategiyalar, siyasətlər, proqramlar və qanunlar da qəbul edilib və UNAPF-la uzlaşır:

- "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" (2018)
- "Taxıl haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər (2016 və 2017)
- "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Azərbaycan Respublikasının Qanunu (2018)
- Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018–2020-ci illər üçün Milli Fəaliyyət Planı" (2018)
- "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019–2023-cü illər üçün Dövlət Proqramı" (2018)
- "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər (2017)
- "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu (2017)
- "2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" (2018)
- Azərbaycan Respublikasında bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2018–2022-ci illər üçün Milli Strategiya" (2018)
- "2018–2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı" (2018)[25]
- Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası (2017)
- Azərbaycan Respublikasında Qeyri-formal məşğulluğun qarşısının alınmasına dair tədbirlər planı (2017)
- Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı

[25] Bax: Sürətli Kompleks Qiymətləndirmə üçün hazırlanmış və dövlət proqramlarının siyahısını da əks etdirən "Mövcud siyasətlərin DİM-lərlə uyğunluğunun sürətli planlı qiymətləndirilməsinin aparılması" adlı sənəd

- Uşaqların doğulanadək cins seçiminin qarşısının alınmasına dair 2020-2025-ci illər üçün Tədbirlər Planı (2019)
- Azərbaycan Respublikasında bioloji müxtəlifliyin qorunmasına və davamlı istifadəsinə dair 2017-2020-ci illər üçün Milli Strategiya" (2016)
- Azərbaycan Respublikasında plastik qablaşdırma tullantılarının ətraf mühitə mənfi təsirininazaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"nın (2019)

## 3. İnkişaf məsələləri, onların təməlində dayanan səbəblər və problemlərə dair uyğunluq

**Aşkar edilən fakt: Qiymətləndirmə UNAPF-ın Azərbaycanın inkişaf məsələləri, onların əsasında duran səbəblər və problemlərlə uzlaşdığını təsdiq edir. UNAPF-da əhalinin həssas qruplarının ehtiyaclarına və hamı üçün yaşayış standartlarının yaxşılaşdırılmasına xüsusi diqqət yetirilir ki, bu da, DİM-lərin "heç kəsi kənarda qoymamaq" prinsipi ilə uyğunluq təşkil edir. Eyni zamanda UNAPF, öz yanaşmaları ilə daha da yuxarı səviyyəyə yönəldilmiş fəaliyyətində yeni nəsil milli məqsədlərdə bərabərliyin, keyfiyyətin və dayanıqlılığın daha çox vurğulanmasını təmin etmək üçün Azərbaycanda yeni inkişaf məqsədləri üçün fəaliyyət kursunu müəyyənləşdirmək imkanlarından yararlanmaqda siyasi qərarları qəbul edənlərə yardım etmək niyyətini əks etdirib. UNAPF-ın hazırlanması zamanı ilkin vəziyyətin qiymətləndirilməsi və digər növ tədqiqatlardan əlavə, Ölkə Təhlili aparılıb və bu, inkişaf məsələləri, onların əsasında duran səbəblər və problemlərin tam əhatə olunmasına kömək edib.**

UNAPF-ın inkişaf məsələləri, onların təməlində dayanan səbəblər və problemlərə münasibətdə uyğunluğuna gəldikdə, UNAPF sənədində izah olunur ki, Azərbaycanda insanlar öz gündəlik həyatlarında hiss olunan müsbət dəyişikliklər gözləyirlər, həmçinin sabitik və iqtisadi artımın artan faydaları onların gələcəyə inamını artırmalıdır. Buna görə də, Azərbaycan rəngarəng cəmiyyətdə mövcud olan daxili həssaslıqları azaltmaq üçün inkişaf prosesini diqqətlə idarə etməyə davam etməli və inklüziv inkişafın genişləndirilməsi vacib olduğu halda ən yaxşı təcrübələri möhkəmləndirməli və bölüşməlidir.

UNAPF sənədində həmçinin qeyd olunur ki, bir çox orta gəlirli ölkələr ortaq inkişaf çətinlikləri ilə üzləşir və Minilliyin İnkişaf Məqsədlərinə nailolma baxımından geridə qalıb. Durğun artım, kənar təsirlərə qarşı zəiflik, artan bərabərsizliklər və bəzi təbəqələrin inkişafın faydalarından sosial baxımdan təcrid olunması, sənaye ixracında aşağı-gəlirli, aşağı-məvacibli iqtisadiyyatlarla, habelə yüksək ixtisas tələb edən innovasiyalarda qabaqcıl iqtisadiyyatlarla rəqabətin aparıla bilməməsi; diversifikasiyanın aşağı səviyyələrdə olması, gəlir bərabərsizliyi, gənclərin işsizliyi və ən son texnologiyaların qəbul edilməsinə əngəl olan bazar, institusional, idarəçilik və davranışla bağlı zəifliklər kimi "orta gəlir tələsi" simptomları əksər orta gəlirli ölkələrdə müşahidə oluna bilər. Buna görə də bir çox orta gəlirli ölkələr yuxarı gəlir səviyyəsinə qalxa bilmir və yoxsulluq həddindən aşağı düşmə riski ilə üzləşirlər.

Bununla yanaşı, UNAPF Azərbaycandakı inkişaf çətinlikləri səbəblərini dörd qrupa ayırmaqla faydalı bir cədvəldə ətraflı şəkildə əks etdirir: İqtisadi səbəblər; Sosial-mədəni səbəblər; Təşkilati və idarəçiliklə bağlı səbəblər; Ətraf mühit və coğrafi səbəblər.

UNAPF-da əhalinin həssas qruplarının ehtiyaclarına və hamı üçün yaşayış standartlarının yaxşılaşdırılmasına xüsusi diqqət yetirilib ki, bu da, DİM-lərin "heç kəsi kənarda qoymamaq" prinsipi ilə uyğunluq təşkil edir. Eyni zamanda, UNAPF, öz yanaşmaları ilə daha da yuxarı (milli siyasət) səviyyəyə yönəldilmiş fəaliyyətində yeni milli məqsədlərdə bərabərliyin, keyfiyyətin və dayanıqlılığın daha çox vurğulanmasını təmin etmək üçün ölkənin nailiyyətlərini nəzərdən keçirmək, mövcud məqsədləri dəqiqləşdirmək və Azərbaycanda yeni inkişaf məqsədləri üçün fəaliyyət kursunu

müəyyənləşdirmək imkanlarından yararlanmaqda siyasi qərarları qəbul edənlərə yardım etmək niyyətini əks etdirib.

Digər sənədlərlə tanışlıq və əsas müsahiblərin töhfələrinə əsaslanaraq məsləhətçilər UNAPF sənədinin Azərbaycanın inkişaf məsələlərinə, onların təməlində dayanan səbəb və çətinliklərinə uyğunluğunu təsdiq edir.

Qeyd olunmalıdır ki, hazırkı UNAPF-ın hazırlanmasında məlumat mənbəyi kimi istifadə edilməsi üçün Ölkə Təhlili aparılıb[26]. Bu, UNAPF-ın icrasının əvvəlində etibarlı ilkin vəziyyət məlumatlarının müyəssərliyini məhdudlaşdırıb və ən çox ehtiyac içində olan qrupları əhatə etmək, bu qruplar üçün inkişaf məsələlərini və onların təməl səbəblərini və çətinliklərini tam əhatə etməyi çətinləşdirdi. Bununla belə, UNAPF hazırlanarkən Vahid Ölkə Qiymətləndirməsi aparılmasa da, monitorinq və qiymətləndirmə planının təhlili göstərir ki, BMT təşkilatları tərəfindən ilkin vəziyyət qiymətləndirmələri və digər növ tədqiqatlar aparılıb. Bundan əlavə, icra hesabatlarında BMT təşkilatlarının Hökumətə məlumatların toplanmasında dəstək göstərdiyinə dair çoxsaylı nümunələr yer alır.

## 4. BMT İnkişaf Sisteminin müqayisəli üstünlüyü

**Aşkar edilən fakt: BMT-nin, o cümlədən bəzi qeyri-rezident təşkilatların müqayisəli üstünlükləri və əlavə dəyəri UNAPF çərçivəsində milli tərəfdaşlar tərəfindən müxtəlif formalarda istifadə olunub.**

Sənədlərin təhlili və Hökumət və BMT təşkilatlarını təmsil edən əsas müsahiblər ilə görüşlər göstərir ki, milli tərəfdaşlar UNAPF-ın icrası vasitəsilə BMT-nin (o cümlədən qeyri-rezident təşkilatların) bir çox müqayisəli üstünlüklərindən faydalanıb. Tərəfdaşlar xüsusən aşağıdakıları yüksək qiymətləndirib:

- Qlobal səviyyədə ölkə üçün əlçatan olan geniş təcrübənin Azərbaycana DİM-lərə nail olunmasında istifadə oluna bilməsi
- Milli inkişafa təsiri artırmaq üçün BMT-nin Azərbaycanda fəaliyyət göstərən təşkilatlarının mandatlarını, texniki səriştə və təcrübələrini, resurslarını səfərbər etmək üçün UNAPF tərəfindən təmin edilən strateji platforma
- BMT İnkişaf Sisteminin inkişaf sahəsində əməkdaşlıq üçün etibarlı tərəfdaş olması və milli tərəfdaşların BMT ilə əməkdaşlıq edərkən etibarlılıq hissi duyması , eləcə də uzunmüddətli tərəfdaşlığa əsaslanan etimad
- İnsan kapitalının yaxşılaşdırılması və insanları təlimləndirmək üçün potensial
- BMT-nin sosial və iqtisadi inkişafı müşayiət etmək üçün siyasi, qanunverici və strateji səviyyələrdə işləmək potensialı
- BMT-nin təşviqatçı, vasitəçi və düşüncə mərkəzi kimi yuxarı səviyyəyə yönələn iş, təbliğat və siyasət dəstəyi sahəsində yaratdığı əlavə dəyər.
- BMT-nin İnkişaf Sistemi, o cümlədən qeyri-rezident təşkilatlar daxilində müyəssər olan səriştə və təcrübə
- Azərbaycanın resipiyent ölkədən regional oyunçuya keçidinə uyğun olaraq inkişaf çətinliklərinə innovativ həllərin təqdim olunmasında ölkənin öz təcrübəsini nümayiş etdirməsinə kömək etmək potensialı

[26] Ölkə Təhlili, Azərbaycan Respublikasında BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT), May 2014.

- BMT-nin inkişafla bağlı ehtiyaclar sahəsində qərəzsiz və yüksək keyfiyyətli dəstək, texniki təcrübə və məsləhət üçün üstünlük verilən tərəfdar kimi mövqe tutması

## 5. UNAPF-ın tərtibi

**Nəticələr: UNAPF Hökumət və BMT arasında gələcəyə ortaq baxışın müəyyən edilməsi baxımından önəmli alətdir və kifayət qədər geniş və imkanlar yaradan çərçivədir. Lakin onun diqqət mərkəzi və tərtibatı ilə bağlı müəyyən məhdudiyyətlər var. Bu baxımdan, Nəticələr Çərçivəsinin "SMART" (spesifik, ölçülə bilən, əldə oluna bilən, real, vaxtla məhdudlaşan) meyarlarına kifayət qədər cavab verməməsi xüsusi qeyd olunmalıdır. Göstəricilərin bəziləri elə tərtib olunub ki, nəticələrin qiymətləndirilməsinə və effektiv monitorinqinə imkan vermir. Bəzi nəticələr yüksəkdir və BMT-nin əhəmiyyətli dərəcədə töhfə verə bilməsi üçün çox iddialıdır. Daha bir çətinlik xüsusilə təşviqat və siyasət sənədlərinin hazırlanması ilə bağlı hədəflər baxımından nəticələrin monitorinqi və qiymətləndirilməsinin çətinliyi ilə bağlıdır.**
Texniki Tapşırıqda UNAPF-ın tərtibi onun BMT İnkişaf Sistemində "planlaşdırma və icra üçün ən vacib alət kimi, canlandırılmış, strateji, çevik, nəticə və fəaliyyət yönümlü UNDAF" kimi mövqe tutması gözləntisinə nə dərəcədə cavab verməsi kimi təsvir olunur.

Qiymətləndirmə müəyyən etdi ki, UNAPF-ın diqqət mərkəzində BMT-nin və Hökumətin müəyyən strateji prioritetlər üzrə işinin istiqamətləndirilməsi dayanır və bütün iqtisadi, sosial və ətraf mühitlə bağlı məsələlərin əlaqələndirilməsinə kömək edir. UNAPF Hökumət və BMT arasında ortaq gələcəyə baxış və missiyanı əks etdirmək üçün önəmli alətdir. Hər bir qurum öz səlahiyyət, struktur və texniki sahələrinə malikdir və bütün tərəfdaşlar ümumi məqsədə necə töhfə verə biləcəklərini anlayırlar . UNAPF-ın əsasını təşkil edən 3 təməl element hökumət üçün hələ də prioritet sahələrdir.

Əsas müsahiblərə əsasən, UNAPF-ın nəticə və məhsullarının tərtibi BMT İnkişaf Sisteminin əlaqəli olduğu nəticələrin (ümumi nəticələr) və töhfələrin (məhsullar) ən azından bəzilərini müəyyən etməyə imkan verir. Həqiqətən də bütün əsas maraqlı tərəflər, töhfələr, vəzifələr və tələb olunan resurslar UNAPF sənədində və iş planlarında aydın göstərilir və bütün BMT təşkilatlarına töhfə vermək imkanı verilib.

UNAPF Hökumətin milli prioritetlərinə
üç strateji və beş Nəticə sahəsində birgə və kompleks cavab təmin edir və 2019-2020-ci illər üçün 47 məhsul üzrə təyin olunmuş hədəflərə nail olmaq məqsədini güdür. Qiymətləndirmə müəyyən etdi ki, illər ərzində məhsulların sayı əsaslı şəkildə olmasa da, dəyişib. 2017-ci ildə Müştərək iş planlarında 46, 2018-ci ildə isə 44 məhsul olub. Bu onu göstərir ki, UNCT proseslərdən asılı olaraq hər il məhsulları uyğunlaşdırıb. Bu, çox müsbət addımdır, çünki UNAPF-ın icrasının zamanla uyğunlaşdırıla bildiyini göstərir. Qiymətləndirmə bu hesabatın digər bölmələrində, o cümlədən "Nəticələrin ölçülməsinin çətinliyi" bölməsində məhsulların sayı ilə bağlı digər qeydlər də edir.

Bununla belə, UNAPF sənədinin diqqət mərkəzi və tərtibi ilə bağlı çətinliklər baxımından müşahidə olunmuşdur ki, UNAPF-ın maraqlı tərəfləri UNAPF-ın diqqət mərkəzi və tərtibatı barədə tənqidi mövqedə olub. Bu, xüsusən Nəticələr Çərçivəsinin "SMART" meyarlarına kifayət qədər cavab verməməsi ilə bağlıdır.

Dəlillər göstərir ki, nəticələr çərçivəsinin diqqət mərkəzi və tərtibi ilə bağlı əsas çatışmazlıqlar aşağıdakılardır:

- Göstəricilərin bəziləri elə tərtib olunub ki, nəticələrin qiymətləndirilməsinə və effektiv monitorinqinə imkan vermir.
- Aralıq İcmaldan sonra 2018-ci ildə dəyişikliklərin edilməsinə baxmayaraq, bəzi göstəricilər üçün dəyişikliyi ölçmək mümkün deyil.
- Bəzi göstəricilərin ölçülməsi ümumiyyətlə və ya hazırkı məqamda mümkün deyil. Onların uzunmüddətli təsirinin ölçülməsi isə daha da çətindir.
- Bəzi göstəricilərin əhatə dairəsi sual doğurur. Məsələn, məşğulluqla bağlı göstəricilər yalnız işsizlərin faiz göstəricisindəki azalmanı ölçür, lakin məşğul işçi qüvvəsinin faiz göstəricisini və ya sayını ölçmür.
- Bəzi göstəricilər BMT-nin iqlim dəyişikliyinə dair konvensiyasının göstəricilərinə tam uyğunlaşdırılmamış ola bilər.
- Bir sıra göstəricilər çox yüksək, çox ümumi və ya BMT-nin əhəmiyyətli dərəcədə töhfə verməsi üçün çox iddialıdır (məsələn, ÜDM artımı ilə bağlı göstərici - bu, makro səviyyəli göstəricidir). BMT İnkişaf Sistemi bir neçə yüz nəfəri məşğulluq imkanı ilə təmin edə bilər, lakin ÜDM artımına əhəmiyyətli dərəcədə təsir edə bilməz. BMT öz töhfəsini göstərmək istəyir, lakin UNAPF heç də hər zaman bu hallarda reallığa uyğun olmayıb. ÜMD artımı təsir səviyyəli göstəricidir və bütün tərəfdaşların, əsasən də hökumətin birgə yönümlü səylərini şərtləndirir.
- Bu BMT-nin Azərbaycanda fəaliyyət üçün cavabdehliyi necə üzərinə götürəcəyi və inkişafa öz töhfələrini nə dərəcədə iddia edə biləcəyi məsələsini qaldırır. Məqsəd ÜDM-in yaxşılaşdırılması olduqda, nailiyyətlər barədə hesabat vermək çətindir. Bu halda, BMT-nin hər hansı nailiyyətə iddia etməsi çətindir, çünki bu spesifik məqsədə təsiri azdır. Nəticələr (outcome) institusional səviyyədə dəyişikliklərlə və davranış dəyişiklikləri ilə uzlaşır. Buna görə də, bu nəticələr yalnız hökumət və digər tərəfdaşlarla birgə əldə oluna bilər.
- Bəzi göstəricilər müvafiq nəticə altında yerləşdirilməyib. Məsələn, Yol-nəqliyyat hadisələri ətraf mühit və ekoloji məsələlərlə spesifik olaraq əlaqəli deyil.
- Kənd torpaqlarından dayanıqlı istifadə ilə bağlı daha bir göstərici isə yaxşı müəyyənləşdirilməyib.

Qeyd edilməlidir ki, 2016-cı ildə UNAPF hazırlandıqdan sonra BMT-nin bir sıra nümayəndələri Azərbaycanda öz vəzifələrinə yeni təyin olunmuşdular. Bu o deməkdir ki, onlar özlərinin hazırlamadıqları və məhdud təsəvvürə malik olduqları UNAPF-a yiyələnməli oldular.

Bununla belə, UNAPF yenə də imkanlar yaradan və kifayət qədər geniş çərçivədir. Məsələn, Qlobal Fond Hökumətə beynəlxalq təşkilatlardan biri vasitəsilə İİV və vərəm kimi yoluxucu xəstəliklər üçün dərman vasitələri almağı təklif etdi və UNAPF-ın strukturu BMTİP-in dərman vasitələrini dayanıqlı şəkildə satın almasına mane olmadı. Hökumət qurumları tez-tez BMTİP-dən potensialın gücləndirilməsi, təlimlər və təlim səfərləri, texniki yardım, proqramların genişləndirilməsi və ya satınalma ilə bağlı yardım istəyirlər. Bu baxımdan, BMTİP-in portfeli rəngarəngdir və bu tələblər adətən UNAPF çərçivəsində yerinə yetirilə bilir. Məsləhətçilər belə nəticəyə gəlir ki, UNAPF hökumət qurumlarının spesifik tələblərini yerinə yetirmək üçün kifayət qədər çevikdir.

## B. UNAPF-ın effektivliyi

Texniki Tapşırıqda UNAPF-ın effektivliyi UNCT-nin UNAPF-da təsbit olunan nəticələrə nə dərəcədə töhfə verməsi kimi müəyyən olunur.

## 1. UNAPF-ın gözlənilən nəticələrinə münasibətdə effektivliyi

**Aşkar edilən fakt: UNAPF nəticələrinin milli prioritetlərə nail olunmasında, o cümlədən UNAPF-ın hər üç prioritet sahəsində - milli potensialların və qurumların gücləndirilməsi, dövlət siyasətlərinin formalaşdırılması və icrası, məlumatların toplanması və təhlilinə töhfə kimi həyata keçirilməsi istiqamətində müəyyən irəliləyiş əldə olunub. Həmçinin Hökumətə çoxsahəli məsələlərdə DİM-lərə nailolmanın sürətləndirilməsi, gənclərin və qadınların səlahiyyətləndirilməsi və insan hüquqları sahəsində dəstəyin göstərilməsində irəliləyiş əldə olunub. Ümumilikdə, qiymətləndirmə belə nəticəyə gəlir ki, UNAPF nəticələri çərçivəsində planlaşdırılan dəstək tədbirlərinin əksəriyyəti 2016-2018-ci illərdə icra olunub və ya 2019-2020-ci illərdə icra olunacaqdır.**

Hazırkı bölmədə BMT-nin Azərbaycanda 2016-2018-ci illər ərzində UNAPF-ın icrası istiqamətində əldə etdiyi nəticələr ümumiləşdirilir. Bölmə əsasən UNAPF-la bağlı 2017 və 2018-ci illərdə hazırlanmış icra hesabatlarına əsaslanır. Çünki bu hesabatlarda ən mühüm nailiyyətlərlə bağlı yaxşı məlumatlar verilir.

DİM-lərin əhəmiyyətini nəzərə alaraq, bu bölmədə ilk olaraq DİM-lər üzrə nailiyyətlər vurğulanır. DİM-lər 2018 və 2019-2020-ci illər üzrə Müştərək İş Planlarında 1-ci prioritet sahənin tərkibində yer alır. Bu bölmədə daha sonra hər Prioritet Sahə üzrə irəliləyiş barədə məlumat verilir və kəsişən aspektlər kimi gənclər, qadınlar və insan hüquqları xüsusilə qeyd olunur.

Müştərək İş Planlarına əsasən irəliləyişi qiymətləndirmək üçün, BMT təşkilatları Müştərək İş Planlarında əks olunan məhsul göstəricilərinə əsasən hesabat vermişdir. Bunun üçün onlar cədvəl şəklində rəngli kombinasiyalardan istifadə edərək göstəricilər üzrə əldə etdikləri cari irəliləyişi əks etdiriblər: Yaşıl rəng - "Nail olunub", sarı rəng - "Qismən nail olunub", narıncı rəng - "Məhdud" və qırmızı rəng - "Nail olunmayıb".

2017-ci ildə 27 göstəriciyə tam, 50 göstəriciyə qismən, 4 göstəriciyə məhdud şəkildə nail olunub, 8 göstəriciyə isə nail olunmayıb. 2018-ci ildə 57 göstəriciyə tam, 33 göstəriciyə qismən, 20 göstəriciyə məhdud şəkildə nail olunub, 16 göstəriciyə isə nail olunmayıb. Bu rəqəmlərin təhlili 2017-ci ildən 2018-ci ilə doğru nailiyyətlərin nisbətən daha yaxşı artdığını göstərir ki, bu da bir çox tədbirlərin 2017-ci ildə həyata keçirilməyə başlaması və 2018-ci ildə nail olunması ilə bağlıdır. Bu nəticələrin 2016-cı ildən 2018-ci ilə qədərki müddəti - 3 ili əhatə etdiyini və bu hesabat hazırlanarkən (2018-ci ilin sonu) daha iki il müddətin qaldığını nəzərə alaraq, bu nəticələr yaxşı hesab edilə bilər. Qalan iki il isə 2019 və 2020-ci illərdir.

O da qeyd olunmalıdır ki, MİP-lər 2016-cı ili əhatə etməyib və UNCT həmin il üçün büdcə məlumatlarını retroaktiv qaydada toplayıb. UNAPF dövrü ərzində müştərək iş planlarına yeni tədbirlər daxil edilib.

Ümumilikdə, məsləhətçilər hesab edir ki, UNAPF nəticələri çərçivəsində planlaşdırılan dəstək tədbirlərinin əksəriyyəti 2016-2018-ci illərdə icra olunub və ya 2019-2020-ci illərdə icra olunacaqdır.

BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) UNAPF-da əks olunan üç strateji prioritet, beş Nəticə və bir neçə kəsişən sahələrdə Hökumətin milli prioritetlərinə birgə və inteqrativ dəstək təmin edir.

**Dayanıqlı İnkişaf Məqsədlərinin icrasının sürətləndirilməsi istiqamətində Hökumətə dəstək**

Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi 2015-ci ildə BMT-nin bütün Üzv Dövlətləri tərəfindən qəbul edilib. Ötən 3.5 ildə Azərbaycan 2030-cu il Gündəliyinə və DİM-lərə nail olmaq istiqamətində güclü əzm nümayiş etdirib.

BMT, DİM-ləri sürətləndirə biləcək siyasət və proqramlaşdırma tədbirləri müəyyən etmək üçün 2016-cı ildə yaradılmış və Baş nazirin müavininin rəhbərlik etdiyi Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (DİMƏŞ), Dövlət Statistika Komitəsi və digər qurumlarla çalışıb. DİMƏŞ-in yaradıldığı ilk gündən etibarən BMT və BMTİP ona xüsusi dəstək göstərib. BMTİP Qlobal Məqsədlərin başa düşülməsi və görülə biləcək tədbirlər üçün müxtəlif qrupları, o cümlədən özəl sektor, KİV, parlament üzvləri, ictimaiyyət və digərlərini cəlb edib. BMTİP və digər təşkilatlar ölkə boyu həm də çoxlu tədbirlər, seminarlar və digər tədbirlər təşkil edib. Buraya aşağıdakılar daxildir:

- DİMƏŞ-ə və Dövlət Statistika Komitəsinə DİM-lərin milliləşdirilməsi prosesi üçün potensialın gücləndirilməsi formasında dəstək və strateji məsləhətlər verilib. BMT İnkişaf Sistemi DİMƏŞ-ə birinci və ikinci Könüllü Milli İcmalın hazırlanmasında kömək edib. Bu hesabatlar BMT-nin 2017-ci və 2018-ci ilin iyul aylarında Nyu-York şəhərində keçirilən Dayanıqlı İnkişaf üzrə Yüksək Səviyyəli Siyasi Forumda təqdim edilib.

- UNCT, Hökumətə DİM-lərlə bağlı strateji istiqamətləri formalaşdırmaq üçün "İnteqrasiya, Sürətləndirmə və Siyasət dəstəyi" (MAPS) missiyasının həyata keçirilməsində kömək etdi. Azərbaycan MAPS platformasına cəlb olunan ilk ölkələrdəndir. BMTİP-in rəhbərliyi altında və UNCT-nin iştirakı ilə ekspertlərdən ibarət qrup 2017-ci ilin may-iyun aylarında Azərbaycana MAPS üzrə missiya həyata keçirdi. Bu missiya UNCT-nin dəstəyi ilə DİMƏŞ tərəfindən 2016-cı ilin noyabr-dekabr aylarında keçirilən Sürətli Kompleks Qiymətləndirmənin nəticələrindən istifadə etdi. Hökumət, vətəndaş cəmiyyəti və özəl sektorla geniş məsləhətləşmələrdən sonra, missiya DİM-lərin milli səviyyədə sürətləndirilməsi məqsədilə həyata keçirilə biləcək konkret strateji istiqamət və tövsiyələr göstərib. Onlaraşağıdakı sahələrə yönəldilib : inklüziv əmək bazarı, ekoloji baxımdan daha təmiz inkişaf, gender bərabərliyinin daha yüksək səviyyəyə çatdırılması və sosial xidmətlərin genişləndirilməsi. Nail olunmuş irəliləyiş 2018-ci ilin fevralında Bakıda keçirilmiş MAPS seminarda nəzərdən keçirilib.

- BMT təşkilatları 2018-ci ilin 25-26 oktyabr tarixlərində təşkil olunmuş və Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında regional tərəfdaşlıqların gücləndirilməsinə həsr olunmuş Dayanıqlı İnkişaf üzrə Bakı Forumuna dəstək göstərib.

- FAO bir sıra tədbirlər, o cümlədən kənd təsərrüfatı, ərzaq, balıqçılıq və meşəçilik sahələrində DİM-lərin icrasının qiymətləndirilməsi, dövlət sektoru, parlament üzvləri və özəl sektor üçün maarifləndirmə və potensialın gücləndirilməsi tədbirləri həyata keçirib.

- BMTİP-in dəstəyi ilə Hökumət tərəfindən DİM göstəriciləri, o cümlədən gender üzrə təsnifatlandırılmış göstəricilər üzrə Milli İnformasiya Portalının konseptual çərçivəsi və forması hazırlanıb və 2019-ci ilin iyul ayında təqdim olunub. 2030-cu il Gündəliyinin həyata keçirilməsi üçün ən vacib məsələ bu məqsədlər üzrə irəliləyişi ölçə və monitorinq edə biləcək güclü statistik sistemə malik olmaqdır. DİM-lər nailolmanın monitorinqinə dair məlumatların daha təkmil şəkildə əldə edilməsi və təhlili üçün, BMT təşkilatları (FAO, UNFPA, BMTİP, UNICEF və ÜST) Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, Dövlət Statistika Komitəsi və digər qurumlarla sıx şəkildə

çalışıb. Bu sahədə digər nəticələrə aşağıdakılar daxildir: (i) Əhaliyə dair milli məlumat bazasına daxil edilmiş 10 əlavə göstərici üzrə cinsə görə dezaqreqasiya olunmuş məlumatlar əldə olunub; (ii) 2018-ci ildə Milli Ailə Büdcəsi Sorğusu vasitəsilə əlilliklə bağlı məlumatların toplanmasının Vaşinqton Modulu sınaqdan keçirilib və 2019-cu ildə Əhalinin Siyahıyaalınmasına daxil ediləcək; (iii) Dövlət Statistika Komitəsinin və digər müvafiq qurumların heyətinə daha yaxşı kommunikasiya üçün DİM göstəriciləri və məlumatların vizuallaşdırılmasına dair təlimlər keçirilib; (iv) 2015-ci və 2017-ci illərdə Uşaqlar arasında məhrumiyyət vəziyyətinin öyrənilməsinə dair araşdırmaların dərindən təhlili maliyyə böhranının uşaqlara və onların ailələrinə təsirinə dair əsas məqamları üzə çıxarıb; (v) Qaçqınların ev təsərrüfatlarının 83 faizi arasında sosial-iqtisadi qiymətləndirmə həyata keçirilib və bu, onların yaşayış şəraiti, ərzaq istehlakı, gəlirləri və s. ilə bağlı məlumatlar verib.

- İctimai məlumatlılığı artırmaq və vətəndaş cəmiyyəti, özəl sektor və media qurumlarını cəlb etmək məqsədilə UNCT və DİMƏŞ həm də 2017 və 2018-ci illər üçün DİM-lər üzrə Müştərək Kampaniya Strategiyası hazırlayıb və təqdim edib. 2017-ci ildə bir sıra təşviqat və maarifləndirmə fəaliyyətləri üçün təməl işlər görülüb. Buraya "ASAN Radio"da DİM-lərlə bağlı həftəlik bülletenin yayımlanması ilə bağlı razılaşma, həmçinin, DİM-lərin asan dillə izah olunması və reklam materiallarının tərtibi, ictimai yerlərdə stendlərin və plakatların yerləşdirilməsi üçün tərəfdaşların müəyyən edilməsi daxildir.

- Müxtəlif dövlət qurumları, özəl sektor, elmi-tədqiqat institutları, vətəndaş cəmiyyəti və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq şəraitində Dayanıqlı İnkişaf Məqsədləri barədə məlumatlılığı artırmaq üçün bir çox digər tədbirlər həyata keçirilib. Müxtəlif yüksək səviyyəli tədbirlərdə (Dayanıqlı İnkişaf üzrə Bakı Forumu və Respublika İnnovasiya Müsabiqələri) əsas panel müzakirələri DİM-lərə həsr olunub. Bu baxımdan, İqtisadiyyat Nazirliyi UNAPF çərçivəsində əməkdaşlığın səmərəliliyini və effektivliyini artırmaq üçün müvafiq hökumət qurumlarında əlaqələndirici şəxslərin təyin olunmasını məqsədəuyğun hesab edir.

- 2017-ci ildə BMT-nin Əhali Fondu tərəfindən Avronest Parlament Assambleyası, Sosial Məsələlər üzrə Komitə, Əhali və İnkişaf üzrə Avropa Parlament Forumu və BMT ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Respublikasının Milli Məclisində "Səhiyyə və gender: 3-cü və 5-ci Dayanıqlı İnkişaf Məqsədlərinin icrasında Aİ-na üzv dövlətlərin və "Şərq Tərəfdaşlığı" ölkələrinin Parlamentlərinin vəzifələri və Avropa Parlamentinin rolu" mövzusunda konfrans keçirilib. Konfransa parlamentlərin DİM-lərin icrasında roluna xüsusi nəzər salan sessiyalar daxil olmuş, digər ölkələrin nümunələri nəzərdən keçirilmişdir.

- Nəhayət, 2018-ci ildə Hökumət DİM-lərin milliləşdirilməsi və prioritetləşdirilməsi ilə bağlı səyləri çərçivəsində, ilin sonunda nailiyyətlərin sürətləndirilməsi üçün prioritet məqsəd və hədəflərin siyahısını dərc edib, lakin ilkin vəziyyət göstəricilərinin olmaması səbəbindən heç bir milli hədəf təyin olunmayıb.

- BMT-nin siyasətlərin formalaşdırılması və həyata keçirilməsinə xüsusi diqqəti kənd təsərrüfatı, səhiyyə və sosial xidmət sektorlarında strategiyaları formalaşdırmağa kömək etdi. Beynəlxalq Əmək Təşkilatının dəstəyilə hazırlanmış Milli Məşğulluq Strategiyası (2019-2030-cu illər) 2018-ci ilin oktyabr ayında Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunub, "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanun isə 2018-ci ilin iyul ayında qüvvəyə minib. Bu qanuna UNAPF çərçivəsində dəstək göstərilib.

**1-ci strateji prioritet sahə: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi**

**"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən olunan məqsədlər:** Yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru; Bölgələrin tarazlı inkişafı; İnsan kapitalının inkişafı; informasiya cəmiyyətinə keçidin təmin olunması

**Nəticə 1:** 2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmə dərinləşir, dayanıqlı artım səviyyəsi yüksəlir və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerləri yaradılır.

"Azərbaycan 2020: Gələcəyə baxış" sənədinin məqsədi səriştəli işçi qüvvəsi hesabına gücləndirilmiş və dövlətin regionları arasında maliyyə artımının balanslaşdığı daha şaxələndirilmiş və yüksək rəqabətqabiliyyətli iqtisadiyyat yaratmaqdır. Son 3.5 il ərzində BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi məşğulluq sahəsinin idarə edilməsinin təkmilləşdirilməsi, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində əldə edilmiş uğurlar və təcrid olunmuş əhalinin yeni bacarıq və məşğulluq imkanları ilə təmin edilməsi vasitəsilə bu məqsədə dəstək göstərilməsində irəliləyişə nail olub.

2018-ci ildə iş axtaran şəxslərin və işçilərin bu Tərəfdaşlıq vasitəsilə yekunlaşdırılmış yeni milli strategiya və çərçivələrdən faydalanmaları üçün işlər görülüb, həmçinin minlərlə gənc, qadın və kənd yerlərində yaşayan şəxs yeni bacarıqlar və iş imkanlarına çıxış əldə edib. Hökumətin inkişafa dair gələcəyə baxışının əsas elementlərindən biri olan daha şaxələndirilmiş iqtisadiyyatı ehtiva edən Tərəfdaşlıq Çərçivəsi kənd təsərrüfatı və informasiya-kommunikasiya texnologiyaları (İKT-lər) kimi yüksək potensiala malik sahələrdə ciddi irəliləyiş əldə olunmasına dəstək göstərib. Münaqişədən və təcridolunmadan zərər çəkmiş insanlar üçündə yeni imkanlar yaradılıb.

Bu, BMT-nin Azərbaycanda 2016-2019-cu illər ərzində UNAPF-ın icrası istiqamətində həyata keçirdiyi fəaliyyətlərin nəticələrinin (məhsul səviyyəsində) qısa icmalıdır. Burada əldə olunmuş əsas nailiyyətlər, öyrənilmiş dərslər və ortaya çıxan çətinliklər təsvir edilir.

BMT qeyri-neft sektorunda məşğulluq imkanlarının genişləndirilməsi,işçi qüvvəsinin bacarıq və təhsilinin inkişaf etdirilməsində Hökumətə dəstək göstərib. . Bu zaman qadınların və həssas vəziyyətdə olan icmaların iqtisadi səlahiyyət və hüquqlarının artırılmasına xüsusi diqqət yetirmişdir. Potensialın gücləndirilməsi sahəsində ünvanlı tədbirlər gəncləri və işsizləri, o cümlədən qadınları ilkin peşə, biznesin qurulması və təşkilati bacarıqlarla təchiz etməyə kömək edib. Bu tədbirlərin birbaşa nəticəsi olaraq, bir çox şəxs öz bizneslərini qura və ya iş tapa bilib.

2018-ci ilin oktyabr ayında Prezident 2019-2030-cu illər üçün Milli Məşğulluq Strategiyasını təsdiq edib. Strategiya Azərbaycanda əmək ehtiyatları, məşğulluq və sosial müdafiənin daha təkmil idarə olunmasına imkan yaradır. 2019-cu ildə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçirilən özünüməşğulluq proqramına cəlb edilmiş 10352 şəxsdən 2631 nəfəri qadınlar, 1426 nəfəri gənclər olmuşdur. Kənd yerlərində yaşayan qadınların öz biznes ideyalarını həyata keçirmələrinə kömək edən çox uğurlu Qadın Resurs Mərkəzləri daha üç rayonda da yaradılmaqla 2018-ci ildə 1000-dən artıq qadına dəstək göstərib. Beləliklə, Mərkəzlərin ölkə üzrə dəstəklədiyi qadınların sayı 6000-ə çatıb. Nəticə Qrupları həmçinin aşağıdakıları qeyd edib: gənclər arasında məşğulluğu artırmaq üçün subsidiya və stimullaşdırma

proqramları təqdim olunub; özünüməşğulluq təşviq olunub - konkret nümunə olaraq, 2016-cı ildə "ABAD"-ın ("Ailə Biznesinə Asan Dəstək") yaradılması göstərilə bilər - bu qurum sosial istiqamətli layihələr həyata keçirir və ailə bizneslərinə dəstək göstərərək, hazırda 350 ailə biznesi ilə işləyir; və BMTİP-in dəstəyilə xüsusən gənclər üçün məşğulluğun təşviqi məqsədilə yaradılmış "SYSLAB" (İnnovasiya və Məşğulluq Sistemləri Laboratoriyası) mərkəzi.

Miqrasiya və qaçqınlar sahəsinə gəldikdə, BMT əmək miqrasiyasını və onun daha geniş milli inkişaf siyasəti hədəflərinə daxil edilməsini təşviq edib. Buna baxmayaraq, qaçqınların böyük əksəriyyəti hələ də layiqli məşğulluq hüququna malik deyil. BMTQAK beynəlxalq nümunəvi təcrübələrə uyğun olaraq sığınacaqla bağlı qərarvermə prosesinin, həmçinin qaçqınlar və vətəndaşlığı olmayan şəxslər üçün inteqrasiya prosedurlarının yaxşılaşdırılması istiqamətində təşviqat aparmışdır.

Ərzaq və kənd təsərrüfatı sahəsində, FAO Hökumətin islahat gündəliyinin icrasına dəstəyin göstərilməsi, təşkilati və texniki potensialların gücləndirilməsi, toxumçuluq və sertifikatlaşdırma, torpaqların konsolidasiyası və mikrob əleyhinə mübarizə sahələrində siyasətlərin, strategiyaların və qanun layihələrinin hazırlanması vasitəsilə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə kömək etmişdir. Qeyd edilməlidir ki, orqanik kənd təsərrüfatının qəbulu və təbliğinə dair yeni milli strategiyanın hazırlanmasında, eləcə də orqanik kənd təsərrüfatı üzrə sertifikatlaşdırma sisteminin hazırlanmasında və tətbiqində Hökumətəköməklik göstərilib. Bunlar ölkədəki fermerlər üçün yeni imkanlar açıb.

**2-ci strateji prioritet sahə: İnstitusional potensialın gücləndirilməsi və səmərəli dövlət və sosial xidmətlər**

**“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasında müəyyən olunan məqsədlər:** Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; İnsan kapitalının inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması; Bölgələrin tarazlı inkişafı; Vətəndaş cəmiyyətinin inkişafı; İnformasiya cəmiyyətinə keçidin təmin edilməsi; Mədəni irsin qorunması və səmərəli idarə edilməsi

**Nəticə 2.1:** 2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirilməsi üçün təşkilati potensialının artırılması

Azərbaycan dövlət xidmətlərin müasirləşdirilməsi də daxil olmaqla, geniş miqyaslı islahatları həyata keçirməklə sürətli sosial-iqtisadi dəyişikliklər yaşayır. BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivə sənədi qurumun faktlara əsaslanan və şəffaf şəkildə həyata keçirilən qanunlar, siyasətlər və tədbirlər planları hazırlamaq qabiliyyətini artırmaqla, olduqca vacib olan bu prosesə dəstək göstərib. Tərəfdaşlıq Çərçivəsi milli qurumların və onların işçilərinin sosial xidmətlər göstərmə və Azərbaycanın sərhədlərinin təhlükəsizliyini təmin etmə bacarıqlarının gücləndirilməsinə kömək edib. Həssas qrupları əhatə edən xidmətlərin davam etdirilməsini təmin etmək üçün işlər görülüb. Bundan əlavə diqqətdən kənarda qalan şəxslərə dəstək göstərilməsinin innovativ üsulları sınaqdan keçirilib və ya genişləndirilib.

Dövlət xidmətlərin göstərilməsini təkmilləşdirmək məqsədilə “Mobil imza”-nın sınaqdan çıxarılması *e-idarəetməni* irəliyə doğru aparıb. Hazırda yeni onlayn funksiyalar əcnəbilər və yerli sakinlər üçün ölkə sərhədlərini keçən zaman informasiya və xidmətləri daha asan əldə etmə imkanını təmin edir. Tərəfdaşlıq Çərçivəsi sosial xidmətlərin cəmiyyətin bütün üzvləri, o cümlədən uşaqlar, qadınlar və əlilliyi olan şəxslər üçün əlçatan olmasını təmin etmə fəaliyyətlərində hökumətə dəstək göstərməyə davam edib. Buraya səyyar hüquqi yardım klinikaları və ya uşaqların müdafiəsi üçün daha yaxşı əlaqələndirilən sistemləri

vasitəsilə məcburi köçkün, qaçqın və ya digər həssas qrupları əhatə etmənin daha effektiv və innovativ yollarının tapılması daxildir.

ÜST, UNİCEF və UNFPA Azərbaycanda milli səhiyyə sisteminin gücləndirilməsinə yönələn bir sıra layihələrə dəstək göstərib. Buraya uşaq ölümü səviyyəsi ilə bağlı təhlillər, müstəsna olaraq ana südü ilə qidalandırmanın təşviqi, tibb işçilərinin körpələrin və azyaşlı uşaqların qidalandırılması ilə bağlı potensialının gücləndirilməsi, immunizasiya sistemlərinin monitorinqi, ölkə miqyasında qeyri-infeksion xəstəliklərlə əlaqəli risk amilləri barədə STEP[27] metodologiyası əsasında sorğunun keçirilməsi, unun zənginləşdirilməsi sahəsində milli qanunvericiliyin təkmilləşdirilməsi, icbari tibbi sığorta sahəsində pilot layihələrin, ana və uşaq sağlamlığı ilə bağlı milli proqramın icrası, habelə 2017-2020-ci illər üçün reproduktiv sağlamlıqla bağlı milli strategiyanın hazırlanması daxildir.

Sosial xidmət sahəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, yerli tərəfdaş QHT-lərlə əməkdaşlıq yolu ilə, UNİCEF həssas və risk altında olan ailələrin rifahına yardım üçün göstərilən xidmət və dəstək mexanizmlərini genişləndirmək üçün uşaqlara yönələn və bərabərliyi diqqət mərkəzində saxlayan Sosial Xidmətlər Strategiyası hazırlayıb. Bu, uşaq müdafiəsinə tam hərtərəfli yanaşma istiqamətində atılan bir addım idi. Dünya Bankının dəstəyilə Yuvenal Ədliyyə üzrə Milli Strategiyanın layihəsi hazırlanmış və Ədliyyə Nazirliyinə təqdim edilmişdir. UNİCEF həmçinin Uşaqların Sağlamlıq İmkanlarının Məhdudluğunun Erkən Aşkarlanması və Qarşısının alınması üzrə əhatəli sistemin hazırlanmasına, poliklinikalarda çalışan pediatrlar üçün Uşaq İnkişafının Monitorinqi üzrə təlimçilərin təlim keçirilməsinə dəstək göstərib. Gənclərin qərarların qəbulunda və davamlılığın gücləndirilməsində fəal iştirakına təkan vermək üçün bir sıra tədbirlər həyata keçirilib.

Təhsilin bütün uşaqlar üçün daha inklüziv xarakter daşıması və məktəbəqədər yaşlı uşaqları daha effektli şəkildə cəlb etməsi üçün əhəmiyyətli işlər görülüb. İnklüziv təhsilə istiqamətlənən davamlı təşviqat işləri "2018–2024-cü illərdə Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq olunması ilə nəticələnib. Beş yaşlı uşaqlar arasında birillik məktəbəhazırlıqda iştirak səviyyəsi 2014-cü ildə 14,2 faizdən 2018-ci ildə 75 faizədək yüksəlib.

Regional səviyyədə BMTİP Azərbaycanın pensiya islahatlarının həyata keçirilməsi sahəsində təcrübəsini Özbəkistanın Maliyyə Nazirliyi yanında Büdcədənkənar Pensiya Fondunun yüksək səviyyəli heyəti ilə bölüşülməsinə dəstək göstərmişdir. Həmçinin , BMTİP "ASAN Xidmət" bir pəncərə modelini Cənub-Cənub Əməkdaşlığı modulundan istifadə edən bir çox ölkələrlə bölüşmüşdür. UNİCEF BMT-nin Gürcüstanda Ölkə üzrə İdarə Heyətindən (UNCT Gürcüstan) olan həmkarlarla birlikdə hər iki ölkədə küçə uşaqlarının vəziyyətinə dair keyfiyyət yönümlü tədqiqat apardı.

**Haşiyə: 2017-ci ildə BMT-nin yardımı ilə həssas icmalara dəstəyin göstərilməsində əldə olunmuş nəticələrin nümunələri**

- Həssas qruplardan olan 2000 nəfərə yaxın şəxs hüquqi yardım alıb
- Əlverişsiz vəziyyətdə olan 4000 nəfərə yaxın uşaq və gənc sosial xidmət layihələrindən faydalanıb

[27] Qeyri-yoluxucu xəstəliklərlə əlaqəli risk amilləri üzrə "STEP" sorğusu - qeyri-yoluxucu xəstəliklərin monitorinqi və onlarla mübarizə məqsədilə öz nəzarət sistemini qurmağa başlayan ölkələrə kömək etmək məqsədi daşıyan sorğu metodologiyasıdır. Əlavə məlumatları buradan əldə edə bilərsiniz: http://www.who.int/ncds/surveillance/steps/en/

- 3000-ə yaxın məcburi köçkün, qaçqın və digər həssas qrupların Yaponiya Hökuməti tərəfindən təqdim olunan eynəklər və eşitmə aparatları sayəsində görmə və ya eşitmə qabiliyyətləri yaxşılaşdırılıb
- 226 qaçqın ixtisaslaşdırılmış səhiyyə xidmətlərindən istifadə edib
- 61 rayondan olan 4600-dən artıq müəllim üçün keçirilmiş ixtisasartırma təlimi proqramı 103 000 uşağı əhatə edən Məktəbəhazırlıq Proqramına töhfə verib.
- 2017-ci ildə UNİCEF-in və Avropa İttifaqının maliyyə dəstəyilə başlamış "3-4 yaşlı uşaqların icma əsaslı məktəbəqədər təhsilə cəlb olunması" layihəsi hazırda 32 rayonda 320 icmada ümumilikdə 6197 uşağı əhatə edir.
- 296 qaçqın ibtidai və orta təhsil və ixtisaslaşmış təlim proqramlarına çıxış imkanı əldə edib
- Əqli məhdudiyyətləri olan 52 uşaq adi siniflərə cəlb olunub və inklüziv şəraitdə təhsil alıb.
- Məcburi köçkünlər tərəfindən 74 biznes yaradılıb
- 201 qaçqın və sığınacaq axtaran şəxslərin ev təsərrüfatları maliyyə yardımından faydalanıb

**3-cü strateji prioritet sahə: Ətraf mühit sahəsində idarəçiliyin təkmilləşdirilməsi və təhlükə və fəlakətlərə qarşı dayanıqlılığın artırılması**

**"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında müəyyən olunan məqsədlər:** Ətraf mühitin qorunması və ekologiya məsələləri; Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi; İnsan kapitalının inkişafı

**Nəticə 3.1:** 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi

İqlim dəyişmələri hazırda bütün ölkələr kimi Azərbaycana da təsir göstərdiyi üçün BMT tullantıları azaldan, həmçinin əhalinin və iqtisadi sektorların adaptasiyasına kömək edəcək tədbirlər tətbiq etmək məqsədilə həm sənaye, həm də hökumətlə işləyib. Tərəfdaşlıq Çərçivəsi hökumətin ətraf mühit və kənd təsərrüfatı sektorunu daha yaxşı idarə etmək və hər ikisini zərərli iqtisadi fəaliyyətlərdən qorumaq üçün müvafiq qanunvericilik, siyasət və sistemlərin həyata keçirməsini dəstəkləyib. Bütün ölkə əhalisi zəlzələ, daşqın və digər təbii fəlakətlərə məruz qalma baxımından həssas kateqoriyaya daxil olduğu üçün hazırkı Çərçivə təbii və antropogen fəlakətlərə qarşı davamlılığın təmin edilməsi məqsədilə də müxtəlif milli tədbirləri dəstəkləyib.

Tərəfdaşlıq Çərçivəsi Azərbaycana BMTİP-in dəstəyilə 2030-cu ilədək istixana effekti yaradan qazların emissiyasını 35 faiz azaltma [28] səylərində dəstək göstərib. Buraya hazırkı emissiyaların qiymətləndirilməsində hökumətə dəstək göstərilməsi, iqlim dəyişmələri ilə mübarizə məqsədilə qərar qəbul edən şəxslərin ən effektiv siyasət və tədbirləri hazırlamaq üçün vacib məlumatlarla təmin edilməsini daxildir. Burada, həmçinin özəl sektorun hansı şəkildə tədbirlər görə biləcəyini nümayiş etdirmək məqsədilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə iş öz əksini tapıb. Eyni zamanda, ətraf mühitin mühafizəsi və meşələrin, dəniz və milli park ərazilərinin idarə edilməsi təkmilləşdirilib, BMT ilə əməkdaşlıq şəraitində yeni qanunlar hazırlanıb, meşələrin dayanıqlı idarəçiliyinin təkmilləşdirilməsi üçün

[28] Baza ili ilə (1990) müqayisədə

tədbirlər görülüb. Sonuncu qeyd edilən fəaliyyətə Azərbaycanın ilk dəniz milli parkını (Xəzər dənizinin sahili boyunca 100 min hektar sahəni əhatə edir) yaratması daxildir. Bundan əlavə, Hökumətə ölkədə meşələrin idarəolunması sisteminin yenidən formalaşdırılması və təkmilləşdirilməsi üçün Hökumətə siyasətlərlə bağlı məsləhətlər verilib. FAO-nun texniki dəstəyilə hazırlanmış Milli Meşəçilik Proqramı təsdiq üçün Nazirlər Kabinetinə göndərilib.

Əsas məqamlara 2018-ci ilin iyul ayında qüvvəyə minmiş "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanunun həyata keçirilməsi məqsədilə, altı köməkçi qanunvericilik aktının hazırlanması daxildir. UNECE-nin və FAO-nun dəstəyilə, Hökumət yeni müşahidə sisteminin yaradılması və məsul şəxslər üçün təlimlərin keçirilməsi vasitəsilə Azərbaycanın çəyirtkə hücumlarının öhdəsindən gəlmə bacarığını artırıb. Analoji olaraq, müstəqillik əldə edildikdən sonra ilk dəfə hökumət dayanıqlı meşə idarəçiliyi meyarları və göstəricilərini meşəçilik inventarına və idarəetmənin planlaşdırılmasına tətbiq edir. Bundan yanaşı, qurumların və işçilərin bitkilərin diaqnostikası, təftişi və kənd təsrrüfatının idxalı və ixracı ilə bağlı müvafiq prosedurlar sahəsində potensiallarının gücləndirilməsi, eləcə də Milli Fitosanitar Laboratoriya və Respublika Karantin Ekspertiza Mərkəzinin müasirləşdirilməsi yolu ilə hökumətin sanitar və fitosanitar nəzarət potensiallarının yaxşılaşdırılmasına dəstək göstərilib.

Bundan əlavə, BMT-nin təşkilatları əsas çoxtərəfli ətraf mühit sazişləri üzrə hesabatvermə də daxil olmaqla, istixana effekti yaradan qazların emissiyası, karbon axınları və karbon saxlama potensialı üzərində daha yaxşı monitorinqin həyata keçirilməsi, müvafiq təhlillərin aparılması və hesabat vermə istiqamətində Hökumətə texniki səriştəsi ilə kömək etmişdir. Həmçinin, Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi və BMTİP-in əməkdaşlığı çərçivəsində Azərbaycanda bərpaolunan enerjinin gələcəyi ilə bağlı ictimai müzakirələrə şərait yaradılmışdır. Ölkədə ilk dəfə dövlət siyasəti üzrə və qərarların qəbul edilməsi üzrə məsul şəxslər, enerji şirkətləri, QHT-lər, akademik dairələr və özəl sektor nümayəndələrinin iştirakı ilə keçirilən dialoq bərpa olunan enerji mənbələri sektoru ilə bağlı müzakirələrə təkan verib.

**Gənclərin səlahiyyətləndirilməsi**

Azərbaycan əhalisinin təqribən 30 faizini gənclər (14-29 yaşlı) təşkil edir. Gənclər müsbət sosial dəyişiklik təmsilçiləri olduğları üçün BMT Tərəfdaşlıq Çərçivəsi vasitəsilə onların səlahiyyətləndirilməsi istiqamətində çalışıb. Bu tədbirlər sırasında onlara öz həmyaşıdları ilə birlikdə sosial məsələlər və dayanıqlı inkişaf məqsədləri üzrə fəaliyyətlərinin dəstəklənməsi, əlilliyi olan gənclərin müsbət imicinin təbliği və gənclərə qərarların qəbulu, ictimai iştirak və STEM (elm, texnologiya, mühəndislik, riyaziyyat) sahələrində bacarıqlarını artırmaq üçün imkanların təmin edilməsini vurğulamaq olar.

Öz fəaliyyətlərinin gənclərin ehtiyac və problemlərinə daha həssas yanaşmasını təmin etmək və gəncləri qərarların qəbulu prosesinə cəlb etmək məqsədilə, 2016-cı ildə Azərbaycanda BMT-nin Gənclərdən ibarət Məşvərət Şurası(UNYAC) yenidən aktivləşdirib. Şura önəmli məlumatlar təmin etməklə BMT-nin gənclərlə işini formalaşdırmağa kömək edib. 2018-ci ildə Şuranın müxtəlif sahələrdən olan 11 gənc üzvü bu fəaliyyəti davam etdirib. Əsas məqamlardan bəziləri aşağıdakılardır:

- Gənclər arasında Qlobal Məqsədləri təbliğ etmək məqsədilə, 17 gənc lider DİM səfirləri olaraq seçilib və bu məqsədləri öz yaşıdları arasında təbliğ etmələri üçün zəruri bacarıq və vasitələrlə təmin edilib.
- BMT və hökumətin birgə pilot təşəbbüsü mövcud Gənclər Evlərinin öz fəaliyyətlərini gənclərin iştirakı ilə daha təkmil şəkildə həyata keçirməsini gücləndirib.

- Gənclərin inkişafına dəstək göstərilməsi üçün peşəkar gənc kadrlar hazırlamaq məqsədilə, ilk milli magistratura proqramı təsis edilib. Proqramın 2019-cu ilin sentyabr ayından etibarən həyata keçirilməsinə dair altı ali məktəblə razılıq əldə olunub.
- Azərbaycanda ilk dəfə müasir robot texnologiyası laboratoriyası öz qapılarını gənclərin üzünə açıb. Bu özünəməxsus laboratoriya şagirdlərə kompüter və robot texnologiyalarını anlamaqda və proqramlaşdırma, mexanika və elektronika sahələrində bacarıqlarını artırmaqda, həmçinin elm, texnologiya, mühəndislik və riyaziyyat sahələrində biliklərini artırmaqda kömək edir.

**Qadınların səlahiyyətləndirilməsi**

Paralel yanaşma vasitəsilə gender bərabərliyinə nail olmaq istiqamətində göstərilən səylər artırılmışdır. Gender məsələlərinə daha həssaslıqla yanaşılan proqramların və layihələrin planlaşdırılması və hazırlanmasını təmin etmək məqsədilə siyasət sənədlərində gender bərabərliyinin ön plana çəkilməsi ilə bağlı BMT-nin strategiyasına uyğun olaraq UNCT-də gender məsələlərinin aktuallaşdırılmasının vəziyyətini qiymətləndirmək üçün Birgə Gender Təftişi aparılıb. Ölkədə gender zəminində zorakılığın yayılma səviyyəsi, özəl sektorda qadınların iqtisadi inkişafına maneələr, gender məsələlərini nəzərə alan proqramların səmərəli icrası, müasir ailə planlaşdırma metodlarının xərcləri və faydaları və s. üçün əlavə sübutlar toplamaq məqsədilə bir sıra mühüm təşəbbüslər həyata keçirilib. Eyni zamanda, gender zəminində zorakılığın və gender əsaslı cinsiyyət seçiminin azaldılması üçün qızların və qadınların hüquqlarının təşviqinə yönələn siyasətlərin hazırlanmasını yaxşılaşdırmaq üçün yüz minlərlə insanların cəlb olunduğu silsilə təbliğat tədbirləri keçirilib. Gender əsaslı cinsi seçim edilməsinin qarşısını almaq məqsədilə tədbirlər planı tərtib olunub və icra edilmək üçün hazırlanmaqdadır. Bundan əlavə, UNFPA-nın dəstəyilə Gender zorakılığının qarşısının alınması və cavab tədbirlərinə dair Milli Fəaliyyət Planı, eləcə də Gender Bərabərliyinə dair Milli Fəaliyyət Planı hazırlanıb.

**İnsan hüquqları**

BMT maraqlı tərəflər, hökumət, vətəndaş cəmiyyəti və hüquq icmasının Azərbaycanda insan hüquqlarını daha yaxşı həyata keçirmə bacarıqlarını artırıb. Təşviqat tədbirləri uşaq hüquqlarını dəstəkləmiş, həmçinin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 70 illiyi insan hüquqlarının tarixini və fundamental əhəmiyyətini əks etdirmək və qeyd etmək üçün imkan yaradıb. Bu hadisə sərginin keçirilməsi və hamının insan hüquqlarını dəstəkləməyə çağırılması ilə qeyd olunub. Minlərlə məktəb yaşlı uşağın insan alverindən necə qorunmaqla bağlı bacarıqları gücləndirilib. Uşaq hüquqları üzrə milli baş təlimçilər ölkədə uşaq hüquqlarına dair təlimlər keçmək üçün artıq zəruri vasitələrlə təmin ediliblər. “Uşaqların zərərli informasiyadan qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilib.

BMT-nin birgə dəstəyi Hökumətə insan hüquqları sahəsində beynəlxalq standartların yerinə yetirilməsini yaxşılaşdırmaq məqsədilə dəstəyin göstərilməsi, milli qurumların məlumatları toplamaq və işləmək, habelə onlardan məqsədəuyğun siyasətlərin hazırlanmasında və icrasında istifadə etmək potensialının gücləndirilməsində vacib rol oynayıb. Məlumatların toplanması üzrə bir sıra fəaliyyətlər əhalinin həssas təbəqələrinin vəziyyəti barədə keyfiyyətli məlumatların əldə olunması ilə nəticələnib.

UNAPF-da həssas qruplara prioritet qaydada diqqət yetirilib və müxtəlif qruplar, o cümlədən məcburi köçkünlər, əlilliyi olan şəxslər, müharibə veteranlarına yönələn bir çox layihələr mövcuddur. Bu, UNAPF-ın DİM-lərin "heç kəsi kənarda qoymamaq" prinsipinin təşviqi istiqamətində effektivliyini nümayiş etdirir. Nəticə Qruplarının üzvlərinin bildirdiyinə görə, bu layihələrə və təşəbbüslərə aşağıdakılar daxildir: ölkədə

beynəlxalq insan hüquqları standartlarının təmin edilməsinə dəstək; gənclərin (məs.17 gənc səfir), qadınların (Qadın Resurs Mərkəzləri vasitəsilə 1000-dən yuxarı kəndli qadına dəstək) və əlilliyi olan şəxslərin səlahiyyətləndirilməsi (iqtisadi səlahiyyətləndirmə də daxil olmaqla müxtəlif layihələr vasitəsilə).

Effektivliklə bağlı bu bölmə üçün son olaraq qeyd etmək lazımdır ki, 2018-ci ildə keçirilən İstiqamətləndirici Komitənin iclasında İqtisadiyyat nazirinin müavini bildirib ki, 2017-ci il ölkə üçün çətin il olsa da, UNAPF çərçivəsində bir sıra nailiyyətlər əldə olunub. İnsan İnkişafı İndeksi və gender bərabərliyi g kimi nəticə göstəricilərində irəliləyiş müşahidə olunub. 2019-cu ildə keçirilən iclasda isə İqtisadiyyat naziri qeyd edib ki, UNAPF qeyri-neft sektorunda səriştə artımına, kənd təsərrüfatının müasirləşdirilməsinə, və təbii ehtiyatlardan dayanıqlı istifadəyə töhfə verib.

### 2. Nəticələrin əldə olunmasında müsbət faktorlar və çətinliklər

**Aşkar edilən fakt: UNAPF nəticələri istiqamətində irəliləyişə töhfə verən bəzi əsas faktorlara sabit siyasi mühit və hökumətlə BMT arasında yaxşı münasibətlərin olması daxildir. Çətinliklərə gəldikdə, dövlət orqanları arasında əlaqələndirmənin məhdudluğu UNAPF-ın icrası üçün məhdudlaşdırıcı amil kimi çıxış etmişdir.**

Sabit siyasi mühit və Hökumətlə BMT arasında münasibətlərin yaxşı olması UNAPF çərçivəsində daha effektiv nəticələrin əldə olunmasında mühüm rol oynayıb. Bundan əlavə, UNAPF-ın icrası müddətində müxtəlif səviyyələrdə beynəlxalq təcrübələr və qabaqcıl nümunələr istifadə olunub ki, bu da digər ölkələrdən öyrənməklə nəticələrə nail olunmasında effektivliyi artırıb.

Sənədlərdən, habelə nəticə qrupları ilə görüşlərdən və müsahiblərdən əldə olunan məlumatlar göstərir ki, dövlət orqanları arasında əlaqələndirmənin məhdudluğu UNAPF-ın icrası üçün məhdudlaşdırıcı amil kimi çıxış edib. Tərəfdaşlar arasında məlumatların optimal səviyyədə bölüşülməməsi işin səmərəliliyini azaltmış və gecikmələrə səbəb olmuşdur.

Lakin qeyd etmək lazımdır ki, İqtisadiyyat Nazirliyi həm nəticə qruplarının, həm də İstiqamətləndirici Komitənin iclaslarının keçirilməsi, məlumat mübadiləsi və öz səlahiyyətləri daxilindəki digər məsələlərin tənzimlənməsi vasitəsilə yuxarıda qeyd olunan sənədin icrasına dair əlaqələndirmə funksiyasını tam yerinə yetirdiyini hesab edir.

## C. ƏLAQƏLƏNDİRMƏ VƏ PROSEDURLAR

Texniki tapşırıqda əlaqələndirmə Azərbaycandakı BMT İnkişaf sisteminin bəyan olunan birgə əlavə dəyərinin doğruluğu kimi müəyyən olunub:

### 1. BMT təşkilatları arasında sinergiyalar, birgə proqramlaşdırma və birgə proqramlar

**Aşkar edilən fakt: UNAPF məlumatların mütəmadi bölüşülməsi vasitəsilə BMT proqramları arasında daha yaxşı sinergiyaların əldə olunmasına töhfə verib. Bu, bir sıra müştərək proqramlarla və BMT təşkilatları tərəfindən müəyyən qədər birgə proqramlaşdırma ilə nəticələnib. UNAPF həmçinin qurumlararası əməkdaşlığı artırıb: UNAPF çərçivəsində BMT təşkilatları Nəticə Qruplarında iştirak edib**

**və ya onlara həmsədrlik edib, birlikdə Müştərək İş Planlarının hazırlanmasında və monitorinqində iştirak ediblər. BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) daxilində də yaxşı sinergiya mövcuddur. Belə ki, təşkilatlar mümkün dərəcədə bir-birinə dəstək göstərir. Lakin sinergiyalar daha da artırıla bilər və onların nazirliklərarası əməkdaşlığı tam əhatə etmədiyi görünür. Müştərək proqramların hazırlanması və icrası ilə bağlı çətinliklərə əməliyyatlarla bağlı və praktiki xarakterli amillər, məsələn, ikiqat xərclər, təşkilatların fərqli strategiyalarla işləməsi, maliyyələşmə üçün rəqabətin artması daxildir. Bəzi məsələlər UNCT səviyyəsində, digərləri isə Baş Qərargah səviyyəsində həll oluna bilər.**

UNDAF sənədində göstərilirdi ki, "Vahid icra üçün Standart Əməliyyat Prosedurları"nın ən məqsədəuyğun və mümkün elementləri tətbiq olunacaq. UNCT, UNAPF sənədinin icrasını sürətləndirmək və müştərək nəticələr əldə etmək üçün Standart Əməliyyat Prosedurlarından istifadə edib. Bu, Standart Əməliyyat Prosedurlarının təməl elementləri vasitəsilə edilib: Vahid Proqram; Vahid Büdcə Çərçivəsi; Vahid Lider (UNCT-nin Davranış Kodeksini yekunlaşdırmaq və təsdiq etmək üçün); Vahid Fəaliyyət (İşgüzar Əməliyyatlar Strategiyası yanaşmasını tətbiq etmək üçün); Vahid Kommunikasiya (müştərək kommunikasiya strategiyası formalaşdırmaq üçün); və Resursların səfərbər olunması üzrə müştərək strategiya. Bütün bu təməl elementlər bu qiymətləndirmə hesabatının müxtəlif bölmələrində əhatə olunur.

Qiymətləndirmə heyəti müəyyən etdi ki, UNAPF müxtəlif mexanizmlər vasitəsilə, BMT təşkilatlarının proqramları arasında daha yaxşı birgə əməkdaşlığa nail olunmasına töhfə verib. UNAPF təşkilatlararası əməkdaşlığı artıraraq BMT təşkilatlarını nəticə qruplarında iştirak və ya həmsədrlik etməyə, Müştərək iş planlarını hazırlamağa, icra etməyə və onların icrası barədə hesabat verməyə cəlb edib. UNAPF BMT təşkilatları üçün özlərinə təşkilati yanaşmaların uzlaşdırılmasının və bir-birinə mümkün qədər dəstək göstərməyin əhəmiyyətini xatırlatmaq üçün fürsətdir. Məsələn, Beynəlxalq Miqrasiya Təşkilatının insan alveri ilə mübarizə işinin sağlamlıqla bağlı müəyyən komponentləri var və indi təşkilat layihələri texniki tərəfdən ÜST-nin strategiyası ilə əlaqələndirmək barədə düşünür.

Rezident Əlaqələndiricinin Ofisinin dəstəyi və strateji liderliyi artır. Bu, BMT İnkişaf Sistemindəki islahat çərçivəsində onun potensialının və resurslarının artması ilə bağlıdır. Belə ki, həmin islahat çərçivəsində Rezident Əlaqələndiricinin Ofisi BMTİP-dən ayrıldı və 2019-cu ilin yanvar ayından başlayaraq maliyyələşməsi artırıldı.

Lakin BMT-nin təşkilatları sinergiyaların hələ də artırıla biləcəyini və UNAPF-ın icrasında zəif cəhətlərin olduğunu etiraf etdilər. Məsələn, BMT təşkilatları sənədə heç də həmişə istiqamətləndirici çərçivə kimi yox, daha çox istinad sənədi kimi yanaşır. Bundan əlavə, təşkilatlar arasında sinergiyalar çox gözə dəymir və nazirliklərarası əməkdaşlıqda müəyyən məhdudiyyətlər var.

UNAPF sənədində göstərilir ki, BMT-nin Ölkə üzrə İdarə Heyəti strateji nəticələr və kəsişən sahələrdə Birgə Proqramlar (məqsədəuyğun olduqda), tərəfdaşlığın qurulması, planlaşdırma/hesabatvermə və birgə təşviqat səyləri vasitəsilə UNAPF-ın icrasına strateji səviyyədə birgə məsul olacaqdır. Məsləhətçilər bu hədəfin tam qarşılanmadığını qeyd edir, çünki UNAPF-ı əlaqələndirilmiş şəkildə icra edən birgə proqramların sayı azdır.

Əsas proqram "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və

rifahının təmin olunması" adlanır.[29] Proqramın müddəti 24 ay olmaqla, 2018-ci ilin dekabr ayından 2020-ci ilin dekabr ayına qədərki dövrü əhatə edir. Təqribi büdcəsi 995 540 ABŞ dollarıdır. Birgə proqram BMTİP və UNFPA-nın birgə maliyyə dəstəyi ilə, Hökumət tərəfindən maliyyələşdirilir. O, vəsaitlərin paralel idarə edilməsi modulundan istifadə edir. Proqramın UNAPF sənədinin 1-ci Nəticəsinə nail olunmasına töhfə verməsi nəzərdə tutulur: "2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmə dərinləşir, dayanıqlı artım səviyyəsi yüksəlir və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerləri yaradılır". Proqram Bakı, Masallı və Salyanda icra olunur və məqsədi Hökumətin qadınlara və Dağlıq Qarabağ müharibəsi veteranlarına xüsusi diqqət yetirməklə əlilliyi olan şəxslərin hüquqlarını qorumaq və icra etmək istiqamətində göstərdiyi səylərə töhfə verməkdir. Əsas tərəfdaş hökumət qurumu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyidir. Layihə həmçinin Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Dövlət Statistika Komitəsi ilə sıx əməkdaşlıq şəraitində həyata keçiriləcək. Proqramın uğurlu icrası üçün yerli icra hakimiyyəti orqanları, dövlət və özəl sektordan olan işəgötürənlər, KİV, icmalar və QHT-lərlə fəal əməkdaşlıq edilir. Gəlir imkanlarının və məkanların əlçatanlığının yaxşılaşdırılmasından birbaşa və dolayı formada 6000 benefisiar (ilkin olaraq 2500 benefisiar planlaşdırılırdı) faydalanıb. Hədəf qrupların həssaslıqları və potensialları barədə kəmiyyət və keyfiyyət yönlü məlumatların mövcudluğu yaxşılaşdırılacaq; və əlilliyi olan şəxslərə qarşı ictimai qınaq və ayrı-seçkiliyi azaltmaq üçün ictimai düşüncələrin dəyişməsi təşviq ediləcək.

UNAPF çərçivəsində icra edilən daha bir birgə proqram isə "Cənubi Qafqazda qadınların iqtisadi səlahiyyətlərinin artırılması" adlanır. Bu, BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumunun ("BMT-nin Qadın Qurumu") Gürcüstandakı Nümayəndəliyi tərəfindən əlaqələndirilən və Azərbaycanda BMTİP tərəfindən icra edilən 3 illik regional layihədir. Bu layihə Azərbaycanda özəl sektorda qadınların iştirakı ilə bağlı imkanların və problemlərin BMTİP və UNFPA tərəfindən birgə qiymətləndirilməsini nəticəsində ərsəyə gəlib.

UNAPF sənədində həmçinin əlavə olunur ki, əsas icra vasitələri əlaqələndirmə mexanizmləri vasitəsilə UNAPF-ın icrası müddətində daha da dəqiqləşdiriləcək. Bu vasitələrin bəziləri üçün birgə proqramlaşdırma və ya maliyyələşmənin tələb olunması ehtimalı yüksəkdir. Bununla da, UNCT əsaslı birgə proqramlaşdırma və qurumlararası əməkdaşlığa səy göstərməli, resurslar cəlb etmək üçün imkanları və "birləşdirilmiş" yanaşmaları araşdırmalı, Vahid İcra üçün Standart Əməliyyat Prosedurlarının ən məqsədəuyğun və mümkün elementlərini tətbiq etməlidir.

UNAPF *birgə proqramlaşdırma və/və ya birgə təşəbbüslər* vasitəsilə təşkilatlar arasında əlaqələndirilmiş şəkildə icra olunub. Lakin qiymətləndirmə heyəti düşünür ki, bu ambisiya ilkin gözləntiləri doğrultmamış ola bilər. Buna dair bir sıra nümunələr aşağıda təqdim olunur.

Gender sahəsi ilə bağlı olaraq, Gender üzrə Tematik Qrupun iş planında BMT təşkilatları təşkilatların icra etdiyi genderlə əlaqəli tədbirləri sadalayıb, lakin həmin tədbirləri paralel maliyyələşmə vasitəsilə birgə maliyyələşdirməyib. UNFPA tərəfindən Gender Tematik Qrupunun tədbirləri çərçivəsində gender əsaslı zorakılığa qarşı hər il təşkil olunan 16 günlük kampaniyalar çərçivəsində təşkilatlar arasında birgə səylərə dair uğurlu nümunələr də var. Bu kampaniyalar ölkədə gender əsaslı zorakılıq hallarının aradan qaldırılmasına yönələn təşviqat səyləri vasitəsilə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yerli QHT-lərlə əməkdaşlıq şəraitində həyata keçirilir. UNAPF-da gender məsələlərinin aktuallaşdırılmasına

[29] Bax: Birgə proqram sənədi, "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin olunması"

dair daha ətraflı məlumatlar üçün bu hesabatda "Gender bərabərliyi və qadınların səlahiyyətləndiriməsi" bölməsinə baxın.

Gənclərin səlahiyyətləndirilməsi sahəsində UNCT BMT-nin Gənclərdən İbarət Məşvərət Şurasından (UNYAC) daha çox istifadəni dəstəkləyir. Bu, UNİCEF, UNFPA, BMTİP, ÜST və Rezident Əlaqələndiricinin Ofisinin Katiblik, Prezident Aparatı, Gənclər və İdman Nazirliyini və bu sahədə çalışmağa səy göstərən bütün digər nazirlikləri bir araya gətirdiyi məsləhətçi qrupdur. UNİCEF-in rəhbərliyi altında bir sıra BMT təşkilatları (UNFPA, BMTQAK, BMT Könüllüləri və BMTİP) və UNYAC Mingəçevir və Binəqədidə hökumət tərəfindən idarə olunan Gənclər Evlərinə kompleks xidmətlər paketi təmin etmək üçün bir araya gəldilər. Bu təşəbbüs nəticəsində 1200 nəfərdən artıq gənc əsas həyat bacarıqları, DİM-lər barədə biliklər, könüllülük, reproduktiv sağlamlıq barədə maarifləndirmə, gender əsaslı zorakılığın qarşısının alınması və psixoloji və hüquqi məsləhətləşmədən faydalandılar. Gənclər evləri üzrə digər birgə fəaliyyətlərin genişləndirilməsi davam edir.

Qiymətləndirmə heyəti müəyyən etdi ki, birgə proqramların yaradılması və icrasındakı çətinliklərə əməliyyatlarla bağlı olan və praktiki təsirlər daxildir:

- Layihələr üçün maliyyə vəsaitlərinin cəlb olunması ilə əlaqədar ikiqat xərc. Bir neçə təşkilat bir donora maliyyələşmə üçün müraciət etdikdə, onlardan yalnız biri əsas təşkilat kimi seçilir və maliyyə vəsaitlərini qəbul edir. Vəsaitlərin bir hissəsinin digər bir təşkilata köçürülməsi təşkilatların Ümumi İdarəetmə Dəstəyi ödənişləri ilə əlaqədar ikiqat xərcə səbəb olur, çünki bu ödənişlər elektron sistem (Atlas) tərəfindən avtomatik şəkildə tutulur. Adətən donorlar, xüsusilə Avropa İttifaqı 1-dən artıq bank hesabı qəbul etmir. Çoxdonorlu məqsədli fondun bu ikiqat xərc məsələsini həll edəcəyinə ümid edilir.
- Bəzi təşkilatlar əsas və donor maliyyələşməsinə malikdir ki, bu, onlara öz yanaşmalarını müəyyən etmək imkanı verir. Digər təşkilatlar daha çox layihə əsaslı yanaşma ilə çalışır. Proqram dövrələri də fərqlidir. Məsələn, ÜST və BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı 2 illik proqram dövrələrinə malikdir.
- İlk müştərək iş planlarının hazırlanması müəyyən qədər vaxt apardı (2016-cı ilin sonuna qədər) və ilk müştərək iş planı (MİP) 2017-ci ilin ortasında icra olunmağa başladı. Həmin vaxt isə bəzi təşkilatlar artıq layihələrin icrasına başladığından, yeni fəaliyyətlərin MİP-lərin çərçivəsinə salınması bir qədər vaxt aldı. MİP-lərin ilkin təqdimatı 2017-ci il mayın 11-də keçirilən nəticə qruplarının iclaslarında baş tutdu.
- Təşkilatlar müxtəlif strategiyalarla işləyir və bəziləri daha çox əməliyyat xarakterli fəaliyyətlər həyata keçirir, digərləri isə daha çox strateji məsləhətlərə yönəlir. Bu cür fəaliyyətlərin bir-birini tamamlama imkanına baxmayaraq, onların birgə proqrama cəlb olunması çətin ola bilər.
- Bu proqramları dəstəkləmək üçün 2016-2017-c illərdə Rezident Əlaqələndiricinin Ofisinin işçi heyəti məhdud idi. 2016-cı ildə Rezident Əlaqələndiricinin Ofisinin heyəti yalnız bir əməkdaşdan ibarət olsa da, indi altı əməkdaşdan ibarətdir. BMT İnkişaf Sisteminin islahatına uyğun olaraq, tərəfdaşlıqlar və maliyyələşdirmə, məlumatların idarə olunması, nəticələrin monitorinqi və hesabatvermə üçün inkişaf əlaqələndirməsi üzrə yeni işçi funksiyalarının yaradılması ilə monitorinq və qiymətləndirmə, əlaqələndirmə potensialları artırıldı. Yaxın gələcəkdə Rezident Əlaqələndiricinin Ofisinə Strateji planlaşdırma üzrə müşavir və iqtisadçının əlavə olunması ilə onun daha da güclənəcəyi gözlənilir. Bütün bunlar həmin Ofisə mövcud institusional mexanizmləri yeni səviyyədə qavramaqda kömək edəcək.

- Hazırlandığı vaxt bəzi təşkilatlar üçün ola bilsin ki, həddən artıq iddialı olan UNAPF-ın planlaşdırılması qarşılana bilməyən təqribi büdcə və proqram tədbirlərini əks etdirib.
- Bəzi BMT təşkilatlarının xüsusən potensial əməkdaşlığın mümkün olacağı sahələrdə əməkdaşlığa meylli olmaması maliyyələşmə üçün rəqabətin artdığına işarə edir.
- Səmərəli sahələrarası əməkdaşlığı təmin etmək və birgə proqramlar vasitəsilə birgə öhdəliklərə dəstək göstərmək üçün müvafiq nazirliklər arasında UNAPF barədə məlumatlılıq məhduddur.

Nəticə olaraq, dəlillər göstərir ki, UNCT ümumi nəticələr üçün qarşılıqlı hesabatlılığın əhəmiyyətini artıran birgə proqramlar və proqramlaşdırma vasitəsilə UNAPF-ın icrası üçün müəyyən səylər göstərmişdir. UNAPF-ın daha əlaqələndirilmiş şəkildə icra olunması və birgə yanaşmalar, sinergiyalar və əsaslı birgə proqramlaşdırma hәmcininmümkün olduqda birgə proqramları stimullaşdırmaq üçün alət kimi istifadə edilməlidir. Bundan əlavə, BMTİP, UNFPA, UNİCEF və Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumunun ("BMT-nin Qadın Qurumu") "Ümumi Bölmə" təşəbbüsünə əsaslanaraq, birgə proqramlaşdırmanı artırmaq imkanı mövcuddur. Həqiqətən də, Dördillik Əhatəli Siyasi İcmal, 71/243 saylı qətnamə, eləcə də Baş Katibin Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinin icrası üçün BMT inkişaf sisteminin mövqeyinin yenidən təşkili ilə bağlı islahatlarına uyğun olaraq, BMTİP, UNFPA, UNİCEF və BMT-nin Qadın Qurumu nəticələrə dəstək üçün daha yüksək uzlaşmaya nail olmaq məqsədilə daha yaxşı birgə fəaliyyət öhdəliyini üzərlərinə götürüb. Bu öhdəlik onların 2018-2021-ci illər üçün müvafiq Strateji Planlarının "Ümumi Bölmə"sində əks olunur.

UNCT-nin 2019-cu il müşavirəsində təşkilatlar arasında mümkün əməkdaşlıq sahələrini və tərəfdaşlıq imkanlarını müəyyən etmək üçün maraqlı məşğələ həyata keçirilib. Bu məşğələ aktiv, məhsuldar keçməklə yanaşı, UNCT hesabatının 5-ci Əlavəsində mümkün birgə fəaliyyətlərin müəyyən edilməsinə imkan verib.

### 2. Qeyri-rezident təşkilatların cəlb olunması

**Aşkar edilən fakt: BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi UNAPF əsasında və Azərbaycanda birgə proqramlaşdırma aparmaq məqsədilə qeyri-rezident təşkilatların digər təşkilatlarla və müvafiq dövlət qurumları ilə əlaqələndirilməsinə böyük dəstək göstərib. Qeyri-rezident təşkilatların bir çox layihələri UNAPF nəticələrinə və milli prioritetlərə nail olunmasına töhfə verib. Bununla belə, UNAPF və UNCT-nin müxtəlif qeyri-rezident təşkilatların təcrübələrindən daha çox istifadə etməsi və Hökumətə onların özünəməxsus təcrübələrindən tam faydalanmaq imkanı verməsi zəruridir.**

Rezident Əlaqələndiricinin Ofisi əməkdaşlığı yaxşılaşdırmaq üçün BMT-nin qeyri-rezident təşkilatları, o cümlədən IAEA, IFAD, UN-Habitat, UNCTAD, UNECE, UNEP, UNESCO, UNIDO, UNODC və Dünya Bankının Azərbaycandakı Nümayəndəliyi ilə kommunikasiyasını gücləndirdi. Üç qurum istisna olmaqla (IFAD, UN-Habitat və UNESCO), digərləri UNAPF sənədini imzalayıb. IAEA-dan başqa digərlərinin adları UNAPF-ın Nəticələr Çərçivəsində yer alır. QRA-lərdən beşi - UNCTAD, UNECE, UNEP, UNESCO və UNİDO-nun maliyyə töhfələri UNAPF-ın Nəticələr Çərçivəsində göstərilir. Lakin cəmi iki Qurum (UNECE və UNEP) Müştərək İş Planlarına töhfə verib. Dünya Bankı ilkin olaraq Nəticə Qruplarından birinin həmsədri olsa da, icranın erkən mərhələsində bu vəzifədən çəkildi. O, UNAPF üzrə birgə planlaşdırma, monitorinq və ya hesabatvermə proseslərində iştirak etməsə də, UNCT-nin 2019-cu il müşavirəsində və digər BMT təşəbbüslərində iştirak etdi.

Qiymətləndirmə heyəti QRA-lərin iştirakı və onların UNAPF-ın icrası ilə bağlı baxışları barədə daha yaxşı təsəvvürə malik olmaq məqsədilə suallardan ibarət siyahıya yazılı cavablar və/yaxud Skype/telefon

üzərindən müsahibələr yolu ilə QRA-ların rəylərini əldə etmək üçün xüsusi səy göstərdi. Təkcə bu təşkilatların UNAPF-da iştirakının dinamikasını deyil, həm də onların iştirak etməməsinin mümkün səbəblərini anlamağa səy göstərildi. Əksər QRA-lər ilə əlaqə saxlanıldı.

UNECE qeyd etdi ki, nəticələr üzrə planlaşdırılan fəaliyyətlərin əksəriyyəti icra olunub. UNECE həmçinin rezident təşkilatlarla müntəzəm əməkdaşlıq edib. UNAPF-ın planlaşdırma sikllləri və UNECE-nin mütəmadi büdcəsi fərqlənir və bu UNAPF-ın imzalanma mərhələsində proqnozlaşdırıla biləcək fəaliyyətlərin miqdarına təsir edir. UNAPF hazırlanarkən, UNECE adətən artıq məlum olan və təsdiqlənmiş fəaliyyətləri UNAPF-a daxil edir. Bununla belə, sonrakı mərhələlərdə UNECE-nin hökumətlərarası prosedurlarında müvafiq fəaliyyətlər təsdiq olunduqda UNECE mütəmadi olaraq planlaşdırılan və icra edilən fəaliyyətlərin siyahılarını MİP-lərə inteqrə edilmək üçün Rezident Əlaqələndiricinin Ofisinə göndərir.

UNEP qeyd etdi ki, Azərbaycan keçid dövründə olan ölkədir və UNAPF dövrü ərzində onun uyğunluğu inkişaf edir. Lakin sənəd müvafiq nazirliklərlə müəyyən ediləcək və icra ediləcək cari iş və prioritetlərə strateji cəhətdən yön vermək üçün vacibdir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rəhbərliyindəki dəyişiklik uyğunluq və prioritetlərin təyin olunması baxımından hazırkı UNAPF-a təsir edib.

UN-Habitat hazırkı UNAPF dövründə iştirak etməsə də, növbəti BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsində qeyri-rezident təşkilat kimi iştirak etmək niyyətindədir. UN-Habitat Azərbaycanda öz fəaliyyətlərini genişləndirməyi planlaşdırır və Rezident Əlaqələndiricinin Ofisi, UNEP, BMqT və Dövlət Statistika Komitəsi, Diasporla iş üzrə Dövlət Komitəsi və digər tərəfdaşlarla UNAPF məqsədlərinə dəstək olaraq ölkə və regional səviyyəli təşəbbüslərdə iştirakını gücləndirir. UN-Habitat-ın hazırkı fəaliyyət sahələri aşağıdakılardan ibarətdir: BMqT ilə birlikdə Diaspora və Şəhər Sammitinə texniki yardımın göstərilməsi; Gəncədə şəhər səviyyəli planlaşdırmanın dəstəklənməsi; şəhər əraziləri ilə bağlı DİM hədəflərinin monitorinqi və hesabatverme; UNEP-lə birlikdə "Xəzər dənizi regionunda urbanizasiya və iqlim dəyişikliyinə uyğunlaşma" regional proqramının dəstəklənməsi.

UNCTAD BMT Katibliyinin tərkibindədir və birbaşa Baş Assambleyaya hesabat verir. UNCTAD məhdud qeyri-əsas, büdcədənkənar resurslara malikdir. UNCTAD-ın büdcədənkənar resursları əsasən ölkələr üzrə deyil, mövzular üzrə təşkil olunur. Ölkə səviyyəsində və "Vahid İcra" kontekstində, UNCTAD-ın iştirakı BMT-nin Rezident Əlaqələndiricisinin Ofisinin resursların cəlb olunması strategiyasını səmərəli şəkildə hazırlamaq və təşkilatları (o cümlədən qeyri-rezident təşkilatlar) bu resurslardan faydalanmağa dəvət etmək potensialından asılıdır. Strategiya səmərəli olduqda, ilkin olaraq cəlb olunmuş vəsaitlər katalizator kimi çıxış edir və UNCTAD-a əlavə resurslar ayırmaq imkanı verir. Bu cür vəsaitlər əldə olunduqdan sonra (UNDAF-a dəstək üçün "Vahid BMT" Fondundan və/yaxud hökumətin UNDAF nəticələrinin əldə olunması ilə əlaqəli ayırdığı maliyyələşmədən), UNCTAD bu UNDAF-ı prioritetləşdirə, UNCTAD-ın bəzi büdcədənkənar vəsaitlərini UNDAF nəticələri ilə əlaqəli mövzuya ayıra və həmçinin özünün əsas resurslarının bir hissəsini (işçi heyətin vaxtı və əmək haqqı) istifadə edə bilər.

UNCTAD mövzular üzrə ayrılmış büdcədənkənar resurslardan və ya əsas resurslardan Azərbaycan üçün maliyyələşmə ayıra bilmədiyini vurğulayıb. BMT-nin Ətraf Mühit Proqramı qeyd edib ki, UNAPF nəticələri və məqsədləri reallığa daha yaxın olmaqla, maliyyə ayırmaları və resursların cəlb olunması ilə bağlı müxtəlif ssenariləri nəzərdə tutmalıdır.

UNCTAD onun unikal təcrübəsinin ölkə səviyyəsində Hökumət tərəfindən daha yaxşı tanınmasını və istifadə edilməsini istəyir. UNCTAD üç təməl element üzrə işləyir - tədqiqat, konsensusun yaradılması və

texniki əməkdaşlığın həyata keçirilməsi. Kifayət qədər yaxşı maliyyələşdirilərsə, UNCTAD yüksək səviyyəli siyasi məsləhətləri UNDAF nəticələrinə töhfə verən effektiv birgə proqramlara çevirə bilər.

Bir sıra təşkilatlar qeyd edib ki, ölkə səviyyəsində müyəssər olan BMT təcrübəsinin, o cümlədən qeyri-rezident təşkilatların təcrübəsinin xəritələşdirilməsi BMT tədbirlərinin daha yaxşı əlaqələndirilməsinə və səmərəliliyinin yaxşılaşmasına gətirib çıxara bilər. Bu baxımdan, IAEA qeyd edib ki, o, son dövrlərdə Rezident Əlaqələndiricinin Ofisinin vasitəçiliyi ilə BMT-nin Azərbaycandakı Nümayəndəliyi ilə inkişaf sahəsində əməkdaşlığa başlayıb. IAEA-nın Azərbaycan Hökuməti ilə əməkdaşlığı uzunmüddətli tarixə malikdir və Hökumətlə ikitərəfli "Ölkə Proqramı Çərçivəsi"nə əsaslanır. IAEA-nın Azərbaycanda üzərində işlədiyi və ya planlaşdırdığı təşəbbüslərin bəzilərinin müəyyən aspektləri məsələn, ÜST və FAO-nun işi ilə üst-üstə düşdüyündən, əlaqələndirmə vacib hesab edilir.

Müsahibə aparılan bütün qeyri-rezident təşkilatlar qeyd etdi ki, Rezident Əlaqələndiricinin Ofisi UNAPF əsasında və ya Azərbaycan üçün birgə proqramlaşdırma məqsədilə qeyri-rezident təşkilatların digər təşkilatlarla və müvafiq dövlət qurumları ilə əlaqələndirilməsinə dəstək göstərib. İnkişaf səylərinin əlaqələndirilməsində Rezident Əlaqələndiricinin Ofisinin rolu çox vacib hesab edilir və onun innovasiyaya açıq olması, eləcə də qeyri-rezident təşkilatların iştirakı ilə birgə BMT proqramlaşdırmasına şərait yaratması son dərəcə önəmlidir. UN-Habitat "Şəhərlərin dayanıqlı inkişafına dair BMT sistemi miqyaslı strategiya"nın icrasını təşviq etmək istəyir.

UNİDO-nun layihələri UNAPF nəticələrinə və milli prioritetlərə nail olunmasına töhfə verib. Məsələn, UNİDO-nun "Resurslardan səmərəli istifadə edən və daha təmiz istehsal" (RECP) komponenti 2014-2015-ci illərin maliyyə böhranı fonunda ölkənin resurslardan istifadənin azaldılması/iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı ehtiyaclarına uyğun idi. UNİDO həmçinin milli potensialların gücləndirilməsinə, kiçik və orta ölçülü istehsal müəssisələrinin qiymətləndirilməsinə, habelə təmiz istehsalla bağlı təkmil qiymətləndirmələrin aparılmasına töhfə verib. Sənayenin sektorları tərəfindən resurslardan istifadənin müxtəlif aspektlərinə həsr olunmuş bir sıra forumlar keçirilib. Bu forumlar Azərbaycan dilində hazırlanmış milli RECP ilə bağlı vəsaitin yekunlaşdırılmasına imkan verib. Bununla belə, UNİDO müştərək iş planlarının hazırlanmasında və ya hesabatvermə prosesində iştirak etməyib.

Dünya Bankı qeyd etdi ki, UNAPF-ın icrasının əvvəlində Nəticə Qruplarından birinin həmsədrliyindən geri çəkilməsinin səbəbi onunla bağlı idi ki, hökumət, BƏT və digər BMT təşkilatları ilə müzakirələrdən sonra yekdilliklə qərara alınıb ki, Nəticə Qrupuna həmsədrlik etmək üçün daha uyğun təşkilat BMTİP-dir. Buna baxmayaraq, əməkdaşlıq fəal və inklüziv şəkildə həyata keçirilmiş, Dünya Bankı UNAPF müddətində müxtəlif sessiyalara, müşavirələrə və geniş müzakirələrə dəvət olunmuşdur, çünki UNAPF prioritetləri həm də Dünya Bankının Azərbaycandakı prioritetləri ilə uzlaşır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi qeyd edib ki, bir neçə sahədə, o cümlədən 3-cü prioritet sahədə bir sıra tədbirlər Ümumdünya Səhiyyə Təşkilatı və Dünya Bankı kimi rezident təşkilatlarla və UNEP, Avropa İqtisadi Komissiyası, Sənayenin İnkişafı Təşkilatı, Atom Enerjisi üzrə Beynəlxalq təşkilat və UNESCO kimi qeyri-rezident təşkilatlarla əməkdaşlıq yolu ilə həyata keçirilib, lakin onların bəziləri UNAPF-ın Nəticələr Çərçivəsində nəzərə alınmayıb.

Müsahibələrə və suallara verilən cavablara əsaslanaraq, məsləhətçilər QRA-ların nümayəndələri tərəfindən verilən və cari UNAPF və növbəti UNSDCF üçün faydalı ola biləcək bir sıra təklifləri vurğulamaq istəyirlərr.

- Bəzi QRA-lər qeyd etdi ki, onların VÖQ/UNSDCF proseslərində iştirakı üçün daha inklüziv və əlverişli mühitin yaradılması və səmərəli əlaqələndirmə mexanizmləri UNCT-ə və ölkəyə milli prioritetlərə nailolma istiqamətində bu təşkilatların unikal və xüsusi təcrübəsindən daha yaxşı faydalanmasına imkan verə bilər. QRA-lərin cəlb olunması institusional çərçivəyə salına bilər. Səsləndirilən konkret ideyalara məlumatların bölüşülməsi, bütün təşkilat rəhbərləri və ya əlaqələndirici şəxslər üçün e-məktub siyahıları, xəbər bülletenləri, brifinq sənədləri, İKT vasitələrindən istifadə edərək UNCT-nin iclaslarında uzaqdan iştirak imkanları və müvafiq tərəfdaşlarla kəsişən texniki sahələr üzrə yeni tərəfdaşlıqların asanlaşdırılması və ya vasitəçilik edilməsi daxildir. Bu ideyalar növbəti UNAPF sənədinin daha inklüziv olmasına imkan verə, Hökumətin müxtəlif təşkilatların unikal təcrübəsindən ölkə səviyyəsində tam yararlanmasına şərait yarada bilər.

- UNCTAD iqtisadi məsələləri sosial aspektlərlə məhdudlaşdırmadan, məsələn borc idarəetməsi, investisiya, ticarətin asanlaşdırılması kimi Azərbaycan üçün uyğun olan makroiqtisadi məsələləri daxil etməyi təklif etdi.

- UN-Habitat vurğuladı ki, sonuncu məqsədə - regionların balanslı inkişafına söykənərək (kiçik və ikinci dərəcəli şəhərlərin potensialının gücləndirilməsinə xüsusi diqqət yetirməklə), özəl sektorun və vətəndaş cəmiyyətinin iştirakı ilə kənd-şəhər inkişafı, mənzil təminatı və digər əlaqəli sahələr UNAPF-a daxil edilməlidir. Şəhər Tərəqqisi İndeksi təhlilinin aparılması və ya şəhər profilinin hazırlanması ümumi sübut bazasını yaxşılaşdırmaqla yanaşı, böyük şəhərlərin, ikinci dərəcəli şəhərlərin və kənd yerlərinin ərazi planlaşdırması üçün strateji əhəmiyyət daşıya bilər. Ətraf mühit aspektləri, o cümlədən iqtisadiyyata və icmalara təsir edən iqlim dəyişikliyi ilə bağlı aspektlər ön plana çəkilməlidir. Tərəqqiyə yönələn tədbirləri milli səviyyəyə çatdırmaq üçün şəhərlərin roluna xüsusi olaraq nəzər yetirilməlidir. Mədəni irsin qorunması və səmərəli idarə olunması, məcburi köçkünlər üçün sərfəli və adekvat mənzil təminatı, kənddən şəhərə miqrasiya və kənd-şəhər kontinuumunun birgə təhlili və icrası BMqT və FAO tərəfindən ön plana çəkilə bilər.

- UNİDO mikro səviyyədə istehsal potensialının inkişaf etdirilməsində əldə olunmuş irəliləyişi və meso və makro səviyyələrdə məhsuldar sektorlara doğru struktur əsaslı transformasiyanın qiymətləndirilməsinin zəruriliyi ilə yanaşı, istehsal potensialının gücləndirilməsinə mane olan məhdudiyyətlərin tənqidi təhlilin vacibliyini vurğuladı. Hərtərəfli VÖQ təhlili əsasında UNSDCF-lərin təməl elementlərinin prioritetləşdirilməsi DİM-lərə nail olunmasına səmərəli şəkildə töhfə vermək üçün balanslı "iqtisadi, sosial və ekoloji qarşılıqlı əlaqəni" təmin etməlidir (yeni VÖQ/UNSDCF təlimatında göstərildiyi kimi).

- UNİDO vahid ölkə qiymətləndirməsində iqtisadi durğunluğun təməl səbəblərini müfəssəl şəkildə qiymətləndirməyi təklif etdi (məs., maraqlı tərəflərin istehsal imkanlarının çatışmazlığı, milli istehsal sistemindəki boşluqların və zəif cəhətlərin müəyyən edilməsi, yerli şirkətlər, xarici şirkətlər, hökumət, QHT-lər və institutlar, o cümlədən universitetlər arasında əlaqələrin və qarşılıqlı fəaliyyətin keyfiyyətinin qiymətləndirilməsi).

- UNİDO həmçinin təklif etdi ki, heç kəsi kənarda qoymamaq üçün, ayaqda qalmağa çalışan və ya ölkənin iqtisadi artımı üçün çox vacib olan müxtəlif növ sahibkarlara diqqət yetirilməlidir. Xüsusilə ayaqda qalmağa çalışan müəssisələrin dayanıqlı artımına təkan vermək və bütövlükdə

iqtisadiyyatın struktur əsaslı transformasiyasına dəstək üçün onların istehsal qabiliyyətləri gücləndirilməlidir.

- Yekun olaraq, növbəti UNSDCF BMT-nin Rezident Əlaqələndiricisinin Ofisinin dəstək göstərdiyi ölkə səviyyəli effektiv və planlı resurs cəlb etmə strategiyasından faydalanmalıdır. Bu strategiyaya DİM-lərin yerli səviyyədə icrası üçün yeni tərəfdaşlıq formaları və maliyyələşmə mexanizmləri daxil olmalıdır. UNCTAD-ın bildirdiyinə görə, resursların cəlb olunması (məsələn, "Çoxtərəfli Məqsədli Fond tərəfindən idarə olunan "Vahid BMT" Ölkə Fondunun yaradılması, dövlət maliyyəsinə çıxış və BMT-nin standart qurumlararası sazişləri) katalizator kimi çıxış edərək UNCTAD kimi qurumlara tələb olunan insan resurslarını və mövzular üzrə ayrılmış qeyri-əsas resurslar təmin etməyə imkan verə bilər.

### 3. Əlaqələndirmə mexanizmləri - İstiqamətləndirici Komitə, Nəticə Qrupları və digər qruplar

**Aşkar edilən fakt: Mövcud əlaqələndirmə mexanizmləri, o cümlədən UNAPF üzrə İstiqamətləndirici Komitə, Nəticə Qrupları, Tematik Qruplar (İnsan hüquqları, gender, DİM-lər) və digər Qruplar (Kommunikasiya, Monitorinq və qiymətləndirmə, Əməliyyatlar üzrə İdarəetmə Heyəti) nəticələrin birlikdə uzlaşdırılmasını təmin etməyə kömək etmiş, 5 nəticə üzrə çoxaspektli sahələrdə icra, planlaşdırma, monitorinq, və hesabatvermə işində effektivlik və səmərəliliyin artmasına dəstək göstərmişdir. Bununla belə, mümkün dərəcədə vətəndaş cəmiyyəti təşkilatları, elm ictimaiyyəti və özəl sektor kimi maraqlı tərəflərin müəyyən formada iştirakına şərait yaradılması və bu tərəfdaşların üzləşdiyi təşkilati çətinliklərinin aradan qaldırılması yolu ilə müəyyən təkmilləşdirmə işləri aparıla bilər.**

BMT-nin təşkilatlarının, inkişaf tərəfdaşlarının və digər maraqlı tərəflərin rəhbərlərindən ibarət yüksək səviyyəli birgə İstiqamətləndirici Komitə UNAPF-ın geniş strateji nəticələrinə nail olmaq üçün göstərilən birgə dəstəyə nəzarət edir. Komitə Nəticə Qruplarına strateji istiqamət verir, UNAPF-ın icrasının monitorinqini aparır və gözdən keçirir. UNAPF sənədində və İstiqamətləndirici Komitənin Texniki Tapşırığında göstərildiyi kimi, Komitə UNAPF nəticələrinə nail olunmasında əldə olunan irəliləyişi gözdən keçirmək üçün ən azı ildə bir dəfə iclas keçirir. İlk iclas 2017-ci ilin yanvar ayında, ikinci iclas 2018-ci ilin iyun ayında, üçüncü iclas isə 2019-cu ilin may ayında keçirilib.

UNAPF-ın hər bir strateji sahəsi üzrə üç Nəticə Qrupu yaradılıb. Həmin Qruplara Nazirliklər və BMT-nin təşkilatları həmsədrlik edir. Sonralar bəzi dəyişiklər baş verib, xüsusən Dünya Bankının birinci Nəticə Qrupunun həmsədri vəzifəsindən çıxması qeyd olunmalıdır. Hazırda aşağıdakı Nəticə Qrupları mövcuddur:

- İqtisadi Artım və Layiqli Əmək üzrə Nəticə Qrupu - BMTİP və BƏT ilə İqtisadiyyat Nazirliyi həmsədrlik edir.
- Təşkilati Potensial və Dövlət/Sosial Xidmətləri üzrə Nəticə Qrupu - UNİCEF və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi həmsədrlik edir.
- Ətraf Mühit və Fəlakət Risklərinin Azaldılması üzrə Nəticə Qrupu - FAO və BMTİP ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi həmsədrlik edir.

Bəzi müsahiblər hesab edir ki, mövcud əlaqələndirmə mexanizmləri, o cümlədən İstiqamətləndirici Komitə, Nəticə Qrupları, Tematik Qruplar və digərləri nəticələrin əldə olunması, monitorinq, hesabatvermə və birgə iş planlaşdırmasına səmərəliliyi artırmaq üçün müvafiqdir .

Bununla belə, həmin respondentlər düşünür ki, yaxşılaşdırılmalı məqamlar var. Birincisi, bu platformalara mümkün hallarda vətəndaş cəmiyyəti təşkilatları, elm ictimaiyyəti və özəl sektor daxil edilməlidir. Özəl sektor cəlb olunduğu halda, dövlət-özəl əməkdaşlığı formatı özəl sektorun inkişaf nəticələrinə töhfə verməsinə gətirib çıxara bilər. Bu, həm vətəndaş cəmiyyəti, həm də özəl sektorun növbəti UNSDCF-in hazırlanmasına cəlb olunması yolu ilə yaxşılaşdırıla bilər. QHT nümayəndələri bildirib ki, bu əməkdaşlıq prosesində, o cümlədən İstiqamətləndirici Komitə və Nəticə Qruplarında QHT-lər üçün əhəmiyyətli dərəcədə iştirak imkanları yaradılmayıb və QHT-lər, hökumət və BMT arasında daha intensiv əməkdaşlığa ehtiyac duyulur. Təhsil Nazirliyi öz qeydlərində göstərib ki, vətəndaş cəmiyyəti təşkilatlarının, elm ictimaiyyətinin və özəl sektorun cəlb olunması və ya onların fəaliyyətlərinin genişləndirilməsi yeni əməkdaşlıq çərçivəsinin effektivliyinin və səmərəliliyinin yaxşılaşdırılması baxımından faydalıdır.

İkincisi, qiymətləndirmə vasitəsilə toplanılan dəlillər əməliyyatlarla bağlı digər çətinlikləri müəyyən edib.

- İstiqamətləndirici Komitə ildə bir dəfə iclas keçirib, lakin iclas vaxtlarının razılaşdırılması asan olmayıb.
- Hökumət Nəticə Qrupların fəaliyyətinə tam cəlb olunmur və liderlik öhdəliyi daha güclü ola bilərdi.
- BMT İnkişaf Sisteminin bəzi üzvləri (xüsusilə ən kiçik təşkilatlar, lakin onlarla məhdudlaşmayaraq) vaxt və insan resurslarının azlığı səbəbindən Nəticə Qruplarında tam iştirak edə bilməyiblər.
- Nəticə Qruplarının iclaslarında qarşılıqlı fəallıq çox zaman aşağı olur, sadəcə fikir mübadiləsi aparılır.
- Vahid milli inkişaf planının hazırlanması UNAPF-ın icrasında hökumətin iştirakını artıra bilər, çünki bu, planla əlaqəli olmaqla məsələləri milli gündəlikdə ön plana çəkə bilər.
- Nəticə Qruplarının üzvlərinin tez-tez dəyişməsi onların səmərəliliyini azaldır. Hökuməti təmsil edən iştirakçıların tez-tez dəyişməsi əməkdaşlığa mane olmuşdur, çünki iştirakçılardan bəziləri müzakirələrə əhəmiyyətli dərəcədə töhfə vermək üçün kifayət qədər hazırlıqlı və məlumatlı olmur.
- Bütün tərəfdaşlar, əsasən də tərəfdaş hökumət qurumları arasında həm yüksək, həm də işçi səviyyələrdə əlaqələndirmə və informasiya mübadiləsinin yaxşılaşdırılmasına yüksək dərəcədə ehtiyac duyulur.
- Gücləndirilmiş Rezident Əlaqələndirici Ofisi Nəticə Qruplarının işini daha yaxşı əlaqələndirməyə qadir olmalıdır.

Tematik və digər qruplar da UNAPF-ın icrasında mühüm rol oynayır. Onlar birgə düşünməni stimullaşdırmaq və çoxsahəli aspektləri (məsələn, BMT-nin proqramlaşdırma işində gender və insan hüquqlarına əsaslanan yanaşma) daha çox nəzərə almaq üçün istifadə edilib.

UNAPF-ın İstiqamətləndirmə Komitəsinə və üç Nəticə Qrupuna UNAPF-ın icrasının monitorinqi, qiymətləndirilməsi və müvafiq hesabatların verilməsində kömək etmək üçün 2017-ci ildə BMT təşkilatlararası və nazirliklərarası birgə Monitorinq və Qiymətləndirmə üzrə İşçi Qrup bərpa olunub. 2018-ci ildə hökumət təşkilatlararası və nazirliklərarası Monitorinq və Qiymətləndirmə Qrupuna iki həmsədr olaraq İqtisadiyyat Nazirliyi və Dövlət Statistika Komitəsini təyin etdi (BMTİP isə BMT-ni üçüncü həmsədr olaraq təmsil edir). Monitorinq və Qiymətləndirmə Qrupu UNAPF-ın icrasının monitorinqinə, təhlilinə, hesabatverməyə və qiymətləndirilməsinə geniş dəstək göstərib. Tərəfdaşlar qarşısında hesabatlılığın yaxşılaşdırılması, çərçivələrin hazırlanması və göstəricilərin monitorinqinin aparılmasında bu Qrupun rolu önəmlidir.

Bu mexanizmlərin (İstiqamətləndirici Komitə, Nəticə Qrupları, Tematik və digər qruplar) BMT İnkişaf Sisteminin hazırkı islahatı kontekstində önəmli rol oynadığı hesab edilir. 2019-cu ildə UNCT-nin əsas diqqəti BMT İnkişaf Sistemində islahatın aparılmasına, o cümlədən Rezident Əlaqələndirici sisteminin maneəsiz keçidinin təmin edilməsinə və Rezident Əlaqələndiricinin Ofisinin Azərbaycandakı BMT sisteminin effektiv və səmərəli əlaqələndirilməsinə dəstək göstərmək potensialının gücləndirilməsinə və BMT təşkilatlarının proqramlaşdırma, inzibatçılıq və resursların idarə edilməsi ilə bağlı birgə qərarlar vermək yolu ilə birgə məqsədlər istiqamətinə birgə səylər göstərmək üçün onları daha da səlahiyyətləndirməyə yönəlib. Bu islahatlar şübhəsiz ki BMT proqramlarının daha geniş inteqrasiyası və uyğunluğu, resursların səfərbər edilməsi və əməliyyat səmərəliliyi üçün geniş imkanlar yaradır.

DİM-lərlə bağlı olaraq, müsahiblər izah etdi ki, hökumət qurumlarının bəziləri qlobal məqsədlər barədə çox yaxşı məlumatlıdır, lakin bunu bütün səviyyələrə şamil etmək olmaz. Hökumətin yaxşı məlumatlı olması önəmli olduğundan, müxtəlif qurumlar arasında əməkdaşlığı əlaqələndirmək üçün hər bir dövlət qurumu daxilində UNAPF üzrə əlaqələndirici şəxslərin olmasına ehtiyac var. Hökumətdə DİM-lər üçün bir milli əlaqələndirici var və UNAPF üçün də milli əlaqələndirici olmalıdır.

Qeyd etmək vacibdir ki, UNAPF Nəticə Qruplarının hökuməti təmsil edən üzvləri həm də DİM-lər üzrə İşçi Qrupların üzvləridir. Həmçinin İstiqamətləndirici Komitənin hökuməti təmsil edən üzvləri həm də "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası üzrə Milli Fəaliyyət Qrupunun üzvləridir. İqtisadiyyat Nazirliyi nəzdində olan Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının katibliyi hökumətin iştirakına dəstək üçün BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi ilə əməkdaşlıq edən əsas dövlət əlaqələndirmə strukturu olub.

Müxtəlif nazirliklərə nəzarət funksiyasını yerinə yetirən Nazirlər Kabinetinin daha geniş cəlb olunması UNAPF-ın icra, cavabdehlik, səlahiyyət və hesabatlılıq mexanizmlərini gücləndirə bilər.

UNAPF-ın icrası üçün Nazirlər Kabinetinin əlaqələndirici qurum kimi təyin olunması ilə bağlı BMT-nin məktubuna cavab olaraq, İqtisadiyyat Nazirliyi bildirib ki, bu məsələ Nazirlər Kabineti səviyyəsində müzakirə olunmalıdır.

## 4. Məlumatların toplanması və təhlili

**Aşkar edilən fakt: BMT-nin müxtəlif təşkilatları ilə Dövlət Statistika Komitəsi və digər dövlət qurumları arasında geniş əməkdaşlıq mövcuddur. Onların hamısı məlumatların toplanması və təhlili sahəsində milli potensialı gücləndirmişdir. Buna baxmayaraq, bəzən BMT məlumatların nə dərəcədə etibarlı olduğunu bilmir, məlumatların təhlili məhdud şəkildə aparılır və müxtəlif mənbələrin hazırladıqları statistik məlumatlar arasında uyğunsuzluqlar olur. . Bu, cari vəziyyətin və məhdudiyyətlərin daha yaxşı öyrənilməsi, dəstək tədbirlərinin adekvat şəkildə planlaşdırılması, nəticələrin səmərəli şəkildə ölçülməsi, siyasətlərin hazırlanması və qərarların qəbulu üçün sübutlardan istifadə sahəsində önəmli maneələr yarada bilər.**

UNAPF yüksək ixtisaslı ekspertlərin cəlb olunması yolu ilə məlumatların toplanması və təhlili sahəsində milli potensialı da gücləndirib. Nəticə Qruplarının seminarının iştirakçıları yerli ekspertlərin məlumatların toplanması və təhlili sahəsinə cəlb olunmasının vacibliyini vurğuladı. Yalnız məlumatların yaradılması deyil,

həm də bu məlumatlardan istifadə mədəniyyətinin inkişaf etdirilməsi də vacibdir. Bu sahədə davamlı dəstəyə ehtiyac duyulur. BMT-nin əməkdaşlığı sayəsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əmək müqavilələrinin qeydiyyatı sistemi üçün məlumatların toplanması nəzərəçarpan dərəcədə yaxşılaşdırılmışdır. Hazırda cins, yaş, yer və s. üzrə dezaqreqasiya olunmuş 1.5 milyon əmək müqaviləsi mövcuddur.

BMT-nin müxtəlif təşkilatları Dövlət Statistika Komitəsi ilə müxtəlif sahələrdə DİM-lər üzrə əməkdaşlıq edir və əsas diqqət DİM-lərin monitorinqi üzrə potensialın gücləndirilməsinə yönəldilir. DİM göstəriciləri üzrə Milli İnformasiya Portalının yaradılması Dövlət Statistika Komitəsi ilə BMTİP arasında səmərəli əməkdaşlığın nümunəsidir.

Dövlət Statistika Komitəsi həmçinin 2019-cu ilin oktyabr ayında milli siyahıyaalmaya hazırlıq sahəsində UNFPA ilə maarifləndirmə və təbliğat materiallarının hazırlanması və onların ictimaiyyətə çatdırılması üzrə əməkdaşlıq edib. Dövlət Statistika Komitəsi artıq üçüncü ildir ki, UNİCEF-lə məişət zorakılığı və uşaqlarla bağlı məlumatların toplanmasında əməkdaşlıq edir. Komitə həmçinin Azərbaycanın 2030-cu ilədək inkişaf strategiyasının hazırlanmasında Dünya Bankı ilə əməkdaşlıq edir. Bu strategiyanın 2019-cu ilin sonunadək yekunlaşdırılması planlaşdırılır. Bu strategiyanın əsas komponentləri İKT və insan potensialının gücləndirilməsidir.

Bu yaxşı əməkdaşlıq münasibətlərinə baxmayaraq, Azərbaycanda məlumatların toplanması, təhlili və hesabatvermə böyük çətinlik olaraq qalır. Bir çox BMT nümayəndələri Dövlət Statistika Komitəsinin tendensiyaları təhlil etmək, hazırlamaq, ilkin vəziyyətləri müəyyən etmək və istifadə etmək potensialının zəif olduğunu hesab edir. Bu o deməkdir ki, nazirliklərdə kifayət qədər etibarlı məlumatlar azdır. Dövlət Statistika Komitəsində əsaslı məlumat kütləsi mövcuddur, lakin BMT onların nə dərəcədə etibarlı olduğunu bilmir. Məsələn, BMT-nin Qadın Qurumu Dövlət Statistika Komitəsinin 1992-ci ildən bəri hazırladığı məlumatları təhlil etdi və müəyyən etdi ki, Azərbaycanda yenidoğulmuşların cins nisbətindəki təhrifin getdikcə artmasının səbəbi ölkədə aparılan cins əsaslı abortlardır. Bu halda, məlumatlar etibarlı idi, lakin heç kəs məlumatları bu şəkildə təhlil etmirdi. Qiymətləndirmə heyəti hesab edir ki, bu cür məlumatların toplanması və təhlili diqqəti müvafiq UNAPF nəticələrinə və təşkilatların proqramlarına yönəltmək üçün vacibdir. Bu, büdcə planlaşdırması və resursların ayrılmasına da təsir edir.

İlkin hesabata verdiyi rəylərdə, Dövlət Statistika Komitəsi vurğulayıb ki, milli statistika sisteminin inkişaf səviyyəsini və statistika sahəsində inzibati və texniki imkanları müvafiq beynəlxalq standartlara uyğunluq baxımından qiymətləndirmək üçün Dövlət Statistika Komitəsi Avropa İttifaqının Statistika Bürosu (Eurostat), BMT-nin Avropa İqtisadi Komissiyası və Avropa Azad Ticarət Assosiasiyası ilə 2016-2017-ci ildə Azərbaycanın milli statistika sisteminin qlobal qiymətləndirilməsini həyata keçirdi. Bu qiymətləndirmənin nəticələri göstərdi ki, milli statistika sistemi əsas etibarilə müvafiq beynəlxalq və Avropa standartlarına cavab verib. Bundan əlavə, qlobal səviyyədə audit sahəsində nüfuza malik "SGS" şirkətinin yerli filialı olan "Société Générale de Surveillance Azeri LTD" şirkəti də keyfiyyəti idarəetmə sisteminin tətbiq olunduğu Dövlət Statistika Komitəsinin inzibati aparatının və yerli statistika idarələrinin sertifikatlaşdırma auditinin ikinci mərhələsini apardı. Auditin nəticələrinə əsasən, Dövlət Statistika Komitəsinin inzibati aparatına və 13 yerli statistika idarəsinə rəsmi statistik məlumatların emalı və paylanması sahələrində beynəlxalq uyğunluq sertifikatları (İSO 9001:2015) verildi. Bu, MDB ölkələrində statistika orqanları üçün verilən ilk təltif olub .

Komitə Avropa İttifaqı, BVF, BMTİP, UNFPA, BƏT, UNİEF, UNESCO, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İslam Əməkdaşlıq Təşkilatı, Avrostat, MDB-nin Dövlətlərarası Statistika Komitəsi və digər beynəlxalq təşkilatlarla əməkdaşlıq edir. Komitə dünyanın müxtəlif milli statistika xidmətləri ilə məlumat mübadiləsi aparır və gələn sorğuları cavablandırır. Təşkilatlar statistik mənbələrin məlumatları barədə mənfi iradlar bildirməyiblər. Dövlət Statistika Komitəsinin məlumat toplama prosesləri və məlumat mənbələri ilə bağlı bütün məlumatlar 2010-cu ildə Komitədə yaradılmış Metaməlumatlar Sistemində ətraflı təsvir edilir. Bütün metaməlumatlar istifadəçilər üçün tam açıqdır və Dövlət Statistika Komitəsinin rəsmi vebsaytında dərc olunub (https://www.azstat.org/MetaDataInd/).

Məlumat mənbəyinin seçilməsi vacibdir, çünki onların bəziləri illik (Milli statistika), digərləri isə beşillik əsasda (Demoqrafiya və Sağlamlıq Sorğuları) hazırlanır. Məlumatların daha yüksək tezliklə hazırlanması proqram nəticələrinin monitorinqinin daha məqsədəuyğun vaxtda aparılmasına imkan verir və həm BMT-nin, həm də Hökumətin büdcələri lazımınca planlaşdırmasına, resurslar ayırmasına və zərurət olduqda uyğunlaşdırmasına kömək edir.

Dövlət Statistika Komitəsi əlavə edib ki, ana ölümü və uşaq ölümü ilə bağlı məlumatlar Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi tərəfindən Dövlət Statistika Komitəsinə təqdim olunur və qurumlar arasında statistik məlumatlarla bağlı uyğunsuzluqlar yoxdur. Azərbaycan Respublikasının Prezidentinin 2018-ci il 14 fevral tarixli sərəncamı ilə "2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" təsdiq olunub. Proqramın məqsədi ana və uşaq ölümü ilə bağlı müfəssəl statistik məlumatların toplanmasıdır. Proqramın məqsədlərindən biri ölkədə ana və uşaqların sosial rifah vəziyyətinin, insan inkişafının qiymətləndirilməsi və DİM ilə müəyyən edilmiş hədəflərə çatmanın ölçülməsi üçün beynəlxalq müqayisəliliyi təmin edən statistik məlumatların əldə edilməsidir. Dövlət Statistika Komitəsi Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Daxili İşlər Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, UNİCEF və digər müvafiq qurumlarla əməkdaşlıq şəraitində 2021-2022-ci illərdə Çoxgöstəricili Klaster Sorğusunu keçirməyi nəzərdə tutur.

Metodologiyalardan istifadə də statistik göstəriciləri kəskin dəyişdirə bilər. Məsələn, Xəstəliklərin Beynəlxalq Təsnifatında (XBT 9) təqdim olunan tərifdən istifadə etməklə hazırlanmış ana ölümü göstəriciləri XBT 10-da təqdim olunan daha geniş tərifdən istifadə yolu ilə hazırlansa, kəskin arta bilər. Bu metodoloji yanaşma UNAPF icra edilməyə başlayandan sonra dəyişərsə, monitorinq və irəliləyişin ölçülməsi daha çətin ola bilər. Məlumat mənbəyinin və metodoloji yanaşmaların seçilməsi bütün digər DİM-lər üçün də vacibdir. Bütün aspektlər növbəti UNAPF üçün nəzərə alınmalıdır.

2018-ci ildə UNİCEF-in apardığı Aralıq İcmal göstərdi ki, məlumatların toplanması və təhlili üçün mexanizmlərin yetərsizliyi və monitorinq və izləmə sisteminin zəifliyi hazırkı vəziyyətin daha yaxşı başa düşülməsinə, dəstək tədbirlərinin adekvat şəkildə planlaşdırılmasına, nəticələrin effektiv şəkildə ölçülməsinə və siyasətlərin hazırlanması və qərarların qəbulunda sübutlardan istifadəyə mane olan əsas əngəllərdir. Məlumatların məhdudluğu həmçinin uşaqlara dair gözəçarpan nəticələr əldə etmək üçün siyasətlərin hazırlanması, proqramlaşdırma və planlaşdırma proseslərində vacib olan keyfiyyətli maliyyə qiymətləndirməsi və xərc analizinə imkan verməyib. Keyfiyyətli və dezaqreqasiya olunmuş məlumatların olmaması davamlı səyləri və innovativ həlləri şərtləndirir.

2018-ci il üzrə Müştərək İllik İcmalda Dövlət Statistika Komitəsi qeyd edib ki, məlumat toplama işinin gücləndirilməsi vacibdir və dövlət qurumları tərəfindən milli hədəflərin müəyyənləşdirilməsi məqsədilə göndərilən məlumatların təhlili diqqət mərkəzində olmalıdır. Dövlət orqanlarının DİM-lərlə bağlı

məlumatlara olan ehtiyaclarının və onların keyfiyyət standartları ilə uzlaşmasının müəyyən edilməsi üçün BMT ekspertlərinin dəstəyinə ehtiyac var. Statistik metodologiya ilə bağlı meydana çıxan bəzi məsələlər gələcəkdə DİM hədəflərinə nailolmanın monitorinq və qiymətləndirilməsi baxımından çətinliklər yaradır. Bu çətinliklərin qarşısını almaq üçün ixtisaslaşmış BMT təşkilatları ilə məsləhətləşmə faydalıdır.

### 5. Nəticələrin ölçülməsinin çətinliyi

**Aşkar edilən fakt: UNAPF-ın bir sıra nəticə göstəriciləri həddindən çox yüksək səviyyədə təyin olduğundan bu, onların ölçülməsini çətinləşdirir və BMT-nin töhfəsini müəyyən etmək çətindir və ya mümkün deyil. Bu o göstəricilərdir ki, BMT-nin onlara birbaşa və əhəmiyyətli təsiri məhduddur. Ən yaxşı halda, məhsullara nailolmalar əsasında bəzi nəticələri BMT İnkişaf Sistemi ilə əlaqələndirmək mümkündür. Bundan əlavə, Nəticələr Çərçivəsinin yalnız nəticə (outcome) səviyyəsində hazırlandığını və hər hansı məhsulları (output) əhatə etmədiyini nəzərə alsaq, məhsulların nəticələrə necə töhfə verdiyini anlamaq çətindir. Bununla yanaşı, UNAPF əldə olunacaq məhsulların göstərilə biləcəyi Fəaliyyət Planı olmadan hazırlanıb. Hazırkı Müştərək İş Planlarında olan məhsulların sayı isə xeyli yüksəkdir - 47. Hər nəticə üzrə bir neçə məhsulun olması nəticələr iyerarxiyasının ən yüksək səviyyəsində nəticələrin monitorinqini və qiymətləndirilməsini xeyli asanlaşdıra bilərdi və UNAPF-ı daha strateji sənəd və prosesə çevirə bilərdi.**

Bu hesabatın UNAPF-ın tərtibi ilə bağlı bölməsində göstərildiyi kimi, UNAPF-ın tərtibinə dair çətinliklərdən biri ondan ibarətdir ki, bəzi nəticələrin ölçülməsi asan deyil və bu monitorinq və qiymətləndirməyə müəyyən təsirlər göstərir. Məsləhətçilər hesab edir ki, UNAPF-ın nəticə göstəriciləri çox yüksək səviyyədə təyin olunub. Onlar Nəticə Qruplarının və digər müsahiblərin, xüsusən BMT təşkilatlarını təmsil edən müsahiblərin iradları ilə razılaşır. Bunlar ölkə nöqteyi-nəzərindən inkişaf göstəriciləri olduğu üçün, BMT-nin bu nəticələrə əhəmiyyətli dərəcədə töhfə verməsi və onun töhfəsini müəyyən etmək çətin və ya mümkünsüzdür. Məsələn, 1-ci Nəticə üçün, ÜDM (qeyri-neft sektorunda ÜDM-in orta illik artım tempi), rəqabətlilik (Qlobal Rəqabətlilik İndeksi Cədvəli) və işsizliklə (cins və yaş qrupu üzrə bölgüdə işsizlik səviyyəsi) əlaqəli göstəricilər BMT-nin birbaşa təsirinin məhdud olduğu və əhəmiyyətli dərəcədə təsir göstərə bilməyəcəyi, Azərbaycan kimi yuxarı orta gəlirli ölkələrdə isə bunun daha da çətin olduğu göstəricilərdir. Ən yaxşı halda, məhsullara nailolmalar əsasında bəzi nəticələri BMT ilə əlaqələndirmək mümkündür. Milli kompleks inkişaf planının olmaması ("Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası və strateji yol xəritələri ilə yanaşı) da bu cür ölçmənin aparılmasını daha da çətinləşdirir. Daha bir çətinlik isə təşkilatların fərqli hesabatvermə və planlaşdırma sistemlərinin olmasıdır və onların bir araya gəlməsi hesabatvermə yükünü artırır.

UNDAF təlimatlarında göstərilir ki, UNDAF BMT-nin nəzarəti xaricində olan nailiyyətlər deyil, BMT-nin töhfəsi barədə hesabat verməlidir. Lakin bunlar dünyada bir çox UNDAF sənədləri üçün ümumi olan problemlərdir.

Bundan əlavə, dəlillərdən görünür ki, Nəticələr Çərçivəsində məhsulların nəticələrə necə töhfə verəcəyini anlamaq çətindir. Çünki Nəticələr Çərçivəsi hər hansı məhsulları əks etdirmir. Məhsulların daxil edilməsi UNCT-lərə 2010-cu ilin UNDAF Təlimatında təklif olunurdu. Bununla yanaşı, 2010-cu ilin UNDAF Təlimatında tövsiyə olunmasına baxmayaraq, UNAPF əldə olunacaq məhsulların göstərilə biləcəyi Fəaliyyət Planı olmadan hazırlanıb. 2017-ci ildə Müştərək İş Planları hazırlanıb. Lakin əsas müsahiblər və məsləhətçilər bu prosesdə UNAFP Fəaliyyət Planının buraxılmış addım olduğunu hesab edir.

Qeyd edilməlidir ki, 2010-cu ilin UNDAF Təlimatında Nəticələr Çərçivəsinin nəticə səviyyəsində saxlanması tövsiyə olunurdu və aşağıdakılar əlavə olunurdu: "Hökumət, digər milli maraqlı tərəflər və BMT-nin Ölkə üzrə İdarə Heyəti Nəticələr Çərçivəsinə məhsulları əlavə etməyə seçə bilərlər, o şərtlə ki, məhsulların göstərilməsi əlavə dəyər yaratsın. Ümumilikdə, UNDAF-ın strateji və inklüziv sənəd olaraq qalması üçün nəticələri yüksək səviyyədə saxlamağa üstünlük verilir". 2017-ci ilin UNDAF Təlimatında göstərilir ki, "UNDAF üçün məhsulların göstərilməsi tələb olunmasa da, BMT sistemi iş planlarının əsasını təşkil edən nəticə üzrə dəyişiklik nəzəriyyəsinin tərkibində məhsulları hazırlaya bilər."

Müsahiblər izah edib ki, UNAPF 2010-cu il Təlimatına uyğun tərtib olunsa da, 2017-ci il Təlimatının təsiri altında icra olunub, çünki həmin təlimatda  artıq UNDAF üzrə Fəaliyyət Planı göstərilməyib. UNAPF nəticələrini konkret, ölçülə bilən və vaxtla məhdudlaşan məhsullara və tədbirlərə çevirən Müştərək İş Planları (illik büdcə çərçivəsi daxil olmaqla) UNAPF-ın icrası üçün əsas alət kimi istifadə edildi. UNCT bunun üzərində diqqətlə çalışıb.

Monitorinq və Qiymətləndirmə üzrə Tematik Qrup tövsiyə etdi ki, yeni Nəticələr çərçivəsində ümumi nəticələrdən başqa,  bir neçə təşkilatın töhfəsini əks etdirən müştərək və sabit məhsullar olmalıdır. Hazırkı UNAPF-da hər il bəzi məhsullar ləğv olunub və yeniləri əlavə olunub. Üstəlik, DİM məhsulları müəyyən edildikdə hansı nəticələr altında hansı məhsulların yerləşdirilməli olduğunu anlamaq çətin idi. Buna görə də, 1-ci Nəticədə yeni bir məhsul yaradıldı: "DİM-lərin icrası üçün Azərbaycanın milli potensialının artması". Bu, həmin nəticə üçün 16-cı məhsul oldu.

Bu qeydlərə əsaslanaraq, məsləhətçilər hesab edir ki, növbəti UNSDCF-in Nəticələr Çərçivəsində BMT-nin gözlənilən töhfələrini əks etdirən bir sütun və tərəfdaşların töhfələrini əks etdirən ayrıca bir sütun da ola bilər. Hazırkı UNAPF-dan fərqli olaraq, çoxsaylı tərəfdaşların daxil edilməsi əvəzinə, yalnız əsas tərəfdaşlar qeyd oluna bilər və onların rolu barədə kiçik izahat verilə bilər. Buna nümunə olaraq, hazırda Gürcüstandakı Dayanıqlı İnkişaf üçün BMT Tərəfdaşlığı (UNPSD) sənədini göstərmək olar.

Monitorinq və Qiymətləndirmə Qrupu izah etdi ki, hazırkı UNAPF tərtib olunarkən, nəticələrin razılaşdırılması prosesi aydın olmayıb. Hökumət ÜDM artımı kimi yüksək səviyyəli göstəriciləri daxil etməkdə təkid etsə də, BMT təşkilatları təklif ediblər ki, yalnız icra olunacaq göstəricilər Nəticələr Çərçivəsində salınmalıdır.

Yekun olaraq, müxtəlif təşkilatlar tərəfindən məhsulların əlavə edilməsi və bu əlavələrin uzlaşması məsələsi mövcuddur. Məsələn, BMTİP bir neçə layihəni Ölkə Proqramı Sənədinə uyğun olaraq,  ümumi məhsul altında "fəaliyyətlər" kimi birləşdirmiş, FAO isə bəzi layihələri ayrı-ayrı məhsullar kimi daxil etməyi üstün tutmuşdur. Bu, layihələrin vahid məhsul altında və ya başqa bir təşkilatın məhsullarına uyğun olaraq birləşdirilməsinin çətin olması. Bununla belə, FAO mümkün hallarda layihələri vahid məhsullar altında birləşdirib. Üç-dörd təşkilatın öz tədbirlərini bir məhsul altında birləşdirdiyi hallar da var.

Qiymətləndirmə heyəti qeyd edir ki, 2018-ci il üzrə Müştərək İş Planında 47 məhsul var.. 2010, 2017 və 2019-cu il təlimatlarını nəzərə alaraq nəticələrin sayının 3-5 arasında olması (hazırda belədir), lakin hər nəticə üzrə bir neçə məhsulun olması arzuediləndir. Bu, nəticələr iyerarxiyasında ən yüksək səviyyədə nailiyyətlərin monitorinqini aparmağı və qiymətləndirməni daha da asanlaşdırardı və UNAPF-ın daha strateji sənəd və proses olmasına imkan verərdi. Bu vəziyyətin yaranmasını qismən UNAPF hazırlanarkən məhsulların müəyyən edilməməsi və Fəaliyyət Planının hazırlanmaması ilə əlaqələndirmək olar və bu, növbəti UNSDCF üçün öyrənilmiş dərs hesab edilməlidir.

Bu qeydlərlə bağlı olaraq qeyd edilməlidir ki BMT-nin Dayanıqlı İnkişaf Qrupu (BMT İnfo) tərəfindən istifadəyə verilən yeni qlobal platforma BMT-nin, hökumətin və digər mənbələrin töhfələrini nümayiş etdirəcək. 2020-ci ilədək bu platformadan istifadə bütün BMT təşkilatları üçün məcburi olacaq. Tədricən planlaşdırma və hesabatvermə məqsədləri üçün Müştərək iş planlarından BMT İnfo-ya keçid ediləcək.

Qiymətləndirmə sahəsində milli təşkilatların potensialının gücləndirilməsinə gəldikdə, bəzi təşkilatlar bunun dəstəklənməsinə yönələn tədbirlərə malikdir. BMT təşkilatları tərəfindən aparılan qiymətləndirmələr də milli potensialın gücləndirilməsinə dəstək göstərib. Bununla belə, Monitorinq və Qiymətləndirmə Tematik Qrupu hesab edir ki, bu sahədə səylər gücləndirilməlidir. Əsas müsahiblər qeyd edib ki, hökumətlə milli tərəfdaşların qiymətləndirmə və ya birgə qiymətləndirmələrlə bağlı potensialının gücləndirilməsi həyata keçirilməyib. Ümumiyyətlə, qiymətləndirmələrin müstəqil və qərəzsiz olması üçün onlar kənar məsləhətçilər tərəfindən aparılmalıdır. Nəticə əsaslı idarəetmə, qiymətləndirmə mədəniyyəti, sübutlara əsaslanan öyrənmə və inkişaf nəticələri üçün hesabatlılığı gücləndirmək üçün qiymətləndirmə sahəsində milli potensialın artırılması ilə bağlı səylər gücləndirilməlidir.

## 6. Müştərək iş planları

**Aşkar edilən fakt: UNAPF Nəticə Qrupları hər strateji prioritet sahəsi üçün bir Müştərək İş Planı (MİP) olmaqla, 3 birillik və ikiillik MİP-lər hazırlayıb. Bu planlarda həmin il üçün UNAPF-ın geniş miqyaslı strateji nəticələrini əldə etmək üçün tələb olunan məhsullar, konkret tədbirlər və resurslar öz əksini tapır. İrəliləyişi qiymətləndirmək üçün BMT təşkilatları MİP-lərdə müəyyən edilmiş məhsul göstəricilərinə əsasən hesabat verərək, göstəricilərin cari vəziyyəti və rəng kodlaşdırmasından istifadə edərək əldə olunan irəliləyişi göstərmişdir ki, bu da əhəmiyyətli və təqdirəlayiq işdir. BMT və tərəfdaşları nəticələrin daha effektiv və səmərəli şəkildə əldə olunması üçün öz işlərini daha yaxşı uzlaşdırmaq məqsədilə müştərək iş planlarından istifadə edə bilsə də, 47 məhsul üzrə planlaşdırma və monitorinqin aparılması çətin olmuşdur ki, bu da növbəti UNSDCF sənədində nəzərə alına bilər.**

UNAPF Nəticə Qruplarının DİM-lər üzrə dörd Milli İşçi Qrupla birlikdə ilk məsləhətləşmələri 2017-ci ilin may ayında keçirilib. Bu məsləhətləşmələr hər strateji prioritet sahəsi üçün bir Müştərək İş Planı (MİP) olmaqla, üç birillik MİP-in hazırlanması ilə nəticələnib. Bu planlarda həmin il üçün geniş UNAPF strateji nəticələrini əldə etmək üçün tələb olunan məhsullar, konkret tədbirlər və resurslar öz əksini tapır. Bu MİP-lər hər il İstiqamətləndirici Komitə tərəfindən təsdiq olunur. 2019-2020-ci illəri əhatə edən ikiillik Müştərək iş planlarının hazırlanması təklifi təsdiq olunub. İqtisadiyyat Nazirliyi struktur və tərtibat baxımından daha aydın MİP-lərin hazırlanmasının vacib olduğunu bildirib.

Əldə olunmuş irəliləyişi qiymətləndirmək üçün, BMT təşkilatları Müştərək İş Planlarında əks olunan məhsul göstəricilərinə əsasən hesabat vermişdir. Bunun üçün onlar cədvəl şəklində rəng kodlaşdırmasından istifadə edərək göstəricilər üzrə əldə etdikləri cari irəliləyişi əks etdiriblər: Yaşıl rəng - "Nail olunub", sarı rəng - "Qismən nail olunub", narıncı rəng - "Məhdud" və qırmızı rəng - "Nail olunmayıb". Uzlaşmanı təmin etmək üçün təşkilatlar bəzi təşkilatların ilkin Müştərək İş Planlarında çoxillik hədəflər təyin etdiklərini nəzərə alaraq, 2017-ci il üzrə göstəricilərini uyğunlaşdırıblar. BMT təşkilatları həmçinin göstəricilərin vəziyyəti barədə mənzərəni tam əks etdirmək üçün əldə olunan əsas nəticələrin, öyrənilmiş dərslərin, ortaya çıxan maneələrin qısa nəqli təsvirini təmin ediblər. Bu iş əhəmiyyətli və təqdirəlayiqdir və UNDAF Təlimatlarının mahiyyətinə uyğundur.

BMT və onun tərəfdaşları nəticələrin daha effektiv və səmərəli şəkildə əldə olunması üçün öz işlərini daha yaxşı uzlaşdırmaq məqsədilə müştərək iş planlarının hazırlanmasından istifadə edə bilsə də, 47 məhsul üzrə planlaşdırma və monitorinqin aparılması çətin olmuşdur ki, bu da növbəti UNSDCF sənədində nəzərə alına bilər. UNCT-nin 2016-cı il müşavirəsində regional təlimçi Türkiyə təcrübəsini nümunə gətirdi. Türkiyədə MİP-lərə 15 məhsul daxil edilmişdi.

## 7. İllik İcmallar, aralıq İcmal və icra hesabatları

**Aşkar edilən fakt: Birgə illik icmal görüşlərinin hesabatlarının, UNAPF üzrə iki İllik İcra Hesabatlarının və Rezident Əlaqələndiricinin illik hesabatlarının hazırlanması UNCT tərəfindən atılan təqdirəlayiq addımlardır və bu qiymətləndirmə üçün çox faydalı məlumat mənbələri oldu. 2018-ci il üzrə illik icra hesabatının istifadəçilər üçün rahat formatda hazırlanması UNCT-yə hesabatda təqdim olunan məlumatları daha geniş kommunikasiya məqsədləri üçün istifadə etməyə imkan verib. Qiymətləndirmə zamanı həmçinin müəyyən edildi ki, çox faydalı və vaxtında təyin olunan Aralıq İcmal aparılıb. Aralıq İcmal UNCT-yə UNAPF-ın qlobal DİM hədəfləri ilə uyğunluğuna nəzər salmaq və göstəricilərin gələcəkdə ölçülməsini yaxşılaşdırmaq imkanı verdi.**

Məsləhətçilər Birgə İllik İcmal Görüşünün hesabatları (2017 və 2018), UNAPF üzrə illik icra hesabatları (2017 və 2018) və Rezident Əlaqələndiricinin illik hesabatlarının bu qiymətləndirmə üçün çox faydalı məlumat mənbələri olduğunu müəyyən etdilər və bu hesabatın bütün bölmələrində həmin sənədlərə xeyli istinad ediblər. Nailiyyətlər çox yaxşı şəkildə ümumiləşdirilib və 2018-ci il hesabatı üçün xüsusi səy göstərilib. Məsləhətçilər istifadəçilər üçün çox rahat formada hazırlanmış bu hesabatın təkcə hesabatvermə üçün deyil, kommunikasiya məqsədləri üçün də faydalı olduğunu hesab edir.

2018-ci ilin noyabr-dekabr aylarında UNAPF-ın icrasının Aralıq İcmalı da aparılıb. UNAPF sənədində bu icmalın icranın üçüncü ilində aparılması planlaşdırılırdı və bunun üçün Monitorinq və Qiymətləndirmə Qrupu və nəticə qrupları ilə yaxından əməkdaşlıq şəraitində, BMTİP-in İstanbul Regional Mərkəzinin və Rezident Əlaqələndiricinin Ofisinin təcrübəsindən istifadə edildi. UNAPF-ın 2015-ci ildə hazırlanıb 2016-cı ildə təsdiq edilməsindən sonra bir çox proseslər baş verdi. UNAPF-ın DİM-lərə uyğunluğunu qiymətləndirmək və əldə olunmuş irəliləyişə, öyrənilmiş dərslərə, problemlərə və imkanlara nəzər salmaq tələb olunurdu. Qiymətləndirmə Aralıq İcmalın aşağıdakı nəticələrini müəyyən etdi:

**UNAPF-ın qlobal DİM hədəflərinə nəzərən Sürətli Kompleks Qiymətləndirməsi (SKQ):** DİM-lərlə uzlaşdırma tapşırığı kompleks qiymətləndirmə alətindən istifadə edərək, UNAPF-da DİM hədəflərinin əhatə olunma səviyyəsini müəyyən etməklə həyata keçirildi. Monitorinq və Qiymətləndirmə Qrupunu alətlə tanış etmək üçün yarımgünlük seminar keçirildi. Qiymətləndirmə ilə bağlı ekspert tərəfindən tam hesabat hazırlanmış və UNCT və hökumətə təqdim olunmuşdur. Bu tapşırıq UNAPF-ın *qlobal* DİM hədəfləri ilə 59% uzlaşdığını göstərir. Lakin qeyd olundu ki, bu qiymətləndirmə *milli* DİM hədəflərinə nəzərən aparılsaydı, daha da faydalı olardı. Nəticələr növbəti UNSDCF sənədinin hazırlanmasında istiqamət üçün istifadə olunacaq.

**UNAPF-ın Nəticə və Resurslar Çərçivəsinə baxış seminarı:** UNCT UNAPF-ın Nəticələr və Resurslar Çərçivəsini nəzərdən keçirmək (göstəricilər üzrə irəliləyiş, risklər və ehtimallar və ilkin resurslar çərçivəsi) və düzəlişlər təklif etmək üçün yarım günlük seminar keçirdi. Seminarın hesabatı və təklif olunan dəyişikliklər nəticə qruplarının həmsədrləri ilə keçirilən ayrıca görüşdə müzakirə edildi. İqtisadiyyat Nazirliyi dövlət qurumlarının rəylərini ümumiləşdirərək ümumi rəy təqdim etdi və dəyişiklikləri təklif etdi.

Dəyişikliklərə göstəricilər üçün çatışmayan məlumatların təmin edilməsi, göstəricilərə cüzi düzəlişlər (mətndə, hədəf və ilkin vəziyyətlərdə) və yeni göstəricilərin (yalnız BMT-nin fəaliyyətinin əhəmiyyətli bir aspekti əhatə edilmədiyi halda) əlavə edilməsi daxildir. “Risklər və ehtimallar” bölməsinə də yenidən baxıldı və düzəlişlər edildi. Sonralar İstiqamətləndirici Komitənin 2019-cu ildəki iclasında bu dəyişikliklərə baxıldı və onlar təsdiq edildi.

Məsləhətçilər müəyyən etdi ki, bu aralıq İcmal həm vaxtında hazırlanmış, həm də çox faydalı olmuşdur. Çünki UNCT-ə təkcə UNAPF-ın qlobal DİM hədəfləri ilə uyğunluğu barədə düşünmək deyil, həm də çərçivənin DİM-lərə daha da uyğunlaşdırılması barədə düşünmək imkanı verdi. Nəticə və Resurslar Çərçivəsi üzərindəki iş həm də göstəriciləri və onların gələcəkdə uyğunlaşdırılmasını yaxşılaşdırmaq imkanı verdi. Bundan əlavə, UNAPF-ın monitorinq və qiymətləndirmə sisteminin əsas komponentlərindən biri kimi, UNCT tərəfindən Monitorinq və Qiymətləndirmə Qrupunun iştirakı ilə və BMT-nin İnkişaf Əməliyyatları və Əlaqələndirmə Ofisinin (UNDOCO) rəhbər qaydaları əsasında təqvim əsaslı və çoxillik Monitorinq və Qiymətləndirmə Planı hazırlandı. Məsləhətçilər bu Planın müfəssəl və yaxşı hazırlanmış olduğunu hesab edir. Çünki bu plana sorğular və tədqiqatlar, monitorinq sistemləri, baxiş və qiymətləndirmələr daxil idi və onların hamısı UNAPF nəticələri ilə əlaqələndirməklə, hər bəndə məsul olan BMT təşkilatı, müvafiq tərəfdaşlar və xərclər göstərilirdi.

## 8. Hökumətin UNAPF-a sahibliyi

**Aşkar edilən fakt: Çoxsaylı nazirliklərin nəticə qruplarında və Monitorinq və Qiymətləndirmə Qrupunda həmsədr kimi iştirakı UNAPF sənədinə müəyyən dərəcədə birgə sahibliyi əks etdirir. Bununla belə, Hökumət UNAPF sənədinə əhəmiyyətli dərəcədə sahiblənmir. Belə ki, Hökumət BMT ilə gördüyü işi UNAPF-ın daha geniş çərçivəsində görülən iş hesab etmir. UNAPF-ın əhatə etdiyi məsələlər əsas tərəf müqabili kimi bir nazirliklə məhdudlaşmır. Üstəlik, yalnız iqtisadi sektoru deyil, sosial və insan hüquqları sektorlarını da əhatə edən vahid milli inkişaf planının olmaması hökumətin BMT-nin dəstək göstərəcəyi prioritet sahələrin müəyyənləşdirilməsinə daha mütəmadi şəkildə istiqamət verə bilmək potensialını məhdudlaşdırır.**

Bir sıra nazirliklərin həmsədr kimi iştirakından (əvvəlki bölməyə bax) əlavə, 2018-ci ildə hökumət təşkilatlararası və nazirliklərarası Monitorinq və Qiymətləndirmə Tematik Qrupuna İqtisadiyyat Nazirliyi və Dövlət Statistika Komitəsindən iki həmsədr təyin etdi ki, bu da monitorinq və qiymətləndirmə sahəsində də müəyyən birgə sahibliyi əks etdirir.

Bir sıra BMT təşkilatlarının və milli tərəfdaşların bildirdiyinə görə, hökumət tərəfindən bu çərçivə sənədinə əhəmiyyətli dərəcədə sahiblik nümayiş etdirilməyib. Belə ki, Hökumət ölkənin inkişaf ehtiyaclarının həllinə yönələn əsas alət kimi UNAPF-dan istifadə etmir. Qiymətləndirmə heyəti müəyyən etdi ki, hazırkı vəziyyət bir neçə səbəblə bağlı ola bilər.

Birincisi, Çərçivənin əhatə etdiyi məsələlər çoxsahəlidir və bir nazirliklə məhdudlaşmır. Buna görə də daha yüksək səviyyədə əlaqələndirmə səlahiyyətinə malik hökumət qurumuna keçid UNAPF-ın icrasının effektivliyini artıra bilər.

İkincisi, BMT müvafiq nazirliklərlə çox yaxşı tərəfdaşlıq münasibətlərinə malikdir və onlarla xeyli layihələr həyata keçirir. Lakin vahid milli inkişaf planı yoxdur. "Azərbaycan 2020: Gələcəyə baxış" sənədi və milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları ilə bağlı Strateji Yol Xəritələri isə sosial sektor, insan inkişafı,

gender və bu kimi sahələrdən daha çox iqtisadiyyat, infrastruktur və turizmə köklənir. Üstəlik, vahid milli inkişaf planının olmaması hökumətin dəstək göstəriləcək prioritet sahələrin müəyyənləşdirilməsinə istiqamət verməsini çətinləşdirir.

## 9. Tərəfdaşlıq və strateji ittifaqlar

**Aşkar edilən fakt: UNAPF nəticə sahələri üzrə səmərəli tərəfdaşlıq və strateji ittifaqların yaxşılaşdırılmasına kömək edib. Bu tərəfdaşlıqların çoxu təşkilat səviyyəsində olub. UNCT-nin dayanıqlı inkişaf naminə fəaliyyətinə dəstək üçün müxtəlif maraqlı tərəflərlə yeni tərəfdaşlıq münasibətləri formalaşdırılıb və köhnə tərəfdaşlıqlar gücləndirilib. Bununla belə, BMT-nin qeyri-hökumət maraqlı tərəflərlə tərəfdaşlığı və strateji ittifaqları gücləndirməsi və tərəfdaş QHT-lərin/vətəndaş cəmiyyəti təşkilatlarının maliyyə idarəetməsi ilə bağlı çətinlikləri ilə bağlı tədbirlər görməsi tövsiyə olunur, çünki bu çətinliklər icma səviyyəli tədbirlərə birbaşa dəstəyi məhdudlaşdırır və bəzən tədbirlərin səmərəliliyini azaldır. QHT-lər BMT-nin göstərdiyi dəstəyi yüksək qiymətləndirir və daha fəal və geniş spektrli dəstəyin təmin edilməsini xahiş edir.**

Əsas müsahiblər bildirib ki, UNAPF nəticə sahələri üzrə səmərəli tərəfdaşlıq və strateji ittifaqları yaxşılaşdırıb. Təkcə 2017-ci ildə BMT-nin 12 təşkilatı 47 məhsulu əhatə edən hədəflərə nail olmaq üçün 37-dən artıq hökumət və qeyri-hökumət qurumu ilə tərəfdaşlıq edib. 2018-ci ildə BMT təşkilatları təqribən 70 hökumət və qeyri-hökumət qurumu ilə tərəfdaşlıq edib. Bəzi sənədlərdə həm də BMT-nin yeni tərəfdaşlıqları və strateji ittifaqları təsvir olunur. Onların xülasəsi aşağıda təqdim olunur:

- Rezident Əlaqələndiricinin rəhbərliyi altında, BMT Vitse-Prezidentin katibliyi ilə məhsuldar işçi münasibətlər qurub. BMTİP və UNFPA tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və ASAN ilə əməkdaşlıq şəklində icra olunan, əlillik və yaşlılara dair iki yeni layihə Vitse-Prezidentin katibliyinin maliyyə dəstəyilə hazırlanıb.
- BMTİP "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi vasitəsilə yeni rəhbərliyə malik Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə uzunmüddətli tərəfdaşlığını canlandırdı.
- BMTİP qadınların iqtisadi səlahiyyətlərinin artırılmasına yönələn subregional layihə vasitəsilə qeyri-rezident təşkilat olan BMT-nin Qadın Qurumu ilə yeni əməkdaşlıq qurdu.
- BMTİP 2019-cu ildə satınalma xidmətlərinin təmin edilməsi, o cümlədən İİV/QİÇS və vərəm üçün reagentlərin və dərmanların təchizatı üçün Səhiyyə Nazirliyi ilə işlədi. BMTİP həmçinin "Azərbaycan Turizm və Menecment Universitetinin potensialının gücləndirilməsi" layihəsinin icrasına davam etmək üçün yeni yaradılmış Dövlət Turizm Agentliyi ilə tərəfdaşlıq qurdu.
- Vətəndaş cəmiyyəti təşkilatları və QHT-lərə Dövlət Dəstəyi Şurası BMT-nin önəmli inkişaf tərəfdaşları kimi qalır və davamlı olaraq UNCT layihələrinin hazırlanması, icrası və qiymətləndirilməsinə cəlb olunurlar.
- BMTİP 37 QHT-ni müxtəlif potensialın gücləndirilməsi tədbirləri və qrant imkanları ilə təmin edir. Siyahıya ölkədəki demək olar ki bütün fəal QHT-lər daxildir: hüquq müdafiəçiləri, düşüncə mərkəzləri və s. Konkret layihə nümunələri olaraq aşağıdakıları göstərmək olar: "Əhalinin həssas qruplarının sosial-iqtisadi hüquqlarının təşviqində vətəndaş cəmiyyətinin rolunun artırılması" (2016-2018) və "DİM-lərin gender məsələlərinə həssas yanaşma ilə icrasında vətəndaş cəmiyyətinin rolunun təşviqi" (2018-2020). Bu sonuncu layihə vətəndaş cəmiyyəti təşkilatlarının iştirakının uğurlu nümunəsi kimi təqdim oluna bilər.

- UNİCEF Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyi ilə qidalanma proqramı və Azərbaycan Respublikası Prezidentinin yanında QHT-lərə Dövlət Dəstəyi Şurası ilə anlaşma memorandumu çərçivəsində yeni tərəfdaşlıq münasibətləri qurub.
- UNİCEF Avropa İttifaqının maliyyə dəstəyilə QHT-lərlə/VCT-lərlə əməkdaşlıq şəraitində "Həssas vəziyyətdə olan uşaqlar və ailələr üçün icma əsaslı inteqrasiya olunmuş sosial xidmətlər" adlı üçillik proqramı (2019-2021) icra edir. UNCT-nin digər yeni tərəfdaşlarına Azərbaycan Respublikası Vəkillər Kollegiyası (yuvenal ədliyyə sahəsində islahatlara dəstək), ASAN Xidmət və ASAN Könüllüləri (uşaq hüquqlarının təbliği) və İDEA - Ətraf Mühitin Mühafizəsi Naminə Beynəlxalq Dialoq (DİM-lərin təşviqi və iqlim dəyişikliyi) daxildir.
- UNİCEF-lə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi arasında yeni tərəfdaşlıq qurulub.
- Özəl sektorla, xüsusilə, Amerika və Almaniya Ticarət Palataları ilə 2030-cu il Gündəliyini və "Qlobal Saziş" təşəbbüsünü dəstəkləmək məqsədilə tərəfdaşlıq gücləndirilib.
- BMTİP Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yeni rəhbərlik altında restrukturizasiyasına kömək üçün "PriceWaterhouseCoopers" şirkəti ilə tərəfdaşlıq edib.
- BMTİP, UNİCEF, UNFPA, BMTQAK, BƏT ilə müxtəlif sahələrdə əməkdaşlıq edən Dövlət Statistika Komitəsi ilə DİM-lərlə bağlı birgə iş aparılıb və əsas diqqət yeni monitorinq platforması vasitəsilə (veb-sayt) DİM-lərin monitorinqi üzrə potensialın gücləndirilməsinə yönəlib.
- 2019-cu ildə yenilənən Rezident Əlaqələndirici sistemi çərçivəsində, BMT-nin Rezident Əlaqələndiricisinin sədrlik etdiyi mövcud İnkişafın Koordinasiyası Forumundan inkişaf üzrə tərəfdaşların DİM-lərə və UNCT-ə dəstəyinin stimullaşdırılması üçün mexanizm və platforma kimi istifadə edilir. DİM-lərin adekvat maliyyələşməsini təmin etməklə yanaşı, ümumi sosial məsuliyyəti artırmaq üçün əsas inkişaf tərəfdaşları (Avropa İttifaqı, USAİD, İsveçrə Əməkdaşlıq Ofisi, beynəlxalq maliyyə institutları) və özəl sektorla məsləhətləşmələr aparılıb. BMT-nin Rezident Əlaqələndiricisinin ofisi özəl sektoru səfərbər etmək üçün "Qlobal Saziş" təşəbbüsünü yenidən tətbiq edib.
- BMT həmçinin elm və təhsil ictimaiyyəti, məsələn, ADA Universiteti və Qərb Universiteti ilə tərəfdaşlığını davam etdirib. Parlament, yerli icra hakimiyyəti orqanları ilə əməkdaşlıq gücləndirilib, yeni yaradılmış Kiçik və Orta Bizneslərin İnkişafı Agentliyi və Qida Təhlükəsizliyi Agentliyi ilə tərəfdaşlıq münasibətləri qurulub.
- KİV-lə, o cümlədən yerli KİV və sosial media ilə əməkdaşlıq artırılıb.
- FAO yeni FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə qanunvericilik bazasının təkmilləşdirilməsi və beynəlxalq qida təhlükəsizliyi sistemləri (məs.CODEX) ilə əlaqələrə dair bir layihə, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə - 2020-2030-cu illər üzrə Milli Meşəçilik Proqramına baxış, balıqçılıq sektorunun müasirləşdirilməsi, habelə kənd təsərrüfatı və torpaqlardan istifadə, torpaqdan istifadədə dəyişiklik və meşəçilik sektorlarında Milli səviyyədə Planlaşdırılmış Töhfələrin icrası üçün potensialların gücləndirilməsi vasitəsilə Azərbaycan Hökuməti ilə tərəfdaşlığını yenilədi.
- FAO həmçinin Kənd Təsərrüfatı Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə Davamlı üzvi çirkləndiricilərin və digər köhnəlmiş pestisidlərin azaldılmasına dair yeni birgə tərəfdaşlığa başlayıb. Bu tərəfdaşlıq Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, "İDEA" İctimai Birliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və FAO-nun aztəminatlı ailələr üçün meyvə bağlarının salınmasına dair birgə təşəbbüsünü əhatə edir. Sahibkarlar Təşkilatları Milli Konfederasiyası ilə birgə həyata keçirilən bir təşəbbüs ərzaq və kənd təsərrüfatı sahəsində DİM-lərin icrasına özəl sektorun investisiya etməsinə dəstək göstərir.

UNAPF sənədi vasitəsilə qeyri-hökumət maraqlı tərəflərin Azərbaycanın sosial-iqtisadi inkişafa töhfə verməsinə kömək üçün BMT sistemi Hökumətlə əməkdaşlıq etməklə vətəndaş cəmiyyətinin potensialını daha da artırılması və sosial tərəfdaşların və qurumların beynəlxalq standartlar və konvensiyalar barədə məlumatlılığınınartırılması planlaşdırılır. Gənclər arasında könüllülüyə diqqətin artmasını nəzərə alaraq (məsələn, ASAN Mərkəzləri və 2015-ci ilin iyun ayında Azərbaycanda keçirilən ilk Avropa Oyunları), bu resurslardan daha yüksək səviyyədə istifadə etmək üçün imkan yarandı. Buna kömək üçün BMT-nin paylaşa biləcəyi faydalı təcrübəsi və nümunəvi təcrübələri var idi.

Gənclər üçün peşəkar və fərdi bacarıqlarını inkişaf etdirmə şəraiti yaradılması və onların cəmiyyətdə müsbət rol oynamasına imkan verilməsi istiqamətində könüllük imkanları genişləndirildi. 2018- ci ild gənclərin könüllülük fəaliyyətinin dayanıqlı inkişaf səylərinin arxasında dayanan güc şəklində vurğulanması davam edib. Könüllülük fəaliyyəti müxtəlif təcrübəyə malik gəncləri BMT və hökumətin təşəbbüslərində milli könüllülük imkanlarında iştirakını təşviq edir. BMT Könüllülərinin (UNV) Azərbaycanda mövcudluğu könüllülüyün əsas strateji prioritetlərindən biri kimi hökumət tərəfdaşları ilə birgə siyasət, qanunvericilik və proqramların hazırlanmasında BMT sisteminin daha dərindən inteqrasiyasını sürətləndirib. Milli könüllülərin cəlb edilməsini və onların töhfəsini tam şəkildə anlamaq üçün UNV, hökuməti ölkə səviyyəsində könüllülüyə dair Milli Vəziyyətin Təhlilini həyata keçirməyə dəvət edib. Təhlilin nəticələri fərdi könüllülük vasitəsilə – gənclər, qadınlar və əlilliyi olan şəxslərlə iş kimiinkişaf problemləri üçün həll variantlarının şaxələndirilməsinə töhfə verdiyini ortaya çıxarıb.

Qiymətləndirmə heyəti müəyyən etdi ki, bu ilkin planlar tam şəkildə yerinə yetirilməmiş ola bilər. Keçirilmiş görüşlər bunu təsdiq etdi və məsləhətçilərlə görüşən vətəndaş cəmiyyəti təşkilatları BMT-nin QHT-lərlə əməkdaşlığına dair bir neçə mühüm məsələni qaldırdı:

- Azərbaycanda QHT sektoru güclü deyil və QHT-lər BMT tərəfindən göstərilən dəstəyi təqdir edir. Lakin onlar daha fəal və geniş spektrli dəstək istəyirlər. 2013-cü ildə milli qanunvericiliyə edilmiş dəyişikliklər donorların və qrant müqavilələrinin məcburi qeydiyyatını tələb edir ki, bu da BMT-nin tədbirlərinin Azərbaycanda QHT-lər vasitəsilə icrasına maneələr yaratdı və xidmətlər kommersiya qurumlarından alındı.

- Hökumət qurumları, nazirliklər, komitələr və digər dövlət orqanları ilə BMT nümayəndələri arasında müxtəlif işçi qrup görüşləri keçirilib. Lakin bu görüşlərə adətən parlament, yerli icra hakimiyyəti orqanları və vətəndaş cəmiyyəti təşkilatlarından nümayəndələr daxil edilməyib. Vətəndaş cəmiyyəti, hüquq müdafiə qrupları, bələdiyyələr, yerli icra hakimiyyətlərinin nümayəndələrinin iştirak etdiyi görüşlərdə isə onlar fəal iştirakçı kimi deyil, sadəcə dinləyici və müşahidəçi kimi qoşulublar. Buna görə də, inkişaf strategiyaları və fəaliyyətlərində bütün iştirakçıları cəlb etmək üçün daha interaktiv formatlara ehtiyac var. Oxşar şəkildə, əsas müsahiblər Müştərək iş planları icrasında vətəndaş cəmiyyəti ilə əməkdaşlığın gücləndirilməsinin əhəmiyyətini qeyd etdi.

- BMTİP Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "DİM-lərin genderə həssas yanaşma ilə icrasında vətəndaş cəmiyyətinin rolunun gücləndirilməsi" layihəsində DİMƏŞ və AQUPDK ilə əməkdaşlıq edir. Layihə çərçivəsində potensialının gücləndirilməsi tədbirlərinə 37 QHT cəlb olunub, QHT-lərə doqquz birbaşa qrant ayrılıb ki, bu da onların özlərinin DİM ilə əlaqəli və genderə həssas təşəbbüslərini icra etməsinə imkan verir. Bu, QHT-lərlə həyata keçirilən ən iri

təşəbbüslərdən biridir və "Əhalinin həssas qruplarının sosial-iqtisadi hüquqlarının gücləndirilməsində vətəndaş cəmiyyətinin rolunun artırılması" layihəsinin davamıdır.

- UNİCEF, UNFPA, BMTİP və BMTQAK vətəndaş cəmiyyəti təşkilatları ilə ən fəal əməkdaşlıq edən təşkilatlardır. Bu əməkdaşlığa cəlb olunan əsas hökumət qurumlarına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Gənclər və İdman Nazirliyi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsindən tərəfdaşlar cəlb olunub. Bəzi layihələr Bakıda və Azərbaycanın digər regionlarında sosial xidmətlər, potensialın gücləndirilməsi tədbirləri, uşaq və gənclərə, məcburi köçkünlərə, və digər həssas qruplara yönələn müxtəlif mövzularla bağlı maarifləndirmə həyata keçirib.

- Xüsusilə son illərdə yerli QHT-lərin rolu və fəallığı azalıb. Lakin onlar üçün imkanlar genişləndirilməli və onların beynəlxalq donor təşkilatlarına çıxış imkanı olmalıdır. BMT tez-tez vətəndaş cəmiyyəti təşkilatları ilə görüşməli və bu növ əməkdaşlığa hökuməti cəlb etməlidir.

- Qrant vermək hüququ əldə etmək üçün razılığın əldə edilməsi tələbi qüvvədə qalır ki, bu da UNCT üzvlərinin və digər inkişaf tərəfdaşlarının ölkədə QHT-lərə qrant vermək və onlarla müstəqil surətdə çalışmağı çətinləşdirir. UNİCEF-in 2018-ci ildə apardığı Aralıq İcmal həmçinin göstərdi ki, QHT-lərin/vətəndaş cəmiyyəti təşkilatlarının maliyyə idarəetməsindəki çətinliklər icma səviyyəsindəki tədbirlərə birbaşa dəstəyi məhdudlaşdırıb və bəzən səmərəliliyi azaldıb. Bu baxımdan vəziyyət yaxşılaşmaqdadır, çünki bir çox QHT-lər Aİ tərəfindən maliyyələşdirilən layihə çərçivəsində qrantlar almış, 2018-ci ildə bir ay müddətində qrantlarının Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmasına nail olmuşdur.

- Son olaraq, Avropa İttifaqı və BMTİP-in layihəsinin qiymətləndirilməsində QHT-lərdən birinin "dayanıqlılıq" və "sosial müəssisə" prinsipi ilə əlaqəlilik məsələsi barədə əlavə qeydinə istinad edilib: *"Reallıq ondan ibarətdir ki, dövlət maliyyələşməsinin azaldığı və beynəlxalq inkişafda səmərəlilik və təsirə yönələn çağırışların artdığı bir vaxtda köhnə QHT modeli sadəcə olaraq saxlanıla bilməz. İndi anlamaq vaxtıdır ki, QHT-lər hökumətlərdən asılılığını azaltmalı, maliyyə baxımından dayanıqlı olmalı və öz fəaliyyətlərinə görə hesabat verməlidir"*

## 10. Birgə kommunikasiyanın effektivliyi

**Aşkar edilən fakt: BMT-nin Kommunikasiya Qrupu tədbirlərə dəstək göstərmək və birgə tədbirləri təşkil etmək ilə BMT-nin Ölkə üzrə İdarə Heyətinə "Vahid kommunikasiya" baxımından kömək edir. Bu qrup UNAPF-la uzlaşdırılmış üçillik kommunikasiya planı hazırlayıb və öz işində il ərzində həyata keçiriləcək konkret tədbir və fəaliyyətləri əks etdirən illik iş planını rəhbər tutur. Qrup əsas diqqətini geniş ictimaiyyətin iştirakı ilə tədbirlərin keçirilməsinə yönəldir. Qrup, həmçinin, aylıq xəbər bülletenləri dərc edir və məşhur şəxslər və bloqqerlər kimi influenserləri cəlb edərək daha geniş auditoriyaya çıxmağa çalışır.**

Kommunikasiya Qrupu tədbirlərə dəstək, birgə fəaliyyətlərin təşkili və s. vasitəsilə, UNCT-yə "Vahid Kommunikasiya" baxımından dəstək göstərir. Ayda bir dəfə iclas keçirən qrup UNAPF-la uzlaşan üçillik kommunikasiya strategiyası hazırlayıb. UNAPF hazırlanarkən BMT-nin Qlobal Kommunikasiya Departamentinin Azərbaycanda nümayəndəsi yox idi.

Qrupun İllik İş Planına il ərzində həyata keçiriləcək konkret tədbir və fəaliyyətlər daxildir və UNCT tərəfindən təsdiq olunur. Sənəd dinamik sənəddir, zərurət olduqda ona dəyişikliklər edilir və ilin sonunda faktiki olaraq icra edilmiş fəaliyyətlər UNCT-ə təqdim olunur.

Kommunikasiya Qrupu UNCT-ə hesabat verir və İstiqamətləndirici Komitə, Nəticə Qrupları və Tematik Qruplara məlumat verir. Onun fəaliyyətlərinin təməlində UNAPF dayanır. Qrup bütün BMT təşkilatları ilə kommunikasiya fəaliyyətləri (məsələn, press-relizlərin, təbliğat kampaniyalarının hazırlanmasında, sosial media ilə işdə, fəaliyyətlər barədə məlumatların bölüşülməsində, tədbirlərin və BMT-nin xüsusi günlərinin təbliğində və gənclərin DİM-lərin icrasına cəlb olunmasında) üzrə əməkdaşlıq edir. Qrup əldə olunan nəticələri şəkillərdən istifadə edərək və onları nəqli şəkildə təsvir edərək nümayiş etdirir. Kommunikasiya Qrupu gender, sağlamlıq, ətraf mühitin mühafizəsi, gənclər və digər bu kimi mövzularda işləyir və BMT-nin fəaliyyətinin tərəfdaşlara və əhaliyə daha yaxşı nümayiş etdirilməsini təklif edir.

Məsləhətçilər aşağıdakı innovasiyaları vacib hesab edir, çünki onlar BMT-nin ölkədə əhatə dairəsini artırır və UNAPF nəticələrinin icrasına dəstək göstərir:

- Əvvəllər, kommunikasiya fəaliyyətləri BMT-nin fəaliyyəti barədə məlumatlandırmaya yönəlirdi, lakin indi BMT-nin qlobal ofisləri kommunikasiya heyətlərindən sadəcə məlumatlandırma ilə məhdudlaşmamağı və ictimaiyyəti cəlb etməyi xahiş edir. İyun ayında Ümumdünya Ətraf Mühitin mühafizəsi Günündə çimərliyin təmizlənməsi ilə bağlı bir tədbirdə 1000-ə yaxın gənc iştirak edib. Kommunikasiya Qrupu getdikcə daha çox geniş ictimaiyyətin iştirakı ilə bu kimi tədbirlərin keçirilməsinə köklənir. Bundan əlavə, Kommunikasiya Qrupunun metodları və üslubları təkamül edir: 2019-cu ildə Qrup rəqəmsal məlumatların (infoqrafika, videolar və posterlər) hazırlanmasına daha çox diqqət yetirib.

- "Vahid kommunikasiya"nın təmin edilməsində təşviqat mərkəzi rol oynayır. Məsələn, Rezident Əlaqələndirici və BMTQAK-ın Ölkə Nümayəndəsi Ümumdünya Qaçqınlar Gününün yaratdığı fürsətdən istifadə edərək 100 hökumət rəsmisinin qarşısında BMTQAK-ı narahat edən məsələlər barədə də danışıb.

- Diplomatik ictimaiyyət BMT-nin nə etdiyini daha yaxşı bilmək istədiyindən, Kommunikasiya Qrupunun hər ay aylıq bülletenlər dərc etməyə və bütün səfirliklərə göndərməyə başlayıb. Qrup həmçinin BMT üçün maraqlı olan məsələlərə köklənən gündəlik mətbuat icmalı və sosial media monitorinqi hesabatları hazırlayır. Bu icmallar daha sonra BMT təşkilatlarına, habelə baş ofislərə təqdim olunur. Qrup son dövrlərdə həmçinin ictimaiyyətə çıxış imkanı daha geniş olan influenserləri, məsələn məşhur şəxsləri və bloqqerləri cəlb etmək üçün yeni strategiya hazırlayıb. Bundan əlavə, Qrup tərəfdaşların fəaliyyətlərində iştirak edir və jurnalistlər üçün DİM-lərlə bağlı təlim təşkil etmək məqsədini daşıyır.

## 11. Resursların cəlb olunmasında effektivlik

**Aşkar edilən fakt: UNAPF-ın icrası üçün nəzərdə tutulan resurs zərfi 71 840 500 ABŞ dolları məbləğində müəyyən edilmişdir; lakin bir sıra BMT təşkilatları UNAPF-ın hazırkı nəticələr çərçivəsini tərtib edərkən çox iddialı olmuşdur. UNCT mümkün dərəcədə resursların cəlb olunmasına fərdi yanaşmaların**

**tətbiqindən uzaqlaşmalı, qüvvələri birləşdirərək əlavə dəyər yaratmaq üçün daha əlaqələndirilmiş yanaşmaya keçmək üçün imkanları araşdırmalıdır.**

UNAPF-ın icması üçün resurs zərfi 71 840 500 ABŞ dolları məbləğində qiymətləndirilib. Bundan 31 910 000 ABŞ dollarını BMT-nin 2016-2020-ci illərdə öz mövcud resursları hesabına təmin etməsi nəzərdə tutulur. UNAPF nəticələrinə dəstək üçün cəlb olunması proqnozlaşdırılan resursların isə 39 930 500 ABŞ dolları məbləğində olması nəzərdə tutulur. Təqribən 18 300 000 ABŞ dolları 1-ci strateji prioritet sahəsi, 36 774 500 ABŞ dolları 2-ci strateji prioritet sahəsi və 16 766 000 ABŞ dolları 3-cü strateji prioritet sahəsi üçün nəzərdə tutulur.

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi tərəfindən hazırlanan aşağıdakı cədvəldə UNAPF-ın büdcə çərçivəsinə düzəliş təqdim olunub (hər təşkilat üzrə).

**Cədvəl 2: UNAPF üzrə öhdəliklə müqayisədə son büdcə vəziyyəti (hər təşkilat üzrə), ABŞ dolları ilə**

| BMT-nin təşkilatı | Hesablanmış töhfə (ilkin) | Hesablanmış töhfə (düzəliş edilmiş) |
|---|---|---|
| **FAO** | 13,500,000 | 13,500,000 |
| **BƏT** | 150,000 | 150,000 |
| **BMqT** | 1,560,000 | 1,560,000 |
| **BMT İHAK** | 100,000 | 100,000 |
| **UNCTAD** | 400,000 | 400,000 |
| **BMTİP** | 26,200,000 | 26,200,000 |
| **UNECE** | 660,000 | 660,000 |
| **UNEP** | 500,000 | 500,000 |
| **UNESCO** | 460,000 | 460,000 |
| **UNFPA** | 2,000,000 | 2,000,000 |
| **BMT QAK** | 0 | 3,422,865 |
| **UNICEF** | 20,033,500 | 13,745,000 |
| **UNIDO** | 3,200,000 | 3,200,000 |
| **ÜST** | 3,076,000 | 330,000 |
| **Cəmi** | **71,839,500** | **66,227,865** |

Bununla yanaşı, bəzi təşkilatlar Aralıq İcmal müzakirələri nəticəsində öz hesablanmış töhfələrini dəyişdilər, çünki əvvəlki rəqəmlər reallığa uyğun deyildi.

Sənədlərin təhlili təsdiq edir ki, UNAPF-ın icrasından əvvəlki illərdə büdcədə azalma tendensiyasına (2013-cü ildə 13 milyard ABŞ dollarına, 2014-cü isə 9 milyard ABŞ dollarına yaxın) baxmayaraq, bəzi BMT təşkilatları hazırkı UNAPF Nəticələr Çərçivəsini hazırlayarkən çox iddialı olublar ki, bu da gözlənilən proqram tədbirlərinin təqribi büdcəsində özünü büruzə verir.

Yeri gəlmişkən, planlaşdırılan məbləğlə (71 839 500 ABŞ dolları) düzəliş edilmiş məbləğ (66 227 865 ABŞ dolları) arasındakı fərq çox böyük deyil.

2018-ci ilin Müştərək İş Planına uyğun olaraq, BMT bir sıra UNAPF hədəflərinə nail olma, o cümlədən DİM-lərin milliləşdirilməsi, institusional potensialın gücləndirilməsi, gənclərin səlahiyyətləndirilməsi, insan hüquqlarının və gender bərabərliyinin gücləndirilməsi üçün inkişaf yardımı kimi 15.9 milyon ABŞ dolları təqdim edib. Bu rəqəm 2016[30] və 2017-ci ilin xərcləri ilə birlikdə 47.6 milyon ABŞ dollarına və ya UNAPF sənədində götürülən maliyyə öhdəliyinin 50%-dən artığına bərabər oldu. UNAPF üzrə 2017-ci ilin icra hesabatında vurğulanır ki, 2017-ci il üçün təyin olunan və 47 məhsulu əhatə edən UNAPF hədəfləri 16 480 777 ABŞ dolları dəyərində olub.

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi tərəfindən hazırlanan aşağıdakı cədvəldə UNAPF üzrə götürülən öhdəliklərlə müqayisədə yenilənmiş büdcə təqdim olunur (hər təşkilat üzrə).

**Cədvəl 3: UNAPF üzrə götürülən öhdəliklərlə müqayisədə yenilənmiş büdcə (hər təşkilat üzrə), ABŞ dolları ilə**

| BMT-nin təşkilatı | 2016 | 2017 | 2018 | 2019-2020 (planlaşdırılmış) | Cəmi 2016-2020 | UNAPF üzrə öhdəlik (ilkin) | UNAPF üzrə öhdəlik (düzəliş edilmiş) |
|---|---|---|---|---|---|---|---|
| FAO | 1,473,807 | 1,032,506 | 1,052,062 | 7,694,000 | 11,252,375 | 13,500,000 | 13,500,000 |
| BƏT | | 260,000 | 180,000 | 982,300 | 1,422,300 | 150,000 | 150,000 |
| BMqT | | 2,095,667 | 1,584,504 | 1,855,103 | 5,535,274 | 1,560,000 | 1,560,000 |
| BMT İHAK | | 18,000 | 83,000 | 125,000 | 226,000 | 100,000 | 100,000 |
| UNCTAD | | | | | 0 | 400,000 | 400,000 |
| BMTİP | 10,005,877 | 8,492,254 | 8,559,566 | 18,600,645 | 45,658,342 | 26,200,000 | 26,200,000 |
| UNECE | 26,000 | 66,000 | 35,000 | 151,000 | 278,000 | 660,000 | 660,000 |
| UNEP | | 75,000 | | | 75,000 | 500,000 | 500,000 |
| UNESCO | | | | | 0 | 460,000 | 460,000 |
| UNFPA | 569,900 | 495,000 | 709,621 | 1,622,100 | 3,396,621 | 2,000,000 | 2,000,000 |
| BMT QAK | 2,422,000 | 2,294,380 | 2,382,660 | 3,956,000 | 11,055,040 | 0 | 3,422,865 |
| UNICEF | 806,879 | 1,340,443 | 1,208,798 | 4,959,630 | 8,315,750 | 20,033,500 | 13,745,000 |
| UNIDO | | | | | **0** | 3,200,000 | 3,200,000 |
| ÜST | | 223,000 | 157,500 | 88,000 | 468,500 | 3,076,000 | 330,000 |
| **Cəmi** | **15,304,463** | **16,392,250** | **15,952,711** | **40,033,778** | **87,683,202** | **71,839,500** | **66,227,865** |

Qeyd etmək lazımdır ki, BMT-nin hazırkı maliyyələşmə strukturuna əsasən, Baş Assambleya tərəfindən yaradılmış bütün BMT fondları və proqramları başlıca olaraq könüllü əsas ianələr hesabına maliyyələşir, ixtisaslaşmış təşkilatlar ayrı-ayrı ianələr hesabına əsas maliyyə resursları qəbul etməyə davam edir. BMT-nin Katibliyi Üzv Dövlətlərdən birgə maliyyələşmə qəbul edir və sülhyaratma əməliyyatları üzv dövlətlər tərəfindən ayrıca maliyyələşdirilir. Buna görə də, ötürücü mexanizmlər kimi çıxış edən birgə maliyyə resurslarından əlavə (məsələn, tematik məqsədli fondları, qlobal fondlar), müxtəlif resurs cəlbetmə sxemləri və innovativ maliyyələşmə mexanizmləri mövcuddur.

[30] 2016-cı ildə heç bir MİP-in olmamasını baxmayaraq, aralıq icmal zamanı təşkilatlardan 2016-cı il üçün maliyyə məlumatlarını retroaktiv qaydada toplamaq və bunu UNAPF-ın icrasının bir hissəsi hesab etmək qərara alındı.

Məsləhətçilər hesab edir ki, UNCT resursların cəlb olunmasına fərdi yanaşmanın tətbiqindən uzaqlaşmalı, daha əlaqələndirilmiş yanaşmaya keçmək üçün imkanları araşdırmalıdır. Özəl sektor maliyyələşməsi və fəaliyyət dürüstlüyü ilə bağlı etik məsələlər də nəzərə alınmalıdır və onlar resurs cəlbetmə strategiyası çərçivəsində nəzərdən keçirilə bilər. BMT təşkilatlarının resurslar üçün rəqabət aparmadığı, əksinə qüvvələri birləşdirməklə miqyası genişləndirdiyi və əlavə dəyər yaratdığı resurs cəlbetmə strategiyasına ehtiyac duyulur.

İnkişaf tərəfdaşları izah etdi ki, Avropa İttifaqı BMTİP, BMqT, UNİCEF və FAO ilə əməkdaşlıq edir və bu əməkdaşlığın davam edəcəyi gözlənilir. Lakin ölkənin orta gəlirli ölkə statusu ilə əlaqədar olaraq, maliyyələşmə imkanları daralır və GİZ və Norveç kimi bəzi donorlar öz fəaliyyətlərini mərhələlərlə kiçildirlər. İnkişaf tərəfdaşları həmçinin BMT-nin mövqeyi ilə bağlı tənqidi mövqedə olub. Onlar qeyd edib ki, BMT vahid strateji çərçivə altında vahid ailə kimi işləmir və bir ağızdan danışmaq çətindir.

## D. Səmərəlilik

**Aşkar edilən fakt: UNAPF nəticələrinin həm hökumət, həm də hər bir BMT təşkilatı üçün əməliyyat xərclərinin azaldılması fonunda ağlabatan dərəcədə aşağı xərclərlə əldə olunub-olunmadığını müəyyən etmək çətindir. Əməliyyatlar üzrə İdarəetmə Heyəti və İşgüzar Əməliyyatlar Strategiyası UNAPF dövrünün qalan müddəti (2018-2020) üçün uzlaşan UNAPF-ın proqramlaşdırma tərəfinin əməliyyat tərəfindən tam dəstəklənməsinə imkan verdi. UNCT diqqəti işgüzar əməliyyatlarin uzlaşdırılmasının idarə edilməsi, vahid satınalma, vahid insan resursları, vahid maliyyə və vahid informasiya və kommunikasiya texnologiyası prinsiplərinə yönəltməyə qərar verib. Əməliyyatlar üzrə İdarəetmə Heyəti hazırda diqqətini vahid ofis məkanlarının təşkilinə yönəldir. Təşkilatlar tərəfindən fərqli platformaların istifadə edilməsi insan resursları, maliyyə, inzibati alət və əməliyyatlar baxımından çətinliklər yaradır. Bunların bəziləri UNCT-in nəzarəti xaricindədir.**

UNAPF-ın səmərəliliyi texniki tapşırıqda nəticələrin adekvat miqdarda resurslarla və minimum əməliyyat xərcləri (maliyyə vəsaitləri, səriştə və təcrübə, vaxt, inzibati xərclər və s.) ilə əldə olunması dərəcəsi kimi izah edilir. Məsləhətçilər UNAPF-ın icrasına təsir göstərə biləcək səmərəlilik məsələlərini müzakirə etmək üçün Əməliyyatlar üzrə İdarəetmə Heyəti (ƏİH) ilə görüşüb. UNAPF-dan əvvəl ƏİH təşkilatları əməliyyat nöqteyi-nəzərindən bir araya gətirən standart struktur kimi mövcud idi. Hazırda ƏİH sədri BMTİP-in Rezident Nümayəndəsidir, çünki sədr beynəlxalq heyət üzvü olmalıdır.

ƏİH vahid ofis məkanlarının təşkili ilə bağlı iş aparır və 2015-2016-cı ildə UNCT "Vahid icra" siyasətini, o cümlədən "Vahid əməliyyat" prinsipini tətbiq etməyə başlayıb. UNAPF-ın proqramlaşdırma tərəfinin əməliyyat tərəfi tərəfindən tam dəstəklənməsi vacibdir, çünki bu iki sahə bir-bir ilə qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdır.

Təşkilatlar müxtəlif siyasət və əməliyyat sahələri üzrə bu konsepsiyaya dəstək göstərmək üçün alt-qruplar şəklində bir araya gəlib. Məsələn, eyni ofis məkanlarından istifadə edən təşkilatlar birgə fəaliyyətləri yaxşılaşdırmaq istiqamətində çalışaraq, resursları, sistemləri və alətləri, məsələn əlaqələri, telefon sistemlərini və s. bölüşmək imkanlarına nəzər alıb. Təşkilatların daha bir alt-qrupu Nağd Köçürmələr üçün Uyğunlaşdırılmış Yanaşmanın (HACT) tətbiqi imkanlarını araşdırıb.

Tam vahid satınalma və ya İnsan Resurslarına malik olmaq üçün, təşkilatların təlimatları, qaydaları və prosedurları sinxronlaşdırılmalıdır. Təşkilatlar tərəfindən fərqli Müəssisə Resurslarının Planlaşdırılması (ERP) platformalarının istifadə edilməsi insan resursları, maliyyə, inzibati alət və əməliyyatların optimallaşdırılması baxımından çətinliklər yaradır. Bunların bəziləri UNCT-in nəzarəti xaricindədir. Bəzən bütün təşkilatların eyni sistemlərdən, alətlərdən və ya siyasətlərdən istifadə etməsinin heç də həmişə səmərəliliyin və ya effektivliyin artması ilə nəticələnmədiyi müşahidə edilib. Bütün bu mülahizələrə əsaslanaraq, ƏİH "Vahid əməliyyat" konsepsiyasını hazırlayaraq UNCT-ə təqdim etdi və bu istiqamətdə işləməyə başladı.

2017-ci ildə UNCT Əməliyyatlar üzrə İdarəetmə Heyətinə UNAPF dövrünün qalan müddəti (2018-2020) ilə uzlaşan İşgüzar Əməliyyatlar Strategiyası hazırlamağı tapşırdı. Bu məqsədlə, hansı təşkilatın nə etdiyini və təşkilatların əməliyyatlarının birgə həcmini təhlil etmək və xəritələşdirmək, təşkilatların birgə edə biləcəyi tədbirləri tövsiyə etmək üçün müstəqil məsləhətçi cəlb olundu. Bu strategiya sənədi 2018-ci ilin aprel ayında təsdiq olundu və ƏİH planın icrasına başladı.

UNCT-nin dərhal icra etməyə qərar verdiyi nəticə sahələri aşağıdakılar olub: İşgüzar Əməliyyatların Uzlaşdırılmasının İdarə edilməsi, Vahid Satınalma, Vahid İnsan Resursları, Vahid Maliyyə və Vahid İKT. UNCT ilə əlavə müzakirə və məsləhətləşmə tələb edən və hazırkı şərtlər daxilində icrası çətin olan nəticə sahələri aşağıdakılar olub: Vahid Logistika və Vahid Qurğular.

Bütün BMT sisteminə daha yaxşı xidmətlərin təqdim olunması üçün 2018-ci ilin noyabr ayında yerli banklarla bağlı sorğu başa çatıb və BMT Evində İT və telefon sistemi təkmilləşdirilib. 2018-ci ilin sentyabr/2019-cu ilin yanvar ayında ayrılma prosesi başladı. Qlobal səviyyədə qərara alındı ki, BMTİP hələ də Rezident Əlaqələndirici Ofislərinə baza xidmətləri təmin edəcək. Bunun ardınca, ƏİH-in illik iş planı hazırlandı və bütün təşkilatlarla bölüşüldü.

Təşkilatların fəaliyyətlərinin daha da optimallaşdırılması və BMT-nin islahat gündəliyinə uyğun olaraq mümkün qədər çox ofislərin 2021-ci ilədək "Vahid BMT Evi" prinsipini tətbiq etməsi üçün ƏİH qrupuna tapşırıq verilib. ƏİH təşkilatlar arasında işçi heyət, ofis sahəsi, anbar, avtomobillər və digər resursları ilə bağlı sorğu aparıb. Əsas məqsəd Rezident Əlaqələndiricinin Xarici İşlər Nazirliyi ilə görüşdə səsləndirdiyi təklifə - fəaliyyətləri optimallaşdırmaq üçün bütün BMT təşkilatlarının eyni binada bir araya gətirilməsi təklifinə dəstək üçün konsepsiya hazırlamaq idi. Hazırda Vahid BMT Evində BMTİP, UNFPA, ÜST, DSS, UNODC, UNOPS yerləşir. UNİCEF və BƏT eyni binada yerləşir; FAO və BMqT-nin öz ofisləri var; BMTQAK və BMT İHAK da eyni binada yerləşir. Eyni binaya köçmək həm də Hökumətin belə bir binanı ödənişsiz təmin etməsindən asılıdır. Hazırda BMT Evi və FAO-nun ofisi hökumət tərəfindən ödənişsiz təqdim olunur.

Daha bir tapşırıq isə İşgüzar Əməliyyatlar Strategiyasının yeni versiyasını (İƏS 2.0) hazırlamaqdır. Lakin yeni təlimatlar hələ hazır deyil. İƏS 1.0 ilə müqayisədə İƏS 2.0-ın daha konkret, daha az bürokratik olması, daha az öhdəlik qoyması və təşkilatlara öhdəliklərlə bağlı daha çox sərbəstlik verməsi gözlənilir.

Birgə iş üçün BMT oxşar qaydalara sahib olan vahid proqrama malik olmalıdır. Məsələn, əvvəllər BMTİP digər təşkilatların uzunmüddətli müqavilələrindən istifadə edə bilmirdi, lakin digər təşkilatlar onun müqavilələrindən istifadə edə bilirdi. İndi BMTİP UNİCEF-in resurslarından istifadə edə bilir və bir çox digər proseslər sadələşdirilib ki, bu da resursların müəyyən dərəcədə bölüşülməsinə gətirib çıxarır. Bununla belə, hələ də çoxsaylı maneələr qalır (məsələn, birgə auditlər). İƏS 1.0 birgə auditdən bəhs etsə də,

təşkilatların öz daxili audit sistemləri olduqda birgə audit tətbiq etmək mümkün deyil. Maliyyə və ya insan resursları üçün müxtəlif onlayn platformalardan istifadə edir.

Təşkilatlar fərqli sistemlərə malik olduğundan vahid İnsan Resursları tam tətbiq oluna bilmir. Bəzi xidmətləri birləşdirmək üçün səylər göstərilsə də, maneələr qalır. Məsələn, bir təşkilat SAP, digər Atlas istifadə edir və onları bir araya gətirmək çətindir. Buna baxmayaraq, təşkilatlar bir-birinin təcrübələrindən və resurslarından istifadə edib. Məsələn, işəgötürmə proseslərində müsahibə panelləri üçün, vahid məsləhətçi siyahıları və s.

## E. PROQRAMLAŞDIRMA PRINSIPLƏRI

İlkin hesabatda UNAPF-ın beş proqramlaşdırma prinsipi müəyyən edilib və UNAPF çərçivəsində çoxsaylı sahələrlə əlaqəli şəkildə istifadə olunub.

UNAPF hazırlanarkən istifadə olunan 2010-cu il UNDAF təlimatında UNDAF-ın tərtibi və icrasında istifadə olunan bir-biri ilə əlaqəli beş proqramlaşdırma prinsipi göstərilir. İnsan hüquqlarına əsaslanan yanaşma, gender bərabərliyi, ətraf mühitin dayanıqlılığı, potensialın inkişaf etdirilməsi və nəticə əsaslı idarəetmə .[31] İcra zamanı həmçinin oxşar prinsiplərə malik 2017-ci il təlimatları rəhbər tutulmuşdur. [32] Bu qiymətləndirməyə gender və insan hüquqları aspektlərinin inteqrə edilməsi vacib hesab edilib. Bundan əlavə, 2017-ci il UNDAF təlimatında dezaqreqasiya olunmuş məlumatların toplanmasının və təhlilin UNDAF-ın icrasında və monitorinqində rolu vurğulanıb. 2017-ci il təlimatında vurğulanan digər prinsiplərə *davamlılıq və dayanıqlılıq*, habelə *hesabatlılıq* daxildir.[33]
Bundan əlavə, bu qiymətləndirmənin mümkün qədər insan hüquqları və gender asketlərini nəzərə alması məqsədilə, bu hesabatın bir neçə bölməsində qiymətləndirməyə insan hüquqlarının və gender bərabərliyinin inteqrasiyası üzrə UNEG təlimatı bu qiymətləndirmənin yanaşma və metodologiyasında istifadə edilmiş və ona istinad edilmişdir. [34] Qiymətləndirmədə həmçinin UNEG-in "BMT-SWAP Qiymətləndirmə Fəaliyyəti Göstəricisi" barədə təlimatından istifadə edilib.[35]

UNAPF sənədində göstərilir ki, BMT-nin beş təməl proqramlaşdırma prinsipinə (əvvəlki səhifədə qeyd olunur) əsaslanaraq, UNAPF-ın səmərəli icrası üçün bir sıra əsas strategiyalar bütün UNAPF prosesi boyunca aktuallaşdırılmalıdır:

- Siyasətlərin icrasının gücləndirilməsi, təşkilati potensialın gücləndirilməsi və sistemlərin inkişafı.
- BMT-nin mandatının və təcrübəsinin mərkəzində dayanan milli potensialın inkişaf etdirilməsi paradiqması
- Sosial inklüzivliyi təmin etmək üçün inkişaf faydalarına daha yaxşı çıxış və onların daha yaxşı paylanması (bu strategiyanın bir hissəsi UNAPF əsas siyasət planlaşdırmasına və icrası proseslərinə

[31]Beş proqramlaşdırma prinsipi və digər çoxsahəli məsələlər üçün bax: "UNDAF-ı necə hazırlamalı: Hissə (II) UNCT-lər üçün Texniki Bələdçi", II Fəsil, Yanvar 2010. Onların praktiki tətbiqi barədə tövsiyələr üçün bax: Təlimat: Proqramladırma prinsiplərinin UNDAF-a tətbiqi, Yanvar 2010.

[32] Proqramlaşdırma prinsipləri, UNDAF üzrə köməkçi vəsait, UNDG, 2017.

[33] Bax: UNDAF Təlimatı, UNDG, 2017 -- https://undg.org/document/2017-UNDAF-guidance/
və UNDAF üzrə köməkçi vəsaitlər, bax https://undg.org/programme/undaf-companion-guidances/.

[34] Qiymətləndirmədə insan hüquqları və gender bərabərliyinin inteqrasiyası üçün təlimat, UNEG-in təlimatı, 2014, bax: http://uneval.org/document/detail/1616.

[35] BMT-SWAP Qiymətləndirmə Fəaliyyəti Göstəricisi üzrə Texniki Arayış, UNEG, 2018.

beynəlxalq insan hüquqları mexanizmlərinin və gender bərabərliyi normalarının əhəmiyyətli şəkildə inteqrə edilməsini təmin etmək üçün milli potensialın gücləndirilməsidir).

- Daha yaxşı və innovativ bilik idarəetməsi
- Beynəlxalq sazişlərin və Azərbaycanın öhdəliklərinin yerinə yetirilməsinin təşviqi və monitorinqi, eyni zamanda sosial birliyi artırmaq və ən həssas qrupları əhatə etmək üçün səmərəli sosial siyasətlər və proqramların hazırlanması və icrasına dəstək.

Bu qiymətləndirmənin vaxt çərçivəsində bütün prinsiplərə təfərrüatlı şəkildə nəzər salmaq mümkün olmadığından, prioritet insan hüquqlarına əsaslanan yanaşma və gender bərabərliyinə verildi. Bu bölmədə "*Heç kəsi kənarda qoymamaq*", İnsan hüquqlarına əsaslanan yanaşma", "Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi" prinsipləri təhlili olunur. 2017-ci ildən bəri UNAPF-ın icrasının böyük hissəsində bu prinsiplər rəhbər tutulub.

## 1. Heç kəsi kənarda qoymamaq və İnsan hüquqlarına əsaslanan yanaşma

**Aşkar edilən fakt: *Heç kəsi kənarda qoymamaq*, insan hüquqları və gender bərabərliyi UNAPF və BMT-nin Hökumətə milli inkişaf prioritetlərinə nail olunmasında və beynəlxalq öhdəliklərin yerinə yetirilməsində birgə dəstəyi üçün təməl prinsiplərdir. Bununla belə, UNAPF sənədində bu prinsiplərin hansı formada çoxsahəli xarakter daşıyacağı barədə məlumat məhduddur. Nəticələr Çərçivəsində insan hüquqlarına əsaslanan yanaşma bəzi nəticələrdə, xüsusilə müqavilə orqanlarına istinad edən nəticələrdə əks olunub. UNAPF-ın nəticə və strategiyaları Azərbaycanın ratifikasiya olunmuş insan hüquqları sazişlərinin standart və prinsiplərinə əsaslanır və ya ən azı nəzərə alır. Lakin insan hüquqlarına əsaslanan yanaşma UNAPF-ın icrasında bu yanaşmanın mərhələlərindən (səbəb-nəticə təhlili, rol-model təhlili, potensialda boşluqlararın təhlili) istifadə yolu ilə sistemli, davamlı və məqsədyönlü şəkildə əks etdirilməyib. Əhalinin həssas qruplarının kimlərdən ibarət olması, harada olması və ehtiyaclarını müəyyən etmək, BMT-nin necə töhfə verə biləcəyini dəqiqləşdirmək üçün kifayət qədər təhlil aparılmayıb. Tərəfdaş hökumət qurumlarının həssas qrupların ehtiyacları və dezaqreqasiya olunmuş məlumatların vacibliyi ilə bağlı potensialı davamlı şəkildə gücləndirilməyib. Təşkilatlar UNAPF-ın İnsan hüquqları üzrə Tematik Qrup və Gender üzrə Tematik Qrup vasitəsilə insan hüquqları komitələrinə hesabatverməyə texniki dəstək göstərsə də, BMT-nin insan hüquqları məsələlərinə dair hökumətlə dialoqu həssas qruplara yönələn birgə tədbirlər vasitəsilə gücləndirilə bilərdi.**

İnsan hüquqları və gender bərabərliyi UNAPF-ın icrası və BMT-nin Hökumətin beynəlxalq öhdəliklərini yerinə yetirməsinə birgə dəstəyini istiqamətləndirən təməl prinsiplərdir. UNAPF sənədində resursların cəlb olunması və müxtəlif təşkilatların səylərinin əlaqələndirilməsi üçün gender bərabərliyi və insan hüquqlarına əsaslanan yanaşma kimi çoxsahəli mövzuların bəziləri üzrə "BMT sistemində uzlaşma" prinsipi təsdiq olunur. Həmçinin qeyd etmək lazımdır ki, "Heç kəsi kənarda qoymamaq" prinsipi 2017-ci ilin UNDAF Təlimatında təqdim olunub və UNDAF proseslərində və 2019-cu ilin UNSDCF Təlimatında daha da önəm qazanıb. Bu, onun 2030-cu il Gündəliyi və DİM-lər üçün əhəmiyyətini əks etdirir.

İnkişafa insan hüquqlarına əsaslanan yanaşma dayanıqlı inkişaf üçün konseptual çərçivə olaraq, beynəlxalq insan hüquqları standartlarına və prinsiplərinə normativ qaydada əsaslanır və fəaliyyətdə insan hüquqlarını təşviq edir və qoruyur. İnsan hüquqlarına əsaslanan yanaşmaya əsasən, inkişaf planları, siyasətləri və prosesləri beynəlxalq hüquqa uyğun olaraq, mədəni, iqtisadi, siyasi və sosial hüquqlar, habelə inkişaf hüququ daxil olmaqla hüquqlar və müvafiq öhdəliklər sisteminə söykənir. İnsan hüquqlarına

əsaslanan yanaşma insan hüquqları prinsiplərinin (bərabərlik və ayrı-seçkiliyə yol verməmə, iştirak, hesabatlılıq) BMT-nin inkişaf sahəsində əməkdaşlığında rəhbər tutulmasını və əsas diqqətin "öhdəlik daşıyıcıları"nın öz öhdəliklərini yerinə yetirməsi və "hüquq daşıyıcıları"nın öz hüquqlarını tələb etməsi üçün onların potensialının inkişaf etdirilməsinə yetirilməsini tələb edir.[36]

UNDAF prinsipləri qeyd olunarkən, cari UNAPF sənədinə məhdud istinad edilmişdir. Cari UNAPF sənədində göstərilirdi ki, çoxsahəli mövzular müxtəlif təşkilatların resurslarından istifadə etmək və onların səylərini əlaqələndirmək üçün UNCT-nin gender, insan hüquqları və İİV/QİÇS üzrə qrupları tərəfindən əhatə olunacaq.

Müqayisə üçün, əvvəlki UNDAF sənədində çoxsahəli məsələlərin hər bir UNDAF nəticəsi üçün nəzərdən keçiriləcəyi sahələri göstərən maraqlı bir cədvəl yer alır. "UNDAF nəticələrində çoxsahəli məsələlərin əks olunması."

"*Heç kəsi kənarda qoymamaq*" prinsipi ilə bağlı olaraq, qiymətləndirmə heyəti müəyyən etdi ki, Nəticələr Çərçivəsində bəzi UNAPF nəticələri və göstəriciləri nəticələri ölçmək üçün uyğun deyildi (heç kəsin BMT-nin tədbirlərindən kənarda qoyulmamasını təmin edəcək şəkildə). Belə ki, məsləhətçilər müəyyən etdi ki, Nəticə 1.1 (şaxələnmənin dərinləşməsi, dayanıqlı artım səviyyəsinin yüksəlməsi və layiqli əmək) gənclərə, qadınlara, əlilliyi olan şəxslərə və digər həssas əhali qruplarına yönəlsə də, göstəricilər BMT tədbirlərinin bu qruplara təsirlərini ölçməyib. Lakin Nəticə 2.3 (2020-ci ilədək dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək edilməsi) əhalinin həssas qruplarına yönələn bir neçə göstəriciyə malik olmaqla, "heç kəsi kənarda qoymamaq" prinsipinə daha yaxşı cavab vermək potensialına malikdir.

Tematik Qrupların (Gender, insan hüquqları və DİM-lər) üzvləri qeyd etdi ki, növbəti UNSDCF çərçivəsində "*heç kəsi kənarda qoymamaq*" prinsipini tətbiq etmək üçün spesifik həssas qrupları müəyyən edən metodologiyalar olmalıdır. Onlar əhalinin həssas qruplarının kimlərdən ibarət olması, harada olması və ehtiyaclarını müəyyən etmək, BMT-nin necə töhfə verə biləcəyini dəqiqləşdirmək üçün kifayət qədər informasiya olmadığını vurğuladı.

Digər çətinliklərdən biri ondan ibarətdir ki, tərəfdaş hökumət qurumlarının iştirakının keyfiyyəti BMT-nin əməkdaşlığına təsir edir. Hökumətin həssas qrupların ehtiyacları və dezaqreqasiya olunmuş məlumatlarla bağlı bəzi məsələlərin vacibliyi ilə bağlı potensialı davamlı şəkildə gücləndirilməyib. Hökumətin yanaşması əhalinin əksəriyyəti üçün iqtisadi artıma nailolmanın həssas qruplar üçün də imkanların yaxşılaşdırılması üçün müsbət yayılma effektinə malik olacağını vurğulayır.

Qeyd edilməlidir ki, BMT-nin Dayanıqlı İnkişaf Qrupunun (UNSDG) "heç kəsi kənarda qoymamaq" prinsipi ilə bağlı nəşr etdiyi yeni təlimat bu məsələlərin həllinə və növbəti UNSDCF-i hazırlamağa kömək edə bilər.[37] Təlimat "heç kimi kənarda qoymamaq" prinsipinin fəaliyyətə daxil edilməsi üçün təhlil, fəaliyyət, monitorinq, hesabatlılıq və faydalı iştirakı əks etdirən beş addımdan ibarət metodologiya təqdim edir. Bu addımlar BMT İnkişaf Sisteminin rəhbərlik etdiyi və ya dəstəklədiyi müxtəlif planlaşdırma və proqramlaşdırma kontekstlərinə şamil edilə bilər. Bütün addımlarda gender aspektləri tətbiq edilməlidir.

[36] BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi, Daxili Təlimat, 3 iyun 2019.

[37] Heç kəsi kənarda qoymamaq, BMT-nin Dayanıqlı İnkişaf Qrupunun BMT-nin Ölkə üzrə İdarə Heyətləri üçün Əməliyyat Bələdçisi, Aralıq layihə, 18 mart 2019.

Qadınlar və qızlar adətən təcrid olunmuş qruplar arasında ən çox məhrumiyyətlərlə üzləşən və əlverişsiz vəziyyətdə olan qruplardan biridir. Addımlar aşağıdakılardır:

- Addım 1: Kim kənarda qalır? Dəlillərin toplanması.
- Addım 2: Niyə? Prioritetləşdirmə və təhlil.
- Addım 3: Nə? Nə edilməlidir.
- Addım 4: Necə? İrəliləyişi necə ölçməli və nəzarət etməli.
- Addım 5: "Heç kəsi kənarda qoymamaq" prinsipi üçün hesabatlılığın gücləndirilməsi
- Çoxsahəli qaydalar: Faydalı iştirak.

Qaydalar Vahid Ölkə Təhlili və UNSDCF-də "heç kəsi kənarda qoymamaq" prinsipinin inteqrasiyası üçün praktiki məlumatları təmin edir.
BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının (BMT İHAK) daha bir yeni nəşri məlumatların toplanması və təhlili baxımından faydalı ola bilər.[38]

İnsan hüquqlarına əsaslanan yanaşma ilə əlaqədar olaraq, qiymətləndirmə heyəti müəyyən etdi ki, bu, Nəticə 2.2-də (2020-ci ilədək Azərbaycanın beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olması, beynəlxalq standartlara uyğun olaraq icra, monitorinq və hesabat vermə üçün potensialının gücləndirilməsi) əks olunur. Bundan əlavə, göstəricilər nəticə ilə əlaqəlidir və hər ikisi insan hüquqları sahəsində təsdiq olunmuş sazişlərin standartlarına (o cümlədən beynəlxalq əmək standartlarına) cavab verir, əsas müqavilə orqanları tərəfindən dərc olunmuş tövsiyələrin icrasına, habelə hökumət, vətəndaş cəmiyyəti və BMT təşkilatları tərəfindən müqavilə orqanlarına göndərilən məlumatlara istinad edir və əcnəbi işçiləri işə qəbul proseslərinin beynəlxalq standartları ilə uzlaşır.

Nəticələr Çərçivəsindən əlavə, UNAPF sənədində beynəlxalq standartlar və əsas insan hüquqları konvensiyaları və alətləri qeyd olunur. Azərbaycan bütün əsas saziş və konvensiyaları imzaladığı üçün BMT-dən yanaşmaların, münasibətlərin və gələcəyə baxışın formalaşdırılmasında və bu sazişlərin icrası barədə hesabatvermədə dəstək göstərməsi xahiş olunub. UNAPF sənədi həmçinin səbəbləri dörd kateqoriyada (iqtisadi, sosial-mədəni, institusional və idarəçilik, ətraf mühit və coğrafi) əhatə edən cədvəl vasitəsilə Azərbaycanda inkişaf çağırışlarını ətraflı təsvir edib.

Məsləhətçilər qeyd etdi ki, Müştərək iş planlarında 2-ci prioritet sahədə Azərbaycanın beynəlxalq insan hüquqları mexanizmlərinə və standartlarına uyğun olaraq irəliləyiş əldə etməsinə kömək etmək və icra, monitorinq və hesabatvermə üçün potensialın gücləndirilməsinə yönələn 14 məhsul yer alır. Təşkilatlar UNAPF-ın İnsan hüquqları Tematik Qrupu vasitəsilə insan hüquqları komitələrinə (CRC, CEDAW, CESCR və UDİ) hesabatvermə ilə bağlı və yekun qeyd və tövsiyələrinin icrası ilə bağlı texniki dəstək göstəriblər.

İnsan hüquqlarına əsaslanan yanaşma Nəticələr Çərçivəsinin nəticələrində əks olunur, xüsusilə müqavilə orqanlarına istinad edir. Bu hesabatın effektivliklə bağlı bölməsində təsvir olunan nailiyyətlər əsasında, aydın olur ki, UNAPF nəticələri və strategiyaları hökumət tərəfindən təsdiq olunmuş insan hüquqları sazişlərinin standartlarına və prinsiplərinə əsaslanır və ya ən azı nəzərə alır. Spesifik nəticələr və strategiyalar müqavilə orqanlarının bir çox yekun müşahidə və tövsiyələri ilə əlaqəlidir. Bundan əlavə,

[38] Məlumatlara insan hüquqlarına əsaslanan yanaşma, Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyində "heç kəsi kənarda qoymamaq" prinsipi, BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı, 2018.

UNCT-nin və icraçı tərəfdaşlarının insan hüquqlarına əsaslanan yanaşmanın üç “əməliyyat” prinsipinin (ayrı-seçkiliyə yol verməmək və bərabərlik, iştirak və inklüzivlik, hesabatlılıq və qanunun aliliyi).

Lakin bu nailiyyətlərə baxmayaraq, UNAPF-ın hazırlanmasında, sonrakı illik icmallarda və ya aralıq icmal prosesində insan hüquqlarına əsaslanan yanaşmanın sistemli və davamlı tətbiqinə dair dəlillər yoxdur. Bunun üçün proqram tərəfdaşları ilə birgə ən azı üç addım tələb olunur:

1. İnsan hüquqlarının yerinə yetirilməməsinin təməl səbəblərini başa düşmək üçün əsas inkişaf çağırışlarının strukturlu səbəb-nəticə əlaqəsi;
2. Ratifikasiya olunmuş sazişlərə uyğun olaraq spesifik hüquq daşıyıcıları qarşısında insan hüquqları ilə bağlı öhdəliklərə hörmət edilməsində, onların müdafiə olunmasında və yerinə yetirilməsində dövlətdən gözlənilən vəzifələrin aydınlaşdırılması üçün rol-model təhlili;
3. Fəaliyyətin davamlılığına imkan yaradan spesifik potensialları müəyyən etmək üçün həm öhdəlik, həm də hüquq daşıyıcıları üçün potensialdakı boşluqların təhlili.[39]

Ümumilikdə, bu onu göstərir ki, proqramlaşdırma prosesinin son nəticəsi insan hüquqları standartları, prinsipləri və məsələlərini nəzərə alıb, lakin bu, bütövlükdə insan hüquqlarına əsaslanan yanaşmanın strukturlu və məqsədyönlü tətbiqi sayəsində baş verməyib.

Təşkilatların birgə tədbirinə nümunə olaraq, 2017-ci ilin dekabr ayında İnsan Haqları Günü münasibətilə, Universal İnsan Hüquqları Bəyannaməsinin 70 illiyini qeyd etmək üçün bir illik kampaniyaya start verilməsini göstərmək olar. Kampaniyanın Universal Bəyannamənin hər kəsi necə səlahiyyətləndirməsi ilə bağlı təsəvvürləri yaxşılaşdırdı və hər bir vətəndaşı insan hüquqlarının müdafiəsinə qalxa biləcəyi yollar barədə düşünməyə dəvət etdi. Açılış tədbirində dövlət orqanlarının, parlamentin, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyətinin, elm ictimaiyyətinin və KİV-in 50-dən yuxarı nümayəndəsi iştirak etdi.

Maraqlı tərəflərlə müzakirələr nəticəsində insan hüquqlarına əsaslanan yanaşmanın (İHƏY) icrası ilə bağlı aşağıdakı çatışmazlıqlar müəyyən edildi.

- UNAPF sənədində və digər hesabatlarda bu prinsipin UNAPF-ın icrasında necə sahələrarası xarakter daşıdığı aydın deyil. Məsələn, bu, 14 məhsula malik 2-ci sahədə aydın olsa da, 1-ci və 3-cü sahələrdə onun necə aktuallaşdırılması ilə bağlı spesifik izahat yoxdur.
- Məsləhətçilərin görüşdüyü bəzi müsahiblər UNAPF-ın icrasında insan hüquqları komponentini zəif hesab edib. Onlar hesab edib ki, BMT ilə Hökumət arasında dialoq məhduddur. Üzv Dövlətlərin Azərbaycanda insan hüquqları ilə bağlı narahatlıqlarının olmasına baxmayaraq, insan hüquqları ilə bağlı müzakirələrin miqyası kiçikdir. BMT hökumətlə insan hüquqlarının müzakirəsini davam etdirməyə, öz narahatlıqlarının Hökumətin daha yüksək səviyyələrinə çatdırmağa və sosial birlik sahəsində daha fəal olmağa çağırılır.
- Bəzi QHT-lər də hesab edir ki, BMT insan hüquqlarının həssas xarakteri ilə bağlı olaraq onları daha az vurğulayır. QHT-lərin təlim keçə biləcəkləri mövzularla bağlı da məhdudiyyətlər var (məsələn, LGBTQİ mövzusu) və onlar həssas məsələlərlə bağlı BMT-dən kifayət qədər siyasi səviyyəli dəstək hiss etmir.
- BMT-nin proqram heyətinin və milli tərəfdaşların BMT-nin insan hüquqları sistemi və tematik mövzular barədə məlumatlığının artırılması və potensialının gücləndirilməsi də davamlı ehtiyacdır.

[39] UNDAF-ı necə hazırlamalı: Hissə (II) UNCT-lər üçün Texniki Bələdçi", UNDG, 2010. 22-23. Həmçinin bax: İnsan hüquqlarına əsaslanan yanaşma üzrə vahid təlim paketi

BMT-nin müqavilə orqanları, xüsusi məruzəçiləri, eləcə də gender, uşaq hüquqları, qaçqınların, məcburi köçkünlərin, miqrantların hüquqları, inkişaf hüququ və s. ilə bağlı daha konkret mövzular barədə sessiyalardan ibarət birgə seminarın təşkil olunması təklif olundu.

**2. Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi**

**Aşkar edilən fakt: UNAPF-ın tərtibində və icrasında gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi öz əksini tapır (təyin olunan spesifik məqsəd və hədəflər, cins üzrə dezaqreqasiya olunmuş məlumat və göstəricilər baxımından), lakin onun çoxsahəli xarakteri barədə UNAPF-da təqdim olunan informasiya məhduddur. Gender bərabərliyi Nəticələr Çərçivəsində əks olunur. Nəticə 2.1 bütünlüklə genderə həsr olunsa da, göstəricilərin nəticənin məqsədi ilə tam uzlaşdırılmadığı görünür. Gender bərabərliyi Nəticə 2.3-də də öz əksini tapır. Burada qadınlar və kişilər üzrə dezaqreqasiya olunmuş məlumatları ehtiva edən bir neçə göstərici yer alır. Bununla belə, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsini gələcək UNSDCF strategiyalarına və nəticə çərçivələrinə 2019-cu ilin iyun ayında dərc olunmuş UNSDCF Təlimatına uyğun şəkildə daha yaxşı inteqrasiya etmək üçün bir neçə üsul mövcuddur. BMT təşkilatları hər il bəzi fəaliyyətləri birgə həyata keçirir: məsələn, əlillik (BMTİP və UNFPA) və ya reproduktiv sağlamlıqla bağlı siyasət (UNFPA və ÜST) sahəsində. Lakin maliyyə vəsaitlərinin cəlb olunması və ikiqat inzibati xərclər, həmçinin təşkilatların spesifik prioritetləri ilə bağlı olaraq birgə layihələrin həyata keçirilməsi hər zaman mümkün olmur. Demək olar ki, hər bir BMT təşkilatı genderlə bağlı layihə və ya fəaliyyətlər həyata keçirir; lakin onlar arasında birgə proqramlaşdırma məhduddur. Ehtiyacların olmasına baxmayaraq, maliyyələşmə çətinlikləri ilə əlaqədar olaraq, BMT-nin Gender üzrə Tematik Qrupunun və BMT təşkilatlarının potensialının gücləndirilməsi və gender strategiyasının hazırlanması həyata keçirilmir. UNCT çərçivəsində gender aspektlərinin aktuallaşdırılması səviyyəsinin qiymətləndirilməsi məqsədilə aparılan Birgə Gender Təftişi də birbaşa UNAPF-la bağlı olan mühüm tövsiyələr irəli sürüb.**

Qiymətləndirmə gender bərabərliyi, gender ədalətliliyi və qadınların səlahiyyətlərinin artırılması konsepsiyalarının UNAPF-da nə dərəcədə və hansı formada əks olunduğunu (təyin olunmuş konkret hədəflər və məqsədlər, cins üzrə dezaqreqasiya olunmuş məlumatlar və göstəricilər və s. baxımından) təhlil edib. Buraya UNAPF strategiyalarının, nəticələrinin və göstəricilərinin gender təhlilindən necə istifadə etməsinin qiymətləndirilməsi və qadın və kişilərin problemlərlə necə fərqli şəkildə üzləşməsinin öyrənilməsi daxildir. Qiymətləndirmə heyəti gender bərabərliyinin və qadınların səlahiyyətlərinin artırılmasının növbəti UNSDCF strategiyalarına və nəticələr çərçivəsinə daha yaxşı inteqrasiya edilməsinin yollarını müəyyən etdi və UNSDCF üzrə 2019-cu il təlimatına uyğun olaraq tövsiyə edilən bir sıra tədbirlər üçün spesifik tövsiyə hazırlandı .[40]

UNAPF sənədində göstərilir ki, gender bərabərliyi bir çox inkişaf çətinlikləri üçün həlledici əhəmiyyət daşıyır. Azərbaycan qadınların xüsusi həssaslıqlarını aradan qaldırmaq üçün bir sıra mühüm addımlar atsa da, dəlillərə əsaslanan məlumatlar göstərir ki, qadınlar hələ də həm dövlət, həm də özəl sektorlarda fərdi, institusional və struktur yönlü ayrı-seçkiliklə üzləşmə riski altındadır. Məsələn, 2016-2017-ci tədris ilində magistratura pilləsində təhsil alan tələbələrin 54%-i, 2017-2018-ci tədris ilində 55.3%-i, 2018-2019-cu tədris ilində isə 54.1%-i qadınlar olub. 2017-ci ildə doktorantura tələbələrinin 56%-i və professorların 45%-

[40] BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi, Daxili Təlimat, 3 iyun 2019.

i, 2018-ci ildə isə doktorantura tələbələrinin 57%-i və professorların 48%-i[41] qadın olub. İbtidai, orta və ali təhsil pillələrində qadınların iştirak səviyyəsi kişilərin iştirak səviyyəsi ilə demək olar ki, eynidir.

Bundan əlavə, qadınların qərarverici vəzifələrdə və məşğulluqda iştirakı ilə bağlı məlumatlar bütün sektorlarda davamlı üfüqi və şaquli bərabərsizlikləri üzə çıxarır və qadınlar əsasən təhsil, səhiyyə və sosial xidmətlər kimi aşağı maaşlı sahələrdə çalışır. Geniş yayılmış gender stereotipləri və münasibətləri ənənəvi gender vəzifələrini daha da möhkəmləndirir və gender əsaslı ayrı-seçkiliyin müxtəlif formaları (məsələn, erkən nikah, gender əsaslı cins seçimi və məişət zorakılığı) üçün zəmin yaradır. UNAPF sənədində həmçinin vurğulanır ki, Azərbaycanda Ölkə üzrə Təhlildə bir fakt vurğulanmışdır ki, gender bərabərliyi ilə bağlı təminatlar dayanıqlı inkişaf prosesləri üçün vacibdir və tövsiyə edilmişdir ki, genderlə bağlı de-fakto boşluqları aradan qaldırmaq üçün səylər gücləndirilməlidir.

Qiymətləndirmə heyəti müəyyən etdi ki, gender bərabərliyi Nəticələr Çərçivəsində Nəticə 2.1-də (2020-ci ilədək Azərbaycanda şəffaf, faktlara əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşan siyasətin hazırlanması və həyata keçirilməsi üçün institusional potensialın artırılması) əks olunub. Göstəricilərin nəticənin məqsədi ilə tam uzlaşmadığı görünür. Gender bərabərliyi həm də kişi və qadınlar üzrə dezaqreqasiya olunan bir neçə göstəriciyə malik Nəticə 2.3-də (2020-ci ilədək dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək edilməsi) əks olunur. BMT təşkilatları hər il genderlə bağlı birgə proqramlaşdırma fəaliyyətləri həyata keçirirlər. Genderlə bağlı birgə proqrama malik olmaqla bağlı müzakirələr aparılsa da, bu, hər zaman mümkün olmur. Burada çətinlik maliyyə resurslarının cəlb olunması ilə bağlıdır. Belə ki, bəzi təşkilatlar hansısa donora, məsələn, Aİ-yə maliyyələşmə üçün müraciət etdikdə, təşkilatlardan yalnız biri əsas təşkilat kimi seçilir və verilən vəsaiti alır. Vəsaitlərin başqa bir təşkilata köçürülməsi ikiqat inzibati xərclərə səbəb olur. BMT təşkilatları arasında sinergiyalar, birgə proqramlaşdırma və birgə proqramlarla bağlı əvvəlki bölməyə nəzər salın.

Məsləhətçilər UNAPF-ın icrası müddətində gender bərabərliyinin necə tətbiq olunduğuna dair nümunələr göstərməyi xahiş etdi. Sənədlərə, görüş və müsahibələrə əsaslanaraq, məsləhətçilər müəyyən etdi ki, gender bərabərliyi və gender aspektlərini nəzərə alan inkişaf sahəsində əsas nailiyyətlər aşağıdakılardır:

- UNCT-nin gender bərabərliyi və səlahiyyətləndirməsi istiqamətində təşviqatı UNFPA-nın rəhbərliyi altında Gender Tematik Qrupu tərəfindən effektli şəkildə əlaqələndirilib və milli tədbirlərə dəstək olaraq həyata keçirilən bir sıra mühüm fəaliyyətlərin hazırlanması və icra edilməsi ilə 2018-ci ildə sürətlənib.

[41] Rəqəmlər Təhsil Nazirliyi tərəfindən təqdim olunub. Bu rəqəmlərə 2020-ci ilin avqustunda Nazirlik tərəfindən əlavələr edilib: Belə ki, hazırda ümumi təhsil müəssisələrində çalışan müəllimlərin 80 faizini qadınlar təşkil edir. Hər il mərkəzləşdirilmiş müsabiqə ilə işə qəbul olunan müəllimlərin 75 faizini qadınlar təşkil edir. Idarəetmə sistemində də qadınların xüsusi çəkisi artmaqdadır. Hazırda 6 rektor (13%), 37 prorektor (21%), 15 kollec direktoru (28%), 36 direktor müavini (31%), 11 peşə təhsili müəssisəsinin direktoru (13%), 40 direktor müavini (45%), 1244 ümumtəhsil məktəbinin direktoru (33%), 3965 direktor müavini (54%) qadınlardır. Azərbaycanda qadınların elm sahəsində təmsilçiliyi də yüksək səviyyədədir. Belə ki, magistratura səviyyəsində təhsil alanların 54%-i, ali təhsil müəssisələrində çalışan fəlsəfə doktorlarının 51%-i, elmlər doktorlarının 46%- i qadınlardır.
Ali təhsil müəssisələrinin bakalavriat səviyyəsində təhsil alan tələbələrin statistik göstəricilərində qızların sayında artım müşahidə edilir. Belə ki, hazırda tələbələr arasında qızlar 50,0% təşkil etmişdir. Bu səviyyəyə qəbul olan tələbələrin də 50 faizi qızlar olmuşdur. Magistratura səviyyəsində təhsil alan qızların sayında da artım müşahidə edilir. Belə ki, bu təhsil səviyyəsində qızlar 54,% təşkil etmişdir. Qəbul olan tələbələrin isə 60 faizindən çoxunu qızlar təşkil etmişdir.

- UNFPA tərəfindən doqquz BMT təşkilatı, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və yerli QHT-lərlə əməkdaşlıq şəraitində gender əsaslı zorakılığa qarşı “16 günlük fəallıq” kampaniya keçirilib. Tərəfdaşlar ölkədə gender əsaslı zorakılığın aradan qaldırılmasına yönələn təşviqat səylərinin genişləndirilməsinə səy göstərib.

- Gender aspektlərini nəzərə alan siyasətlərin hazırlanmasını və icrasını təmin etmək üçün UNFPA tərəfindən müxtəlif resurslar və hesabatlar hazırlanıb. Buraya Gender əsaslı Zorakılıq üzrə Əsas Xidmət Paketləri və Standart Əməliyyat Prosedurları, Gender əsaslı zorakılığın yayılma səviyyələri ilə bağlı milli səviyyəli sorğu müddətində toplanmış məlumatların təhlili, "Azərbaycanda Qadınlar və Kişilər, 2018-ci il" illik statistik məcmuəsi daxildir. BMTİP və UNFPA özəl sektorda biznes imkanları, layiqli iş yerlərinin təmin edilməsi və uğurlu karyeranın qurulmasında qadınlara mane olan gender əsaslı maneələrin təhlilini aparmaq üçün AQUPDK, Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti və İsveçrə Səfirliyi (donor kimi) ilə tərəfdaşlıq edib. Bundan əlavə, Gender əsaslı zorakılığın doğurduğu iqtisadi xərclər barədə keyfiyyət yönümlü tədqiqatın ilkin layihəsi və "Kişilər və Gender Bərabərliyi" Beynəlxalq Sorğusu (İMAGES) hazırdır. Eyni zamanda, gender məsələlərinə həssas yanaşan siyasətlərin hazırlanması və həyata keçirilməsi məqsədilə, UNFPA müxtəlif resurslar və hesabatlar ərsəyə gətirib.

- Gender əsaslı ayrı-seçkilik və zorakılığın aradan qaldırılması üçün məlumatlara əsaslanan qərarların qəbuluna yönələn təşviqat səyləri UNFPA-nın Hökumətə dəstəyilə bir sıra önəmli sənəd layihələrinin hazırlanması ilə nəticələnib: Gender əsaslı zorakılığa dair Milli Tədbirlər Planının düzəliş edilmiş layihəsi və Gender bərabərliyinə dair Milli Tədbirlər Planının layihəsi

- UNFPA Hökumətə Qadınlara qarşı Ayrı-Seçkiliyin Aradan Qaldırılması üzrə BMT Komitəsinə (CEDAW) 6-cı Dövlət Hesabatının hazırlanmasında dəstək göstərib. Hesabatın hazırlanmasında milli istiqamətləndirici qrupa kömək etmək üçün beynəlxalq ekspert cəlb edilib. Beləliklə, ötən dörd ildə Azərbaycanın gender bərabərliyi ilə bağlı əldə etdiyi irəliləyiş barədə Hesabat 2019-cu ildə CEDAW Komitəsinə təqdim olunub.

- UNFPA həmçinin Hökumətə "Pekin+25" (Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının 25 illiyi) üzrə milli icmal hesabatının hazırlanmasında dəstək göstərib. UNFPA və Rezident Əlaqələndiricinin Ofisinin səyləri sayəsində bir neçə yerli QHT və gənc liderlər BMT-nin Qadın Qurumu tərəfindən təşkil olunan müvafiq regional icmal görüşlərində iştirak etməyə dəvət edildi.

- UNFPA həmçinin ÜST ilə birgə reproduktiv sağlamlıq siyasəti ilə bağlı təbliğat təşəbbüsü həyata keçirib.

- UNFPA-nın Hökumətə dəstəyinə bu məsələdə məlumatlara əsaslanan qərarların qəbulu üçün gender əsaslı zorakılığa dair təşkilatlararası onlayn məlumatlar bazasının hazırlanmasıdır. Məlumatlar bazası müvafiq orqanlara gender əsaslı zorakılıq hallarına dair məlumatları müvafiq nazirliklərdən, yerli icra hakimiyyəti orqanlarından və gender əsaslı zorakılıq qurbanlarına dəstək üçün akkreditasiya edilmiş QHT-lərdən toplayıb saxlamaqda kömək edir. Məlumatlar bazasını AQUPDK idarə edir və hazırda işləkdir. Bununla yanaşı, cins üzrə dezaqreqasiya olunmuş yeni göstəricilərin milli statistik məlumatlar bazasına daxil edilməsinə yönələn səylər davam etdirilir. Azərbaycanda doğulan uşaqların cinsə görə nisbətinin təhrifinin qarşısının alınması UNCT üçün bir

neçə ildir ki əsas strateji prioritetlərdən birinə çevrilib. Ölkədə cins nisbəti 114/100 olaraq qalmaqda davam edir və bu, hər il qızlardan 12000-15000 çox oğlan uşağının doğulması deməkdir. UNFPA vəziyyəti yaxşılaşdırmaq məqsədilə, 2018-ci ildə cinsə görə seçimin qarşısının alınması və ona qarşı cavab tədbirlərinə dair Milli Tədbirlər Planının hazırlanmasına kömək edib.

- Qızların hüquqlarının profilini yüksəltmək və gənc qadınların cəmiyyətdə mərkəzi rolunu təşviq etmək məqsədilə, UNİCEF və AFFA-nın birgə həyata keçirdiyi #GirlsCan kampaniyası sosial media vasitəsilə 260 min nəfərdən çox insana çatıb.

- Birgə Gender Təftişinin tövsiyələrinə uyğun olaraq və demək olar ki bütün təşkilatların töhfəsi ilə Gender Tematik Qrupu çərçivəsində gender resursları bazası hazırlanıb. Bütün UNCT üzvləri və BMT əməkdaşları bu bazadan istifadə edə bilir və bu bazada bütün yerli və beynəlxalq gender ekspertləri, yerli QHT-lər, hesabatlar və əyani vəsaitlər, onlayn alətlər və s. barədə məlumatlar var. Bu bazanın nə dərəcədə istifadə olunması rəhbərlik və gender üzrə əlaqələndirici şəxslərin bunun üçün nə dərəcədə stimul yaratmasından asılıdır.

Qiymətləndirmə heyəti UNAPF çərçivəsində gender bərabərliyinin aktuallaşdırılması, büdcə ayırmalarının izlənməsi və ümumilikdə gender bərabərliyi və qadınların səlahiyyətlərinin artırılmasının əhatə olunması barədə təsəvvür qazanmaq üçün SWAP gender üzrə qiymət cədvəli əsasında qiymətləndirməyə (və ya oxşar tapşırıq) əsaslanan tövsiyələrin və UNCT fəaliyyət planının olub-olmaması barədə maraqlandı.

UNCT paralel yanaşma vasitəsilə gender bərabərliyinin təmin edilməsinə səy göstərmək üçün Birgə Gender Təftişinin (BGT) keçirilməsini təyin etdi. BGT-nin məqsədi gender aspektlərini daha yaxşı nəzərə alan proqram və layihələrin planlaşdırılması və hazırlanmasını təmin etmək üçün UNCT-də gender məsələlərinin aktuallaşdırılması səviyyəsini qiymətləndirmək idi. Tematik Koalisiya BGT-ni regiondakı qabaqcıl təcrübələrdən biri kimi qəbul etdi.

Məsləhətçilər BGT-ni təhlil edərək müəyyən etdi ki, tövsiyələr UNAPF-la birbaşa əlaqəlidir və UNCT-nin növbəti UNSDCF-nin hazırlanmasında aşağıdakıları daxil etməsi faydalı olardı:

- UNCT üçün birgə resurslarla birgə və inteqrativ gender aspektlərinin aktuallaşdırılması strategiyası və iş planı icra etmək. Gender Tematik Qrupu tərəfindən dəstəklənmək UNAPF ilə və DİM-lər üçün milli göstəricilərlə əlaqələndirilmək. Gender Tematik Qrupu üçün artıq yaradılmış sinergiyalara əsaslanaraq ayrı-ayrı təşkilatların tədbirlərinin əlavə olunması ilə məhdudlaşmamaq və 2018-ci il və ondan sonrakı dövr üçün birgə tədbirlər və ümumi resurslara malik daha inteqrativ və əlaqələndirilmiş icra planı barədə razılığa gəlmək. Bu, UNAPF-ın üç strateji məqsədi, DİM-lər üzrə Əlaqələndirmə Şurası (sadəcə 5-ci DİM-lə məhdudlaşmadan) və CEDAW-ın yekun qeydləri ilə əlaqələndirilə bilər (Əlaqələndirmə №3).
- UNAPF üçün gender aspektlərini nəzərə alan kommunikasiya məhsullarına dair təşkilatlararası iş planı (sadəcə strategiya ilə məhdudlaşmaması) hazırlamaq (Əlaqələndirmə №5).
- Gender məsələlərinin aktuallaşdırılması ilə bağlı monitorinq və qiymətləndirmə sistemlərini, potensialı, o cümlədən gender bərabərliyinə ayrılan büdcənin və xərclərin izlənməsini gücləndirmək (Monitorinq və Qiymətləndirmə №1).
- UNAPF ilə əlaqədar gender göstəricilərinin hazırlanması və monitorinqinə dair Gender Tematik Qrupu tərəfindən birgə layihənin icrasını nəzərdən keçirmək. Bu, DİM-lərə münasibətdə tərəfdaş

hökumət qurumları ilə, UNCT-nin və UNCT-nin təşkilatlarının müxtəlif regional/baş ofislərinin ekspertlərinin köməyilə həyata keçirilməlidir (Monitorinq və qiymətləndirmə №5).

Qiymətləndirmə heyəti gender bərabərliyinin və qadınların səlahiyyətlərinin artırılmasının növbəti UNSDCF strategiyalarına və nəticələr çərçivəsinə daha yaxşı inteqrasiya edilməsinin digər yollarını müəyyən etdi. Öncə, UNEG-in "BMT-SWAP Qiymətləndirmə Fəaliyyəti Göstəricisi" üzrə yeni təlimatı faydalıdır. [42] Bundan əlavə, UNDG-nin "Ölkə Səviyyəsində Vahid BMT Proqramlaşdırmasına gender aspektlərinin inteqrasiyası üçün Resurs Kitabı"[43] və "BMT-nin Gender üzrə Tematik Qrupları üçün Resurs Bələdçisi" [44] gender bərabərliyini və qadınların səlahiyyətlərinin artırılmasını və "*heç kəsi kənarda qoymamaq*" prinsipini cari UNAPF-ın icrası kontekstində və növbəti UNSDCF-də vurğulamaq üçün istifadə edilə bilər. Əsas diqqət qiymətləndirməyə yetirilsə də, UNEG-in "İnsan hüquqları və gender bərabərliyinin qiymətləndirməyə inteqrasiya edilməsi" üzrə təlimatı eyni dərəcədə faydalıdır[45].

Qiymətləndirmə heyətinin sənədlər, görüşlər və müsahibələrdən topladığı digər təkliflər aşağıdakılardır:

Birincisi, BMT-nin Gender Tematik Qrupunun potensialının gücləndirilməsi zəruridir. Lakin maliyyələşmə çətinlikləri ilə əlaqədar potensialın gücləndirilməsi sahəsində nəzərəçarpan tədbirlər görülmür. BMT həqiqətən də bütün proqramlarında gender aspektlərini aktuallaşdırmaq istəyirsə, BMT-nin əməkdaşlarının gender məsələləri sahəsində potensialının gücləndirilməsi vacibdir. Məsləhətçinin cəlb olunması üçün maliyyə vəsaitinin olmaması ilə əlaqədar gender strategiyasının hazırlanması işində irəliləyiş yoxdur.

İkincisi, Gender Tematik Qrupu təklif etdi ki, növbəti UNSDCF sənədində gender kimi spesifik tematik sahələr üçün Rezident Əlaqələndirici sistemi təşkilatlar arasında bölüşdürməklə müəyyən maliyyələşməni təmin edə bilər. Əksər BMT təşkilatlarının layihələr vasitəsilə maliyyələşdirildiyini nəzərə alaraq, donor prioritetləri təşkilatların də nələri prioritetləşdirə biləcəyinə təsir edir. Bu, birgə proqramlara da şamil olunur. Tematik qruplar daxilində fərdi fəaliyyətlərin müzakirəsindən kənara çıxmaq mümkün deyil. Buna görə də, ayrılma prosesindən sonra, Rezident Əlaqələndiricinin Ofisi tərəfindən bu mövzular üçün ayrıca büdcə ayrılmalıdır. Ən uğurlu hesab edilən tərəfdaşlıq bütün təşkilatların kiçik məbləğdə ianə etdiyi illik “16 günlük fəallıq” kampaniyasıdır. Ümid edilir ki, yeni Rezident Əlaqələndirici Ofisi sistemi bu cür layihələr üçün maliyyə ayıra biləcək və bütün tərəfdaşları fəal şəkildə əlaqələndirə biləcəkdir. Gender aspektlərinin effektiv şəkildə inteqrasiyası və BGT-nin tövsiyələrinin icrası üçün BMT rəhbərliyinin siyasi iradəsi vacibdir. Alternativ olaraq, donorlardan maliyyə qəbul etmək üçün ikiqat xərclərə səbəb olmayan müəyyən mexanizmlər olmalıdır. Bu seçimlər gender bərabərliyi sahəsində "vahid icra” prinsipinə mane olan problemləri aradan qaldırmağa kömək edə bilər.

Üçüncüsü, gender əsaslı yanaşmaları növbəti UNSDCF-ə inteqrə etmək üçün həm gender bərabərliyi, həm də gender ədalətliliyi nəzərdən keçirilməlidir. Əsas diqqət rəqəmlər deyil, təsirə yetirilməlidir və gender üzrə dezaqreqasiya olunmuş daha çox keyfiyyət göstəriciləri olmalıdır. BMT-nin Qadın Qurumu tərəfindən

[42] BMT-SWAP Qiymətləndirmə Fəaliyyəti Göstəricisi üzrə Texniki Arayış, UNEG, 2018.
[43] Ölkə Səviyyəsində Vahid BMT Proqramlaşdırmasına gender aspektlərinin inteqrasiyası üçün Resurs Kitabı, UNDG, 2018 – https://undg.org/document/resource-book-for-mainstreaming-gender-in-un-common-programming-at-the-country-level/.
[44] BMT-nin Gender üzrə Tematik Qrupları üçün Resurs Bələdçisi, UNDG, 2018, bax:https://undg.org/document/resource-guide-for-gender-theme-groups/.
[45] Qiymətləndirmədə insan hüquqları və gender bərabərliyinin inteqrasiyası üçün təlimat, UNEG-in təlimatı, 2014, bax: http://uneval.org/document/detail/1616.

11 ölkədə aparılmış masaüstü təhlilə əsasən, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi ilə əlaqəli heç də bütün göstəricilər Azərbaycanda UNAPF-da nəzərə alınmamış və əhatə olunmamışdır. Bəzi məsələlərə, məsələn genderlər arasında əməyin ödənişindəki fərqə diqqət artırılmalıdır. MAPS missiyasının hesabatında qeyd olunan məsələlər, məsələn, qadın alverində artım, genderlər arasında əməyin ödənişindəki fərq, DİM üzrə göstəricilər və s. nəzərə alınmalıdır. DİM-lər və hökumət prioritetlərində genderlə əlaqəli göstəricilər nəzərdən keçirilə bilər. Bundan əlavə, Gender üzrə Qiymət Cədvəli UNCT-nin gender aspektlərinin aktuallaşdırılması və rezident təşkilatlar arasında sinergiyaların yaradılması ilə bağlı fəaliyyət nəticələrinə dair ilkin vəziyyət və hədəf məlumatları müəyyən etmək üçün istifadə edilə biləcək beynəlxalq səviyyədə təsdiqlənmiş metodologiyadır. Dördüncüsü, Gender Tematik Qrupu adətən UNAPF sənədlərinin hazırlanması zamanı Nəticə Qruplarına daxil olur. Hər bir təşkilatda gender məsələləri üzrə əlaqələndirici şəxs var və bu şəxslər heç də hər zaman gender mütəxəssisləri olmur. Növbəti UNSDCF -ın hazırlanması üçün bütün zəruri aspektləri həll lazımınca həll edə biləcək ekspertin cəlb olunması tövsiyə olunur. BMT-nin Qadın Qurumu növbəti UNSDCF sənədində gender üzrə ən azı bir spesifik nəticə daxil etməyi tövsiyə edir.

Dördüncüsü, növbəti UNSDCF üçün tematik qrupların üzvləri birlikdə həll edilməli çətinlikləri müəyyən edə, 3-4 problemi prioritetləşdirə və görülməli müvafiq tədbirlər barədə düşünə bilər. Maliyyə ayırmaları üçün BMT rəhbərliyinə və tərəfdaş hökumət qurumlarına müraciət edilə bilər. Maliyyə resurslarının müyəssərliyindən asılı olaraq, uyğunlaşdırma və prioritetləşdirmə üçün real və çevik yanaşmanın tətbiqi zəruridir. Tematik qruplar həmçinin tezliklə başlayacaq VÖQ tapşırığı zamanı töhfə verməyə səy göstərməlidir.

Beşincisi, QHT-lər həmçinin vurğuladı ki, gender əsaslı məişət zorakılığı, qadın hüquqları, məşğulluq, pulsuz və ucuz hüquqi yardıma çıxış, nikahdan öncə tibbi müayinə və s. sahələrlə məşğul olmaq tələb olunur. QHT-lər həmçinin zorakılıq riski ilə üzləşən uşaqlar və qadınlar üçün sosial xidmətlər və müdafiənin təmin olunmasında UNİCEF-in rolunu qeyd edib.

Rəhbər prinsiplərlə bağlı yekun olaraq qeyd olunmalıdır ki, əsas müsahiblər heç kəsi kənarda qoymamaq, gender, insan hüquqları, gənclər, əlilliyi olan şəxslər kimi bütün kəsişən sahələr, yaşlanma və s. kimi məsələlərin də növbəti UNSDCF-də qeyd olunmasını təklif edib. Bu məsələlər hazırkı UNAPF-da lazımi səviyyədə əks olunmur.

## F. Dayanıqlılıq

**Aşkar edilən fakt: UNAPF çərçivəsində həyata keçirilən və milli tərəfdaşlar tərəfindən saxlanılan və ya hökumət tərəfindən davam etdirilən, təkrarlanan və ya genişləndirilən əməkdaşlıq layihələrinə dair çoxsaylı konkret nümunələr mövcuddur. UNAPF nəticələrin dayanıqlılığının artmasına töhfə verib, lakin dayanıqlılıqla bağlı qəti fikir söyləmək üçün UNAPF-ın ötən proqram müddəti baxımından hələ tezdir (üç il yarım). Yerli QHT-lərlə əməkdaşlıq əldə olunan nəticələrin dayanıqlılığına töhfə verib, çünki bəzən icma səviyyəsində yerli QHT-lər daha effektiv olub. Bununla belə, resursların, layihələrə sahibliyin, əməkdaşlığın və əlaqələndirmənin, sonrakı tədbirlərin olmaması, layihələrin mərhələlərlə yekunlaşdırılmaması və BMT tərəfindən dəstəklənən layihələrin milli proqram və ya siyasətə daxil edilməməsi və s. UNAPF-ın faydalarının müəyyən müddət sonra saxlanması potensialına mane olur.**

UNAPF üzrə texniki tapşırıqda dayanıqlılıq inkişaf tədbirlərindən əldə olunan faydaların nə dərəcədə davamlı olması və tədbirlər başa çatandan sonra bu faydaların qalması ehtimalı kimi müəyyən olunur.

Məsləhətçilər hesab edir ki, UNAPF-ın gətirdiyi faydaların zamanla milli tərəfdaşlar və həmkar qurumlar tərəfindən saxlanılması üçün potensial mövcuddur. Bu potensial UNAPF-ın DİM-lərə, "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyasına və Strateji Yol Xəritələrinə uyğunluğu ilə daha da gücləndirilir. UNAPF çərçivəsində həyata keçirilən və milli tərəfdaşlar tərəfindən saxlanılan və hökumət tərəfindən davam etdirilən, təkrarlanan və ya genişləndirilən əməkdaşlıq layihələrinə dair çoxsaylı konkret nümunələr mövcuddur. UNAPF nəticələrin dayanıqlılığının artmasına töhfə verib, lakin dayanıqlılıqla bağlı qəti fikir söyləmək üçün UNAPF-ın ötən proqram müddəti baxımından hələ tezdir (üç il yarım). UNAPF nəticələrin dayanıqlılığının artmasına töhfə verib. Bunlar aşağıdakılardır:

● BMTİP 2018-ci ildə yaradılmış və Azərbaycanın ilk milli dəniz parkına çevrilmiş Qızılağac Milli Parkının yaradılması və qorunub saxlanılması ilə bağlı qanunvericiliyin hazırlanmasında Ekologiya və Təbii Sərvətlər Nazirliyinə dəstək göstərib.

● Torpaqların saxlanması ilə bağlı, eləcə də Kür çayının qorunub saxlanılması ilə bağlı milli strategiyanın hazırlanması təbii resursların, meşə və torpaqların qorunub saxlanılması ilə bağlı bir layihə üzrə BMTİP-FAO əməkdaşlığının və Stokholm Konvensiyası və Fəaliyyət Proqramına dəstək göstərən bir layihə üzrə UNİDO-UNEP-FAO əməkdaşlığının nəticələridir. BMqT-nin ənənəvi su sistemlərinin reabilitasiyası ilə bağlı Naxçıvanda həyata keçirdiyi layihə də dayanıqlılıqla nəticələnib. BMqT 2018-ci ildən Azərbaycanın cənub-qərbində (əsasən məcburi köçkünlərin məskunlaşdığı) səkkiz rayonu əhatə edən yeni reabilitasiya layihəsini icra edir: Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Gəncə, Qazax, Goranboy və Göygöl.

● FAO-nun bir neçə il əvvəl hazırlanmasına kömək etdiyi Milli Meşəçilik Planı da Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yeni rəhbərliyinin gəlişi ilə nəhayət təsdiqləndi. Bu, hökumətin layihəyə sahibliyinin inkişafın dayanıqlılığı üçün nə qədər önəmli olduğunu göstərir.

● BMTİP İsmayıllıda peşə məktəbi üçün tədris materiallarının hazırlanmasına dəstək göstərib və Təhsil Nazirliyi bu materialları digər peşə məktəblərində istifadə üçün də təsdiq edib. Təhsil Nazirliyi təşəbbüsü təsdiqləyib və ölkədə məktəbəqədər təhsilin əhatə səviyyəsini artırmaq üçün tədbirlər görür. BMT təşkilatları peşə təhsili imkanlarının təmin edilməsi ilə bağlı tədbirlər görüb ki, bu da dayanıqlılıq üçün önəmli hesab edilir. Analoji şəkildə, UNİCEF-in 2018-ci ildə apardığı Aralıq İcmal göstərdi ki, proqram nəticələrinin sistemə və institusional dəyişikliklərə daxil edilməsi, xüsusilə proqram hazırlığı metodologiyası və alətlərinin ölkənin ilkin pedaqoji təhsil və ixtisasartırma təhsili sisteminə daxil edilməsi dayanıqlılığı təmin etmək üçün ən yaxşı üsullardan biridir. Bu, təhsil proqramları vasitəsilə hazırlanmış təlim paketlərində və milli təhsil orqanları tərəfindən uyğunlaşdırılmış Uşaq İnkişafının Monitorinqi üzrə Rəhbər Qaydalarda əks olunub və ümumi peşəkar inkişaf təliminin bir hissəsinə çevrilib.

● BMTİP-in Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Gəncədə Regional Peşə Kompetensiya Mərkəzinin yaradılmasına dəstək" layihəsi çərçivəsində Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzində emalatxana istifadəyə verildi və altı kurrikulum hazırlandı. BMTİP-in Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Lənkəran İqtisadi Rayonunda Regional Model Peşə Təhsil Mərkəzinin yaradılması" layihəsi çərçivəsində Cəlilabad Dövlət Peşə Təhsil Mərkəzində emalatxana istifadəyə verildi və altı kurrikulum hazırlandı.

● Dövlət orqanları tərəfindən insan alveri ilə mübarizə və onun qarşısının alınmasına dair rəhbər qaydaların hazırlanması və QHT-lər üçün sığınacaq və dəstək mərkəzlərinin idarə edilməsinə dair rəhbər qaydalar vasitəsilə UNAPF çərçivəsində milli potensiallar gücləndirilib.

● Qida Təhlükəsizliyi Agentliyinə gəldikdə, FAO institusional strukturun qurulması, habelə beynəlxalq ticarət sahələrində vaxtında və səmərəli texniki məsləhət xidmətləri təmin etməklə yeni yaradılmış agentliyin fəaliyyətə rəvan başlamasını təmin etdi. Hökumətin 10 milyon ABŞ dolları məbləğində töhfəsi ilə kənd təsərrüfatının dayanıqlı inkişafı üzrə FAO-Azərbaycan Tərəfdaşlıq proqramına start verildi və ilk üç layihə heyvandarlıq və toxumçuluq sahələrinin inkişafına yönəldi. FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı (FATP) çərçivəsində 7 layihənin icrası planlaşdırılır. Bunun özü hökumətin proqrama sahibliyi və gələcək nəticələrin dayanıqlılığının göstəricisidir. FAO və Kənd Təsərrüfatı Nazirliyinin kənd yerlərində gənclərin qida və kənd təsərrüfatı sahəsində biznes ideyalarının icrasına, xüsusilə Aqrar Məşğulluğun artırılması Layihəsi çərçivəsində 100 yeni bzinesin yaradılması dəstəyi 2020-ci ildə layihə başa çatdıqdan sonra dayanıqlı olacaqdır. Aqrar Məşğulluğun Artırılması (AMAL) layihəsi ilə yanaşı FATP çərçivəsində həyata keçirilən Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ) layihəsi aqrar sahə ilə məşğul olan Azərbaycan qadınlarının dəstəklənməsi, qadınların kənd təsərrüfatı üzrə çalışmağa təşviq edilməsi və kənddə yaşayan insanlann sosial rifahının yüksəldilməsi istiqamətində öz töhfəsini verəcəkdir. Dövlət Statistika Komitəsinə və digər müvafiq qurumlara FAO tərəfindən göstərilən metodiki dəstək ərzaq və kənd təsərrüfatı sahəsində DİM-lərin icrasının monitorinqi üçün keyfiyyətli məlumatları əlçatan edir və bu, dayanıqlılığın bir nümunəsidir.

● 2016-cı ildə yaradılmış ABAD (Ailə Bizneslərinə Asan Dəstək) bütün regionlarda sosial-iqtisadi inkişafa dair proqramın bir hissəsidir. Bu təşəbbüsə hökumət tərəfindən sistemin qurulması və məhsulların istehsalına başlamaq üçün ilkin maliyyələşmə kimi bir milyon manat ayrılıb. Hazırda özünü təmin edən bu qurum dövlətdən maliyyə resursları almır və hətta dövlətə vergi və digər ödəmələr formasında 1.6 milyon manat ödəyib. Aİ-nin, BMTİP-in və digər tərəfdaşların (SOCAR, PAŞA Holdinq) xüsusi qeyri-maliyyə qrantları formasında dəstəyi qurumun inkişafına dəstək göstərib. ABAD hazırda 374 ailə ilə işləyir.

● Yaradılmış Qadın Resurs Mərkəzlərinin 50%-dən çoxu yeni yaradılmış QHT-lər olaraq dövlət büdcəsindən maliyyələşən qurumlardan dəstək alır. Bu, dayanıqlılığa doğru mühüm bir addımdır.

● BƏT-in dəstəyilə hazırlanmış özünüməşğulluq proqramı çərçivəsində hökumət hər il nəzərəçarpan sayda özünüməşğulluq subyektlərini maliyyələşdirir.

● 2018-ci ildən etibarən Gənclər və İdman Nazirliyinin nəzdində olan Gənclər Evlərinin ikisində "Nazirlik ilə BMT-nin birgə Gənclər Evləri Təşəbbüsü" adlı birgə layihə reallaşdırılır. Bir neçə BMT agentlikləri bu pilot Gənclər Evində gənclərin inkişafına yönəlmiş fəaliyyətləri həyata keçirir. Hazırda BMT bütün əməliyyat öhdəliklərini gənclər evlərinə ötürüb ki, bu da dayanıqlı görünür, çünki onların fəaliyyəti davam edir.

Lakin dayanıqlılığa dair nümunələr olsa da, resursların, sahibliyin, əməkdaşlıq və əlaqələndirmənin, sonrakı nəzarətin olmaması, milli proqram və ya siyasətlərə daxil edilməmə UNAPF faydalarının uzunmüddətli perspektivdə saxlanması potensialına mane olur. Məsləhətçilər aşağıdakı məhdudiyyətləri vurğulayır:

● UNAPF tərəfdaşları arasında bir-birini tamamlama, əməkdaşlıq və sinergiyalar nəticələrin dayanıqlılığının artmasına töhfə versə də, UNAPF tərəfdaşları, o cümlədən nazirliklər və BMT təşkilatları arasındakı əməkdaşlıq əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalıdır.

● Tərəfdaş hökumət qurumları ilə icra edilən layihələr müddətində müntəzəm monitorinq işləri aparılsa da, layihə bitdikdən sonra çox zaman BMT tərəfindən sonrakı nəzarət tədbirləri demək olar ki, aparılmır və dayanıqlılıq baxımından nə baş verdiyi məlum olmur. Məsələn, BMT 2016-2019-cu illərdə sığınacaq və yardım mərkəzləri ilə işləyib, lakin bu töhfələrin nə qədər dayanıqlı olduğu məlum deyil. Buna görə də, layihələrin hökumət qurumlarına keçməsi və davam etdirilməsini təmin etmək üçün hökumət qurumları ilə praktiki strategiyaların tətbiqi vacibdir. Bu, metodologiyaların hazırlanması və yerli kontekstə uyğunlaşdırılması və təlimçilərin hazırlanması yolu ilə tərəfdaşların institusional potensialının gücləndirilməsi vasitəsilə həyata keçirilə bilər.

● UNFPA Azərbaycanın müxtəlif yerlərində reproduktiv sağlamlıq mərkəzlərindən ibarət şəbəkə yaradıb. Bu layihə əhəmiyyətli və uğurlu layihə olmaqla, Səhiyyə Nazirliyi tərəfindən yüksək qiymətləndirilib. Buna baxmayaraq, son nəticədə layihə dayanıqlı olmayıb. Çünki layihə lazımi qaydada mərhələlərlə dayandırılaraq hökumətə keçməyib.

● UNFPA həmçinin sağlamlıq və reproduktiv sağlamlıq xidmətləri təmin edib, ailə planlaşdırması barədə təşviqat təşkil edib və kontraseptivlərdən istifadəsini təbliğ edib. Buna baxmayaraq, kontraseptivlər Səhiyyə Nazirliyinin əsas dərmanlar siyahısında olmadığından, bu, dayanıqlı olmayıb. Əməkdaşlıq əhalinin ehtiyaclarına yetərli dərəcədə əsaslanmayıb və ya hökumətlə birgə planlaşdırılmayıb.

● BMTQAK Azərbaycan Hökumətinin qaçqınları daha yaxşı hüquqi müdafiə ilə təmin etmək və onları mövcud sosial xidmətlərə daxil etmək yolu ilə qaçqınlar üçün daha böyük öhdəlik götürməsini təşviq edir. Onlar təqib olunduqları ölkələrə geri göndərilməkdən qorunsalar da, onların çoxuna sadəcə BMTQAK-ın himayəsi altında olduqlarına görə tolerant yanaşılır, lakin onların hüquqi statusu təmin edilmədiyindən, onlar uzanan qeyri-müəyyənlik vəziyyətində yaşayırlar. BMTQAK ümid edir ki, çoxdan gözlənilən əlavə himayə haqqında qanun təsdiq edildikdən sonra onlar ən azı əlavə himayə ilə təmin olunacaq və ya bəzi qruplar üçün mümkün olmasa da, sosial, iqtisadi və mədəni hüquqlara, xüsusən layiqli məşğulluq hüququna çıxış imkanı verən yaşayış icazələri ilə təmin olunacaq. Bəzi qaçqınlar artıq Azərbaycanda 15-20 il yaşamalarına baxmayaraq, qanuni şəkildə işə götürülə bilmirlər. Bu vəziyyət qaçqınların həssas vəziyyətə düşməsi ilə nəticələnir və onları BMTQAK-ın yardımından asılı edir ki, bu da dayanıqlı deyil.

● İsveçrə Hökuməti, Aİ, USAİD, Koka-Kola tərəfindən maliyyələşdirilən Qadın Resurs Mərkəzləri layihəsinin dayanıqlılığı da sual altındadır. 2011-ci ildən başlayaraq yaradılmasına və maliyyələşdilməsinə baxmayaraq, hələ də maliyyələşdirilməsi tələb olunur. Bu onunla əlaqələndirilib ki, layihənin əvvəlində bu, sosial layihə idi, indi isə iqtisadi imkanlara yönəldilir.

# VII. ÖYRƏNİLMİŞ DƏRSLƏR

UNAPF-dan **öyrənilmiş birinci dərs** ondan ibarətdir ki, bu cür bir çərçivədə nəticə və göstəricilərin nə qədər yüksək səviyyədə ola biləcəyinə dair məhdudiyyət mövcuddur. Onlar çox iddialı olarsa, onları məsələn milli

inkişaf planına daxil etmək daha yaxşı olar, çünki BMT onlara nail olunmasına əhəmiyyətli dərəcədə töhfə verə bilməz.

**Ikinci dərs** ondan ibarətdir ki, digər hökumət qurumları ilə daha yüksək səviyyədə əlaqələndirmə səlahiyyətlərinə malik hökumət qurumu tərəfindən UNAPF-ın icrasının əlaqələndirilməsi onun icrasının effektivliyini artıra bilər.

**Üçüncü dərs** ondan ibarətdir ki, dayanıqlılığı təmin etmək, vəziyyəti və ehtiyacları müfəssəl təhlil etmək üçün layihələrin lap əvvəlindən tərəflər arasında açıq müzakirələrin aparılması ehtiyacı hər zaman mövcuddur. Layihəyə ehtiyacın olması təsdiq ediləndən sonra, layihənin hökumət tərəfindən dövlət proqramı və ya siyasətinə daxil edilməsi çox vacibdir. Bu halda layihə milli planlaşdırma və büdcə tərtibatına daxil ediləcək və inkişaf proseslərinə sistemli və dayanıqlı töhfələr verəcəkdir.
**Dördüncü dərs** ondan ibarətdir ki, bir çox qeyri-rezident təşkilatlar UNAPF-ın nəticələrinə və milli prioritetlərə nail olunmasına töhfə verib. BMT-nin Rezident Əlaqələndiricisi UNAPF əsasında təşkilatları BMT-dəki digər təşkilatlarla və ya müvafiq hökumət qurumları ilə əlaqələndirməyə səy göstərsə də, UNCT-nin müxtəlif qeyri-rezident təşkilatları daha çox nəzərə alması  və hökumətin onların özünəməxsus təcrübələrindən tam faydalanmasına şərait yaratmalıdır
**Beşinci dərs** ondan ibarətdir ki, müxtəlif maraqlı tərəflərə (mümkün olduqda, vətəndaş cəmiyyəti təşkilatları və ya akademik dairələr ) mövcud əlaqələndirmə mexanizmlərində, o cümlədən UNAPF-ın İstiqamətləndirici Komitəsində və nəticə qruplarında iştirak etmək imkanının verilməsi nəticələrin birgə uyğunlaşdırılması, nəticələrin əldə olunmasında effektivliyin və səmərəliliyin artırılması, həmçinin nəticələr və kəsişən sahələrdə monitorinq, hesabatvermə və planlaşdırma üçün vacibdir.
**Altıncı dərs** ondan ibarətdir ki, hətta təşkilat səviyyəsində  çoxlu tərəfdaşlıqlar olsa idi belə , UNAPF nəticə sahələri üzrə effektli tərəfdaşlıqların və strateji ittifaqların yaxşılaşdırılmasına kömək edərdi. UNCT-nin dayanıqlı inkişaf naminə fəaliyyətinə dəstək üçün müxtəlif maraqlı tərəflərlə yeni  münasibətlər formalaşdırılıb və köhnə tərəfdaşlıqlar gücləndirilib. Bununla belə, BMT icma səviyyəli tədbirlərə birbaşa dəstəyi sınaqdan keçirmək istəyirsə, qeyri-hökumət maraqlı tərəflərlə tərəfdaşlığı və strateji ittifaqları gücləndirməlidir.

## VIII. NƏTİCƏLƏR

Qiymətləndirmənin gəldiyi **birinci nəticə** ondan ibarətdir ki, UNAPF nəticələri beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları ilə bağlı öhdəliklər, norma və standartlar baxımından uyğundur və milli prioritetlər və strategiyalar, DİM-lərin milliləşdirilməsi və yeni qanun, siyasət və strategiyalarla uzlaşır. UNAPF sənədinin hazırlanması zamanı ilkin vəziyyətin qiymətləndirilməsi və digər növ tədqiqatlardan əlavə, "Ölkə təhlili" aparılıb. Bu təhlil daha güclü dəlillər əsasında inkişaf məsələlərinin və onların təməlində dayanan səbəb və problemlərin tam əhatə olunmasına kömək edib. DİM-lərin icrasına yalnız BMT İnkişaf Sisteminin müqayisəli üstünlüklərindən və yaratdığı əlavə dəyərdən tam istifadə edə bilən deyil, həm də birlikdə kompleks yanaşma sərgiləyə bilən və bütün səviyyələrdə bir-biri ilə əlaqəli nəticələr əldə etmək üçün sahələrarası sinergiyalar yarada bilən bir inkişaf sistemi və hökumət fayda verə bilər.

**İkinci nəticə** ondan ibarətdir ki, UNAPF sənədinin Nəticələr Çərçivəsinin strukturu BMT İnkişaf Sisteminin ölkədə edə biləcəklərini daha yaxşı əks etdirə bilərdi. UNAPF Hökumətlə BMT arasında ortaq gələcəyə

baxışı əks etdirmək üçün mühüm alətdir; lakin nəticələr və göstəricilər elə tərtib olunmalıdır ki, nəticələrin effektiv monitorinqinə və qiymətləndirilməsinə imkan versin və BMT-nin gördüyü dəstək tədbirləri ilə əlaqəli olan nəticələri (məhsullar) və BMT-nin töhfə verdiyi nəticələri (nəticələr) əks etdirsin. Bir sıra göstəricilər yuxarı səviyyəyə yönələn UNAPF-ın xüsusilə təşviqat və siyasət sənədlərinin hazırlanması hədəflərinin ölçülməsi və qiymətləndirilməsinin çətin olduğu yuxarı-orta gəlirli bir ölkədə belə, BMT üçün yüksək və həddindən artıq iddialıdır.

**Üçüncü nəticə** ondan ibarətdir ki, UNAPF ümumilikdə gözlənilən nəticə və məhsullara nailolma baxımından effektivdir və milli prioritetlərə nail olunmasına, o cümlədən UNAPF-ın hər üç prioritet sahəsində - milli potensialların və qurumların gücləndirilməsi, dövlət siyasətlərinin formalaşdırılması və icrası, məlumatların toplanması və təhlilinə töhfə formasında müəyyən irəliləyiş əldə olunub. Həmçinin, Hökumətə çoxsahəli məsələlərdə DİM-lərə nailolmanın sürətləndirilməsi, gənclərin və qadınların səlahiyyətləndirilməsi və insan hüquqları sahəsində dəstəyin göstərilməsində irəliləyiş əldə olunub. Ümumilikdə, qiymətləndirmə belə nəticəyə gəlir ki, planlaşdırılan dəstək tədbirlərinin əksəriyyəti 2016-2018-ci illərdə icra olunub və ya 2019-2020-ci illərdə icra olunacaqdır.

**Dördüncü nəticə** ondan ibarətdir ki, UNAPF məlumatların mütəmadi bölüşülməsi vasitəsilə BMT proqramları arasında daha yaxşı sinergiyaların əldə olunmasına töhfə verib. Bu, bir sıra müştərək proqramlarla və müəyyən qədər birgə proqramlaşdırma ilə nəticələnib. UNAPF həmçinin qurumlararası əməkdaşlığı artırıb və BMT-nin təşkilatlarını Nəticə Qruplarında həmsədr kimi iştiraka və birlikdə Müştərək İş Planlarının hazırlanmasına və monitorinqinə cəlb edib. BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) daxilində də yaxşı əməkdaşlıq mövcuddur. Belə ki, təşkilatlar mümkün dərəcədə bir-birinə dəstək göstərir. Lakin sinergiyalar daha da artırıla bilər və onların nazirliklərarası əməkdaşlığı tam əhatə etmədiyi görünür. Birgə proqramların hazırlanması və icrasında hələ də çətinliklər qalır. Onların bir qismi UNCT tərəfindən ölkə səviyyəsində, digərləri isə təşkilatların Baş qərargahları tərəfindən həll oluna bilər.

**Beşinci nəticə** ondan ibarətdir ki, Nəticələr Çərçivəsinin yalnız nəticə (outcome) səviyyəsində hazırlandığını və hər hansı məhsulları (output) əhatə etmədiyini nəzərə alsaq, məhsulların nəticələrə necə töhfə verdiyini anlamaq çətindir. Onlar yalnız MİP-lərdə qeyd olunur. Bununla yanaşı, UNAPF əldə olunacaq məhsulların göstərilə biləcəyi Fəaliyyət Planı olmadan hazırlanıb. Nəticədə məhsullar Müştərək İş Planlarında müəyyən olunub. Bunun məsuliyyəti isə UNDAF üzrə 2010-cu il Təlimatının üzərinə düşmür. Çünki həmin təlimatda məhsulları ya Nəticələr Çərçivəsində, ya da UNDAF üzrə Fəaliyyət Planında yerləşdirmək tövsiyə olunurdu. Lakin 2017-ci il Təlimatı faydası daha az olan alətlərə gətirib çıxara bilərdi - monitorinq və qiymətləndirmə funksiyası monitorinq və qiymətləndirmə çərçivəsinin istifadə edilmədiyi MİP və müvafiq hesabatvermə səviyyəsinə enə bilərdi.

**Altıncı nəticə** isə məhsulların müəyyən olunmasında aydın meyarların olmamasıdır. Belə ki, MİP-lərdə olan məhsullar fərqli məhsullardır, onların bəziləri çox fərqli səviyyələrdədir (o cümlədən ayrı-ayrı təşkilatlar üçün fərdi tədbirlər). Nəticədə, hazırkı Müştərək İş Planlarında 47 məhsul vardır ki, bu, çox yüksək rəqəmdir. Bir neçə təşkilat üzrə bir neçə tədbiri qruplaşdıraraq, bir neçə məhsulun birləşdirilməsi vasitəsilə (məsələn, hər nəticə üzrə 3-4 məhsul), nəticələrin iyerarxiyasında ən yüksək səviyyədə nailiyyətləri monitorinq etmək və qiymətləndirmək xeyli asanlaşardı. Bundan əlavə, bu, UNAPF-ın daha strateji bir sənədə çevrilməsinə imkan verər və hesabatvermə proseslərini sadələşdirərdi.

**Yeddinci nəticə** ondan ibarətdir ki, BMT-nin, o cümlədən bəzi qeyri-rezident təşkilatların müqayisəli üstünlükləri və əlavə dəyəri UNAPF çərçivəsində milli tərəfdaşlar tərəfindən müxtəlif formalarda istifadə olunub.

**Səkkizinci nəticə** ondan ibarətdir ki, UNAPF nəticələri istiqamətində irəliləyişə töhfə verən bəzi əsas faktorlara sabit siyasi mühit və hökumətlə BMT arasında yaxşı münasibətlərin olması daxildir. Lakin dövlət orqanları arasında əlaqələndirmənin məhdudluğu UNAPF-ın icrası üçün məhdudlaşdırıcı amil kimi çıxış etmişdir.

**Doqquzuncu nəticə** ondan ibarətdir ki, Hökumət BMT ilə gördüyü işi UNAPF çərçivəsində görülən iş hesab etməsə də və UNAPF-ın əhatə etdiyi məsələlər əsas tərəf müqabili kimi bir nazirliklə məhdudlaşmasa da, çoxsaylı nazirliklərin nəticə qruplarında və Monitorinq və Qiymətləndirmə Qrupunda həmsədr kimi iştirakı UNAPF sənədinə müəyyən dərəcədə birgə sahibliyi əks etdirir.

**Onuncu nəticə** ondan ibarətdir ki, UNAPF-ın İnsan hüquqları üzrə Tematik Qrupu və Gender üzrə Tematik Qrupu vasitəsilə insan hüquqları komitələrinə hesabatvermə ilə bağlı texniki dəstək göstərilsə də, əhalinin həssas qruplarına yönələn birgə dəstək tədbirləri vasitəsilə BMT-nin insan hüquqları məsələlərinə dair hökumətlə dialoqu gücləndirilə bilər.

**On birinci nəticə** ondan ibarətdir ki, UNAPF-ın tərtibində və icrasında gender bərabərliyi öz əksini tapır və demək olar ki, hər bir BMT təşkilatı genderlə bağlı müəyyən layihə və ya fəaliyyətlər həyata keçirir. Lakin ümumilikdə genderlə bağlı birgə proqramlaşdırma məhduddur. UNCT çərçivəsində gender aspektlərinin aktuallaşdırılması səviyyəsinin qiymətləndirilməsi məqsədilə aparılan Birgə Gender Təftişi də birbaşa UNAPF-la bağlı olan mühüm tövsiyələr irəli sürüb. Ehtiyacların olmasına baxmayaraq, maliyyələşmə çətinlikləri ilə əlaqədar olaraq, Gender üzrə Tematik Qrupun və BMT İnkişaf Sisteminin potensialının gücləndirilməsi və gender strategiyasının hazırlanması həyata keçirilmir. BMT İnkişaf Sisteminin islahatına uyğun olaraq, Rezident Əlaqələndiricinin Ofisi tərəfindən gender məsələləri üçün ayrıca büdcə ayrıla bilər. Növbəti UNSDCF sənədində gender əsaslı yanaşmaları daha yaxşı inteqrə etmək məqsədilə, UNCT-nin gender aspektlərinin aktuallaşdırılması və bu sahə üzrə təşkilatlar və tərəfdaşlar arasında sinergiyaların yaradılması ilə bağlı fəaliyyət nəticələrinə dair ilkin vəziyyət və hədəf məlumatları müəyyən etmək üçün Gender üzrə Qiymət Cədvəli (Gender Scorecard) kimi beynəlxalq səviyyədə təsdiqlənmiş metodologiyadan istifadə edilə bilər.

# VII. TÖVSİYƏLƏR

Məsləhətçilər aşağıdakı tövsiyələri və onların icrasına kömək üçün təklif olunan tədbirləri təqdim edir. Lakin onlara məlumdur ki, bu tədbirlərdən bəziləri artıq həyata keçirilməkdə ola bilər. Bundan əlavə, məsləhətçilər nəzərə alır ki, bu tövsiyələrin tam yerinə yetirilməsi üçün potensial (texniki, kadr, maliyyə) mövcud olmaya bilər.

Analoji olaraq, bu tövsiyələrdən bəzilərinin BMT islahatı və "Vahid İcra" ilə bağlı öyrənilmiş dərslərdən təsirləndiyini nəzərə alaraq, məsləhətçilər UNAPF-ın icrası müddətində onun uyğunluğu, ardıcıllığı və effektivliyinin artırılması ilə bağlı çətinliklərin olduğunu qəbul edir. Bu tövsiyələr həmçinin DİM-lərin icrası və BMT İnkişaf Sisteminin islahatı kontekstində UNAPF-ın icrası ilə bağlı müzakirələri və konkret tədbirləri stimullaşdırmaq üçün təklif olunur.

| Əsas tövsiyələr | Təklif olunan tədbirlər |
|---|---|

| | |
|---|---|
| **1-ci tövsiyə: UNCT və Hökumət DİM-lər kontekstində ortaq gələcəyə baxış və missiyanı müəyyən etmək üçün və yeni təlimata,həmçinin BMT inkişaf sistemində aparılan islahata dair gələcəyə baxışa uyğun olaraq, növbəti "Dayanıqlı İnkişaf üzrə BMT Əməkdaşlıq Çərçivəsi"nin (UNSDCF) faydalılığını və tərtibini yaxşılaşdırmalıdır.**<br><br>Yüksək prioritet | ● UNCT və hökumət yeni əməkdaşlıq çərçivəsi sənədinin hazırlanması üçün yeni Təlimatın sonuncu nəşrindən, xüsusilə onun rəhbər prinsiplərindən, çərçivənin tərtibi və hazırlanması ilə bağlı tövsiyələrindən, Dəyişiklik Nəzəriyyəsindən, strateji prioritetlərin, nəticə, məhsul və göstəricilərin təriflərindən istifadə etməlidir.<br>● UNAPF-ın yalnız nəticə səviyyəsində tərtib olunması və müvafiq məhsulları əks etdirməməsi monitorinq və hesabatvermə prosesində öz məhdudiyyətlərini büruzə verib. UNCT və Hökumətin həm nəticə, həm də məhsulları əks etdirən Nəticələr Çərçivəsi və nəticə və məhsullar üzrə irəliləyişi izləyən Monitorinq və Qiymətləndirmə Çərçivəsi hazırlaması yüksək dərəcədə tövsiyə edilir.<br>● Uzun məhsul siyahısını (hazırkı MİP-lərdə 47 məhsul var) önləmək üçün yeni UNSDCF müxtəlif təşkilatların verəcəyi bir sıra töhfələri əks etdirməlidir. Yalnız bir təşkilatın işini əks etdirən məhsullardan yayınmaq önəmlidir. Bu, nəticələr iyerarxiyasının ən yüksək səviyyəsində nailiyyətlərin monitorinqini və qiymətləndirilməsini asanlaşdıra və UNSDCF-i daha strateji sənəd və prosesə çevirə, həm də onun DİM-lərə töhfəsini artıra bilər.<br>● BMT İnkişaf Sisteminin islahatı və onun hesabatlılığı ön plana çəkməsini nəzərə alaraq, məhsulların birbaşa BMT İnkişaf Sistemi ilə əlaqələndirilməsini təmin etmək zəruridir və növbəti UNSDCF sənədi elə hazırlanmalıdır ki, töhfələr yaxşı ifadə olunmuş nəticə və göstəricilər vasitəsilə daha dəqiq nümayiş etdirilə bilsin. Aşağıda nəticə əsaslı idarəetmə və monitorinq və qiymətləndirmə ilə bağlı tövsiyəyə nəzər salın.<br>● Növbəti UNSDCF-i tərtib edərkən, bütün əsas tərəfdaşlarla məsləhətləşmə aparılmalıdır və onlar nəticələrin və göstəricilərin hazırlanmasında fəal iştirak etməlidir. |
| **2-ci tövsiyə: Hökumət UNAPF-a sahibliyini və əlaqələndirməni gücləndirməlidir**<br><br>Yüksək prioritet | ● Hökumət UNAPF-ın icrasında iştirakını və ona sahibliyini gücləndirmək üçün səylərini davam etdirməlidir. İstiqamətləndirici Komitə strateji istiqamət verməyə və DİM-lərin milliləşdirilməsi prosesini və Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının (DİMƏŞ) yaradıldığını nəzərə alaraq, UNAPF-ın əlaqələndirilmiş şəkildə icrasını təmin etməyə davam etməlidir.<br>● DİMƏŞ-in katibliyinin İqtisadiyyat Nazirliyi çərçivəsində UNAPF-ın icrasına və əlaqələndirilməsinə dəstək göstərdiyini nəzərə alaraq, hökumət tərəfdən tərəf müqabili kimi Nazirlə Kabinetinə (hazırda Baş nazirin müavini həm də DİMƏŞ-ə sədrlik edir) keçid mexanizmlərin icrasını və hesabatlılığı gücləndirə bilər.<br>● Hökumət Milli İnkişaf Planı hazırlayarsa, bu, növbəti UNSDCF sənədinə sahibliyini və onun 2030-cu il Gündəliyinin icrası istiqamətində işini gücləndirə bilər.<br>● UNAPF sənədinə "milli" sahibliyi (yəni sadəcə hökumətin sahibliyi ilə məhdudlaşmadan) gücləndirmək üçün QHT-ləri və vətəndaş cəmiyyəti təşkilatlarını UNAPF-ın tərtibində və icrasında daha strateji səviyyədə cəlb etmək vacibdir. |
| **3-cü tövsiyə: BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) UNAPF-ın effektivliyini artırmaq məqsədilə müxtəlif maraqlı tərəflərlə nəticə sahələri üzrə effektiv tərəfdaşlıqlar və strateji ittifaqları təşviq etməlidir** | ● UNCT dayanıqlı inkişaf naminə gördüyü işlərinə dəstək üçün müxtəlif maraqlı tərəflərlə tərəfdaşlıqları və strateji ittifaqları təşviq etməli, gücləndirməli və inkişaf etdirməlidir. Buraya hökumət, parlament, yerli icra hakimiyyəti orqanları, milli insan hüquqları institutları, inkişaf tərəfdaşları, beynəlxalq maliyyə institutları, elmi institutlar və ekspertlər və özəl sektor daxildir. |

| | |
|---|---|
| Orta dərəcəli prioritet | |
| **4-cü tövsiyə: UNCT və Hökumət QHT-lərin və vətəndaş cəmiyyəti təşkilatlarının cari və növbəti UNSDCF sənədində daha strateji səviyyədə iştirakını stimullaşdırmalıdır**<br><br>Yüksək prioritet | ● UNCT-ə qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti təşkilatları, o cümlədən gənclər təşkilatları ilə tərəfdaşlıq və strateji ittifaqları gücləndirmək tövsiyə edilir.<br>● Hökumət tərəfdaşlar QHT/vətəndaş cəmiyyəti təşkilatlarının maliyyə idarəetməsindəki çətinliklərlə bağlı tədbirlər görməlidir. Bu çətinliklər icma səviyyəli tədbirlərə birbaşa dəstəyi məhdudlaşdırır və tədbirlərin effektivliyini azaldır. Bu, QHT-lərə daha fəal və geniş spektrli dəstək göstərməyə imkan verəcək və vətəndaş cəmiyyəti təşkilatlarının daha sərbəst fəaliyyət göstərməsinə şərait yaradacaq.<br>● İcraçı tərəfdaşlar kimi QHT-ləri seçərkən, UNCT onların hesabatlılığını, şəffaflığını və müstəqilliyini diqqətli şəkildə nəzərdən keçirməlidir. |
| **5-ci tövsiyə: UNCT-yə birgə proqramlaşdırmanı gücləndirmək və ünvanlı birgə proqramlar icra etmək tövsiyə olunur**<br><br>Orta dərəcəli prioritet | ● UNAPF qismən, xərc-fayda analizindən sonra diqqətlə seçilmiş, BMT təşkilatlarının vahid milli inkişaf prioritetləri üzrə birgə işləmək üçün onlar arasında bir-birini tamamlama və sinergiyaları əks etdirən və gender kimi sahələrdə yüksək səviyyəli nəticələrin əldə edilməsinin mümkün olduğu bəzi ünvanlı birgə proqramlarla icra edilməyə davam etməlidir.<br>● UNCT xüsusilə strateji sahələrdə yüksək səviyyəli nəticələrin mümkün olduğu və səylərin təkrarlanmasının azaldığı birgə, ünvanlı birgə proqramlaşdırma fəaliyyətlərini hazırlamağa və icra etməyə davam etməlidir. |
| **6-cı tövsiyə:**<br>**UNCT və Hökumət nəticə qrupları və tematik qruplar vasitəsilə əməkdaşlığı artırmalı, onlardan istifadə edərək UNAPF-ı strateji şəkildə idarə etməlidir.**<br><br>Orta dərəcəli prioritet | ● Daha yüksək səviyyəli nəticələr əldə etmək üçün fəaliyyətlərin icrasında iştirak edən təşkilatlar arasında əməkdaşlıq və sinergiyalar gücləndirilməlidir.<br>● Nəticə Qrupları adekvat monitorinqi təmin etmək, UNAPF-ın strateji şəkildə idarə edilməsində UNCT-yə dəstək göstərmək üçün mütəmadi əsasda görüşməli, müştərək iş planlarından (hazırda ikiillik) istifadəni davam etdirməklə və növbəti UNSDCF sənədi üçün isə monitorinq və qiymətləndirmə çərçivəsindən istifadə etməklə fəaliyyətlərini yüngülləşdirməlidir.<br>● Nəticə Qrupları proqramlaşdırma prinsiplərinin (xüsusilə heç kəsi kənarda qoymamaq, insan hüquqlarına əsaslanan yanaşma və gender) öz müştərək iş planlarına və strategiyalarına əsaslı inteqrasiyasını təmin etmək üçün səylərini gücləndirməlidir.<br>● Nazirliklər və digər dövlət orqanları UNAPF-ın bütün planlaşdırma və icra müddətində Nəticə Qruplarının görüşlərində iştirak edəcək və səmərəli institusional yaddaşı təmin edəcək stabil əlaqələndiricilər təyin etməlidir. Daxili kommunikasiyanı asanlaşdırmaq üçün görüşlərə dəvət məktublarında konkret əlaqələndiricilərin adları qeyd oluna bilər. |
| **7-ci tövsiyə: UNCT və Hökumət UNAPF-ın monitorinqini və idarəolunmasını strateji şəkildə həyata** | ● Yaxşı hazırlanmış Nəticələr Çərçivəsinə və Monitorinq və Qiymətləndirmə Çərçivəsinə əsaslanaraq gələcəkdə nəticələri daha yaxşı təsbit etmək və BMT-nin milli prioritetlərə töhfələrin verilməsində müqayisəli üstünlüyünü nümayiş etdirmək üçün Nəticə Əsaslı İdarəetmə və Monitorinq və Qiymətləndirmə sistemləri gücləndirilməlidir. |

| | |
|---|---|
| **keçirmək üçün effektiv Nəticə Əsaslı İdarəetmə və Monitorinq və Qiymətləndirmə sistemlərindən istifadəni gücləndirməlidir**<br><br>Yüksək prioritet | ● Hesabatlılığı təmin etmək və nəticələri göstərmək üçün gözlənilən nəticələr BMT İnkişaf Sistemi ilə əlaqələndirilə bilməlidir. UNAPF-a ölçülə bilən və reallığa yaxın olan, təşkilatların məsul tutula biləcəyi yaxşı tərtib olunmuş nəticələr dəsti daxil olmalıdır. Hesabatlılıq yeni UNSDCF-in rəhbər prinsiplərindən biridir.<br>● Nəticələr Çərçivəsində "SMART" (spesiifk, ölçülə bilən, əldə oluna bilən, nəticəyönümlü, vaxtla məhdudlaşan) meyarlarına cavab verən və effektiv monitorinq və qiymətləndirməyə imkan verən gözlənilən nəticələrin (nəticə və məhsullar), göstəricilərin, ilkin vəziyyət göstəriciləri və hədəflər olmasını təmin etmək vacibdir. Bunun üçün təşviqat və siyasət sənədlərinin hazırlanmasının nəticələrinin monitorinq və qiymətləndirilməsində yaranan çətinliklərin fonunda, UNAPF-ın yuxarı səviyyəyə yönəlməsinə xüsusi diqqət yetirilməlidir. Çox ümumi göstəricilərin əvəzinə, BMT-nin öz tərəfdaşları ilə birlikdə təsir edə biləcəyi və ya diqqətlərini yönəldə biləcəkləri məhdud sayda göstəricilərə köklənmək daha yaxşı olardı.<br>● Növbəti UNSDCF-in Nəticələr Çərçivəsində BMT-nin gözlənilən töhfələri və tərəfdaşların töhfələri üçün ayrı-ayrı sütunlar ola bilər. Çoxsaylı tərəfdaş siyahısı əvəzinə, yalnız əsas tərəfdaşlar qeyd edilə, onların rolu qısa şəkildə təsvir edilə bilər. Buna nümunə olaraq, hazırda Gürcüstandakı Dayanıqlı İnkişaf üçün BMT Tərəfdaşlığı (UNPSD) sənədini (2016-2020) göstərmək olar.<br>● Nəticələr Çərçivəsi sadəcə müştərək iş planları vasitəsilə deyil, yaxşı tərtib olunmuş Monitorinq və Qiymətləndirmə Çərçivəsi vasitəsilə icra olunmalı və monitorinqi aparılmalıdır. Müştərək iş planlarının çox detallı olması strateji gələcəyə baxışı saxlamağa imkan vermir və nəticə və məhsullar üzrə irəliləyişi ölçməkdən daha çox fəaliyyətləri (töhfələri) planlaşdırmaq üçün nəzərdə tutulur. Struktur və tərtibat baxımından daha anlaşılan müştərək iş planlarının hazırlanması faydalı olardı.<br>● Gözlənilən nəticələrin, göstəricilərin, ilkin vəziyyət göstəriciləri və hədəflərin aktuallığını saxlaması və "SMART" meyarlara cavab verməsi üçün UNAPF-ın icrası müddətində Monitorinq və Qiymətləndirmə Çərçivəsinə düzəlişlər edilməlidir.<br>● Monitorinq və Qiymətləndirmə Qrupu UNAPF-ın monitorinqi və icrasına dəstək göstərməyə və yön verməyə, Rezident Əlaqələndiricinin Ofisinin dəstəyilə Nəticə Qruplarının işinə töhfə verməyə davam etməlidir.<br>● Bütün bunlar əldə olunan nailiyyətlər və irəliləyişin monitorinqi və ölçülməsinin önəmli çətinliklər olmadan aparılan bilən, təqdirəlayiq və faydalı bir fəaliyyətə çevrilməsinə imkan vermək üçün təşkilatlar daxilində monitorinq və qiymətləndirmə potensialının gücləndirilməsini şərtləndirə bilər.<br>● Monitorinq və qiymətləndirmə mexanizmləri DİM göstəricilərinə uyğun olaraq hazırlanmalıdır.<br>● Növbəti UNSDCF-də yüksək səviyyəli göstəricilər istifadə edilərsə, bütün ilkin vəziyyət göstəriciləri və hədəflər DİM-lərə uyğunlaşdırılmalı, Azərbaycanın yerli kontekstinə uyğunlaşdırılmış mövcud DİM hədəflərinə uyğun hazırlanmalıdır.<br>● Nəticə əsaslı idarəetmə, qiymətləndirmə mədəniyyəti, sübutlara əsaslanan öyrənmə və inkişaf nəticələri üçün hesabatlılığı gücləndirmək üçün qiymətləndirmə sahəsində milli potensialın artırılması ilə bağlı səylər gücləndirilməlidir. |
| **8-ci tövsiyə: UNCT, Dövlət Statistika Komitəsi və nazirliklər DİM-lərin və növbəti** | ● Məlumatların toplanması və təhlili üçün milli potensialı gücləndirmək məqsədilə, UNAPF-ın bütün maraqlı tərəfləri hərtərəfli təhlillər aparmaq və müxtəlif mənbələrin hazırladığı statistik məlumatlar arasındakı uyğunsuzluqları önləmək üçün ən yaxşı mümkün məlumatlara malik olmalıdır. Bu, cari vəziyyətin və məhdudiyyətlərin daha yaxşı |

| | |
|---|---|
| **UNSDCF-in icrasında əldə olunan irəliləyişin ölçülməsində məlumatların toplanması və təhlilinin əhəmiyyətini nəzərə alaraq, bu sahədə milli potensialın yaxşılaşdırılması baxımından birgə əməkdaşlığı gücləndirməlidir.**<br><br>Yüksək prioritet | öyrənilməsinə, dəstək tədbirlərinin adekvat şəkildə planlaşdırılmasına, nəticələrin səmərəli şəkildə ölçülməsinə və siyasətlərin hazırlanması və qərarların qəbulu üçün sübutlardan istifadəyə kömək edəcək.<br>● UNCT məlumatların toplanması və təhlili üçün metodologiyaların hazırlanmasında potensialın gücləndirilməsinə dəstək göstərməyə və digər ölkələrin qabaqcıl təcrübələrini və BMT-nin İqtisadi və Sosial Məsələlər Departamentinin (UNDESA) metodologiyalarını tətbiq etməyə davam etməli, lakin onları həm UNAPF, həm də DİM-lər üçün milli kontekstə uyğunlaşdırmalıdır.<br>● İnsan Hüquqları üzrə Ali Komissarlığın yeni hazırlanmış "Dayanıqlı inkişaf üzrə 2030-cu il gündəliyində məlumatlara insan hüquqlarına əsaslanan yanaşma, heç kəsi kənarda qoymamaq" adlı təlimatı məlumatların toplanması, təhlili və istifadəsi baxımından növbəti UNSDCF-in hazırlanmasında faydalı ola bilər. |
| **9-cu tövsiyə: UNCT 2019-cu ilin iyun ayında dərc edilən Təlimatda UNSDCF-in tövsiyə olunan "Heç kəsi kənarda qoymamaq" və "İnsan Hüquqlarına Əsaslanan Yanaşma" rəhbər prinsiplərinin daha çox aktuallaşdırılmasını təmin etməlidir**<br><br>Orta dərəcəli prioritet | ● DİM-lərin əsas hədəfi olmaqla 2030-cu il Gündəliyinin hər bir məqsədi üçün rəhbər tutulan "heç kəsi kənarda qoymamaq" prinsipi həm də insan hüquqlarına əsaslanan yanaşma və gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi ilə birgə UNSDCF-in əsas prinsipidir. 2019-cu ildə düzəlişlər edilmiş UNSDCF Təlimatında təsbit olunan digər rəhbər prinsiplərlə birlikdə, bütün nəticələrə nail olmaq üçün vacib olan bu prinsiplər kəsişən prinsiplər kimi növbəti UNSDCF sənədinin mərkəzində yer almalıdır. Bu, əməliyyat fəaliyyətləri və normativ iş arasında daha yaxşı əlaqələrə nail olmağa kömək edə bilər.<br>● Növbəti UNSDCF sənədinin hazırlanması zamanı istiqamət üçün "*Heç kəsi kənarda qoymamaq*" adlı yeni təlimatdan istifadə edilməlidir. Bu təlimatda "heç kəsi kənarda qoymamaq" prinsipinin fəaliyyətə daxil edilməsi üçün təhlil, fəaliyyət, monitorinq, hesabatlılıq və faydalı iştirakla bağlı beş addımdan ibarət metodologiya təqdim olunur. Bütün addımlarda gender aspektləri nəzərə alınmalıdır, çünki təcrid olunan qruplar arasında ən çox məhrumiyyətlərlə üzləşən və əlverişsiz vəziyyətdə olan qruplardan biri qadınlar və qızlardır.<br>● Yeni təlimata əsasən, UNCT əhalinin həssas qruplarının kimlərdən ibarət olması və harada olmasını, onların ehtiyaclarını müəyyən edən, BMT-nin necə töhfə verə biləcəyini dəqiqləşdirən Vahid Ölkə Qiymətləndirməsi (VÖQ) aparmağa dəvət olunur. Həmçinin, tərəfdaş hökumət qurumlarının həssas qrupların ehtiyacları və dezaqreqasiya olunmuş məlumatların vacibliyi ilə bağlı potensialını davamlı şəkildə gücləndirmək zəruridir. Bu, UNAPF-ın əvvəlində tələb olunan etibarlı ilkin vəziyyət məlumatları və təhlili təmin edəcək.<br>● UNCT təhlil mərhələsindən proqramlaşdırma və icra mərhələsinədək bütün UNAPF prosesindən insan hüquqlarının BMT İnkişaf Sisteminin fəaliyyətlərinin mərkəzində yerləşdirilməsi üçün istifadə etməli, "İnsan hüquqlarına əsaslanan yanaşma" prinsipini tətbiq etməyə davam etməlidir. İnsan hüquqlarına əsaslanan yanaşma inkişaf problemlərinin yüksək keyfiyyətli qiymətləndirmə və təhlilini təmin etmək potensialına malikdir. Məsələn, hüquq sahiblərinin öz hüquqlarından istifadə etməsi və öhdəlik sahiblərinin öz öhdəliklərini yerinə yetirməsi üçün tələb olunan institusional dəyişikliklər və davranışların mütəmadi təhlili UNAPF-ın daha strateji olmasına və daha yaxşı nəticələr əldə etməyə kömək edə bilər. Növbəti UNSDCF-in prioritetləşdirilməsinə və icrasına yön vermək məqsədilə, seçilmiş inkişaf problemlərini və çağırışları insan hüquqlarına əsaslanan yanaşma ilə təhlil edərək təməl səbəbləri (səbəb təhlili və səbəb sxemləri), öhdəlik sahiblərinin vəzifələrini və potensialla bağlı boşluqları müəyyən etmək və mühitin əlverişliliyini qiymətləndirmək faydalı olardı. |

| | |
|---|---|
| | ● İnsan hüquqlarına əsaslanan yanaşma UNAPF-ın icrasında və növbəti UNSDCF-in hazırlanmasında sistemli, davamlı və məqsədyönlü şəkildə əks etdirilməlidir. Bu aşağıdakı təhlillər vasitəsilə edilə bilər: 1) səbəb-nəticə 2) rol-model 3) potensialda boşluqlar. Analoji olaraq, UNAPF və UNSDCF-in strategiyaları, nəticələri, göstəriciləri və icrası aşağıdakı əsas işlək insan hüquqları prinsiplərinə əsaslanmalıdır: 1) ayrı-seçkiliyə yol verməmə və bərabərlik, 2) iştirak və inklüzivlik, 3) hesabatlılıq və qanunun aliliyi.<br>● BMT-nin proqramlaşdırma heyəti, hökumət nümayəndələri və digər tərəfdaşların da davamlı olaraq insan hüquqlarına əsaslanan yanaşma ilə bağlı təlim keçməsi və potensiallarının gücləndirilməsi zəruridir.<br>● UNCT UNAPF-ın İnsan Hüquqları üzrə Tematik Qrupu vasitəsilə, insan hüquqları komitələrinə hesabatların verilməsinə texniki dəstək göstərməyə davam etməli və növbəti UNSDCF sənədində insan hüquqları komponentini gücləndirməlidir.<br>● UNCT Hökumət, Ombudsman və vətəndaş cəmiyyəti ilə insan hüquqları üzrə əməkdaşlıq sahələrinin müzakirəsi üçün bəzi görüşlər keçirməlidir. UNCT və Rezident Əlaqələndirici də insan hüquqlarına (iqtisadi, sosial, mədəni, mülki və siyasi) daha çox diqqət yetirməli və BMT və hökumət arasında dialoq və təşviqatı gücləndirməlidir. Rezident Əlaqələndiricinin Ofisi tərəfindən İnsan Hüquqları üzrə Tematik Qrupa xüsusi büdcə ayrıla bilər.<br>● UNSDCF-nin heç kəsi kənarda qoymamaq və insan hüquqlarına əsaslanan yanaşma ilə bağlı rəhbər prinsiplərinin daha geniş aktuallaşdırılması məsələn, Tematik Qruplar vasitəsilə təmin oluna bilər. Belə ki, tematik qruplar prinsiplərin daha əlaqələndirilmiş və müntəzəm monitorinq və istifadəsini təmin etmək, habelə illik icmallarda və icra hesabatlarında onların icrası barədə hesabat vermək üçün spesifik yaddaş siyahıları və aydın ilkin vəziyyət və hədəflərə malik göstəricilər hazırlaya bilər.<br>● Gənclər və qadınlar, əlilliyi olan insanlar və yaşlanma kimi digər çoxsahəli məsələlər növbəti UNSDCF-də əks etdirilməlidir. |
| **10-cu tövsiyə: UNCT 2019-cu ilin iyun ayında dərc edilən Təlimatda tövsiyə olunan UNSDCF-in "Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi" rəhbər prinsipinin daha çox aktuallaşdırılmasını təmin etməlidir**<br><br>Yüksək prioritet | ● BMT-nin Qadın Qurumu tərəfindən Şərqi Avropa və Mərkəzi Asiya regionu üçün aparılmış qiymətləndirmənin gəldiyi nəticələrə uyğun olaraq, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi üzrə spesifik nəticənin daxil edilməsi təklif edilir.<br>● Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi çoxsahəli prinsip kimi (təyin olunmuş spesifik məqsəd və hədəflər, cins üzrə dezaqreqasiya olunmuş məlumatlar və göstəricilər baxımından) UNSDCF-in tərtibatında daha yaxşı əks olunmalıdır. Növbəti UNSDCF sənədinə gender əsaslı yanaşmaları daha yaxşı inteqrə etmək üçün gender bərabərliyi, gender ədalətliliyi və qadınların səlahiyyətləndirilməsi nəzərə alınmalıdır və UNSDCF-in hazırlanmasında əsas aspektləri düzgün şəkildə əhatə etmək üçün ekspert cəlb oluna bilər.<br>● Növbəti dövr üçün BMT təşkilatları ikiqat inzibati xərclərə səbəb olmadan gender üzrə əsaslı birgə proqramın hazırlanması imkanına nəzər salmalıdır.<br>● Təşkilatların ayrı-ayrılıqda icra etdiyi genderlə bağlı layihələr və fəaliyyətlər üçün təşkilatlar arasında sinergiyalar artmalıdır.<br>● Bundan əlavə, BMT İnkişaf Sisteminin islahatına uyğun olaraq, BMT-nin Gender Qrupunun və BMT təşkilatlarının potensialının gücləndirilməsi və gender strategiyasının hazırlanmasına, habelə Birgə Gender Təftişinin UNAPF-la birbaşa əlaqəli olan digər tövsiyələrinin icrasına dəstək üçün Rezident Əlaqələndiricinin Ofisi tərəfindən gender məsələlərinə ayrıca büdcə ayrılmalıdır.<br>● Gender Tematik Qrupu daha əlaqələndirilmiş və müntəzəm monitorinqi, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi üzrə rəhbər prinsiplərdən istifadəni təmin |

| | |
|---|---|
| | etmək və onların icrası barədə hesabat vermək üçün Gender üzrə Qiymət Cədvəli aləti çərçivəsində UNCT üçün gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi üzrə fəaliyyət göstəricilərindən istifadə edə bilər. Gender üzrə Qiymət Cədvəli UNCT-nin gender aspektlərinin aktuallaşdırılması və rezident təşkilatlar arasında sinergiyaların yaradılması ilə bağlı fəaliyyət nəticələrinə dair ilkin vəziyyət və hədəf məlumatları müəyyən etmək üçün istifadə edilə biləcək beynəlxalq səviyyədə təsdiqlənmiş metodologiyadır.<br>● Son olaraq, cari UNAPF-ın icrasında və qarşıdakı UNSDCF strategiyalarında və nəticə çərçivələrində gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsini gücləndirmək üçün bir sıra yeni təlimatlardan istifadə edilə bilər: BMT-nin Qiymətləndirmə Qrupunun "BMT-SWAP qiymətləndirmə fəaliyyəti göstəricisi" adlı təlimatı, BMT-nin İnkişaf Qrupunun "Genderin ölkə səviyyəsində BMT-nin vahid proqramlaşdırmasına inteqrasiyası üçün resurs kitabı" və "BMT-nin Gender üzrə Tematik Qrupları üçün Resurs Bələdçisi". Onların hamısı həm gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsini, həm də "heç kəsi kənarda qoymamaq" prinsipinə diqqəti daha yaxşı əks etdirmək üçün istifadə edilə bilər. Bundan əlavə, BMT-nin Qiymətləndirmə Qrupunun "İnsan hüquqları və gender bərabərliyinin qiymətləndirməyə inteqrasiyası üçün rəhbər qaydalar"ı da əlavə baxış bucaqları təmin edə bilər. |
| **11-ci tövsiyə:**<br>**UNCT əlaqələndirilmiş nəticələrə nail olmaq, ədalətliliyə yönələn və yuxarı və aşağı səviyyələrə istiqamətlənən əlaqəlilikləri gücləndirmk və inteqrativ və bir-birinə yaxın müdaxilə modelləri hazırlamaq və test etmək üçün kompleks yanaşma qəbul etməli və sahələrarası əməkdaşlıqlar yaratmalıdır.**<br><br>Orta dərəcəli prioritet | ● DIM-lər üçün inteqrativ yanaşma sərgiləyə bilən, bütün səviyyələrdə bir-biri ilə əlaqəli nəticələr əldə etmək üçün sahələrarası sinergiyalar yarada bilən bir inkişaf sistemi və hökumət tələb olunur. Milli tərəfdaşlar UNAPF sayəsində BMT İnkişaf Sisteminin fərdi və məcmu müqayisəli üstünlükləri və əlavə dəyərindən maksimum faydalanmalıdır.<br>● UNCT ədalətliliyə yönələn və yuxarı və aşağı səviyyələrə istiqamətlənən əlaqəlilikləri gücləndirilməlidir. Hazırkı və növbəti UNAPF ən həssas və əlverişsiz vəziyyətdə olan qruplar üçün bərabər imkanlara köklənməyə davam etməlidir.<br>● UNCT dezaqreqasiya olunmuş məlumatlarla sağlam dəlillər təmin etməyə və hökumətə siyasət və qanunvericiliyin hazırlanması, planlaşdırılması, büdcə tərtibatı və proqramlaşdırılmasına dəstək verməyə səy göstərməlidir.<br>● İnteqrativ və bir-birinə yaxın dəstək modellərinin hazırlanması və sınaqdan keçirilməsi yolu ilə, UNAPF güclü dəlillər yaradacaq və nümunəvi təcrübələri nümayiş etdirəcək, dəstək tədbirlərinin miqyasının genişləndirilməsinə dəstək göstərəcək. |
| **12-ci tövsiyə:**<br>**UNCT BMT-nin qeyri-rezident təşkilatlarının Vahid Ölkə Qiymətləndirməsi, UNAPF və UNSDCF proseslərində iştirakı və cəlb olunması üçün** | • UNCT-nin effektiv əlaqələndirmə mexanizmi vasitəsilə, BMT-nin qeyri-rezident təşkilatlarının Vahid Ölkə Qiymətləndirməsi, UNAPF və UNSDCF proseslərində iştirakı və cəlb olunması üçün daha inklüziv və əlverişli mühit yaratması tövsiyə olunur.<br>• UNCT növbəti UNAPF sənədinin müxtəlif qeyri-rezident təşkilatların təcrübəsini daha yaxşı cəlb etməyə imkan verə, milli prioritetlərə nail olmaq üçün Hökumətin onların unikal səriştəsindən tam yararlanmasına şərait yarada bilər. UNCT müvafiq maraqlı tərəflərlə əlaqəni institusional çərçivəyə sala və ümumi maraq doğuran sahələrdə yeni tərəfdaşları asanlaşdıra və ya bunun üçün vasitəçilik edə bilər. |

| | |
|---|---|
| **daha inklüziv və əlverişli mühit yaratmalıdır.**<br><br>Orta dərəcəli prioritet | • Ölkə səviyyəsində mövcud olan BMT səriştəsinin, o cümlədən qeyri-rezident təşkilatların səriştəsinin xəritələşdirilməsi ölkə səviyyəsində BMT tədbirlərinin daha yaxşı əlaqələndirilməsinə və effektivliyin yaxşılaşmasına gətirib çıxara bilər.<br>• Digər mümkün tədbirlər barədə hesabatın “Qeyri-rezident təşkilatların iştirakı” bölməsində məlumat verilir. |

# ƏLAVƏLƏR

## Əlavə 1: UNAPF üzrə Qiymətləndirməyə dair Texniki Tapşırıq

**2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi üzrə Qiymətləndirmə**

**TEXNİKİ TAPŞIRIQ**

1. **ÜMUMİ MƏLUMAT**

***Ölkə konteksti***

Azərbaycan 1991-ci ildə müstəqillik əldə etdikdən sonra nəzərəçarpan səviyyədə iqtisadi inkişafa nail olmuş, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçmiş və yuxarı orta gəlirli ölkələr sırasına daxil olmuşdur. Ölkə son 20 il ərzində enerji ehtiyatları sayəsində yüksəlişə nail olmuş, bu illər ərzində dünyanın ən sürətlə artan iqtisadiyyatlarından birinə malik olmuş və bir neçə il ərzində regional arenada öz mövqeyini getdikcə möhkəmləndirmişdir. İqtisadi artım neft-qaz ehtiyatlarının axtarışı, yüksək səviyyədə dövlət xərcləri və bazar iqtisadiyyatının dəstəklənməsinə yönələn islahatlar sayəsində mümkün olmuşdur.

Azərbaycan yuxarı orta gəlirli ölkə statusuna malikdir. 2004-2013-cü illərdə ÜDM-in orta artım tempi 12.4% olmuş, Hökumətin məqsədyönlü səyləri nəticəsində qeyri-neft sektorunun iqtisadi artımda payı getdikcə artmışdır. Bununla belə, iqtisadi artımın neft sektorundakı artımdan asılılığı hələ də yüksək səviyyədə qalır. Neft qiymətlərinin qeyri-sabitliyi ölkənin məruz qaldığı çoxsaylı xarici faktorlardan sadəcə biridir və bu da uzunmüddətli perspektivdə daha dayanıqlı və inklüziv artıma nail olmaq üçün əsaslı sistem dəyişikliklərinin vacibliyini bir daha təsdiq edir.[46]

Azərbaycan xidmətlərin “bir pəncərə” prinsipi əsasında təqdim edilməsi üçün “ASAN Xidmət” (*Azerbaijan Service and Assessment Network* - Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi) modelini yaratmış və uğurla tətbiq etməyə davam etməkdədir. Bu model bürokratiyanı, gözləmə vaxtlarını və səlahiyyətlərdən şəxsi mənafe üçün istifadə imkanlarını kəskin dərəcədə azaltmışdır. Məşğulluq, əmək və sosial müdafiə sahəsində idarəçiliyi təkmilləşdirmək üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi (DOST) adlı daha bir publik hüquqi şəxs yaradılıb.

Son onilliklər ərzində Azərbaycanda doğulanda gözlənilən ömür uzunluğu 7.3 il, orta məktəbdə təhsil illəri 0.5 il və gözlənilən məktəbdə təhsil illəri 2.0 il artıb. 2017-ci il üzrə İnsan İnkişafı İndeksində Azərbaycan 189 ölkə arasında 80-ci yerdə olmuşdur ki, bu da Azərbaycanın yüksək insan inkişafı kateqoriyasına daxil olması anlamına gəlir[47].

Azərbaycan istixana effekti yaradan qazların emissiyasına əhəmiyyətli dərəcədə töhfə verməsə də, ölkənin iqtisadiyyatının karbohidrogenlərin hasilatından asılılığını nəzərə alaraq, Hökumət iqtisadi inkişafın mənfi

[46] “Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün aktuallaşdırma, sürətləndirmə və siyasətə dəstək”, Missiya Hesabatı, Azərbaycan, 2017

[47] BMT-nin İnkişaf Proqramı, İnsan İnkişafı İndeksləri və Göstəriciləri: 2018-ci il üzrə statistik yenilənmə. 2018-ci il üzrə statistik yenilənmə ilə bağlı ölkələr üçün qısa icmal: Azərbaycan

ekoloji təsirlərini azaltmaq (xüsusilə də istixana effekti yaradan qazların emissiyasının 75.9%-nə cavabdeh olan enerji sektorunda) üçün yeni üsullar müəyyən etməlidir. Digər tərəfdən, Azərbaycanın şirin su ehtiyatlarının məhdudluğu və Xəzər dənizinin sahilində yerləşməsi ilə əlaqədar olaraq iqlim dəyişmələrinə həssaslığı yüksək dərəcədədir və bu baxımdan mübarizə mexanizmlərini və uyğunlaşma imkanlarını gücləndirməlidir[48]. Azərbaycan BMT-nin ətraf mühitin mühafizəsi ilə bağlı bütün əsas konvensiyalarına, o cümlədən iqlim dəyişmələri, biomüxtəliflik və torpaqların deqradasiyası ilə bağlı konvensiyalara qoşulub. Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasını 1995-ci ildə qəbul edib və 2017-ci ilin yanvar ayında Paris Konvensiyasına qoşulub.

Azərbaycan Respublikası müstəqilliyinin ilk illərində Azərbaycanın Dağlıq Qarabağ regionunda və onun ətrafında Ermənistan Respublikası ilə silahlı münaqişə nəticəsində əhalinin kütləvi yerdəyişməsinə məruz qaldı. Münaqişə nəticəsində bir milyondan artıq şəxs öz evlərini tərk edərək qaçqın və ya məcburi köçkünə çevrildi. Dövlət statistikasına əsasən, 20 ildən artıq bir müddət keçməsinə baxmayaraq, Azərbaycanın Dağlıq Qarabağ regionu və onun ətrafındakı işğal olunmuş 7 rayondan olan 620 min nəfər (31 dekabr 2018-ci il tarixinə olan məlumat) məcburi köçkün olaraq qalır. 1994-cü ildə bağlanmış kövrək atəşkəsə baxmayaraq, yerdəyişmə ölkə üçün əsas çətinliklərdən biri olaraq qalır. İki tərəf arasında siyasi həll yolu tapılmayıb və davamlı həll yolu əldə olunmalıdır[49].

Ev təsərrüfatlarının nəzərəçarpan hissəsinin yoxsulluq vəziyyətindən çıxdığını, lakin orta sinif sıralarına çata bilmədiyini nəzərə alaraq, Azərbaycan "orta gəlir tələsi"nə düşməmək üçün möhkəm və dayanıqlı inkişaf mənbələri vasitəsilə inkişafın təmin edilməsi baxımından çətinliklərlə üzləşməkdədir[50]. Azərbaycanın yüksələn İnsan İnkişafı İndeksi ölkənin yüksək insan inkişafı kateqoriyasına daxil olmasına imkan versə də, bərabərsizliyi nəzərdə aldıqda, ölkənin reytinqi 10% aşağı düşür.

Ölkədə demoqrafik vəziyyətlə bağlı aparılmış ən son tədqiqatdan əldə olunmuş nəticələr gender bərabərliyi ilə bağlı bir sıra mühüm sahələrdə irəliləyişin əldə olunduğunu göstərir. Bu sahələrə kişi və qadınların gözlənilən ömür uzunluğunun artması və qadınlar arasında savadlılıq səviyyəsinin yüksəlməsi daxildir. Tədqiqat nəticələri həmçinin onu göstərir ki, hazırda qadınların daha yuxarı yaşda nikaha daxil olma ehtimalı daha yüksəkdir, onlar daha az uşağa sahibdir, şəhər və ya kənd yerlərində yaşama imkanları demək olar ki bərabərdir, ev təsərrüfatından kənarda gəlir gətirən fəaliyyətlərlə daha çox məşğul olurlar.[51] Bununla belə, mövcud normativ çərçivələr, bir sıra fərdi, institusional və struktur yönümlü maneələr gender bərabərliyi sahəsində islahatların səmərəliliyinə və dayanıqlılığına kəskin mənfi təsir göstərir. Bundan əlavə, səmərəli icra və hesabatlılıq mexanizmlərinin olmaması yuxarıda qeyd olunan öhdəliklərin effektivliyinə mənfi təsirlər göstərməyə davam edir.

Azərbaycanın əmək bazarı hələ də tələb və təklif arasında uyğunsuzluq, məşğulluğun yetərli səviyyədə olmaması, gənclər arasında işsizliyin yüksək səviyyədə olması, kövrək və qeyri-rəsmi məşğulluq kimi struktur xarakterli çətinliklər və əmək bazarında regional bərabərsizliklərlə səciyyələnir. Azərbaycanda əhalinin yaş tərkibində gənclərin üstünlük təşkil etməsi səbəbindən gənclər ölkənin bir çox yerlərində işsizlərin əksəriyyətini təşkil edir və onlar emiqrasiyaya meyllidir.[52] Bununla yanaşı, "üçüncü dünya"

[48] Azərbaycanın İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına İkinci Milli Məlumatı
[49] 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi, s.13
[50] MAPS hesabatı
[51] "Əhalinin vəziyyətinin təhlili: Azərbaycanda demoqrafik keçiddən ötəri". UNFPA/BMTİP, Bakı, Azərbaycan, 2015
[52] MAPS hesabatı

ölkələrindən gələn və kiçik olsa da artmaqda olan qaçqın əhali qrupu da var ki, onlara qarşı dözümlülük nümayiş etdirilsə də, aydın hüquqi statusları yoxdur.

Azərbaycan Hökuməti çətinlikləri və onların həllində vahid yanaşmaların zəruriliyini aydın şəkildə başa düşür. O, maliyyə sektorunda əsaslı islahatlara başlamış, hökumət strukturunda islahatlara və makroiqtisadi səviyyədə risklərin yumşaldılmasına yönələn düşünülmüş tədbirlərə start vermiş, əsas diqqəti sahibkarlığın təşviqinə və qeyri-neft sektorunun dayanıqlı artımına (xüsusən, məqsədyönlü dövlət dəstəyi ilə təmin olunacaq kənd təsərrüfatı, turizm və İKT sektorlarında) və ixracat yönümlü artıma yönəltmişdir. Azərbaycan Hökuməti əhalinin həssas qruplarının ümumi həyat şəraitini yaxşılaşdırmaq üçün nəzərəçarpan səylər göstərməyə davam edir və qaçqınların və məcburi köçkünlərin müdafiəsi və onlara yardım göstərilməsi ilə bağlı məsuliyyəti tam şəkildə üzərinə götürür. "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası orta və uzunmüddətli strateji milli hədəfləri bir araya gətirərək, həm bir sıra milli sektoral strategiyalar, həm də Strateji Yol Xəritələri üçün, habelə beynəlxalq inkişaf təşkilatları ilə əməkdaşlığın genişləndirilməsi üçün ümumi çərçivə yaratmışdır. Bu inkişaf konsepsiyası xüsusilə 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi üçün sağlam zəmin yaratmışdır.

***2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi***

İnklüziv və birgə iştiraka əsaslan proseslər çərçivəsində hazırlanmış 2016-2020-ci illər üzrə UNAPF "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında əksini tapan milli məqsəd və prioritetlərlə uzlaşır. Əvvəlki UNAPF (2011-2015) sənədinin qiymətləndirmə nəticələrinə əsaslanaraq, hazırkı tərəfdaşlıq çərçivəsi **üç strateji prioritet sahəyə** yönəlir: 1) Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi; 2) İnstitusional potensialın gücləndirilməsi, səmərəli dövlət xidmətləri və sosial xidmətlər 3) Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması. Bu prioritetlər çərçivəsində insan hüquqlarına əsaslanan yanaşma, gender bərabərliyi, gənclər, monitorinq və qiymətləndirmə üçün spesifik potensialın gücləndirilməsi (institusional, texniki, idarəetmə) və ümumi dəlillər bazasının təkmilləşdirilməsi kimi bir-biri ilə kəsişən məsələlər mövcuddur. Bu üç strateji prioritet sahə çərçivəsindəki dəstək tədbirlərinə aşağıdakılar daxildir, lakin bunlarla məhdudlaşmır:

- Birinci prioritet strateji sahə çərçivəsində BMT təşkilatları aşağıdakı sahələrdə Azərbaycan Hökumətinə dəstək göstərir və fəaliyyətlər icra edirlər: gənclər qadınlar, qaçqınlar və vətəndaşlığı olmayan şəxslər üçün məşğulluq imkanlarının və layiqli iş yerlərinin artırılması, sahibkarlığın və kiçik bizneslərin təşviqi, qeyri-neft sektoru üçün işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və təhsili, kənd təsərrüfatının və kənd yerlərinin inkişafına dəstək göstərilməsi və ərazilərin minalardan təmizlənməsi.
- İkinci strateji prioritet sahə çərçivəsində dəstək tədbirləri aşağıdakı sahələrə köklənir: milli maraqlı tərəflərin əhalinin dinamikası, qadınlar, gənclər və həssas qruplara xüsusi diqqət yetirməklə faktlara əsaslanan ədalətli dövlət siyasətlərinin, proqramlarının və büdcələrinin hazırlanması və həyata keçirilməsi, əhalinin həssas qruplarının vəziyyətini beynəlxalq tövsiyələrə uyğun olaraq müstəqil şəkildə müşahidə etmək və hesabat vermək və onların vəziyyətini beynəlxalq standartlara və dövlətin beynəlxalq öhdəliklərinə uyğunlaşdırmaq potensialının gücləndirilməsi, əhalinin həssas qruplarının milli müdafiə sistemlərinə çıxışının yaxşılaşdırılması və onların öz hüquqları barədə və pozuntuların səmərəli şəkildə aradan qaldırılması yolları barədə

maarifləndirilməsi, müdafiə, təhsil, səhiyyə və qidalanma xidmətlərinin yüksək keyfiyyətli və hər kəs üçün, xüsusilə ən həssas qruplar, qaçqınlar, məcburi köçkünlər, vətəndaşlığı olmayan şəxslər və qaçaqmalçılıq qurbanları üçün əlçatan olmasının təmin edilməsi.

- Üçüncü strateji prioritet sahə çərçivəsində dəstək tədbirləri aşağıdakı sahələrə köklənir: istixana effekti yaradan qazların emissiyası üzrə monitorinq, təhlil və hesabatvermənin yaxşılaşdırılması üçün qurumların və mexanizmlərin gücləndirilməsi; enerji sahəsində istixana effekti yaradan qazların emissiyasını azaltmaq üçün iqlim dəyişikliyinin yumşaldılmasına yönələn tədbirlərin və ekoloji təhlükəsiz təcrübələrin təşviqi; sahilyanı və dəniz ekosistemlərinin daha yaxşı planlaşdırılması, idarə edilməsi və dayanıqlılığının təmin edilməsi; torpaq və meşə resurslarını qorumaq və onlardan dayanıqlı şəkildə istifadə etmək üçün siyasətlərin işlənib hazırlanması və təşkilatlara və yerli fermerlərə dəstəyin göstərilməsi; idxal və ixrac olunan məhsullara xüsusi diqqət yetirməklə, bitkilərin diaqnostikası və təftişi sahəsində potensialların gücləndirilməsi və ictimai səhiyyə sahəsində proqramların hazırlanması və icrası üzrə potensialların gücləndirilməsi.

2016-2020-ci illər üzrə UNAPF-ın nəticələr çərçivəsində **5 nəticə** müəyyən olunub. Bu nəticələr müştərək iş planları (MİP) vasitəsilə fəaliyyətə daxil edilir. Bunlar aşağıdakılardır:

- Nəticə 1.1: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmənin dərinləşməsi, dayanıqlı artım səviyyəsinin yüksəlməsi və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerlərinin yaradılması.
- Nəticə 2.1: 2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması
- Nəticə 2.2: 2020-ci ilədək Azərbaycanda beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olma, beynəlxalq standartlara uyğun icra, monitorinq və hesabat vermə üçün potensialın gücləndirilməsi
- Nəticə 2.3: 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək göstərilməsi

MİP-lər BMT-nin təşkilatları və icraçı tərəfdaşlar arasında resurslardan istifadə ilə bağlı razılaşma kimi çıxış edir. Bu sənədlərdə əldə olunacaq dəqiq nəticələr, cavabdeh tərəflər, habelə dəqiq xərclər və mövcud resurslar müəyyən olunur. MİP-lərin hazırlanması, icrası, monitorinqi və qiymətləndirilməsi prosesləri üç Nəticə Qrupu tərəfindən əlaqələndirilir. Bu qruplara Hökumət və BMT nümayəndələri həmsədrlik edir. Əldə olunmuş irəliləyişi və fəaliyyət göstəricilərini vaxtında ölçməklə icra prosesinə düzəlişlər etməyə imkan verən Müştərək İllik İcmallar həyata keçirilir. UNAPF-ın icrası ilə bağlı İllik İcra Hesabatları hazırlanır.

İdarəetmə strukturlarına gəldikdə, Hökumətin, habelə BMT Sisteminin və əsas inkişaf tərəfdaşlarının yüksək səviyyəli nümayəndələrindən ibarət olan İstiqamətləndirici Komitə UNAPF-ın icrasına strateji istiqamət verir və nəzarəti həyata keçirir. İstiqamətləndirici Komitəyə İqtisadiyyat naziri və BMT-nin Rezident Əlaqələndiricisi həmsədrlik edir.

BMT-nin fond və proqramlarının və digər BMT təşkilatlarının Azərbaycana akkreditə olunmuş nümayəndələrindən ibarət Ölkə üzrə İdarə Heyəti Rezident Əlaqələndiricinin rəhbərliyi altında BMT Sisteminin ölkədəki inkişaf tədbirlərinin effektivliyinə cavabdehdir.

Bundan əlavə, BMT-nin Gender üzrə Tematik Qrupu, İnsan Hüquqları üzrə Tematik Qrupu, Kommunikasiya Qrupu və Əməliyyatlar üzrə İdarəetmə Heyəti UNAPF-ın icrasına, habelə birgə siyasət sənədlərinin hazırlanmasına və normativ fəaliyyətlərə dəstək göstərir. Monitorinq və Qiymətləndirmə üzrə Birgə İşçi

Qrup UNAPF-da nəzərdə tutulan nəticələrlə bağlı monitorinq, qiymətləndirmə və hesabatvermə üçün əsaslı və effektli monitorinq və qiymətləndirmə sisteminə nail olmaq məqsədilə üç nəticə qrupuna texniki yardım göstərir.

BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) əməkdaşlıq yönümlü və birgə fəaliyyət vasitəsilə UNAPF-ın (2016-2020) icrasında nəzərəçarpan irəliləyiş əldə edib. Bu, illik icra hesabatlarında öz əksini tapır.

2018-ci ilin ikinci yarısında UNCT Hökumətlə tərəfdaşlıq yolu ilə iki tədbir çərçivəsində UNAPF-ın icrasının aralıq icmalını həyata keçirib: 1) UNAPF-ın Sürətli Kompleks Qiymətləndirməsi (SKQ) qlobal DİM hədəflərinə əsasən aparılıb və 59% səviyyəsində uzlaşma olduğunu göstərib; 2) UNAPF-ın Nəticələr və Resurslar Çərçivəsinə baxış keçirilib, təklif olunan dəyişikliklər müzakirə edilib və Hökumətlə razılaşdırılıb.

***Qiymətləndirmənin əsası***

BMT-nin İnkişaf Qrupunun (UNDG) BMT-nin İnkişafa Yardım üzrə Çərçivə Sənədlərinə (UNDAF) dair təlimatlarına əsasən, UNAPF-ın qiymətləndirilməsi icbari xarakter daşıyır. 2016-2020-ci illər üzrə UNAPF sənədində UNAPF dövrünün sonuncu ilindən əvvəlki ilində yekun qiymətləndirmənin aparılması nəzərdə tutulur. Bu qiymətləndirmədə, xüsusilə, milli inkişaf prioritetlərinə və məqsədlərə göstərilən dəstək, UNAPF Nəticələrinin uyğunluğu, nəticələrə nail olunmada effektivlik və səmərəlilik, nəticələrin dayanıqlılığı qiymətləndiriləcəkdir. UNAPF-nin məğzi olaraq, milli təşkilati və insan potensiallarının real gücləndirilməsində Birləşmiş Millətlər Təşkilatı sisteminin dəstək vermə qabiliyyətinə ayrıca diqqət yetiriləcəkdir. Lazım olduqda, qiymətləndirmə növbəti UNAPF və ondan irəli gələrək ayrı-ayrı təşkilatların Ölkə üzrə Proqramlarının və layihələrinin hazırlanması üçün məlumat mənbəyi olacaqdır.

## 2. QİYMƏTLƏNDİRMƏNİN ÜMUMİ VƏ XÜSUSİ MƏQSƏDLƏRİ VƏ ƏHATƏ DAİRƏSİ

Hazırkı UNAPF qiymətləndirməsinin ***ümumi məqsədi*** bir tərəfdən UNAPF-ın növbəti planlaşdırma dövründə istifadə etmək və BMT-nin Azərbaycandakı əlaqələndirmə işini təkmilləşdirmək üçün əsas nəticələri və öyrənilmiş dərsləri müəyyən etmək, digər tərəfdən isə ölkədə razılaşdırılmış milli hədəf və prioritetlərə münasibətdə hesabatlılığın artırılmasına dəstək göstərməkdir.

UNAPF qiymətləndirməsinin ***xüsusi məqsədləri*** aşağıdakılardır:

I. UNAPF nəticələrinə əsaslanaraq və dəlillərə əsaslanan qiymətləndirmə meyarlarından istifadə edərək mühakimələr yürütməklə, BMT sisteminin milli inkişaf prioritetlərinə töhfəsini qiymətləndirmək (hesabatlılıq).

II. Müəyyən olunan fəaliyyət göstəricilərinin niyə məhz cari səviyyədə olmasını aydınlaşdırmaq, fəaliyyətə şərait yaradan və ya əngəl olan məsələləri üzə çıxarmaq üçün UNCT-nin töhfəsinə təsir göstərmiş amilləri müəyyən etmək (öyrənmə).

III. Növbəti UNAPF dövrü üçün konkret və fəaliyyət yönümlü strateji tövsiyələr təmin etmək üçün keçmişdən və hazırkı əməkdaşlıqdan nəticələr çıxarmaq.

***Əhatə dairəsi***

Bu, hazırkı UNAPF dövrünün (2016-2020) yekun qiymətləndirməsi olmaqla, 2016-cı ildən bu günə qədərki icra dövrünü əhatə edəcək. Qiymətləndirmənin dəlil və nəticələri əsas maraqlı tərəflərin baxışlarını əks etdirəcək.

## 3. QİYMƏTLƏNDİRMƏ MEYARLARI VƏ SUALLAR

UNCT-nin inkişaf nəticələrinə töhfəsi aşağıdakı qiymətləndirmə meyarları qrupu əsasında qiymətləndiriləcək.

**Uyğunluq:** *UNAPF-ın hədəflərinin ölkənin ehtiyacları, milli prioritetləri, ölkənin beynəlxalq və regional öhdəlikləri (o cümlədən insan hüquqları, dayanıqlı inkişaf və ətraf mühitlə bağlı) ilə uzlaşma səviyyəsi:*

- UNAPF nəticələri hazırkı proqram dövrünün əvvəlində müəyyən edilmiş məsələlər, onların səbəbləri və çətinliklər baxımından, habelə milli siyasətlər və strategiyalar kontekstində aktualdırmı?
- Hazırkı UNAPF nə dərəcədə nəticəyönümlü, ardıcıl və məqsədli çərçivə kimi planlaşdırılıb? UNAPF-ın icra təqvimi, resurslar və planlaşdırılan Ölkə Proqramları, layihələr və proqram strategiyalarını nəzərə alaraq, nəticələrin əldə olunması realdırmı?
- UNAPF nəticələri beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və öhdəliklər, BMT sisteminin işini istiqamətləndirən norma və standartlar (o cümlədən CEDAW, CPRD, CRC və s., Azərbaycanın qoşulduğu bütün beynəlxalq ətraf mühit və insan hüquqları sazişləri, digər müvafiq insan hüquqları standartları və qiymətləndirmələr) baxımından aktualdırmı?
- İnsan hüquqları prinsipləri və standartları UNAPF-da nə dərəcədə əksini tapıb və ya təşviq olunub? İnsan hüquqları yanaşması nə dərəcədə və hansı formada insan hüquqları ilə bağlı narahatlıq doğuran məsələlərin UNAPF-a inteqrasiyasının mümkün üsullarından biri kimi əks olunub?
- Gender bərabərliyi və ədalətliliyi konsepsiyaları UNAPF-da nə dərəcədə və hansı formada əks olunub (təyin olunmuş konkret hədəflər və məqsədlər, cins üzrə dezaqreqasiya olunmuş məlumatlar və göstəricilər və s. baxımından)?
- UNAPF özünün milli inkişaf nəticələrinə töhfəsini gücləndirmək üçün ətraf mühitin dayanıqlılığı ilə bağlı prinsiplərdən səmərəli şəkildə istifadə edibmi?
- UNAPF nəticələrin məntiqi əlaqəliliyini təmin etmək və monitorinq və qiymətləndirmə çərçivəsi yaratmaq üçün Nəticə Əsaslı İdarəetmədən adekvat dərəcədə istifadə edibmi? UNAPF-ın nəticələr çərçivəsi yeni ortaya çıxan məsələləri və onların səbəblərini, habelə UNAPF dövründə qarşıya çıxan çətinlikləri nəzərə almaq üçün kifayət qədər uyğunlaşma qabiliyyətinə malik idimi?
- UNAPF-da milli potensialın inkişaf etdirilməsinə adekvat dərəcədə diqqət yetirilibmi?
- UNAPF sənədi BMT-nin təşkilatları və Hökumət qurumları tərəfindən onların fəaliyyətlərinin planlaşdırılmasında, məqsədlərin təyin olunmasında və əməkdaşlıq zamanı istifadə olunubmu?

**Effektivlik**: *UNCT-nin UNAPF-da təsbit olunan nəticələrə verdiyi töhfənin səviyyəsi:*

- UNAPF nəticələrinin milli prioritetlərə nail olunmasına töhfə və UNAPF çərçivəsində əks olunan göstəricilər baxımından reallaşması istiqamətində nə dərəcədə irəliləyiş əldə olunub?

- UNAPF nəticələrinə və milli inkişaf məqsədlərinə doğru irəliləyişə müsbət və ya mənfi töhfə verən amillər hansılardır? Hər hansı gözlənilməyən nəticələr (əgər varsa) milli inkişafa mənfi və ya müsbət formada necə təsir göstərib və onlar nə dərəcədə qabaqcadan proqnozlaşdırılıb və idarə olunub?

- UNAPF milli potensialların (o cümlədən milli səviyyədə icra və institusional quruculuq), siyasi və hüquqi çərçivələrin gücləndirilməsinə və tərəfdaşlıqların qurulmasına nə dərəcədə nail olub?

- UNAPF öz məqsədinə nail olmaq üçün insan hüquqları və gender bərabərliyi ilə bağlı standart və prinsiplərdən (məs. iştirak, ayrı-seçkiliyə yol verməmə, hesabatlılıq və s.) nə dərəcədə istifadə edib və onları təşviq edib?

- UNAPF üç nəticə sahəsi ilə əlaqəli siyasətlərin formalaşdırılmasına və icrasına nə dərəcədə təsir göstərib?

- UNAPF məlumatların cins, yaş, coğrafi yerləşmə və s. üzrə dezaqreqasiyasını təmin etmək üçün məlumatların toplanması və təhlili üzrə potensialı nə dərəcədə gücləndirdi və ayrı-seçkiliyə məruz qalan və əlverişsiz vəziyyətdə olan qurumlara prioritet kimi diqqət yetirilibmi?

- UNCT öz fəaliyyət göstəricilərini yaxşılaşdırmaq üçün tərəfdaşlıq münasibətlərindən (vətəndaş cəmiyyəti, özəl sektor, yerli hökumət, parlament, milli insan hüquqları institutları, beynəlxalq inkişaf tərəfdaşları) nə dərəcədə uğurlu istifadə edib?

**Səmərəlilik**: *nəticələrin adekvat miqdarda resurslarla və minimum əməliyyat xərcləri (maliyyə vəsaitləri, səriştə və təcrübə, vaxt, inzibati xərclər və s.) ilə əldə olunması səviyyəsi*

- UNAPF həm Hökumət, həm də BMT təşkilatlarının hər biri üçün əməliyyat xərclərinin azaldılmasına nə dərəcədə və hansı formada töhfə verib? Əməliyyat xərcləri hansı yollarla daha da azaldıla bilər?
- Nəticələr kifayət qədər aşağı/ən aşağı mümkün xərclərlə əldə olunubmu?
- Təşkilatlar əməliyyat xərclərini azaltmaq və nəticələri gücləndirmək üçün harmonizə edilmiş prosedurlardan nə dərəcədə istifadə edib?
- BMT-nin əlaqələndirici fəaliyyəti əməliyyat xərclərini azaltmış və UNAPF-ın icrasında səmərəliliyi artırmışdırmı?
- UNAPF nəticələri optimallaşdırmaq və səylərin təkrarlanmasını önləmək üçün təşkilatlar arasında nə dərəcədə faktiki sinergiyalar yaradıb və bu istiqamətdə razılaşdırılmış səyləri əks etdirib?

**Dayanıqlılıq:** *İnkişafa dəstək tədbirindən əldə olunan faydaların nə dərəcədə davamlı olması və tədbirlər başa çatandan sonra bu faydaların qalması ehtimalı*:

- UNAPF çərçivəsində əldə olunmuş nəticələr və istifadə olunan strategiyalar nə dərəcədə dayanıqlıdır: 1) milli inkişafa töhfə baxımından və 2) UNAPF-ın ayrı-ayrı BMT təşkilatları arasındakı əməkdaşlıqda yaratdığı əlavə dəyər baxımından.

- UNAPF-ın şərait yaratdığı qarşılıqlı uzlaşma, əməkdaşlıq və /yaxud sinergiyalar nəticələrin dayanıqlılığının artmasına töhfə veribmi?

- Milli potensiallar nə dərəcədə və hansı yollarla gücləndirilib?
- İnsan hüquqları və gender bərabərliyi aspektləri baxımından institusional quruculuq və institusional potensialın gücləndirilməsi nə dərəcədə uğurlu olub?
- UNCT töhfə vermiş olduğu nəticələrin itirilməməsini təmin etmək üçün adekvat risk təhlili aparıbmı və zəruri tədbirlər görübmü? Əldə olunmuş faydalar zaman keçdikcə nə dərəcədə qalır və ya qalmaq ehtimalı var?
- UNAPF milli tərəfdaşlar tərəfindən proqramlara sahibliyin artmasına kömək edibmi?

**Əlaqələndirmə:** *Azərbaycandakı BMT sisteminin bəyan olunan birgə əlavə dəyərinin doğruluğunun qiymətləndirilməsi:*

- BMT təşkilatlarının müqayisəli üstünlükləri (o cümlədən universallıq, bitərəflik, könüllü və qrant xarakterli töhfələr, çoxtərəflilik) xüsusən BMT təşkilatlarının və ölkədə fəaliyyət göstərən digər inkişaf təşkilatlarının xüsusi mandatlarına münasibətdə milli kontekstdə nə dərəcədə və hansı formada istifadə olunub?
- UNAPF milli inkişaf prioritetləri istiqamətində irəliləyiş baxımından BMT-nin proqramları arasında daha yaxşı sinergiyaların əldə olunmasına nə dərəcədə və hansı formada töhfə verib? UNAPF təşkilatlar tərəfindən birgə proqramlaşdırmanı gücləndiribmi və/yaxud konkret birgə proqramlarla nəticələnibmi?
- UNAPF milli inkişaf gündəliyi və UNAPF-ın nəticə sahələri üzrə effektiv tərəfdaşlıqları və strateji ittifaqları (məsələn, Hökumət daxilində, milli tərəfdaşlarla, beynəlxalq maliyyə institutları ilə və digər xarici dəstək qurumları ilə) təşviq edibmi?
- Təşkilatlar tərəfindən dəstəklənən proqramlar UNAPF-ın nəticələrinə nail olmağa kömək etmək baxımından bir-birinə dəstək göstəribmi? Birgə proqramlaşdırma nəticəsində ayrı-ayrı təşkilatlar tərəfindən səmərəlilik və ya proqram dəstəyi gücləndirilibmi?
- Müxtəlif UNAPF tərəfdaşları arasında vəzifə və öhdəliklər aydın bölüşdürülübmü, nəticələrə nail olunmasına kömək edibmi və icra prosesinin gedişində icra mexanizmlərinə əsas etibarilə əməl olunubmu?

Bu əsas suallardan əlavə, qiymətləndirmə üzrə məsləhətçi qiymətləndirmənin ilkin mərhələsində kontekstə uyğun köməkçi suallar hazırlayacaq.

## 4. UNAPF QİYMƏTLƏNDİRMƏSİ ÜÇÜN TƏKLİF OLUNAN QİYMƏTLƏNDİRMƏ METODOLOGİYASI VƏ YANAŞMASI

### *Qiymətləndirmənin mümkünlüyü*

Məntiqi çərçivəyə əsasən, UNAPF-ın müəyyən edilmiş monitorinq və qiymətləndirmə mexanizmləri vasitəsilə məlumat və nəticə göstəriciləri üzrə dezaqreqasiya olunmuş məlumatlar mövcuddur. BMT-nin Ölkə üzrə İdarə Heyəti və Hökumət üç strateji sahə üzrə qruplaşdırılan beş Nəticə üzrə irəliləyişi ölçmək üçün 24 göstərici əsasında UNAPF-ın birgə monitorinqini aparır. Müştərək iş planları BMT-nin Ölkə üzrə İdarə Heyətinin UNAPF-ın nəticələrini konkret, ölçülə bilən, vaxtla məhdudlaşan və xərcləri müəyyənləşdirilən məhsullara çevirməklə UNAPF-ı fəaliyyətə daxil etmək və illik əsasda məhsul

göstəriciləri və büdcə çərçivəsinə nəzərən hesabat vermək üçün Nəticə Qrupları vasitəsilə istifadə etdiyi alətlərdir. UNAPF-ın yüksək səviyyəli İstiqamətləndirici Komitəsi hər il UNAPF-ın icrasında əldə olunan irəliləyişi qiymətləndirmək, nailiyyətləri müəyyən etmək, öyrənilmiş dərslərə və qarşıdakı il üçün prioritetlərə nəzər salmaq üçün ildə bir dəfə UNAPF üzrə Müştərək İllik İcmal təşkil edir. Nəticələr İllik İcra hesabatlarında ümumiləşdirilir. Bu hesabatda əsas nailiyyətlər, öyrənilmiş dərslər və icra zamanı ortaya çıxan çətinliklər təqdim olunur.

***Metodologiya:***

Qiymətləndirmə üçün qarışıq təhlil metodlarından istifadə olunacaq, ən məqsədəuyğun keyfiyyət və kəmiyyət yanaşmaları, məlumat növləri və məlumat təhlili metodları tətbiq olunacaq. Məlumatların maksimum doğruluğunu, etibarlılığını (keyfiyyət) təmin etmək üçün qiymətləndirmə üzrə məsləhətçi müxtəlif məlumat mənbələrinin çarpaz yoxlanmasını təmin edəcək. Bundan əlavə, əsas maraqlı tərəfləri cəlb etmək və qiymətləndirməyə sahibliyi təşviq etmək üçün iştirakçılığa və istifadəyə köklənən yanaşma qəbul edilməlidir.

Qiymətləndirmə üzrə məsləhətçi yekun nəticələrə gəlmək və gələcəyə yönələn tövsiyələr hazırlamaq üçün əsas təşkil edən təhlil çərçivələrini (yəni, qiymətləndirmə meyarları, UNAPF-ın nəticələr çərçivəsi, "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyası) əsas tutaraq, UNCT-nin ümumi fəaliyyət göstəricilərini qiymətləndirəcək və UNAPF-ın hədəflərinə nail olunub-olmadığını və hansı nəticələrin əldə olunduğunu aydınlaşdıracaq[53].

Məsləhətçi yuxarıdakı meyarlardan istifadə edərək fəaliyyət göstəricilərini qiymətləndirərkən, bu fəaliyyət göstəricilərinə gətirib çıxaran müxtəlif amilləri müəyyən edəcək. Bu, UNCT-nin hazırkı fəaliyyət səviyyəsinə gətirib çıxaran amillərlə bağlı nəticələr çıxarmağa kömək edəcək. Bu amillər özlüyündə UNAPF-ın nəticələri ilə üst-üstə düşdükdə, onlar həm nəticə, həm də əlverişli amillər hesab edilməlidir.

UNAPF qiymətləndirməsi üçün məsləhətçi seçildikdən sonra, konkret qiymətləndirmə strategiyalarını, məlumat toplama üsullarını və tələb olunan qiymətləndirmə alətlərini müəyyən etmək üçün geniş hazırlıq işi aparılmalıdır. Buna müvafiq olaraq, qiymətləndirmə planı hazırlanmalıdır. İlkin mərhələ zamanı qiymətləndirmə üzrə məsləhətçi UNAPF-ın (2016-2020) nəticə sahələri üzrə dəlillər təmin etməyə yönələn müfəssəl metodologiya təklif edəcək. İlkin hesabatda məlumat mənbələri, məlumatların toplanması və təhlili metodları, göstəricilər, çarpaz yoxlama planı, müqayisəli təhlil faktorları və təsdiqetmə strategiyası təsvir edilməli, habelə onun müxtəlif maraqlı tərəflərin baxışlarını necə daxil etməyi planlaşdırdığı öz əksini tapmalıdır. Bu metodlardan istifadənin üstün və zəif cəhətləri də aydın şəkildə izah olunmalıdır.

<u>Məlumatların toplanması -</u> UNAPF qiymətləndirməsi üçün qarışıq metodlar yanaşmasından istifadə ediləcək. Buraya istinad materiallarının (UNAPF planlaması, icmalı və hesabat sənədləri, qiymətləndirmə hesabatları (o cümlədən layihələr üzrə və milli tərəfdaşlar tərəfindən verilən hesabatlar), strategiya sənədləri, milli planlar və siyasətlər və müvafiq proqram və layihə sənədləri)) masaüstü təhlili, maraqlı tərəflərin müvafiq qrupları (hökumət rəsmiləri, donorlar, vətəndaş cəmiyyəti təşkilatları, özəl sektor və uyğun olduqda benefisiarlar) ilə müsahibələr, yerlərə səfərlər və sorğular) daxil ola bilər.

<u>Maraqlı tərəflərin iştirakı</u> - UNAPF qiymətləndirməsi qiymətləndirmənin müxtəlif mərhələlərində əsas maraqlı tərəfləri cəlb (məsələn, hökumət, vətəndaş cəmiyyəti təşkilatları, benefisiar qruplar və donorlar) etməklə birgə əməkdaşlıq fonunda keçiriləcək.

[53] Qiymətləndirmə üzrə mütəxəssis Strateji Yol Xəritələrini təhlil edib və bir neçə bölmədə onlara istinad edib.

<u>Təsdiqetmə və məlumatların təhlili</u> - Aşkar olunan bütün nəticələr dəlillərə söykənməlidir. Məlumatların doğruluğunu təmin etmək üçün çarpaz yoxlamadan istifadə ediləcək. Prioritet kimi müəyyən olunan dəstək tədbirləri ilə bağlı aşkar olunmuş məhdudiyyətləri, öyrənilmiş dərsləri və qarşıya çıxan çətinlikləri əhatə edən, həm UNCT, həm də ayrı-ayrı təşkilatlara yönələn konkret tövsiyələri irəli sürən hesabat hazırlanacaq.

Ümumilikdə, qiymətləndirmə yanaşması BMT-nin Qiymətləndirmə Qrupunun (UNEG) insan hüquqları və gender bərabərliyinin inteqrasiyası ilə bağlı təlimatlarına, inkişaf qiymətləndirməsi ilə bağlı norma və standartlarına və beynəlxalq prinsiplərə uyğun olmalıdır. Gender bərabərliyi üzrə BMT-nin Ümumsistem Fəaliyyət Planına (UN-SWAP) uyğun olaraq, məlumat toplama üsulları və prosesi gender aspektlərini nəzərə almalıdır. Yekun hesabat UNEG-in qiymətləndirmə hesabatlarının keyfiyyət üzrə yaddaş siyahısına uyğun olmalı, qiymətləndirmə prosesində maraqlı tərəflərin inklüziv iştirakının necə təmin olunduğunu, gender bərabərliyi ilə bağlı məlumatların əldə olunmasına və ya bu məsələlərin həllinə mane olan hər hansı problemləri əks etdirməlidir. Məlumatlar cins və yaş qrupu üzrə, habelə mümkün dərəcədə kontekst üçün uyğun olan digər bərabərlik aspektləri üzrə sistematik şəkildə dezaqreqasiya olunmalıdır. Məlumatların toplanması, işlənməsi və istifadəsi zamanı Etik Kodeksə, insan hüquqlarına əsaslanan və gender aspektlərini nəzərə alan yanaşmaya əməletmə ilkin hesabatda aydın şəkildə öz əksini tapmalıdır.

***Proseslər:***

Qiymətləndirmə üç mərhələdə aparılacaq:

***1-ci mərhələ. Hazırlıq:***

i. Qiymətləndirmə üzrə Məsləhətçinin müəyyən edilməsi və seçilməsi: UNAPF-ın qiymətləndirilməsi üçün UNCT Hökumətlə yaxından əlaqələndirmə və məsləhətləşmə fonunda adekvat məsləhətçini birlikdə müəyyən edəcək və seçəcək. BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi ölkə və ya regiondan məsləhətçilərin CV-lərinin cəlb olunması prosesinə UNCT ilə birlikdə prosesə rəhbərlik edəcək.

ii. İstinad materiallarının toplanması: BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi UNCT-nin üzvləri ilə yaxından məsləhətləşmə fonunda UNAPF-ın qiymətləndirilməsi üçün faydalı olan arayış materiallarının, sənədlərin və hesabatların siyahısını tərtib edəcək.

***2-ci mərhələ. Məlumat toplama işlərinin aparılması və qiymətləndirmə hesabatlarının hazırlanması:***

i. <u>İlkin hesabatın hazırlanması:</u> Qiymətləndirmə üzrə məsləhətçi 25 səhifədən və 20 min sözdən artıq (Əlavələr çıxılmaqla) olmayan ilkin hesabat hazırlayacaq.

ii. <u>İstinad materiallarının masaüstü təhlili:</u> Qiymətləndirmə üzrə məsləhətçi istinad sənədlərini, hesabatlarını və təqdim olunmuş digər məlumatları nəzərdən keçirəcək.

iii. <u>Əsas məlumatların toplanması işi</u>: Qiymətləndirmə üzrə məsləhətçi qiymətləndirmə planına uyğun olaraq məlumat toplama işlərini həyata keçirəcək. O, maraqlı tərəflərlə qabaqcadan razılaşdırılmış müsahibələr aparacaq və yerlərə baş çəkəcək. Məlumat toplama işləri başa çatandan sonra, qiymətləndirmə üzrə məsləhətçinin rəhbərliyi altında əsas maraqlı tərəflərin nümayəndələrinin iştirakı ilə, ilkin nəticələrin təqdim olunması və maraqlı tərəflərin rəylərinin alınması üçün görüş keçiriləcək.

iv. Məlumatların təhlili və hesabatvermə: Məsləhətçi toplanmış bütün məlumatlar əsasında məlumatların daha dərin təhlilini aparacaq və əsas məlumatların toplanması və təhlili işləri başa çatandan sonra, UNAPF-ın qiymətləndirilməsi üçün qiymətləndirmə hesabatının layihəsini hazırlayacaq.

v. Hesabatın layihəsinə baxış və hesabatın yekun versiyasının hazırlanması: UNAPF üzrə hesabatın layihəsi faktlarla bağlı düzəlişlərin edilməsi, həmçinin rəylərin alınması üçün əsas maraqlı tərəflərə göndəriləcək. Məsləhətçi rəylərin necə nəzərə alındığını əks etdirən yoxlama tarixçəsi hazırlayacaq və UNAPF üzrə qiymətləndirmə hesabatını yekunlaşdıracaq.

***3-cü mərhələ. Növbəti tədbirlər:***

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi ilə birlikdə UNCT özlərinin müvafiq prosedur və mandatlarına uyğun olaraq, növbəti tədbirləri həyata keçirəcəklər.

Buraya UNAPF qiymətləndirməsi kontekstində aşağıdakılar daxildir:

1. Qiymətləndirmə nəticələrinin və tövsiyələrinin yayılması;
2. Rəhbərliyinin qiymətləndirmədə təqdim olunan tövsiyələrlə bağlı cavab tədbirlərinin təsdiq olunması. Buraya tövsiyələrə uyğun olaraq növbəti tədbirlərin həyata keçirilməsini öhdəyə götürmək, habelə növbəti tədbirlər üçün cavabdeh şəxsləri müəyyən etmək daxildir.
3. Bütün səviyyələrdə strateji planlaşdırma, öyrənmə, təşviqat və qərarların qəbuluna töhfə vermək məqsədilə UNAPF qiymətləndirməsindən öyrənilmiş dərslər müəyyən ediləcək və yayılacaq; onlar növbəti UNAPF dövrünün planlaşdırılmasında istifadə ediləcək, zərurət olduqda ictimaiyyətlə və BMT sistemi ilə bölüşüləcək.

Məsləhətçiliyin 35 iş günü (yerlərdə 10 iş günü və ofisdə 25 iş günü) davam etməsi gözlənilir. Məsləhətçilik 13 may 2019-cu il tarixində başlayacaq və 30 iyul 2019-cu il tarixində yekun hesabatın təqdim olunması ilə başa çatmalıdır.

## 4. İDARƏETMƏ PROSESİ

Qiymətləndirmə prosesinə istiqamət vermək üçün UNCT və Hökumətin nümayəndələrindən ibarət **Qiymətləndirmə üzrə İdarəetmə və Nəzarət Şurası** yaradılacaq. UNAPF üzrə qiymətləndirmə hesabatının hazırlanması, hesabatın keyfiyyəti və onun Qiymətləndirmə Şurasına vaxtında təqdim olumasına görə ümumi cavabdehlik Qiymətləndirmə üzrə Məsləhətçinin üzərinə düşür.

Qiymətləndirmə Şurası aşağıdakıları təmin etməlidir: 1) qiymətləndirmə prosesinin UNEG normalarına və Etik Qaydalarına cavab verməsi, 2) qiymətləndirmə nəticələrinin aktual olması, tövsiyələrinin isə icra oluna bilən olması, 3) qiymətləndirmə nəticələrinin yayılması, istifadə və öyrənmə üçün əlçatan olması.

**Qiymətləndirmə üzrə Metodiki Qrup (QMQ)** Qiymətləndirmə Şurasının rəhbərliyi və nəzarəti altında yaradılacaq və UNCT üzvlərindən və əsas maraqlı tərəflərdən (milli hökumət və qeyri-hökumət tərəfdaşları) ibarət olacaq. QMQ qiymətləndirmənin strukturu ilə bağlı hesabatı oxuyacaq və rəy verəcək, məsləhətçinin məlumat mənbələrinə çıxış əldə etməsinə kömək edəcək, qiymətləndirmənin əsas məhsulları, xüsusən qiymətləndirmə hesabatı barədə rəy verəcəkdir.

UNAPF üzrə qiymətləndirmə ilə bağlı sifariş və nəzarət Qiymətləndirmə Şurası tərəfindən təmin edilsə də, gündəlik idarəetmə Rezident Əlaqələndiricinin Ofisi vasitəsilə təmin ediləcək.

## 5. BÜDCƏ

UNAPF üzrə qiymətləndirmənin xərcləri UNCT daxilində əldə olunmuş razılaşmaya uyğun olaraq, bütün maraqlı tərəflər, o cümlədən BMT-nin Azərbaycandakı təşkilatları və Rezident Əlaqələndiricinin Ofisi tərəfindən birlikdə qarşılanacaq. Qiymətləndirmənin dəstəklənməsi üçün ilkin maliyyələşməni Əlaqələndirmə Fondu təmin edəcək.

Məsləhətçiyə xidmət haqqı və ezamiyyə xərclərindən (BMT-nin müəyyən etdiyi hədləri keçməmək şərtilə) ibarət birdəfəlik məbləğ ödəniləcək. Məsləhətçi maliyyə təklifində birdəfəlik məbləği və xərclərin bölgüsünü təmin etməlidir.

Məsləhətçinin ödənişi iki hissədə həyata keçiriləcək:

- 20% - BMT təşkilatları və maraqlı tərəflərin qeydlərini əks etdirən Qiymətləndirmə Planı və İlkin Hesabat təqdim olunandan sonra; və
- 80% - Yekun Hesabat təqdim edildikdən sonra.

## 6. GÖZLƏNİLƏN MƏHSULLAR

Qiymətləndirmə üzrə məsləhətçinin aşağıdakı məhsulları hazırlaması gözlənilir:

- <u>İlkin hesabat</u>. 25 səhifədən, 20 min sözdən (əlavələri çıxmaqla) artıq olmamalı və aşağıdakıları əks etdirməlidir: məsləhətçinin qiymətləndiriləcək məsələlər (əhatə dairəsi) barədə anlayışı, UNAPF üzrə qiymətləndirmənin cavab axtardığı suallar və qiymətləndirmənin konteksti barədə məsləhətçinin anlayışı; maraqlı tərəflərin əhatəli təhlili; Texniki tapşırıqdan kənaraçıxma ilə bağlı hər hansı təkliflər; seçilmiş təhlil meyarlarını göstərən qiymətləndirmə çərçivəsi, əsas və köməkçi suallar, göstəricilər; təklif olunan məlumat mənbələri; metodologiya, o cümlədən gender təhlili və çarpaz yoxlama ilə bağlı təfərrüatlar; qiymətləndirmənin aparılması üçün istifadə ediləcək məlumat toplama və təhlil alətləri; seçilmiş məlumat toplama və təhlil metodları ilə bağlı hər hansı məhdudiyyətlər və onların necə aradan qaldırılacağı; müxtəlif maraqlı tərəflərin, o cümlədən həssas və təcrid olunmuş qrupların baxışlarının qiymətləndirmə zamanı necə nəzərə alınacağının izah olunması; sahə işləri ilə bağlı plan, qiymətləndirmənin icra təqvimi, qiymətləndirmə nəticələrinin yayılması üzrə ilkin strategiya. Məsləhətçi hər hansı potensial etik məsələləri və yanaşmaları, habelə qiymətləndirmə prosesinin etik icmalı və nəzarəti ilə bağlı prosedurları aydın müəyyən etməlidir.
- <u>İlkin nəticələr barədə təqdimat</u>. Əsas maraqlı tərəflərin görüşündə təqdim olunur;
- <u>Hesabatın ilkin layihəsi</u>. Maraqlı tərəflərə təqdim olunur və faktlarla bağlı düzəlişlər edilir.
- <u>Yekun hesabat</u>. Aşağıdakı struktur UNAPF qiymətləndirməsi üçün standart struktur kimi çıxış edir. İlkin mərhələdə bu struktur nəzərdən keçirilməli, qiymətləndirmənin konkret əhatə dairəsi və

diqqət mərkəzində olan məsələlər nəzərə alınmalı, UNAPF üzrə qiymətləndirmə hesabatının müfəssəl strukturu ilkin hesabata daxil edilməlidir.

- 1-ci bölmə: Giriş (məqsədlər, əhatə dairəsi, metodologiya, məhdudiyyətlər)
- 2-ci bölmə: Milli inkişaf konteksti
- 3-cü bölmə: Qiymətləndirmənin aşkar etdiyi faktlar (UNAPF nəticələrinə müvafiq olaraq; nəticələrin hər biri qiymətləndirmə meyarları əsasında təhlil olunur)
- 4-cü bölmə: Yekun nəticələr və tövsiyələr

Yekun hesabata Xülasə daxil olmalı və qısa olmalıdır (əlavələr çıxılmaqla maksimum 50-75 səhifə). Metodologiyanın və təhlilinin konteksti, proqramı və ya əhatəli aspektləri barədə daha müfəssəl məlumatlar əlavələrdə yerləşdiriləcək. Hesabat UNEG təlimatlarına (Qiymətləndirmə hesabatları üçün keyfiyyət üzrə yaddaş siyahısı) uyğun olaraq hazırlanacaq.

## 7. MƏSLƏHƏTÇİNİN İXTİSAS UYĞUNLUĞU

- İnkişaf tədqiqatları, iqtisadiyyat, beynəlxalq münasibətlər və ya əlaqəli sahədə yüksək ali təhsil dərəcəsi (Magistr və ya ekvivalenti); Fəlsəfə Doktoru dərəcəsi üstünlük hesab edilir.
- Müvafiq sahədə 10 illik peşəkar təcrübə, o cümlədən beynəlxalq təşkilatlarla müvafiq sahələrdə proqram və/yaxud nəticə səviyyələrində qiymətləndirmə və/yaxud təhlillərdə iştirak arzuolunandır.
- BMT sistemi və BMT-nin ölkələr üzrə ümumi proqramlaşdırma prosesləri barədə yüksək səviyyədə məlumatlılıq;
- Xüsusilə aşağıdakı sahələrdə ixtisaslaşmış təcrübə və/yaxud metodoloji/texniki biliklər, o cümlədən müəyyən konkret məlumat toplama və təhlil bacarıqları: proqramlaşdırmada insan hüquqlarına əsaslanan yanaşma barədə biliklər; gender aspektləri; ətraf mühitin dayanıqlılığı, nəticə əsaslı idarəetmə (RBM) prinsipləri; məntiqi modelləşdirmə/məntiqi çərçivə əsaslı təhlil; kəmiyyət və keyfiyyət əsaslı məlumatların toplanması və təhlili; birgə iştirak yanaşmaları;
- Orta gəlirli ölkələrin inkişaf məsələləri ilə bağlı biliklər üstünlükdür;
- İngilis dilində mükəmməl yazı və danışıq bacarıqları; Rus dili biliyi üstünlükdür;
- Yüksək səviyyədə hesabat yazmaq bacarıqları, habelə kommunikasiya və müsahibə bacarıqları.

## 8. QİYMƏTLƏNDİRMƏ TƏQVİMİ

Qiymətləndirmə aşağıdakı qiymətləndirmə təqvimində təqdim olunan mərhələlərə və nəticələrə uyğun olaraq aparılmalıdır:

| 1-ci mərhələ: Hazırlıq | Cavabdeh tərəflər | | Təxmini müddət | |
|---|---|---|---|---|
| | **Əsas tərəf** | **Digər tərəflər** | **Başlanğıc** | **Son** |
| 1. Texniki Tapşırıq hazırlanır. | **BMT-nin R.Ə.O.** | **UNCT, Hökumət** | **1 aprel** | **19 aprel** |

| | | | | |
|---|---|---|---|---|
| 2. Qiymətləndirmə üzrə İdarəetmə və Nəzarət Şurası və Qiymətləndirmə üzrə Metodiki Qrup yaradılır | **BMT-nin R.Ə.O.** | **UNCT, Hökumət, digər maraqlı tərəflər** | **3 may** | **17 may** |
| <u>3. İxtisaslı namizədlərin seçilməsi:</u><br>Potensial namizədlərin CV-ləri BMT-nin Rezident Əlaqələndiricisi/UNCT-ə təqdim olunur və ümumi razılıq əldə olunandan sonra, ilkin olaraq seçilmiş namizədlərdən texniki təklif və maliyyə təkliflərini göndərmələri xahiş edilir | **Qiymətləndirmə Şurası** | **QMQ** | **16 may** | **26 may** |
| <u>4. Qiymətləndirmə üzrə Məsləhətçi ilə müqavilə bağlamaq:</u> Ən ixtisaslı namizəd müəyyən edildikdən sonra, Rezident Əlaqələndiricinin Ofisi prosedurlara və tələblərə uyğun olaraq, BMTİP-in Satınalma Bölməsinə müqavilə sifariş etmək üçün zəruri tədbirləri görür. | **BMT-nin R.Ə.O.** | | **27 may** | **31 may** |
| **2-ci mərhələ: Tədqiqatın aparılması** | **Cavabdeh tərəflər** | | **Təxmini müddət** | |
| | **Əsas tərəf** | **Digər** | **Başlanğıc** | **Son** |
| <u>1. Qiymətləndirmə üzrə Məsləhətçinin məlumatlandırılması</u>. Məsləhətçi bütün müvafiq sənədlərlə (o cümlədən UNEG-in norma və standartları, UNEG-in xarici qiymətləndirmələr üçün Davranış Kodeksi, proqram sənədləri, maraqlı tərəflərin siyahısı və s.) təmin olunur. | **BMT-nin R.Ə.O.** | **UNCT, QMQ** | **3 iyun** | **5 iyun** |
| *Ofisdə (5 gün)*<br><u>2. İlkin hesabat:</u> Qiymətləndirmə üzrə Məsləhətçi qiymətləndirmənin ümumi əhatə dairəsini, yanaşmasını, tərtibatını və vaxt qrafikini daha da dəqiqləşdirən və qiymətləndirmə metodologiyasını ətraflı təsvir edən İlkin Hesabat hazırlayır və təqdim edir. | **Qiymətləndirmə üzrə məsləhətçi** | **UNCT, QMQ** | **6 iyun** | **10 iyun** |
| *Qiymətləndirmə Şurası və QMQ hesabata baxıb rəy verir.*<br>*İlkin hesabata baxış və onun təsdiqi* | | | 11 iyun | 17 iyun |
| *Ofisdə (7 gün)*<br><u>3. Masaüstü baxış:</u> Məsləhətçi BMT-nin təşkilatları tərəfindən təqdim olunan materialları, Aralıq İcmal Hesabatının, qiymətləndirmələrin, aralıq icra təhlillərinin nəticələrini, UDİ, CEDAW, CRC və digər sazişlərin tövsiyələrini və s. nəzərdən keçirir. | **Qiymətləndirmə üzrə məsləhətçi** | **BMT-nin R.Ə.O., UNCT, QMQ** | **11 iyun** | **21 iyun** |
| *Yerlərdə (9 gün)*<br><u>4. Məlumatların toplanması:</u> Qiymətləndirmə üzrə məsləhətçi İlkin Hesabatda razılaşdırılmış müxtəlif məlumat toplama üsullarından (məsələn, müşahidə, müsahibələr, fokus qrupları və sorğular və s.) istifadə edərək məlumatlar toplayır. Müvafiq maraqlı tərəflər və müxtəlif BMT təşkilatları məlumatlara çıxış imkanının təmin olunmasına köməklik göstərir və bütün zəruri texniki və təşkilati dəstəyi təmin edir. | **Qiymətləndirmə üzrə məsləhətçi** | **Qiymətləndirmə Şurası, BMT-nin R.Ə.O., UNCT, ERG** | **24 iyun** | **2 iyul** |

| | | | | |
|---|---|---|---|---|
| *Yerlərdə (1 gün)*<br>5. <u>İlkin nəticələr:</u> Qiymətləndirmə üzrə Məsləhətçi qiymətləndirmənin ilkin nəticələrini UNCT və Rezident Əlaqələndiriciyə və digər maraqlı tərəflərə təqdim edir və onların rəyi alınır. | **Qiymətləndirmə üzrə məsləhətçi** | **Qiymətləndirmə Şurası, BMT-nin R.Ə.O., UNCT, QMQ** | **3 iyul** | **3 iyul** |
| *Ofisdə (10 gün)*<br>6. <u>Hesabatvermə:</u> Qiymətləndirmə üzrə Məsləhətçi UNEG-in Norma və Standartlarına uyğun olaraq hesabat hazırlayır. Hesabat məntiqi şəkildə strukturlaşdırılmalı, dəlillərə əsaslanan nəticələri, yekun nəticələri, öyrənilmiş dərsləri və tövsiyələri əks etdirməlidir. | **Qiymətləndirmə üzrə məsləhətçi** | **Qiymətləndirmə Şurası, BMT-nin R.Ə.O., UNCT, ERG** | **4 iyul** | **14 iyul** |
| *Qiymətləndirmə Şurası və QMQ hesabata baxıb rəy verir.* | | | *15 iyul* | *30 iyul* |
| *Ofisdə (3 gün)*<br>7. Qiymətləndirmə üzrə məsləhətçi rəylər əsasında yekun hesabat hazırlayır. | **Qiymətləndirmə üzrə məsləhətçi** | **Qiymətləndirmə Şurası, BMT-nin R.Ə.O., UNCT, QMQ** | | **10 avqust** |
| **3-cü mərhələ - Növbəti tədbirlər** | **Cavabdeh tərəflər** | | **Təxmini müddət** | |
| | **Əsas tərəf** | **Digər** | **Başlanğıc** | **Son** |
| 1. <u>Rəhbərliyin qiymətləndirmə ilə bağlı cavab sənədinin hazırlanması:</u> Rəhbərliyin cavab sənədində qiymətləndirmə nəticələri və tövsiyələri ilə bağlı UNCT-nin görəcəyi razılaşdırılmış tədbirlər öz əksini tapır. Rəhbərliyin qiymətləndirmə ilə bağlı cavab sənədi olaraq qiymətləndirmə nəticələri əldə olunduqdan sonra iki ay ərzində dərc olunmalı və BMT-nin İnkişaf Əməliyyatları üzrə Əlaqələndirmə Ofisinə (DOCO) və rəhbərliyin cavabı ilə bağlı təlimatla uyğun olaraq digər qurumlara təqdim olunmalıdır. | **Qiymətləndirmə Şurası** | **QMQ** | **10 avqust** | **20 avqust** |
| 2. <u>Qiymətləndirmə nəticələrinin yayılması:</u> Hesabat daxili və kənar maraqlı tərəflərə, tərəfdaşlara, donorlara və digər maraqlı tərəflərlə ictimaiyyətə açıq şəkildə bölüşülür. Qiymətləndirmə nəticələrinin həssas və təcrid olunmuş vəziyyətdə olan qruplara çatması və ya onlar üçün əlçatan olması üçün xüsusi tədbirlər görülməlidir. Hesabat BMT-nin veb saytında da dərc olunacaq və Baş Katibin Müavininə təqdim olunacaq. | **Qiymətləndirmə Şurası** | **Qiymətləndirmə üzrə Metodiki Qrup** | **Avqust** | **Sentyabr** |
| 3. <u>Rəhbərliyin cavab tədbirlərinin icrası ilə bağlı növbəti işlər</u><br>Bu tədbir normal qiymətləndirmə prosesi başa çatdıqdan sonra həyata keçirilir və adətən UNCT tərəfindən və UNAPF üzrə digər maraqlı tərəflər tərəfindən illik planlaşdırma və icmal prosesləri çərçivəsində icra olunur. | **BMT-nin R.Ə.O.** | **UNCT, Hökumət, digər maraqlı tərəflər** | | |

# ƏLAVƏ 2: UNAPF NƏTICƏ QRUPLARI ILƏ GÖRÜŞLƏR ÜÇÜN SUALLARIN SIYAHISI VƏ GÜNDƏLIKLƏR

**2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı - Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi**
**-**
**Qiymətləndirmə**

## UNAPF Nəticə Qruplarının görüşləri üçün sualların siyahısı

## Uyğunluq, strateji mövqe, tərtibat

1. **UNAPF-ın milli siyasət və strategiyalara münasibətdə mövqeyi nə dərəcədə stratejidir?**
   a. Zəhmət olmasa, **1-dən (ən aşağı) 5-dək (ən yüksək)** qiymət verin; və
   b. Verdiyiniz qiyməti əsaslandırın.

2. **UNAPF-ın prioritetləri/nəticələri 2016-2019-cu illər ərzində milli prioritetlərə/ehtiyaclara uyğunluğunu qoruyub saxlayıbmı?**
   a. Bəli/Xeyr
   b. Necə? Zəhmət olmasa, izah edin.
   c. Hər hansı problemlər ortaya çıxırmı?

3. **UNAPF-ın nəticələri beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları ilə bağlı öhdəliklər, norma və standartlara münasibətdə uyğunluğunu saxlayıbmı?**
   a. Bəli/Xeyr
   b. Necə? Zəhmət olmasa, izah edin.

4. **Hazırkı UNAPF nə dərəcədə nəticəyönümlü, ardıcıl, reallığa uyğun və spesifik çərçivə kimi tərtib olunub** *(nəticələr və göstəricilər "SMART" (spesifik, ölçülə bilən, əldə oluna bilən, nəticəyönümlü və vaxtla məhdudlaşan) meyarlarına cavab verirmi)?*

   a. Zəhmət olmasa, **1-dən (ən aşağı) 5-dək (ən yüksək)** qiymət verin; və
   b. Verdiyiniz qiyməti əsaslandırın.

5. **UNAPF nəticələrinin tərtib olunma üsulu BMT-nin töhfəsini *əks etdirməyə* imkan verirmi?**
   a. Bəli/Xeyr
   b. Necə? Zəhmət olmasa, izah edin.

6. **Növbəti UNAPF sənədində nələri təkmilləşdirmək məqsədəuyğundur?**

7. **DİM-lər UNAPF-ın növbəti dövrünə necə daxil edilə bilər?**

## Effektivlik:

1. **UNAPF nəticələrinin milli prioritetlərə nail olunmasına töhfə kimi reallaşdırılması istiqamətində nə dərəcədə irəliləyiş əldə olunub?**
   a. Zəhmət olmasa, konkret nümunələr göstərin.

2. **UNAPF nəticələrinə doğru irəliləyişə müsbət və ya mənfi töhfə vermiş əsas amillər hansılardır?**
    a. Zəhmət olmasa, konkret nümunələr göstərin.

3. **UNAPF milli potensialın, siyasət və qanunvericilik çərçivələrin gücləndirilməsinə nə dərəcədə nail olub?**
    a. Zəhmət olmasa, **1-dən (ən aşağı) 5-dək (ən yüksək)** qiymət verin; və
    b. Verdiyiniz qiyməti əsaslandırın.

4. **UNAPF məlumatların toplanması və təhlili ilə bağlı bacarıqları nə dərəcədə gücləndirib?**

5. **Həssas vəziyyətdə olan qruplara prioritet qaydada diqqət yetirilibmi?**
    a. Bəli/Xeyr
    b. Zəhmət olmasa, konkret nümunələr göstərin.

6. **Büdcə ayırmaları və resursların cəlb olunması ilə əlaqəli çətinliklər və imkanlar hansılardır və onlar gözlənilən nəticələrin əldə olunmasına necə təsir göstərə bilər?**

7. **Növbəti UNAPF sənədində effektivliyi necə artırmaq olar?**

## Əlaqələndirmə:

1. **Milli tərəfdaşlar UNAPF sayəsində BMT təşkilatlarının müqayisəli üstünlükləri və əlavə dəyərindən yararlanıbmı?**
    a. Bəli/Xeyr
    b. Zəhmət olmasa, konkret nümunələr göstərin.

2. **UNAPF BMT təşkilatlarının proqramları arasında daha yaxşı sinergiyalara nail olunmasına töhfə veribmi? UNAPF BMT təşkilatları tərəfindən birgə proqramlaşdırmanı gücləndiribmi və ya konkret birgə proqramlarla nəticələnibmi?**
    a. Bəli/Xeyr
    b. Zəhmət olmasa, konkret nümunələr göstərin.

3. **Mövcud əlaqələndirmə mexanizmləri, o cümlədən** *UNAPF üzrə İstiqamətləndirici Komitə, Nəticə Qrupları və Tematik Qruplar (İnsan hüquqları, Gender, Kommunikasiya, Monitorinq və qiymətləndirmə)* **nəticələrin əldə olunması, monitorinq, hesabatvermə və müştərək iş planının hazırlanmasında effektivliyi artırmaq üçün adekvatdırmı?**
    a. Bəli/Xeyr
    b. Necə? Zəhmət olmasa, izah edin.

4. **UNAPF nəticə sahələri çərçivəsində səmərəli tərəfdaşlıqları və strateji ittifaqları (məs. hökumət, parlament, yerli icra hakimiyyətləri, vətəndaş cəmiyyəti, milli insan hüquqları institutları, inkişaf tərəfdaşları, beynəlxalq maliyyə institutları və özəl sektorla) yaxşılaşdırıbmı?**
    a. Bəli/Xeyr
    b. Zəhmət olmasa, konkret nümunələr göstərin.

5. **Növbəti UNAPF sənədində əlaqələndirməni necə yaxşılaşdırmaq olar?**

## Dayanıqlılıq:

1. **UNAPF-ın faydalarının zaman keçdikcə milli tərəfdaşlar və həmkar qurumlar tərəfindən qorunub saxlanması ehtimalı nə qədər yüksəkdir?**

2. **UNAPF çərçivəsində nümunəvi təcrübələr/proqramlar milli tərəfdaşlar tərəfindən təkrarlanıbmı/genişləndirilibmi?**

3. **UNAPF tərəfdaşları arasındakı qarşılıqlı uzlaşma, əməkdaşlıq və /yaxud sinergiyalar nəticələrin dayanıqlılığının artmasına töhfə veribmi?**
   a. Bəli/Xeyr
   b. Zəhmət olmasa, konkret nümunələr göstərin.

4. **Milli potensiallar nə dərəcədə və hansı formada gücləndirilib?**

   a. Zəhmət olmasa, **1-dən (ən aşağı) 5-dək (ən yüksək)** qiymət verin; və
   b. Zəhmət olmasa, qiyməti əsaslandırmaq üçün konkret nümunələr göstərin.

# BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi üzrə Qiymətləndirmə

## Birinci Nəticə Qrupu
## Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi

**Cümə axşamı, 11 iyul 2019**
**10:00-12:00**

JW Marriott Absheron Hotel, Xırdalan Zalı
(Ünvan: 674 Azadliq Square, Baku 1000, Tel: (012) 499 88 88).

*Aparıcı fasilitator:* **Kristian Privat** (Qiymətləndirmə üzrə məsləhətçi)
*Köməkçi fasilitatorlar*: **Rahim Saatov** (yerli ekspert)
**Gülər Fətəli** (Məlumatların idarə edilməsi, nəticələrin monitorinqi və hesabatı üzrə Əlaqələndirici, Rezident Əlaqələndiricinin Ofisi)

### Gündəlik

| # | Vaxt | Bənd |
|---|---|---|
| 1 | 9:30-10:00 | Qeydiyyat və çay-qəhvə ikramı |
| 2 | 10:00-10:15 | **Giriş (15 dəqiqə)**<br>Açılış çıxışları<br>UNAPF üzrə qiymətləndirmə barədə qısa məlumat<br>İştirakçıların təqdim olunması |
| 3 | 10:15-10:20 | **Metodologiyanın izahı (5 dəq)** |
| 4 | 10:20-11:10 | **Fərdi çalışma (10 dəq) və Qrup işi (40 dəqiqə)**<br>4 Qiymətləndirmə kriteriyası üzrə<br>• Uyğunluq, strateji mövqe, tərtibat<br>• Effektivlik<br>• Dayanıqlılıq<br>• Əlaqələndirmə |
| 5 | 11:10-11:45 | **Təqdimatlar və müzakirə(35 dəqiqə)** |
| 6 | 11:45-12:00 | **Yekunlaşdırma və növbəti addımlar (15 dəqiqə)** |

Bu sənəddə UNAPF üzrə Nəticə Qrupları ilə keçiriləcək və UNAPF üzrə qiymətləndirməyə daxil ediləcək üç görüş üçün gündəlik təqdim olunur.

UNAPF üzrə qiymətləndirmənin ümumi məqsədi bir tərəfdən UNAPF üzrə növbəti planlaşdırma dövründə məlumat mənbəyi kimi istifadə etmək və Azərbaycandakı BMT sistemində əlaqələndirməni yaxşılaşdırmaq üçün aşkar edilmiş faktlar və öyrənilmiş dərsləri bir araya gətirmək, digər tərəfdən isə ölkə üzrə razılaşdırılmış milli hədəf və prioritetlərlə bağlı hesabatlılığın artırılmasına dəstək göstərməkdir.

UNAPF üzrə qiymətləndirmənin xüsusi məqsədləri aşağıdakılardır:
- UNAPF-ın nəticələri vasitəsilə BMT sisteminin milli inkişaf prioritetlərinə töhfəsini qiymətləndirmək və dəlillərə əsaslanan qiymətləndirmə meyarlarından istifadə edərək nəticələr çıxarmaq (hesabatlılıq);
- BMT-nin Ölkə üzrə İdarə Heyətinin verdiyi töhfəyə təsir göstərmiş amilləri müəyyən edərək, fəaliyyət göstəricilərin cari səviyyəsinin səbəblərini öyrənmək, əlverişli amilləri və çətinlikləri izah etmək (öyrənmə); və
- Keçmiş və hazırkı əməkdaşlıqdan öyrənilmiş dərsləri müəyyən edərək növbəti UNAPF dövrü üçün konkret və fəaliyyətyönümlü strateji tövsiyələr vermək.

Beləliklə, qiymətləndirmə növbəti UNAPF dövrünə hazırlıq müddətində təhlil aləti kimi çıxış edən əlverişli vasitə hesab edilir. O, növbəti UNAPF sənədinin gələcəkdə daha da səmərəli olması üçün istifadə edilə biləcək yolları irəli sürəcək.

UNAPF üzrə qiymətləndirmə 2016-cı ildən 2019-cu ilin iyun ayına qədər olan müddəti əhatə edəcək və aşağıdakıları qiymətləndirəcək: a) uyğunluq, strateji mövqe və tərtibat; b) effektivlik; c) səmərəlilik; d) dayanıqlılıq; e) beş proqramlaşdırma prinsipi; və f) əlaqələndirmə.

UNAPF BMT-nin ölkənin inkişaf gündəliyinə töhfə verdiyi üç əsas nəticə sahəsinə yönəlir. Onlar üç Nəticə Qrupu ilə uzlaşır:

| |
|---|
| **Birinci prioritet sahə:** Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi; |
| **İkinci prioritet sahə:** İnstitusional potensialın gücləndirilməsi və səmərəli dövlət xidmətləri və sosial xidmətlər |
| **Üçüncü prioritet sahə:** Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi və risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması |

Bu üç görüş BMT-nin tərəfdaşlarına və BMT təşkilatlarına gözlənilən UNAPF nəticələri əsasında BMT sisteminin inkişafla bağlı dəyişikliklərə verdiyi töhfə barədə birgə müzakirə aparmaq, BMT-nin hər hansı müşahidə oluna bilən nəticə dəyişikliyinə töhfə vermiş konkret tədbirlərini müəyyən etmək üçün imkan yaradacaq.

# BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi üzrə Qiymətləndirmə

## İkinci Nəticə Qrupu
## İnstitusional potensialın gücləndirilməsi və səmərəli dövlət xidmətləri və sosial xidmətlər

**Cümə axşamı, 11 iyul 2019**

**15:00-17:00**

JW Marriott Absheron Hotel, Xırdalan Zalı

(Ünvan: 674 Azadliq Square, Baku 1000, Tel: (012) 499 88 88).

*Aparıcı fasilitator:* **Kristian Privat** (Qiymətləndirmə üzrə məsləhətçi)

*Köməkçi fasilitatorlar*: **Rahim Saatov** (yerli ekspert)

**Gülər Fətəli** (Məlumatların idarə edilməsi, nəticələrin monitorinqi və hesabatı üzrə Əlaqələndirici, Rezident Əlaqələndiricinin Ofisi)

### Gündəlik

| # | Vaxt | Bənd |
|---|---|---|
| 1 | 14:30-15:00 | Qeydiyyat və çay-qəhvə ikramı |
| 2 | 15:00-15:15 | **Giriş (15 dəqiqə)**<br>Açılış çıxışları<br>UNAPF üzrə qiymətləndirmə barədə qısa məlumat<br>İştirakçıların təqdim olunması |
| 3 | 15:15-15:20 | **Metodologiyanın izahı (5 dəq)** |
| 4 | 15:0-16:10 | **Fərdi çalışma (10 dəq) və Qrup işi (40 dəqiqə)**<br>4 Qiymətləndirmə kriteriyası üzrə<br>• Uyğunluq, strateji mövqe, tərtibat<br>• Effektivlik<br>• Dayanıqlılıq<br>• Əlaqələndirmə |
| 5 | 16:10-16:45 | **Təqdimatlar və müzakirə(35 dəqiqə)** |
| 6 | 16:45-17:00 | **Yekunlaşdırma və növbəti addımlar (15 dəqiqə)** |

Bu sənəddə UNAPF üzrə Nəticə Qrupları ilə keçiriləcək və UNAPF üzrə qiymətləndirməyə daxil ediləcək üç görüş üçün gündəlik təqdim olunur.

UNAPF üzrə qiymətləndirmənin ümumi məqsədi bir tərəfdən UNAPF üzrə növbəti planlaşdırma dövründə məlumat mənbəyi kimi istifadə etmək və Azərbaycandakı BMT sistemində əlaqələndirməni yaxşılaşdırmaq üçün aşkar edilmiş faktlar və öyrənilmiş dərsləri bir araya gətirmək, digər tərəfdən isə ölkə üzrə razılaşdırılmış milli hədəf və prioritetlərlə bağlı hesabatlılığın artırılmasına dəstək göstərməkdir.

UNAPF üzrə qiymətləndirmənin xüsusi məqsədləri aşağıdakılardır:

- UNAPF-ın nəticələri vasitəsilə BMT sisteminin milli inkişaf prioritetlərinə töhfəsini qiymətləndirmək və dəlillərə əsaslanan qiymətləndirmə meyarlarından istifadə edərək nəticələr çıxarmaq (hesabatlılıq);
- BMT-nin Ölkə üzrə İdarə Heyətinin verdiyi töhfəyə təsir göstərmiş amilləri müəyyən edərək, fəaliyyət göstəricilərin cari səviyyəsinin səbəblərini öyrənmək, əlverişli amilləri və çətinlikləri izah etmək (öyrənmə); və
- Keçmiş və hazırkı əməkdaşlıqdan öyrənilmiş dərsləri müəyyən edərək növbəti UNAPF dövrü üçün konkret və fəaliyyətyönümlü strateji tövsiyələr vermək.

Beləliklə, qiymətləndirmə növbəti UNAPF dövrünə hazırlıq müddətində təhlil aləti kimi çıxış edən əlverişli vasitə hesab edilir. O, növbəti UNAPF sənədinin gələcəkdə daha da səmərəli olması üçün istifadə edilə biləcək yolları irəli sürəcək.

UNAPF üzrə qiymətləndirmə 2016-cı ildən 2019-cu ilin iyun ayına qədər olan müddəti əhatə edəcək və aşağıdakıları qiymətləndirəcək: a) uyğunluq, strateji mövqe və tərtibat; b) effektivlik; c) səmərəlilik; d) dayanıqlılıq; e) beş proqramlaşdırma prinsipi; və f) əlaqələndirmə.

UNAPF BMT-nin ölkənin inkişaf gündəliyinə töhfə verdiyi üç əsas nəticə sahəsinə yönəlir. Onlar üç Nəticə Qrupu ilə uzlaşır:

| |
|---|
| **Birinci prioritet sahə:** Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi; |
| **İkinci prioritet sahə:** İnstitusional potensialın gücləndirilməsi və səmərəli dövlət xidmətləri və sosial xidmətlər |
| **Üçüncü prioritet sahə:** Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi və risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması |

Bu üç görüş BMT-nin tərəfdaşlarına və BMT təşkilatlarına gözlənilən UNAPF nəticələri əsasında BMT sisteminin inkişafla bağlı dəyişikliklərə verdiyi töhfə barədə birgə müzakirə aparmaq, BMT-nin hər hansı müşahidə oluna bilən nəticə dəyişikliyinə töhfə vermiş konkret tədbirlərini müəyyən etmək üçün imkan yaradacaq.

Bu görüşlər BMT təşkilatlarının və tərəfdaş Hökumət qurumu – İqtisadiyyat Nazirliyinin, beynəlxalq məsləhətçinin və milli məsləhətçinin dəstəyilə, Rezident Əlaqələndiricinin Ofisi tərəfindən təşkil olunur.

Görüşlərin aparılması üçün istifadə edilən üsulda əsas diqqət fəal iştirakın və konsensusun stimullaşdırılmasına yönəlir. Bu üsul Birləşmiş Krallıqda yerləşən Mədəniyyət Məsələləri İnstitutu tərəfindən hazırlanmış və məsləhətçi tərəfindən qiymətləndirmə seminarları üçün uyğunlaşdırılmışdır.

Bu üsul çox fəal və dinamik üsuldur. Hər bir qiymətləndirmə meyarı üzrə iştirakçılardan bir əsas və bir neçə köməkçi qiymətləndirmə sualları barədə fərdi şəkildə götür-qoy etmək, daha sonra yanındakı şəxslərlə və ya qrupla fikir mübadiləsi aparmaq xahiş edilir. Bundan sonra iştirakçılardan (qrup şəklində) vərəqələr üzərində öz əsas ideyalarını yazmaq xahiş olunur. Əlaqələndirici hər bir qrupdan vərəqələri toplayaraq onları oxuyur və sonra iştirakçılarla qarşılıqlı ünsiyyət şəklində müzakirə aparır. Əldə olunan yekun nəticə isə seminarda qiymətləndirmə sualları üçün toplanılan bütün cavabların əhatəli mənzərəsidir.

# BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi üzrə Qiymətləndirmə

## Üçüncü Nəticə Qrupu
## Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi və risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması

**Cümə , 12 iyul 2019**
**10:00-12:00**

JW Marriott Absheron Hotel, Xırdalan Zalı
(Ünvan: 674 Azadliq Square, Baku 1000, Tel: (012) 499 88 88).

*Aparıcı fasilitator:* **Kristian Privat** (Qiymətləndirmə üzrə məsləhətçi)
*Köməkçi fasilitatorlar*: **Rahim Saatov** (yerli ekspert)
**Gülər Fətəli** (Məlumatların idarə edilməsi, nəticələrin monitorinqi və hesabatı üzrə Əlaqələndirici, Rezident Əlaqələndiricinin Ofisi, BMT)

## Gündəlik

| # | Vaxt | Bənd |
|---|---|---|
| 1 | 9:30-10:00 | Qeydiyyat və çay-qəhvə ikramı |
| 2 | 10:00-10:15 | **Giriş (15 dəqiqə)**<br>Açılış çıxışları<br>UNAPF üzrə qiymətləndirmə barədə qısa məlumat<br>İştirakçıların təqdim olunması |
| 3 | 10:15-10:20 | **Metodologiyanın izahı (55 dəq)** |
| 4 | 10:20-11:10 | **Fərdi çalışma (10 dəq) və Qrup işi (40 dəqiqə)**<br>4 Qiymətləndirmə kriteriyası üzrə<br>• Uyğunluq, strateji mövqe, tərtibat<br>• Effektivlik<br>• Dayanıqlılıq<br>• Əlaqələndirmə |
| 5 | 11:10-11:45 | **Təqdimatlar və müzakirə(35 dəqiqə)** |
| 6 | 11:45-12:00 | **Yekunlaşdırma və növbəti addımlar (15 dəqiqə)** |

Bu sənəddə UNAPF üzrə Nəticə Qrupları ilə keçiriləcək və UNAPF üzrə qiymətləndirməyə daxil ediləcək üç görüş üçün gündəlik təqdim olunur.

UNAPF üzrə qiymətləndirmənin ümumi məqsədi bir tərəfdən UNAPF üzrə növbəti planlaşdırma dövründə məlumat mənbəyi kimi istifadə etmək və Azərbaycandakı BMT sistemində əlaqələndirməni yaxşılaşdırmaq üçün aşkar edilmiş faktlar və öyrənilmiş dərsləri bir araya gətirmək, digər tərəfdən isə ölkə üzrə razılaşdırılmış milli hədəf və prioritetlərlə bağlı hesabatlılığın artırılmasına dəstək göstərməkdir.

UNAPF üzrə qiymətləndirmənin xüsusi məqsədləri aşağıdakılardır:

- UNAPF-ın nəticələri vasitəsilə BMT sisteminin milli inkişaf prioritetlərinə töhfəsini qiymətləndirmək və dəlillərə əsaslanan qiymətləndirmə meyarlarından istifadə edərək nəticələr çıxarmaq (hesabatlılıq);
- BMT-nin Ölkə üzrə İdarə Heyətinin verdiyi töhfəyə təsir göstərmiş amilləri müəyyən edərək, fəaliyyət göstəricilərin cari səviyyəsinin səbəblərini öyrənmək, əlverişli amilləri və çətinlikləri izah etmək (öyrənmə); və
- Keçmiş və hazırkı əməkdaşlıqdan öyrənilmiş dərsləri müəyyən edərək növbəti UNAPF dövrü üçün konkret və fəaliyyətyönümlü strateji tövsiyələr vermək.

Beləliklə, qiymətləndirmə növbəti UNAPF dövrünə hazırlıq müddətində təhlil aləti kimi çıxış edən əlverişli vasitə hesab edilir. O, növbəti UNAPF sənədinin gələcəkdə daha da səmərəli olması üçün istifadə edilə biləcək yolları irəli sürəcək.

UNAPF üzrə qiymətləndirmə 2016-cı ildən 2019-cu ilin iyun ayına qədər olan müddəti əhatə edəcək və aşağıdakıları qiymətləndirəcək: a) uyğunluq, strateji mövqe və tərtibat; b) effektivlik; c) səmərəlilik; d) dayanıqlılıq; e) beş proqramlaşdırma prinsipi; və f) əlaqələndirmə.

UNAPF BMT-nin ölkənin inkişaf gündəliyinə töhfə verdiyi üç əsas nəticə sahəsinə yönəlir. Onlar üç Nəticə Qrupu ilə uzlaşır:

| |
|---|
| **Birinci prioritet sahə:** Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi; |
| **İkinci prioritet sahə:** İnstitusional potensialın gücləndirilməsi və səmərəli dövlət xidmətləri və sosial xidmətlər |
| **Üçüncü prioritet sahə:** Ətraf mühitin idarə edilməsinin təkmilləşdirilməsi və risk və təbii fəlakətlərə qarşı dayanıqlılığın artırılması |

Bu üç görüş BMT-nin tərəfdaşlarına və BMT təşkilatlarına gözlənilən UNAPF nəticələri əsasında BMT sisteminin inkişafla bağlı dəyişikliklərə verdiyi töhfə barədə birgə müzakirə aparmaq, BMT-nin hər hansı müşahidə oluna bilən nəticə dəyişikliyinə töhfə vermiş konkret tədbirlərini müəyyən etmək üçün imkan yaradacaq.

Bu görüşlər BMT təşkilatlarının və tərəfdaş Hökumət qurumu – İqtisadiyyat Nazirliyinin, beynəlxalq məsləhətçinin və milli məsləhətçinin dəstəyilə, Rezident Əlaqələndiricinin Ofisi tərəfindən təşkil olunur.

Görüşlərin aparılması üçün istifadə edilən üsulda əsas diqqət fəal iştirakın və konsensusun stimullaşdırılmasına yönəlir. Bu üsul Birləşmiş Krallıqda yerləşən Mədəniyyət Məsələləri İnstitutu tərəfindən hazırlanmış və məsləhətçi tərəfindən qiymətləndirmə seminarları üçün uyğunlaşdırılmışdır.

Bu üsul çox fəal və dinamik üsuldur. Hər bir qiymətləndirmə meyarı üzrə iştirakçılardan bir əsas və bir neçə köməkçi qiymətləndirmə sualları barədə fərdi şəkildə götür-qoy etmək, daha sonra yanındakı şəxslərlə və ya qrupla fikir mübadiləsi aparmaq xahiş edilir. Bundan sonra iştirakçılardan (qrup şəklində) vərəqələr üzərində öz əsas ideyalarını yazmaq xahiş olunur. Əlaqələndirici hər bir qrupdan vərəqələri toplayaraq onları oxuyur və sonra iştirakçılarla qarşılıqlı ünsiyyət şəklində müzakirə aparır. Əldə olunan yekun nəticə isə seminarda qiymətləndirmə sualları üçün toplanılan bütün cavabların əhatəli mənzərəsidir.

# ƏLAVƏ 3: SPESIFIK GÖRÜŞLƏR ÜÇÜN ISTIQAMƏTLƏNDIRICI SUALLAR

## BMT təşkilatlarının və tərəfdaş hökumət qurumlarının rəhbərləri ilə görüşlər üçün sualların istiqamətləndirici siyahısı

**Uyğunluq, strateji mövqe və tərtibat:**

1. UNAPF-ın Hökumət və digər maraqlı tərəflərin strategiyalarına münasibətdə mövqeyi nə dərəcədə stratejidir?
2. UNAPF nəticələri hazırkı proqram dövrünün əvvəlində müəyyən edilmiş məsələlər, onların təməl səbəbləri və çətinliklər baxımından, habelə milli siyasətlər və strategiyalar kontekstində uyğunluğunu saxlayırmı?
3. UNAPF-ın nəticələri beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları ilə bağlı öhdəliklər, norma və standartlara münasibətdə uyğunluğunu saxlayıbmı?
4. Hazırkı UNAPF nə dərəcədə nəticəyönümlü, ardıcıl, reallığa uyğun və xüsusi çərçivə kimi tərtib olunub? Hazırkı nəticələr zənciri BMT ilə və əlaqələndirilə biləcək nəticələri və ya BMT-nin töhfə verdiyi nəticələri göstərirmi? Növbəti UNAPF sənədində nələri təkmilləşdirmək məqsədəuyğundur?

**Effektivlik:**

1. UNAPF-ın göstəricilər çərçivəsinə əsasən, UNAPF nəticələrinin milli prioritetlərə nail olunmasına töhfə kimi reallaşdırılması istiqamətində nə dərəcədə irəliləyiş əldə olunub?
2. UNAPF nəticələrinə doğru irəliləyişə müsbət və ya mənfi töhfə vermiş əsas amillər hansılardır?
3. UNAPF milli potensialların (o cümlədən milli səviyyədə icra və institusional quruculuq), siyasi və hüquqi çərçivələrin gücləndirilməsinə və tərəfdaşlıqların qurulmasına nə dərəcədə nail olub?
4. UNAPF məlumatların cins, yaş, coğrafi yerləşmə və s. üzrə dezaqreqasiyasını təmin etmək üçün məlumatların toplanması və təhlili üçün potensialı nə dərəcədə gücləndirdi və ayrı-seçkiliyə məruz qalan və əlverişsiz vəziyyətdə olan qruplara prioritet qaydada diqqət yetirilibmi?
5. Növbəti UNAPF sənədində effektivliyi necə artırmaq olar?

**Əlaqələndirmə:**

1. BMT təşkilatlarının müqayisəli üstünlükləri və əlavə dəyəri milli kontekstdə hansı formada istifadə edilib (universallıq, bitərəflik, çoxtərəflilik)?
2. UNAPF BMT təşkilatlarının proqramları arasında sinergiyaların yaxşılaşdırılmasına necə töhfə verib? UNAPF BMT təşkilatları tərəfindən birgə proqramlaşdırmanı gücləndiribmi və/yaxud konkret birgə proqramlarla nəticələnibmi?
3. Mövcud əlaqələndirmə mexanizmləri, o cümlədən UNAPF üzrə İstiqamətləndirici Komitə, Nəticə Qrupları və Tematik Qruplar (İnsan hüquqları, Gender, Kommunikasiya, Monitorinq və qiymətləndirmə) nəticələrin əldə olunması, monitorinq, hesabatvermə və müştərək iş planının hazırlanmasında effektivliyi artırmaq üçün adekvatdırmı?
4. UNAPF nəticə sahələri üzrə səmərəli tərəfdaşlıq və strateji ittifaqları (məsələn, hökumət, parlament, yerli icra hakimiyyəti orqanları, vətəndaş cəmiyyəti, Milli İnsan Hüquqları İnstitutları, inkişaf tərəfdaşları, beynəlxalq maliyyə institutları və özəl sektorla) təşviq edibmi?
5. Növbəti UNAPF sənədində əlaqələndirməni necə yaxşılaşdırmaq olar?

**Səmərəlilik**

1. UNAPF BMT təşkilatları və onların tərəfdaşları üçün əməliyyat xərclərinin azalmasına necə töhfə verib? Əməliyyat xərcləri hansı yollarla daha da azaldıla bilər?
2. Təşkilatlar əməliyyat xərclərini azaltmaq və nəticələri gücləndirmək üçün prosedurları nə dərəcədə uzlaşdırıb?
3. UNAPF nəticələri optimallaşdırmaq və səylərin təkrarlanmasını önləmək üçün təşkilatlar arasında nə dərəcədə faktiki sinergiyalar yaradıb və razılaşdırılmış səyləri əks etdirib?

**Dayanıqlılıq:**

1. UNAPF-ın təkan verdiyi qarşılılıq uzlaşma, əməkdaşlıq və /yaxud sinergiyalar nəticələrin dayanıqlılığının artmasına töhfə veribmi?
2. Milli potensiallar nə dərəcədə və hansı formada gücləndirilib?
3. UNAPF-ın faydalarının zaman keçdikcə saxlanması ehtimalı nə qədər yüksəkdir?
4. İnsan hüquqları və gender bərabərliyi aspektləri baxımından institusional quruculuq və institusional gücləndirmə nə dərəcədə baş tutub?

# Tematik Qruplarla (Gender, İnsan hüquqları, DİM-lər) görüş üçün sualların istiqamətləndirici siyahısı

**Beş proqramlaşdırma prinsipi: UNAPF-da beş proqramlaşdırma prinsipindən sahələrarası istifadə:**

**Uyğunluq, strateji mövqe və tərtibat:**

1. UNAPF sənədi və onun nəticələri beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və insan hüquqları ilə bağlı öhdəliklər, prinsiplər, norma və standartlara münasibətdə uyğunluğunu saxlayıbmı?
2. İnsan hüquqlarına əsaslanan yanaşma və gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi UNAPF sənədində və onun nəticələr çərçivəsində (gender üzrə dezaqreqasiya olunmuş spesifik nəticələr, göstəricilər və hədəflər) nə dərəcədə əks olunub?

**Effektivlik:**

1. UNAPF-ın icrası zamanı nə dərəcədə və hansı yollarla insan hüquqlarına əsaslanan yanaşma və insan hüquqları prinsipləri (məs.iştirak, ayrı-seçkiliyə məruz qalmama, hesabatlılıq və s.) istifadə edilib?
2. Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi prinsipi UNAPF-ın icrasında nə dərəcədə və hansı formada əks olunub?
3. UNAPF məlumatların cins, yaş, coğrafi yerləşmə və s. üzrə dezaqreqasiyasını təmin etmək üçün məlumatların toplanması və təhlili üçün potensialı nə dərəcədə gücləndirdi?
4. UNAPF-ın icrası zamanı ayrı-seçkiliyə məruz qalanlara və əlverişsiz vəziyyətdə olanlara prioritet qaydada diqqət yetirilibmi?
5. UNCT-nin Birgə Gender Təftişinin tövsiyələr planı, o cümlədən UNAPF-la əlaqəli olan aşağıdakı tövsiyələr necə yerinə yetirilib?

a. 2018-ci ildə UNCT üçün birgə resurslarla və Gender Tematik Qrupu tərəfindən dəstəklənən, UNAPF ilə və DİM-lər üçün milli göstəricilərin hazırlanması ilə bağlı tədbirlərlə əlaqələndirilən birgə və inteqrasiyalı gender aspektlərinin aktuallaşdırılması strategiyası və iş planı icra etmək. Gender Tematik Qrupu üçün artıq yaradılmış sinergiyalara əsaslanaraq ayrı-ayrı təşkilatların tədbirlərinin əlavə olunması ilə məhdudlaşmamaq və 2018-ci il və ondan sonrakı dövr üçün birgə tədbirlər və ümumi resurslara malik daha inteqrativ və əlaqələndirilmiş icra planı barədə razılığa gəlmək. Bu, UNAPF-ın üç strateji məqsədi, DİM-lərin əlaqələndirilməsi üzrə komitələr (sadəcə 5-ci DİM-lə məhdudlaşmadan) və CEDAW-ın yekun qeydləri ilə əlaqələndirilə bilər (Əlaqələndirmə №3).
b. DİM platformasından istifadə edərək UNAPF üçün gender aspektlərini nəzərə alan kommunikasiya məhsullarına dair təşkilatlararası iş planı (sadəcə strategiya ilə məhdudlaşmamaı) hazırlamaq (Əlaqələndirmə №5).
c. Gender məsələlərinin aktuallaşdırılması ilə bağlı monitorinq və qiymətləndirmə sistemlərini, potensialı, o cümlədən gender bərabərliyinə ayrılan büdcənin və xərclərin izlənməsini gücləndirmək (Monitorinq və Qiymətləndirmə №1).
d. UNAPF ilə əlaqədar gender göstəricilərinin hazırlanması və monitorinqinə dair Gender Tematik Qrupu tərəfindən birgə layihənin icrasını nəzərdən keçirmək. Bu, xüsusən DİM-lərə münasibətdə tərəfdaş hökumət qurumları ilə, UNCT-nin və UNCT-nin təşkilatlarının müxtəlif regional/baş ofislərinin daxili təcrübəsinin köməyilə həyata keçirilməlidir (Monitorinq və qiymətləndirmə №5).

**Əlaqələndirmə:**

1. Hazırkı Tematik Qruplarınız (İnsan hüquqları, Gender, DİM-lər) kəsişən sahələrdə və 5 nəticə sahəsi üzrə nəticələrin əldə olunması, monitorinq, hesabatvermə və birgə iş planlaşdırmasında effektivliyin artırılması üçün adekvatdırmı? Qruplarınız Nəticə Qruplarının işində təsir göstərə bilibmi? Proqramlaşdırma prinsipləri UNAPF illik hesabatlarında əksini tapıbmı?

**Dayanıqlılıq:**

1. İnsan hüquqları və gender bərabərliyi aspektləri baxımından institusional quruculuq və institusional gücləndirmə nə dərəcədə baş tutub?
2. UNAPF-ın icrası gender və insan hüquqlarına əsaslanan yanaşma sahəsinə adekvat dərəcədə diqqət yetiribmi?
5. Qruplarınız UNAPF nəticələri çərçivəsində əldə olunan nəticələrin dayanıqlılığının artmasına töhfə veribmi?

**Növbəti BMT Dayanıqlı İnkişaf üzrə Əməkdaşlıq Çərçivəsi (UNSDCF):**

1. İnsan hüquqlarına əsaslanan yanaşma və gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi UNAPF prioritetlərin, nəticələrinə və nəticələr çərçivəsinə necə inteqrə edilə bilər?
2. Ən yeni UNDAF Təlimatının (2017) əsas prinsipi olan "Heç kəsi kənarda qoymamaq" prinsipi növbəti UNAPF-da necə əks oluna bilər?
3. Əməkdaşlıq Çərçivəsi və 2030-cu il Gündəliyi üçün BMT-nin Vahid Ölkə Təhlilinin hazırlanması (UNCT Yol Xəritəsində planlaşdırılır) təqdim olunan məlumatları necə təmin edə bilər?
a. kənarda qoyulan və ya kənarda qoyulma riski altında olan spesifik qrupların təhlili, bərabərsizlik və ayrı-seçkiliyə səbəb olan və gücləndirən müxtəlif faktorların qarşılıqlı əlaqəsinin təhlili
b. ölkənin 2030-cu il Gündəliyinin icrası üçün vacib olan, beynəlxalq səviyyədə razılaşdırılmış bütün müvafiq norma və standartları və BMT Nizamnaməsinin dəyərləri çərçivəsində öhdəliklərinin icrasının təhlili

# Qeyri-hökumət maraqlı tərəflərlə görüşlər üçün sualların istiqamətləndirici siyahısı

**Məsləhətçi görüşü 2016-2020-ci illər üzrə UNAPF-ın 5 nəticəsini qeyd etməklə açacaq:**

- Nəticə 1.1: 2020-ci ilədək Azərbaycan iqtisadiyyatında şaxələnmə dərinləşir, dayanıqlı artım səviyyəsi yüksəlir və xüsusilə gənclər, qadınlar, əlilliyi olan şəxslər və digər həssas qruplar üçün layiqli iş yerləri yaradılır.
- Nəticə 2.1: 2020-ci ilədək Azərbaycanın şəffaf, dəlillərə əsaslanan, gender məsələlərinə həssaslıqla yanaşılan siyasətin hazırlanması və həyata keçirməsi üçün təşkilati potensialının artırılması
- Nəticə 2.2: 2020-ci ilədək Azərbaycanda beynəlxalq insan hüquqları mexanizmlərinə, o cümlədən Ümumi Dövri İcmala, digər müqavilə öhdəliklərinə uyğun olaraq irəliləyişə nail olma, beynəlxalq standartlara uyğun icra, monitorinq və hesabat vermə üçün potensialın gücləndirilməsi
- Nəticə 2.3: 2020-ci ilədək keyfiyyətli dövlət və sosial xidmətlərin hamı üçün əlçatan olması, sosial baxımdan daha inklüziv və bərabər inkişaf nəticələrinə nail olmağa kömək göstərilməsi
- Nəticə 3.1: 2020-ci ilədək dayanıqlı inkişaf siyasətinin və qanunvericiliyin mövcud olması, ətraf mühitlə bağlı çoxtərəfli sazişlərə uyğun olaraq onların daha yaxşı yerinə yetirilməsi və əlaqələndirilməsi, sosial və səhiyyə əlaqələrinin tanınması, habelə ətraf mühit və təbii resursların idarə olunması, enerji səmərəliliyi və bərpa olunan enerji, iqlim dəyişikliyi, risk və təbii fəlakətlərə qarşı dayanıqlılıq məsələlərinə diqqət yetirilməsi

**Uyğunluq, strateji mövqe və tərtibat:**

1. UNAPF ötən 3.5 ilin kontekstində nə dərəcədə uyğun olub (əsas inkişaf məsələləri, onların təməl səbəbləri, problemləri, milli siyasət və strategiyalara münasibətdə)?
2. BMT-nin işi qeyri-hökumət maraqlı tərəflərin və gənclər təşkilatlarının öz strategiyalarına münasibətdə strateji mövqe tutubmu?

**Effektivlik:**

1. BMT təşkilatları UNAPF-ın nəticələrinə töhfə vermək baxımından nə qədər irəliləyiş əldə edib?
2. UNAPF nəticələrinə doğru irəliləyişə müsbət və ya mənfi töhfə vermiş əsas amillər hansılardır?
3. UNAPF qeyri-hökumət maraqlı tərəflərin və gənclər təşkilatlarının iş və potensiallarının gücləndirilməsinə nə dərəcədə nail olub?
4. Ayrı-seçkiliyə məruz qalanlara və əlverişsiz vəziyyətdə olanlara prioritet qaydada diqqət yetirilibmi?
5. Növbəti UNAPF sənədində effektivliyi necə artırmaq olar?

**Əlaqələndirmə:**

1. UNAPF vətəndaş cəmiyyəti və gənclər təşkilatları ilə nəticə sahələri üzrə səmərəli tərəfdaşlıq və strateji ittifaqları təşviq edibmi?
2. Növbəti UNAPF sənədində bu tərəfdaşlıqları və ittifaqları necə yaxşılaşdırmaq olar?

**Dayanıqlılıq:**

1. UNAPF-ın təkan verdiyi qarşılılıq uzlaşma, əməkdaşlıq və /yaxud sinergiyalar nəticələrin dayanıqlılığının artmasına töhfə veribmi?
2. Milli potensiallar nə dərəcədə və hansı formada gücləndirilib?
3. UNAPF-ın faydalarının zaman keçdikcə saxlanması ehtimalı nə qədər yüksəkdir?
4. İnsan hüquqları və gender bərabərliyi aspektləri baxımından institusional quruculuq və institusional gücləndirmə nə dərəcədə baş tutub?

# İnkişaf Tərəfdaşları ilə görüş (Aİ, USAİD, SCO) üçün sualların istiqamətləndirici siyahısı

**Uyğunluq, strateji mövqe və tərtibat:**

1. UNAPF-ın Hökumət və digər maraqlı tərəflərin strategiyalarına münasibətdə mövqeyi nə dərəcədə stratejidir?
2. UNAPF nəticələri hazırkı proqram dövrünün əvvəlində müəyyən edilmiş məsələlər, onların təməl səbəbləri və çətinliklər baxımından, habelə milli siyasətlər və strategiyalar kontekstində uyğunluğunu saxlayırmı?

**Effektivlik:**

1. BMT təşkilatları UNAPF-ın nəticələrinə töhfə vermək baxımından nə qədər irəliləyiş əldə edib?
2. UNAPF nəticələrinə doğru irəliləyişə müsbət və ya mənfi töhfə vermiş əsas amillər hansılardır?
3. UNAPF milli potensialların (o cümlədən milli səviyyədə icra və institusional quruculuq), siyasi və hüquqi çərçivələrin gücləndirilməsinə və tərəfdaşlıqların qurulmasına nə dərəcədə nail olub?
4. UNAPF məlumatların cins, yaş, coğrafi yerləşmə və s. üzrə dezaqreqasiyasını təmin etmək üçün məlumatların toplanması və təhlili üçün potensialı nə dərəcədə gücləndiribmi?
5. Ayrı-seçkiliyə məruz qalanlara və əlverişsiz vəziyyətdə olanlara prioritet qaydada diqqət yetirilibmi?
6. Növbəti UNAPF sənədində effektivliyi necə artırmaq olar?

**Əlaqələndirmə:**

1. BMT təşkilatlarının müqayisəli üstünlükləri və əlavə dəyəri milli kontekstdə hansı formada istifadə edilib?
2. UNAPF BMT təşkilatlarının proqramları arasında və milli tərəfdaşlarla sinergiyaların yaxşılaşdırılmasına necə töhfə verib?
3. UNAPF nəticə sahələri üzrə səmərəli tərəfdaşlıq və strateji ittifaqları (məsələn, hökumət, parlament, yerli icra hakimiyyəti orqanları, vətəndaş cəmiyyəti, Milli İnsan Hüquqları İnstitutları, inkişaf tərəfdaşları, beynəlxalq maliyyə institutları və özəl sektorla) təşviq edibmi?
4. Növbəti UNAPF sənədində əlaqələndirmə, tərəfdaşlıq və strateji ittifaqları necə yaxşılaşdırmaq olar?

**Dayanıqlılıq:**

1. UNAPF-ın təkan verdiyi qarşılılıq uzlaşma, əməkdaşlıq və /yaxud sinergiyalar nəticələrin dayanıqlılığının artmasına töhfə veribmi?
2. Milli potensiallar nə dərəcədə və hansı formada gücləndirilib?
3. UNAPF-ın faydalarının zaman keçdikcə saxlanması ehtimalı nə qədər yüksəkdir?
4. İnsan hüquqları və gender bərabərliyi aspektləri baxımından institusional quruculuq və institusional gücləndirmə nə dərəcədə baş tutub?

## ƏLAVƏ 4: UNAPF ÜZRƏ QIYMƏTLƏNDIRMƏ MISSIYASININ GÜNDƏLIYI

**UNAPF üzrə Qiymətləndirmə Missiyasının proqramı**
**9-18 iyul 2019**
**Bakı, Azərbaycan**

| Tarix və vaxt | Fəaliyyət | Məkan | Logistika |
|---|---|---|---|
| **BAZAR ERTƏSİ, 8 iyul 2019** | | | |
| Gəliş: 20.25 Frankfurt LH612 | Cenevrə-Bakı uçuşu | GYD hava limanı | *Hava limanından transfer* |
| | Bakı Beynəlxalq Hava Limanından otelə transfer | | |
| **ÇƏRŞƏNBƏ AXŞAMI, 9 iyul 2019** | | | |
| **10:00-11:30** | Monitorinq və Qiymətləndirmə Müşaviri və Milli Ekspertlər Görüş | BMT Evi, UNFPA Görüş zalı | *Qəhvə fasiləsi*<br>*Nəzarətçilərə təqdim etmək üçün siyahı* |
| **12:00-12:45** | Əməliyyatlar üzrə İdarəetmə Heyəti ilə görüş | BMT Evi, UNFPA Görüş zalı | *Qəhvə fasiləsi*<br>*Nəzarətçilərə təqdim etmək üçün siyahı* |
| **Nahar** | | | |
| **15:00-16:00** | Əmək və Əhalinin Sosial Müdafiə Nazirinin Müavini, 2-ci NQ həmsədri **Mətin Kərimli** ilə görüş | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, S.Əsgərova küçəsi 85 | ***Əlaqə məlumatları:***<br>İradə Usubova<br>0506721707<br>Elnara: 5965022<br>0503469242<br><br>***Nəqliyyat vasitəsinin təşkili*** |
| **ÇƏRŞƏNBƏ 10 iyul 2019** | | | |
| **10:00-11:00** | BMT-nin Rezident Əlaqələndiricisi **Qulam İshaqzai** ilə Brifinq | **Rezident Əlaqələndiricinin Ofisi** | |
| **12:00-13:00** | UNİCEF Nümayəndəsi Edvard Karvardinlə görüş | **UNİCEF-in Ofisi**<br>Neftçilər prospekti 24, Dalğa Plaza | ***Əlaqə məlumatları:***<br>*Mina 0503331474*<br><br>***Nəqliyyat vasitəsinin təşkili*** |
| **Nahar** | | | |
| **14:00-15:00** | İqtisadiyyat Nazirinin Müavini, 1-ci NQ həmsədri **Sevinc Həsənova** ilə görüş | İqtisadiyyat Nazirliyi, Ü.Hacıbəyov küçəsi 84, (Hökumət Evi) | ***Əlaqə məlumatları:***<br>Xəyalə 0124925894;<br>0706432984; |

| | | | |
|---|---|---|---|
| | | | Xədicə 0553821777<br><br>***Nəqliyyat vasitəsinin təşkili*** |
| **16:30-17:30** | UNFPA-nın Baş Müşaviri **Fərid Babayevlə** görüş | BMT Evi, UNFPA Görüş zalı | |
| **CÜMƏ AXŞAMI 11 iyul 2019** | | | |
| **10:00-12:00** | **1-ci NQ seminarı** | JW Mariott Absheron Hotel , Xırdalan zalı | ***Nəqliyyat vasitəsinin təşkili*** |
| | **Nahar** | | |
| **15:00-17:00** | **2-ci NQ seminarı** | JW Mariott Absheron Hotel , Xırdalan zalı | ***Nəqliyyat vasitəsinin təşkili*** |
| **CÜMƏ 12 iyul 2019** | | | |
| **10:00-12:00** | **3-cü NQ seminarı** | JW Mariott Absheron Hotel , Xırdalan zalı | ***Nəqliyyat vasitəsinin təşkili*** |
| | **Nahar** | | |
| **15:00-16:00** | Ekologiya və Təbii Sərvətlər Nazirinin Müavini, 3-cü NQ həmsədri **Rauf Hacıyev** ilə görüş | Ekologiya və Təbii Sərvətlər Nazirliyi<br><br>B.Ağayev küçəsi 100 (A) | **Əlaqə məlumatları:** Emin Qarabağlı 050 386 52 58<br><br>***Nəqliyyat vasitəsinin təşkili*** |
| **16:30-17:30** | BMTİP-in Rezident Nümayəndəsi, 1-ci və 3-cü Nəticə Qruplarının həmsədri **Alessandro Frakassetti** ilə görüş | BMT Evi, Rezident Nümayəndənin Ofisi | |
| **BAZAR ERTƏSİ, 15 iyul 2019** | | | |
| **10:00-11:30** | Qeyri-hökumət maraqlı tərəfləri ilə görüş | BMT Evi, konfrans zalı | *Qəhvə fasiləsi Nəzarətçilərə təqdim etmək üçün siyahı* |
| **12:00-13:00** | FAO Nümayəndəliyinin Rəhbəri, 3-cü NQ həmsədri **Melek Çakmak** | **FAO-nun Ofisi** Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti Binqədəri rayonu, 8-ci yaşayış massivi, 3123-cü məhəllə | **Əlaqə məlumatları:** Güllü Hüseynova 070 200 32 27; 563 56 28/101<br><br>***Nəqliyyat vasitəsinin təşkili*** |
| | **Nahar** | | |
| **14:00-15:00** | BMT təşkilatlarının rəhbərləri ilə görüş (ÜST - Hande Harmancı, BMqT - Vladimir Qriqoryev, BMT İHAK, Kamran Bağırov) | BMT-nin Azərbaycandakı Nümayəndəliyi | *Qəhvə fasiləsi Nəzarətçilərə təqdim etmək üçün siyahı* |
| **15:00-16:00** | İnkişaf Tərəfdaşları ilə görüş (Aİ, USAİD, SCO) | BMT Evi, konfrans zalı | *Qəhvə fasiləsi Nəzarətçilərə təqdim etmək üçün siyahı* |
| **ÇƏRŞƏNBƏ AXŞAMI, 16 iyul 2019** | | | |

| | | | |
|---|---|---|---|
| **10:00-11:00** | BMT QAK-ın Nümayəndəsi **Guido Ambroso** ilə görüş | **BMTQAK-ın Ofisi** Winter Park Plaza, Mirzəağa küçəsi 210 | **Əlaqə məlumatları:** Nailə Mirəliyeva: 0505870247<br><br>***Nəqliyyat vasitəsinin təşkili*** |
| **12:00-13:00** | Kommunikasiya Qrupu ilə görüş | BMT Evi, konfrans zalı | *Qəhvə fasiləsi Nəzarətçilərə təqdim etmək üçün siyahı* |
| **Nahar** | | | |
| **14:00-15:00** | Monitorinq və Qiymətləndirmə Qrupu ilə görüş | BMT Evi, konfrans zalı | *Qəhvə fasiləsi Nəzarətçilərə təqdim etmək üçün siyahı* |
| **15:00-16:30** | Tematik Qruplarla (Gender, İnsan hüquqları, DİM-lər) görüş | BMT Evi, konfrans zalı | *Qəhvə fasiləsi Nəzarətçilərə təqdim etmək üçün siyahı* |
| **ÇƏRŞƏNBƏ 17 iyul** | | | |
| **10:00-11:00** | Dövlət Statistika Komitəsinin sədri **Tahir Budaqovla** görüş | **Dövlət Statistika Komitəsi**<br><br>İnşaatçılar prospekti 136 | *Əlaqə məlumatları: Elnurə xanım 050 519 40 22* |
| **12:00-13:00** | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova və Aynur Sofiyeva ilə görüş | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi** Ü.Hacıbəyli 80, Hökumət Evi, 4-cü Giriş | *Əlaqə məlumatları: Gülzaman xanım 012 498 57 65 Beynəlxalq Əlaqələr Şöbəsi 050 205 85 54*<br><br>***Nəqliyyat vasitəsinin təşkili*** |
| **Nahar** | | | |
| **14:00-18:00** | Milli ekspert və Monitorinq və Qiymətləndirmə Müşaviri ilə yekun görüş | BMT Evi, konfrans zalı | *Qəhvə fasiləsi* |
| **CÜMƏ AXŞAMI 18 iyul** | | | |
| 02:00 | Bakı Beynəlxalq Hava Limanına transfer | | |
| Gediş vaxtı 04:30 | Bakı-Cenevrə uçuşu | | |

# ƏLAVƏ 5: ƏDƏBIYYAT VƏ İSTİNAD SIYAHISI

***BMT-nin Ölkə üzrə İdarə Heyəti***

- 2016-2020-cı illər üçün UNAPF sənədi
- UNAPF üzrə illik icra hesabatları, 2017 və 2018-ci illər üzrə
- Birgə illik icmal görüşlərinin hesabatları, 2017, 2018 və 2019
- UNAPF Nəticə Qruplarının həmsədrlərinin UNAPF-ın daxili Aralıq İcmal prosesi üzrə iclası, İclas qeydləri, 7 dekabr 2018: UNAPF-ın qlobal DİM hədəflərinə nəzərən Sürətli Kompleks Qiymətləndirməsi (SKQ), UNAPF-ın Nəticə və Resurslar Çərçivəsinin İcmalı üzrə Seminar; UNAPF Nəticələr və Resurslar Çərçivəsinə Təklif Olunan Dəyişiklikləri əks etdirən əlavə
- UNAPF-ın 2017, 2018 və 2019-cu illər üzrə Müştərək İş Planları
- İstiqamətləndirici Komitənin iclasının protokolu
- UNAPF yenilənmiş Monitorinq və Qiymətləndirmə Çərçivəsi
- UNAPF üzrə yenilənmiş Monitorinq və Qiymətləndirmə Planı
- UNCT müşavirəsinin əsas qeydləri
- UNCT-nin strateji məsələlərlə bağlı olan və ya qiymətləndirmə üçün məqsədəuyğun hesab edilən (UNAPF, Vahid icra və DİM-lərin müzakirə olunduğu) əsas iclaslarının protokolları
- Vahid icra ilə bağlı konseptual sənədlər və təqdimatlar
- BMT-nin 2018-2020-ci illər üzrə İşgüzar Əməliyyatla Strategiyası, iyul 2018
- Birgə Gender Təftişi
- Gender Tematik Qrupunun 2017 və 2018-ci illər üzrə illik hesabatları
- Gender Bərabərliyi və Qadınların Səlahiyyətləndirilməsi üçün BMT Sistemi üzrə Fəaliyyət Planı (SWAP)
- Nəticə Qruplarının çoxsahəli məsələlərlə (İnsan hüquqları, DİM-lər, Kommunikasiya) bağlı hesabatları
- BMT təşkilatları tərəfindən aparılmış Qiymətləndirmələr və Aralıq İcmallar, məsələn, BMTİP-in Ölkə Proqramı Qiymətləndirməsi, UNİCEF-in Aralıq İcmalı
- Rezident Əlaqələndiricinin illik hesabatları, 2016-2018-ci illər üzrə
- UNCT-nin/Rezident Əlaqələndiricinin Ofisinin iş planları
- Kommunikasiya materialları
- BMT-nin Azərbaycanda İnkişafa Yardım Çərçivəsi (2011-2015), Aralıq İcmal, Kristian Privat, Qiymətləndirmə məsləhətçisi, 16 yanvar 2014
- Digər əlaqəli sənədlər

***UNDAF üzrə qiymətləndirmələr və UNDAF ilə əlaqəli təlimatlar***

- UNDAF Təlimatı, UNDG, 2017 -- https://undg.org/document/2017-UNDAF-guidance/
- UNDAF Köməkçi Təlimatı -- https://undg.org/programme/undaf-companion-guidances/
- Dəyişiklik nəzəriyyəsi, UNDAF Köməkçi Təlimatı, UNDG, 2017

- Proqramlar üzrə UNDG Təlimatı və Siyasətləri, UNDG, 2017 -- https://undg.org/programme/undg-guidance-on-programing/
- Proqramlaşdırma prinsipləri, UNDAF Köməkçi Təlimatı, UNDG, 2017
- İnsan Hüquqları üzrə UNDG Təlimatı və Siyasətləri -- https://undg.org/human-rights/
- Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi üzrə UNDG Təlimatı və Siyasətləri və Gender üzrə Qiymət Cədvəli https://undg.org/programme/gender-equality-and-empowerment-of-women/
- Düzəlişlər edilmiş 2016-cı il UNDAF Aralıq Təlimatı və 2010-cu il UNDAF Təlimatı və strateji mövqe ilə bağlı digər təlimat sənədləri, 2010-2016
- İcra hesabatlarına dair təlimat (2010)
- UNDF Alətlər dəsti
- "Vahid icra" ilə bağlı əsas məqamlar (Mart, 2014-cü il)
- "Vahid icra" yanaşmasına qəbul etmək istəyən ölkələr üçün Standart Əməliyyat Prosedurları, UNDG (Avqust, 2013)
- Baş ofislər üçün UNDG Fəaliyyət Planı (Fevral 2014), fəaliyyət üçün 55 ideya ilə.
- Vahid Proqram, Əməliyyatlar, Kommunikasiya və s. üzrə yeni "Vahid İcra" Təlimatı (kompleks dəstək zərfi və faydalı ola biləcək konkret nümunələr)
- UNEG-in qiymətləndirmə üçün norma və standartları, 2016
- UNEG-in BMT sistemində qiymətləndirmə üçün Davranış Kodeksi, 2008
- UNDAF Qiymətləndirmələri üzrə tez-tez verilən suallar, UNEG 2010
- Qiymətləndirmə üzrə Texniki Tapşırıq və İlkin Hesabatlar üçün Keyfiyyət üzrə Yoxlama siyahısı, UNEG, 2010
- Qiymətləndirmə Hesabatları üçün Keyfiyyət üzrə Yoxlama siyahısı, UNEG, 2010
- UNDAF Qiymətləndirmələri üçün Texniki Tapşırıqların Hazırlanmasına dair UNEG Təlimatı, 2012
- Proqramlaşdırma prinsiplərinin UNDAF-a tətbiqinə dair Təlimat Qeydi, 2010
- İnsan hüquqları və gender bərabərliyinin qiymətləndirməyə inteqrasiyası, UNEG Bələdçisi, 2014 -- http://uneval.org/document/detail/1616
- İnsan hüquqları və gender bərabərliyinin qiymətləndirməyə inteqrasiyası, UNEG Təlimatı, 2011
- Gender Bərabərliyi və İnsan Hüquqlarını nəzərə alan qiymətləndirmə, maraqlı tərəflərin və istinad qruplarının müəyyən edilməsi üçün Menecerin Bələdçisi, BMT-nin Qadın Qurumu
- Ölkə Səviyyəsində Vahid BMT Proqramlaşdırmasına gender aspektlərinin inteqrasiyası üçün Resurs Kitabı, UNDG 2014
- Gender Bərabərliyi Markeri, Təlimat Qeydi, UNDG, Sentyabr, 2013
- UNDAF Qiymətləndirmələrinə İdarəetmə cavablarının hazırlanmasına dair UNEG Təlimatı, 2012
- Proqram bölmələri və qiymətləndirmə mütəxəssisləri üçün Nəticə səviyyəsində qiymətləndirmə, İnkişaf Nəticələri üçün Planlaşdırma və Qiymətləndirmə üzrə Masaüstü Kitabçanın köməkçi bələdçisi, BMTİP, 2011 (xüsusilə 5, 6 və 7-ci bölmələr)
- İnkişaf Nəticələri üçün Planlaşdırma və Qiymətləndirmə üzrə Masaüstü Kitabça (xüsusilə Bölmə 7)
- Contribution analysis: An approach to exploring cause and effect, ILAC Brief No 16, John Mayne, May 2008

- Planning Evaluability Assessments, A Synthesis of the Literature with Recommendations, Report of a study commissioned by the Department for International Development (DFID), Working Paper 40, Dr Rick Davies, October 2013.
- Ədalətliliyə yönələn qiymətləndirmənin tərtibi və idarə edilməsi, UNİCEF (xüsusilə 4, 5 və 7-ci bölmələr)
- Ədalətli İnkişaf Nəticələri üçün Qiymətləndirmə UNİCEF (xüsusilə Bölmə 2)
- UNDG veb-saytında qeyri-rezident təşkilatlarla bağlı materiallar

***BMT İslahatı***

- "2030-cu il Gündəliyinin icrası üçün BMT İnkişaf Sisteminin mövqeyinin yenidən təşkili: sağlam planetdə ləyaqət, tərəqqi və sülh vədimiz", Baş Katibin hesabatı, 21 yanvar 2017, A/72/684–E/2018/7, (səhifə 12-13 və digərləri).
- BMT-nin Birgə Təftiş Bölməsinin UNDAF üzrə 2016-cı il Tədqiqatı və Nəticə Əsaslı İdarəetmə üzrə Dördillik Əhatəli Siyasi İcmal (QCPR)
- UNDAF, Nəticə Əsaslı İdarəetmə, Rezident Əlaqələndirici Sistemi, İşgüzar təcrübələr, Ortaya çıxan Məsələlər üzrə 2012-ci ilin QCPR tədqiqatları
- Azərbaycanın 2016-cı il QCPR tədqiqatına cavabları
- QCPR Baş Katibinin hesabatları və Baş Assambleyanın Qətnaməsi
- Vahid İcra üzrə müstəqil qiymətləndirmə

# ƏLAVƏ 6: GÖRÜŞ VƏ MÜSAHIBƏ APARILAN ŞƏXSLƏRIN SIYAHISI

**BMT AGENTLİKLƏRİ:**
- BMT-nin Rezident Əlaqələndiricisi Qulam İshaqzai
- UNİCEF-in Nümayəndəsi Edvard Karvardin
- UNFPA-nın Baş Müşaviri Fərid Babayev
- BMTİP-in Rezident Nümayəndəsi və 1-ci və 3-cü Nəticə Qruplarının həmsədri Alessandro Frakassetti
- FAO-nun Nümayəndəliyinin Rəhbəri və 3-cü Nəticə Qrupunun həmsədri Melek Çakmak
- ÜST-nin Ölkə Nümayəndəliyinin Rəhbəri Hande Harmancı
- BMqT-nin Nümayəndəliyinin Rəhbəri Vladimir Qriqoryev
- BMT İHAK-ın İnsan Hüquqları üzrə Müşaviri Kamran Bağırov
- BMT QAK-ın Nümayəndəsi Guido Ambroso

**HÖKUMƏT:**
- **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirinin Müavini,** 2-ci Nəticə Qrupunun həmsədri **Mətin Kərimli,** aşağıdakı rəhbər heyət üzvlərinin müşayiəti ilə:
- Məşğulluq Siyasəti və Demoqrafiya Şöbəsinin müdir müavini Rəna Abdullayeva
- Nazir müşaviri Mustafa Abbasbəyli
- Beynəlxalq əlaqələr şöbəsinin müdiri İradə Usubova
- İctimaiyyətlə əlaqələr və Rabitə şöbəsinin baş məsləhətçisi Emil Cavadov

- **İqtisadiyyat Nazirinin Müavini,** 1-ci Nəticə Qrupunun həmsədri **Sevinc Həsənova,** aşağıdakı rəhbər heyət üzvlərinin müşayiəti ilə:
- İqtisadiyyat Nazirliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin Sosial-İqtisadi Məsələlər üzrə Eksperti Elnur İbrahimov
- Dayanıqlı İnkişaf Şöbəsinin Dayanıqlı sosial-iqtisadi inkişaf məsələləri bölməsinin müdiri Vüsal Qarayev

- **Ekologiya və Təbii Sərvətlər Nazirinin Müavini**, 3-cü Nəticə Qrupunun həmsədri **Rauf Hacıyev,** aşağıdakı rəhbər heyət üzvlərinin müşayiəti ilə:
- Beynəlxalq Əməkdaşlıq şöbəsinin müdiri Emin Qarabağlı
- Ekoloji siyasət şöbəsinin müdiri Rasim Səttarzadə

- **Dövlət Statistika Komitəsinin sədri Tahir Budaqov,** rəhbər heyət üzvlərinin müşayiəti ilə.

- **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bölmə müdirinin müavini Aynur Veysəlova,** aşağıdakı rəhbər heyət üzvlərinin müşayiəti ilə:
- Aparat rəhbəri Ceyran Rəhmətullayeva
- Hüquqi Təminat Şöbəsinin müdiri Taliyə İbrahimova
- Beynəlxalq Əlaqələr və Protokol Xidməti Şöbəsinin müdir müavini Kəmalə Haqverdiyeva
- İnformasiya və Analitik Tədqiqat Şöbəsinin müdir müavini Aynur Veysəlova

**TEMATİK QRUPLAR:**

**Kommunikasiya Qrupu:**

- BMT-nin Rezident Əlaqələndiricisinin Ofisinin Məlumatların İdarə olunması, Nəticələrin Monitorinqi və Hesabatvermə üzrə Müşaviri Gülər Fətəli
- BMTİP-in Kommunikasiya və İctimai Əlaqələr üzrə Müşaviri Arzu Cəfərli
- BMT-nin Qlobal Kommunikasiya Departamentinin müşaviri Rəşad Hüseynov
- UNICEF-in Proqram Köməkçisi Rahilə Kərimova
- BMT-nin Qlobal Kommunikasiya Departamentinin Kommunikasiya üzrə Mütəxəssisi Əbdül Mustafazadə
- ÜST-nin Kommunikasiya üzrə Mütəxəssisi Fənarə Bünyadzadə
- Qlobal Kommunikasiya Departamentinin təcrübəçisi Ülviyyə Hüseynli

**Gender/ İnsan Hüquqları/ DİM qrupları:**

- UNICEF-in Uşaq Hüquqlarının Müdafiəsi üzrə Mütəxəssisi Vüqar Salmanov
- FAO-nun Beynəlxalq Proqramlar üzrə mütəxəssisi Kaan Başaran
- BMT-nin Rezident Əlaqələndiricisinin Ofisinin DİM Siyasəti Müşaviri Delavar Barekzai
- BMTQAK-ın Himayə üzrə Müşavirinin Müavini Samirə Allahverdiyeva
- FAO-nun Proqram və Monitorinq və Qiymətləndirmə Müşaviri Natavan Aslanova
- BMT QAK-ın DİM/Monitorinq və Qiymətləndirmə üzrə Əlaqələndiricisi, Proqram Müşaviri Müavini Nərmin Osmanlı
- BMT-nin Rezident Əlaqələndiricisinin Ofisinin Monitorinq və Qiymətləndirmə üzrə Müşaviri Gülər Fətəli
- UNICEF-in Uşaq Hüquqlarının Monitorinqi üzrə Müşaviri və Monitorinq və Qiymətləndirmə üzrə mütəxəssisi Tamerlan Rəcəbov
- UNFPA-nın Proqram Məsələləri üzrə Müşaviri Bəhicə Əliyeva
- BMT-nin Rezident Əlaqələndiricisinin Ofisinin Siyasət Məsələləri üzrə Müşaviri Elgün Tağıyev
- BMTİP-in DİM Layihəsi üzrə Müşaviri Leyla Ayvazi
- BMTİP-in Proqram Məsələləri üzrə Müşaviri Leyla Fəthi
- BMT İHAK-ın Proqram Koordinatoru Rəşad Əliyev
- BMqT-nin Proqram Koordinatoru Nərgiz Kərimova

**Monitorinq və Qiymətləndirmə Qrupu:**

- BMT-nin Rezident Əlaqələndiricisinin Ofisinin Monitorinq və Qiymətləndirmə üzrə Müşaviri Gülər Fətəli
- UNICEF-in Uşaq Hüquqlarının Monitorinqi üzrə Müşaviri və Monitorinq və Qiymətləndirmə üzrə mütəxəssisi Tamerlan Rəcəbov
- FAO-nun Proqram və Monitorinq və Qiymətləndirmə Müşaviri Natavan Aslanova
- BMTQAK-ın Proqram Məsələləri üzrə Müşavirinin Müavini Nərmin Osmanlı
- BMqT-nin Layihə Koordinatoru Pərvin Vəliyeva

**QHT-lər/Vətəndaş cəmiyyəti təşkilatları:**

- "Gənclər üçün Təhsil Mərkəzi" İctimai Birliyinin Aran Regional Ofisinin rəhbəri Yusif Poladov
- Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurasının (NAYORA) Yerli Layihələr üzrə Mütəxəssisi Araz Əliyev
- Y-PEER Azerbaycanın yerli əlaqələndiricisi Səadət Adullazadə
- BMT-nin Gənclərdən İbarət Məşvərət Şurasının üzvü Jalə Rzayeva

- BMT-nin Gənclərdən İbarət Məşvərət Şurasının üzvü Elniz İsayev
- BMT-nin Gənclərdən İbarət Məşvərət Şurasının üzvü Nərmin Əmirova
- BMT-nin Gənclərdən İbarət Məşvərət Şurasının koordinatoru Cəmilə Məmmədli
- SOS Uşaq Kəndlərinin Milli Direktoru Rəşad Hüseynov
- “Ümidli Gələcək” Gənclər İctimai Birliyinin İcraçı Direktoru Kəmalə Aşumova
- “Ümidli Gələcək” Gənclər İctimai Birliyinin Uşaq Qaynar Xətt Xidmətinin koordinatoru Gülşən Axundova
- “Təmiz Dünya” Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova
- Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev
- "Konstitusiya" Araşdırmalar Fondunun eksperti Zaur İbrahimli
- Şəki regionunda "Uluçay" Sosial-Iqtisadi Innovasiya Mərkəzinin icraçı direktoru İlyas Səfərli (Skype zəngi)

**İNKİŞAF TƏRƏFDAŞLARI**
- Aİ-nin Azərbaycandakı Nümayəndəliyinin İnkişaf Bölməsinin Rəhbəri, Səfir Müşaviri Simona Qatti
- İsveçrə Səfirliyi, Cənubi Qafqaz üzrə İsveçrə Əməkdaşlıq Ofisinin nümayəndəsi Simone Haeberli
- USAİD-in İnkişaf Proqramları (Büdcə) üzrə Mütəxəssisi Elnarə Vəzirova

**BMT-nin ƏMƏLİYYATLAR ÜZRƏ İDARƏETMƏ HEYƏTİ (ƏİH):**
- BMTİP-in Əməliyyatlar üzrə Meneceri Sübhan Əhmədov
- BMqT-nin Satınalma/Logistika üzrə Koordinatoru İlham Kazımov
- BMTQAK-ın İnzibati/Proqram Məsələləri üzrə Müşaviri Nailə Şahbazova
- FAO-nun İnzibati və Maliyyə Məsələləri üzrə Müşaviri Sevil Qasımova
- FAO-nun İnzibati Məsələlər üzrə Köməkçisi Eskinaz Quliyeva
- UNFPA-nın İnzibati/Maliyyə Məsələləri üzrə Müşaviri Elxan Xəlilov
- UNİCEF-in Əməliyyatlar üzrə Meneceri Ceyhun Mirzəyev
- Yerli Təhlükəsizlik Köməkçisi Aynur Əzimova, UNDSS

**NƏTİCƏ QRUPLARI İLƏ SEMİNARLAR:**

**Birinci Nəticə Qrupu: Artan şaxələndirilmə və layiqli əməyi özündə ehtiva edən dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi**
**(11 iyul 2019)**

- Dövlət Statistika Komitəsinin bölmə müdiri Rasim Səfərov
- FAO-nun Proqram və Monitorinq və Qiymətləndirmə Müşaviri Natavan Aslanova
- İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Risklərin İdarə edilməsi üzrə Baş Mütəxəssisi Amin Abdullayev
- İqtisadiyyat Nazirliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin Sosial-İqtisadi Məsələlər üzrə Eksperti Elnur İbrahimov
- İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun mütəxəssisi (marketinq) Rüstəm İmanov
- Səhiyyə Nazirliyinin bölmə müdiri Ziyaddin Kərimov
- Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin baş məsləhətçisi Elvin Məmmədov

- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Məşğulluq siyasəti və demoqrafiya şöbəsinin müdir müavini Rəna Abdullayeva
- İqtisadiyyat Nazirliyinin məsləhətçisi Anar Məmmədov
- BMTİP-in Proqram Məsələləri üzrə Müşaviri Leyla Fəthi
- Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bölmə müdirinin müavini Aynur Veysəlova
- BMqT-nin Layihə Köməkçisi Könül Cəfərova
- Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Hasil Əliyev
- Maliyyə Nazirliyinin məsləhətçisi Elxan Əmrəliyev
- Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin bölmə müdiri Sənan Hüseynov
- ABAD-ın baş məsləhətçisi Mətin Qasımov
- İqtisadiyyat Nazirliyinin baş məsləhətçisi Toğrul Məmmədov
- FAO-nun Nümayəndəsinin Müavini Dinara Abbas
- Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin hüquq və insan resursları şöbəsinin müdiri
- İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunun baş mütəxəssisi Aliyə Şabanova
- Xarici İşlər Nazirliyinin bölmə müdiri Emin Məmmədov
- Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin bölmə müdiri Fuad Əhmədov
- Ombudsman Aparatının bölmə müdiri Rəşad Novruzov
- BMTQAK-ın Himayə üzrə Müşavirinin Müavini Samirə Allahverdiyeva
- BMTQAK-ın Proqram Məsələləri üzrə Müşavirinin Müavini Nərmin Osmanlı

**İkinci Nəticə Qrupu: İnstitusional potensialın gücləndirilməsi və effektiv dövlət xidmətləri və sosial xidmətlər**
**(11 iyul 2019)**

- UNFPA-nın Proqram Məsələləri üzrə Müşaviri Bəhicə Əliyeva
- Dövlət Miqrasiya Xidmətinin Baş Müfəttişi Vaqif Mansurov
- Ədliyyə Nazirliyinin nümayəndəsi Bağdagül Əliyeva
- UNİCEF-in Nümayəndəsinin müavini Min Yuan
- Təhsil Nazirliyinin Hesabatlılıq və Monitorinq Bölməsinin müdiri Yaşar Zeynalov
- Səhiyyə Nazirliyinin Statistika şöbəsinin müdiri Şahin Xasıyev
- Gənclər və İdman Nazirliyinin Bölmə müdiri Nərmin Aslanbəyova
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Nazir Müşaviri Mustafa Abbasbəyli
- BMTQAK-ın Proqram Məsələləri üzrə Müşavirinin Müavini Nərmin Osmanlı
- ÜST-nin Ölkə Nümayəndəliyinin Rəhbəri Hande Harmancı
- BMT İHAK-ın Proqram Koordinatoru Rəşad Əliyev
- İqtisadiyyat Nazirliyinin baş məsləhətçisi Toğrul Məmmədov
- İqtisadiyyat Nazirliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin Sosial-İqtisadi Məsələlər üzrə Eksperti Elnur İbrahimov
- BMqT-nin Layihə Köməkçisi Könül Cəfərova
- ABAD-ın şöbə müdiri Vüsal Arzumanlı
- İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Strateji Təhlil Şöbəsinin Baş Mütəxəssisi Amin Abdullayev
- Xarici İşlər Nazirliyinin Birinci Katibi Xuraman İsmayıllı

- Daxili İşlər Nazirliyinin bölmə müdiri Adıgözəl Adıgözəlov
- BMTİP-in Proqram Məsələləri üzrə Müşaviri Elnur Xəlilov
- Dövlət Statistika Komitəsinin bölmə müdiri Rasim Səfərov
- Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin hüquq və insan resursları şöbəsinin müdiri

**Üçüncü Nəticə Qrupu: Ətraf mühitin idarə edilməsi və onun təhlükə və fəlakətlərə müqavimətinin təkmilləşdirilməsi**
**(12 iyul 2019)**

- Fövqəladə Hallar Nazirliyinin bölmə müdiri, İşçi Qrupun üzvü Nəcibə Əfəndiyeva
- BMTİP-in Proqram Məsələləri üzrə Baş Müşaviri Çingiz Məmmədov
- ANAMA-nın Planlaşdırma və İnkişaf bölməsinin müdiri
- İqtisadiyyat Nazirliyi, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinin Sosial-İqtisadi Məsələlər üzrə Eksperti Elnur İbrahimov
- İqtisadiyyat Nazirliyinin məsləhətçisi Anar Məmmədov
- Fövqəladə Hallar Nazirliyinin Layihə İdarəetməsi üzrə Baş Məsləhətçisi Mikayıl İsmayılov
- Dövlət Statistika Komitəsinin bölmə müdiri Rasim Səfərov
- Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyinin bölmə müdiri Sahib Xəlilov
- ÜST-nin Ölkə Nümayəndəliyinin Rəhbəri Hande Harmancı
- Ekologiya və Təbii Sərvətlər Nazirliyinin bölmə müdiri Faiq Mütəllimov
- Səhiyyə Nazirliyinin bölmə müdiri Ziyaddin Kərimov
- FAO-nun Proqram və Monitorinq və Qiymətləndirmə Müşaviri Natavan Aslanova
- İqtisadiyyat Nazirliyinin baş məsləhətçisi Toğrul Məmmədov
- Aqrar Tədqiqatlar Mərkəzinin Monitorinq və qiymətləndirmə üzrə baş mütəxəssisi Əbdülrəhim Dadaşov
- Energetika Nazirliyinin məsləhətçisi Xatirə Abbasova
- FAO-nun Nümayəndəsinin Müavini Dinara Abbas
- Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC
- SOCAR-ın Ətraf mühit layihələri şöbəsinin müdirinin müavini Ayaz Salmanov

# ƏLAVƏ 7: MƏSLƏHƏTÇILƏRIN TƏRCÜMEYI-HALI

**Kristian Privat, Beynəlxalq Məsləhətçi**
cprivat8@gmail.com

Kristian Privat insanların dayanıqlı inkişafı sahəsində ixtisaslaşmış beynəlxalq məsləhətçidir. O, BMT üçün inkişaf proqramlarının qiymətləndirilməsi üzrə böyük təcrübəyə malikdir. Onun fəaliyyəti əsasən Birləşmiş Millətlər Təşkilatının İnkişafa Yardım Çərçivələrinin (UNDAF), ölkə proqramlarının, birgə proqramların, proqram və layihələrin, "Vahid icra" yanaşmasının, bəzi sahələrarası məsələlərin, xüsusilə insan hüquqlarına əsaslanan yanaşmanın və gender bərabərliyi prinsiplərinin qiymətləndirilməsini əhatə edir.

O, BTM sistemində inkişaf sahəsi üzrə 23 illik təcrübəyə malikdir (qiymətləndirmə sahəsində 13 il, digər sahələrdə 10 il). BMT-nin Ölkə üzrə İdarə Heyətləri ilə sıx əməkdaşlıqdan əlavə, onun sahə işi səviyyəsində BMT İnkişaf Sistemi ilə və BMT-nin bir sıra təşkilat və idarələri ilə (UNDP, UNICEF, UNFPA, BƏT, UNDEF, UNDESA, BMTİHAK, və UNOSSC) böyük iş təcrübəsi var.

O, müxtəlif ölkələrdə və regionlarda UNDAF-ın 15 qiymətləndirməsini və aralıq icmallarını həyata keçirib: Qana, Peru (2 təyinat), Misir, Banqladeş, Mərkəzi Afrika Respublikası, Benin, Meksika, Nigeriya, Tacikistan, Barbados və Şərqi Karib Dövlətləri, Monteneqro, Qazaxıstan və Azərbaycan (2).

O həmçinin Minilliyin İnkişaf Məqsədlərinə Nailolma Fondunun birgə proqramlarının 6 aralıq və yekun qiymətləndirmələrini həyata keçirmişdir: Gənclər, Məşğulluq və Miqrasiya üzrə dörd (Peru, Paraqvay və Kosta Rikada iki dəfə), Mədəniyyət və İnkişaf (Honduras) üzrə bir və Münaqişələrin qarşısının alınması və sülh quruculuğu üzrə bir (Haiti). Bundan əlavə, o, doqquz fokus ölkələrindən biri olan Mavritaniyada MİM-lərə Nailolma Fondunun ölkə qiymətləndirməsi aparmışdır.

Eyni zamanda o, UNİCEF üçün Misirdə Ölkə Proqramının qiymətləndirməsini, Qana, Malavi və Türkiyədə iki "Strateji Refleksiya Anı" və əlavə olaraq Kubada orta müddətli icmal həyata keçirmişdir. O, həmçinin BMTİP (Monteneqro) və BMTİHAK (Meksika) üçün daha iki ölkə proqramı qiymətləndirməsini aparmışdır. O, Küveytdə Ölkə Təhlili və Ukrayna və Tacikistanda insan hüquqlarına əsaslanan ölkə təhlili də hazırlamışdır (UNDAF ilə əlaqəli).

O həmçinin "BMT-nin Küveytdəki mövcudluğu, vahidliyi və strateji mövqeyinin gücləndirilməsi və Vahid İcra yanaşması üzrə öyrənilmiş dərslər" barədə araşdırma aparmışdır.

O, BMT-nin Baş Assambleyasının, xüsusilə UNDAF və nəticə əsaslı idarəetmə təhlilləri üzrə "İnkişaf sahəsindəki əməliyyat fəaliyyətlərinin dördillik əhatəli siyasi icmalı (QCPR)" üçün BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti ilə çalışmışdır.

O, xüsusilə öz UNDAF və Birgə Proqram qiymətləndirmələri zamanı insan hüquqlarına əsaslanan yanaşma, gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsinə diqqət yetirmişdir.

O, bu missiyaları dünyanın bir çox ölkə və regionlarında xüsusilə də Latın Amerikası və Mərkəzi Amerika, Afrika, Orta Şərq, Mərkəzi və Şərqi Avropa və MDB regionu və Orta Asiyada icra etmişdir.

Bundan əlavə o, UNICEF-in Kuba ofisində Proqram Müşaviri kimi və UNICEF-in Nyu-Yorkdakı Baş Qərargahında, Qiymətləndirmə Ofisində, Proqramlar Bölməsində, Siyasət və Planlaşdırma Bölməsində, Proqram Maliyyələşdirmə Ofisində və İcraçı Direktorun Ofisində Məsləhətçi və Proqram Müşaviri olaraq çalışıb.

Kristian Privat Paris II Universitetində Beynəlxalq İdarəetmə və Beynəlxalq Hüquq üzrə magistr dərəcəsi, İtaliyanın Florensiya Universitetində Siyasi Elmlər və Beynəlxalq Münasibətlər üzrə bakalavr dərəcəsi (Laurea) və Fransanın Sent-Etyen Universitetində İdarəçilik, İqtisadi və Sosial Elmlər üzrə bakalavr dərəcəsi almışdır. O həmçinin Kolumbiya Universitetində, Hüquq məktəbində, Beynəlxalq və İctimai İşlər məktəbində və İnsan Hüquqları üzrə Tədris Mərkəzində 10 kurs keçmişdir. Bundan əlavə Kristian müntəzəm olaraq öz qiymətləndirmə işlərində tətbiq etdiyi aparıcı interaktiv seminarlar barədə təlim keçmişdir. O, ana dili fransız dili ilə yanaşı ingilis, ispan və italyan dillərində sərbəst danışır.

**Rahim Saatov, Milli Məsləhətçi**
rahim.saakov@gmail.com

BMT-nin ekspert fasilitatoru, qiymətləndirmə mütəxəssisi və inkişaf koordinasiyası üzrə mütəxəssis Rahim Saatov Afrika, Avropa, Asiya və Şimali Amerikada, o cümlədən Azərbaycanda 15 illik təcrübəyə malikdir. O, 5 il yarımdan artıq bir müddətdə BMT üçün işləmiş və UNAIDS, UNFPA və digər qurumlarla qısa müddətli missiyalar çərçivəsində 20-dən çox ölkədə proqram müşaviri, proqram koordinatoru, təlimçi və məsləhətçi kimi çalışmışdır.

O, çox vaxt təcrid olunmuş vəziyyətdə olan qruplar üçün həssas olan insan hüquqları mövzusu üzrə BMT-nin daxili siyasətini təşviq etmiş və 2017-ci ildə Azərbaycan da daxil olmaqla 17 ölkədə müxtəliflik və inklüzivlik siyasəti təşəbbüsünü yaymışdır. Cənab Saatovun koordinasiya və potensialın artırılması üzrə Rusiya Federasiyasının Moskva şəhərindəki "UN Cares" heyətinin işinə göstərdiyi töhfə BMT-nin Baş Katibi Pan Gi Mun tərəfindən qeyd olunmuş və o, bu işi 2016-cı ildə qlobal "UN Cares" mükafatına layiq görmüşdür.

Onun ixtisaslaşdığı əsas sahələr təlim/bələdçilik (fasilitasiya), BMT-nin ölkə səviyyəsində dəyişikliklərin idarə edilməsi üzrə proseslərinin hazırlanması, strateji planlaşdırma, layihələrin idarə edilməsi və qiymətləndirmədir. O, hökumət, BMT və digər inkişaf tərəfdaşları ilə işləyir.

Cənab Saatov dayanıqlı inkişaf məqsədləri, qısnama və ayrı-seçkilik üzrə təşviqat və kommunikasiya ilə bağlı məsələlərin təhlili və idarə edilməsi, komanda işinin təkmilləşdirilməsinə və rəhbərlərin öhdəçiliyinə

təkan verən hesabatlılıq sistemlərinin yaradılması, fəaliyyətin qiymətləndirilməsi prosesinin planlaşdırılması və qiymətləndirmənin aparılmasına müxtəliflik və inklüzivlik anlayışlarının daxil edilməsi və BMT-nin müxtəlif proqram idarəçiliyi kontekstlərində əməkdaşlıq yönümlü komandalarının formalaşdırılması və əlaqələndirilməsi sahələrində təcrübəyə malikdir.

Cənab Saatov Finlandiyanın Jyvaskyla Universitetində inkişaf və beynəlxalq əməkdaşlıq ixtisası ilə sosial elmlər üzrə magistr dərəcəsi və Azərbaycanın Xəzər Universitetində Biznes İdarəçiliyi üzrə bakalavr dərəcəsi almışdır. O həmçinin Harvard Kennedi İdarəçilik Məktəbində və BMT Sisteminin Kadrlar Kollecində liderlik, korporativ sosial məsuliyyət, sosial dəyişiklik və idarəetmə proqramlarını bitirmişdir. Rahim Azərbaycan (ana dili), İngilis, Rus, Fin dillərində sərbəst və fransız dilində başlanğıc səviyyədə danışır.

# ƏLAVƏ 8: MARAQLI TƏRƏFLƏRIN TƏHLILI

UNAPF qiymətləndirməsi birgə iştirak şəraitində keçirilmiş, qiymətləndirmənin müxtəlif mərhələlərində əsas maraqlı tərəflərin (əsasən hökumət rəsmiləri, bir neçə vətəndaş cəmiyyəti təşkilatı və inkişaf/BMT tərəfdaşları) iştirakı cəlb olunmuşdur. Maraqlı tərəflərin müvafiq qrupları ilə müsahibələr və görüşlər vasitəsilə müxtəlif maraqlı tərəflərin baxışlarını əks etdirmək məqsədilə, maraqlı tərəflərin cəlb olunmasına və qiymətləndirməyə sahibliyin gücləndirilməsinə münasibətdə birgə iştiraka və imkanlardan istifadəyə əsaslanan yanaşmadan istifadə edilib. Nəticə qrupları ilə görüşlər, müsahibələr, maraqlı tərəflərdən faktlarla bağlı düzəlişlərin müəyyən edilməsi üçün hesabatın ilkin layihəsinin bölüşülməsi vasitəsilə maraqlı tərəflərin UNAPF-la bağlı rəyləri əldə olunub.

Qiymətləndirmənin maraqlı tərəfləri dedikdə, proqramın qiymətləndirilməsində və/yaxud qiymətləndirmənin aşkar etdiyi faktlarda marağı olan fərdlər nəzərdə tutulur. Hər hansı proqramda müxtəlif qrupları, onların qiymətləndirmə prosesinə nə zaman daxil edilməli olduğunu müəyyən etməyə kömək edən ən effektli alət maraqlı tərəflərin təhlilidir. Bu hədəf istifadəçilərin alt-qrupunu və onların hər birinin qiymətləndirməyə maraqlarının müəyyən edilməsinə, habelə maraqlı tərəflərdən alınan məlumatların prioritetləşdirilməsinə və balanslaşdırılmasına kömək edən vasitələrin müəyyən edilməsinə xidmət edir. Proqramın birbaşa təsir etdiyi və ya toxunduğu maraqlı tərəfləri onun qiymətləndirilməsinin tərtibatı, planlaşdırılması və icrasına cəlb etmək hər hansı qiymətləndirmə prosesinin təməl prinsiplərindən biridir.

BMT-nin mandatlarına uyğun olaraq, kişi və qadınları cəlb etməklə maraqlı tərəflərin iştirakının cəlb edilməsi BMT-nin öhdəliyidir və hər bir benefisiar onların həyatlarına təsir edən proseslər və proqramlar barədə fikrini bildirmək hüququna malikdir. Qiymətləndirmə də bu baxımdan istisna deyil. Onun insan hüquqları və gender bərabərliyini nəzərə alması üçün müəyyən edilmiş maraqlı tərəflərə öhdəlik və hüquq daşıyıcılarının, kişi v qadınların daxil edilməsini təmin etmək zəruridir. UNEG-in norma və standartları şəffaflığı və proqramın əsas maraqlı tərəfləri ilə məsləhətləşməni birbaşa tələb edir (Norma 10.1; Standart 4.10).

İnsan hüquqları və gender bərabərliyinin qiymətləndirmə üzrə maraqlı tərəflərin təhlilinə inteqrasiyası üçün maraqlı tərəflərin beş əsas növü nəzərdən keçirilir:

- Proqram üzərində qərarvermə səlahiyyətinə malik öhdəlik daşıyıcıları, məsələn, idarəetmə orqanları və ya rəhbər komitələr;
- Proqram üçün birbaşa məsuliyyət daşıyan öhdəlik daşıyıcıları, məsələn, proqram menecerləri;
- İkinci dərəcəli öhdəlik daşıyıcıları, məsələn, özəl sektor və ya valideynlər;
- Proqramın nəzərdə tutulan və tutulmayan benefisiarları olan hüquq sahibləri (fərdi şəkildə və ya onların adından çıxış edən vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə);
- Proqramda təmsil olunmalı olan, lakin təmsil olunmayan və ya proqramın mənfi təsirinə məruz qalan hüquq sahibləri (fərdi şəkildə və ya onların adından çıxış edən vətəndaş cəmiyyəti təşkilatları vasitəsilə).

Dövlət və hökumət qurumları, vətəndaş cəmiyyəti təşkilatları (o cümlədən insan hüquqlarını təşviq edən təşkilatlar və ya təcrid olunmuş və/yaxud ayrı-seçkiliyə məruz qalmış qadınları və ya fərdləri/qrupları təmsil edən təşkilatlar) və sosial hərəkatlar vacib tərəfdaşlardır. Çünki onlar proqramın konteksti barədə

dərin biliklərə malikdir və vətəndaş cəmiyyətinin maraqlarını və ehtiyaclarını təmin edərək, qiymətləndirmə müddətində hesabatlılığı gücləndirir.

Maraqlı tərəflərin təhlilinin aparılması müxtəlif maraqlı tərəflər arasında istifadəçilərin müəyyən edilməsi qiymətləndirmənin rəhbərlərinə və qiymətləndirməni həyata keçirən mütəxəssislərə müxtəlif qrupların prosesə nə dərəcədə cəlb olunacağını müəyyən edir. Bundan sonra qiymətləndirmə rəhbərlərinin mümkün qədər çox əsas maraqlı tərəf qruplarını daxil etməsi üçün maraqlı tərəflər beş əsas kateqoriyaya ayrıldı. Bu, insanları yekcins qrup kimi (məs. benefisiarlar) qəbul etməyərək, müxtəlif qrupların mövcud olduğunu və proqramların təsirinə fərqli formalarda məruz qaldığını anlayaraq və qəbul edərək inklüzivliyi təmin etmək üçün çox vacibdir.

Maraqlı tərəflərin UNAPF üzrə bu qiymətləndirmə prosesində iştirakı dəyişir və ortaya çıxan müxtəlif çətinliklər (təşkilati, maliyyə və vaxt məsələləri) nəzərə alınmalıdır. Qiymətləndirmə mütəxəssisi, qiymətləndirmə rəhbəri və qiymətləndirmə üzrə metodiki qrup maraqlı tərəfin iştirakının səviyyəsini bu iştirakın faydalarını və məhdudiyyətlərini nəzərə almaqla müəyyən etməlidir.

Maraqlı tərəflərin təhlili həm də bu qiymətləndirmədə mümkün qərəzi aradan qaldırmaq üçün faydalı alət olub. Qiymətləndirmə büdcə və vaxt məhdudiyyətləri ilə müşayiət olunduğu üçün, məsləhətçilər ən əlçatan (coğrafi, linqvistik və s. baxımından), proqramın birbaşa benefisiarları olan və ya icraçı orqanlarla əlaqəli olan maraqlı tərəflərlə görüşüb. QHT-lərlə keçirilən görüşlərdən əlavə, UNAPF tədbirlərindən kənarda qalmış və ya onun nəticəsində vəziyyəti pisləşmiş ola biləcək yekun benefisiarlar qrupundan məlumat toplanılmayıb.

Əlavə 8-də maraqlı tərəflərin təhlili çərçivəsi təqdim olunur. Bu alət insan hüquqlarını və gender bərabərliyini birbaşa nəzərə almaqla, maraqlı tərəflərin müəyyən edilməsində və qiymətləndirmə formasında kimin hansı formada iştirak etməsinə dair qərarın verilməsində qiymətləndirmə mütəxəssislərinə kömək etmək üçün UNEG tərəfindən "Qiymətləndirmədə insan hüquqları və gender bərabərliyinin inteqrasiyası üçün təlimat"da [54] hazırlanıb. Çərçivə bu qiymətləndirmənin spesifik xüsusiyyətlərini əks etdirmək üçün beynəlxalq məsləhətçi tərəfindən doldurulub. Aşağıdakı **maraqlı tərəflərin təhlili**nə nəzər salın.

Bu tapşırıq inklüzivliyin təmin olunması tələbini qiymətləndirmə prosesinin səmərəli şəkildə idarə edilməsi zərurəti ilə diqqətli şəkildə balanslaşdırmağa kömək edir. Maraqlı tərəflərin bu təhlili insan hüquqları və gender bərabərliyi aspektlərini təmin etdi, ilkin hesabatın hazırlanmasından məlumatların toplanması üçün məqsədəuyğun metodların seçilməsi və bütün bu məsələləri nəzərdə saxlayaraq qiymətləndirmənin aparılmasına qədər qiymətləndirmə prosesi boyu iştirakı və inklüzivliyi artırmağa kömək edib. Maraqlı tərəflərin təhlilində əsas məhdudiyyətlərdən biri ondan ibarət olub ki, UNAPF-ın maraqlı tərəfləri əsasən hökumət nümayəndələridir və digər ölkələrdən fərqli olaraq UNAPF-ın icrasına cəlb olunan vətəndaş cəmiyyəti təşkilatlarının, gənclər təşkilatlarının və digər tərəfdaşların sayı aşağı olub. Bundan əlavə, onlar nəticə qruplarında iştirak etmir və təmsil olunmur.

[54] Qiymətləndirmədə insan hüquqları və gender bərabərliyinin inteqrasiyası üçün təlimat, UNEG-in təlimatı, 2014, bax: http://uneval.org/document/detail/1616.

## Maraqlı tərəflərin təhlili çərçivəsi

| Kim (maraqlı tərəflər, zərurət olduqda bölgü ilə) | Nə (onların dəstək tədbirində rolu) | Niyə (qiymətləndirmədə iştirakın məqsədi) | Prioritet (qiymətləndirmə prosesinə cəlb edilməsinin nə qədər önəmli olması) | Nə zaman (onların cəlb olunduğu qiymətləndirmə mərhələsi) | Necə (maraqlı tərəflərin iştirak formaları və imkanları) |
|---|---|---|---|---|---|
| **Dəstək tədbiri ilə əlaqədar qərar vermək səlahiyyətinə malik öhdəlik daşıyıcıları**<br>**Nümunə: Hökumət təşkilatları, vəzifəli şəxslər və rəhbərlər** | UNAPF-ın İstiqamətləndirici Komitəsinin üzvləri Hökumət rəsmiləri | Məsələhətləşmək: Maraqlı tərəfi qiymətləndirmənin gedişatı və nəticələri barədə məlumatlı saxlamaq, onları dinləmək və maraqlı tərəfin töhfəsinin qiymətləndirməyə necə təsir etdiyinə dair rəy vermək | Qiymətləndirmə üçün yüksək səviyyədə uyğunluq | Hazırlıq (məs. texniki tapşırığın hazırlanması, o cümlədən iş həcminin müəyyən edilməsi)<br><br>Rəhbərliyin cavabı | İstiqamətləndirici Komitənin üzvləri kimi və əsas Hökumət rəsmiləri kimi |
| **Dəstək tədbiri üçün birbaşa cavabdehliyi olan öhdəlik daşıyıcıları. Məsələn: hökumət və proqram rəhbərləri; vətəndaş cəmiyyəti təşkilatları; tərəfdaşlar (fərdi və təşkilatlar); inkişaf tərəfdaşları (maliyyələşdirən qurumlar)** | Öhdəlik daşıyıcıları İcraçı tərəfdaşlar Maliyyələşdirən tərəflər | Birgə əməkdaşlıq etmək: Müxtəlif qiymətləndirmə variantlarını nəzərdən keçirərkən, maraqlı tərəfləri narahat edən məsələlərin nəzərə alınmasını təmin etmək üçün onlarla işləmək; Onların variantlara nəzər yetirmək imkanına malik olmasını təmin etmək və verdikləri məlumatın qiymətləndirmədə necə istifadə olunduğuna dair rəy vermək. | Qiymətləndirmə üçün yüksək səviyyədə uyğunluq | İlkin və əsas tədqiqat (qiymətləndirmə strukturunun hazırlanması, qiymətləndirmə suallarının və meyarlarının çərçivəsinin müəyyən edilməsi)<br><br>Məlumatların toplanması və təhlili<br><br>Hesabatın hazırlanması | Məlumat verən iştirakçı kimi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | Səlahiyyətləndirmək: Qiymətləndirmə üçün səlahiyyəti maraqlı tərəfə ötürmək - bu, onların qiymətləndirməsidir. Qiymətləndirmə heyəti onların qərarlarına kömək etmək üçün variantlar təklif edəcək və məsləhətlər verəcək. Qərarvermə səlahiyyəti son nəticədə bu maraqlı tərəfdə qalır, qiymətləndirmə heyəti onun qərarlarına dəstək göstəriləcək və məlumatlarla kömək edəcəkdir. | | | |
| **İkinci dərəcəli öhdəlik daşıyıcıları. Məsələn: özəl sektor, digər orqanlar, işəgötürənlər, dövlət qulluqçuları və biznes assosiasiyaları, məktəblər, tibb müəssisələri, uşaq və ailəyə dəstək mərkəzləri** | Öhdəlik daşıyıcıları | Məlumatlandırmaq: Maraqlı tərəfi qiymətləndirmənin gedişatı və nəticələri barədə məlumatlı saxlamaq | Qiymətləndirmə üçün aşağı səviyyədə uyğunluq | Yaymaq | Qiymətləndirmə barədə məlumatlandırılacaq auditoriya kimi |
| **Dəstək tədbirindən bu və ya digər formada faydalanacaq hüquq daşıyıcıları** | İkinci dərəcəli benefisiar və hüquq daşıyıcıları | Birgə əməkdaşlıq etmək: Maraqlı tərəfin məsləhətlərini və narahatlıqlarını mümkün | Qiymətləndirmə üçün orta səviyyədə uyğunluq | Məlumatların toplanması və təhlili<br><br>Yaymaq | Qiymətləndirmə barədə məlumatlandırılacaq auditoriya kimi |

| | | | | | |
|---|---|---|---|---|---|
| **Məsələn: müəssisələrdəki uşaqlar, qadınlar, kişilər, oğlanlar, qızlar, yeniyetmələr, həssas qruplar, gənclər, qadınlar, əlilliyi olan şəxslər - xüsusilə kənd yerlərində yaşayanlar, gənc sahibkarları, iş axtaranlar, işçilər, məcburi köçkünlər və miqrantlar,** | | ən yüksək dərəcədə nəzərə almaq və onun qiymətləndirmə prosesində faydalı iştirakı üçün imkanlar yaratmaq | | | |
| **Dəstək tədbiri nəticəsində əlverişsiz vəziyyətdə olan hüquq sahibləri**<br>**Məsələn: qadınlar, kişilər, qızlar, oğlanlar, digər qruplar üzrə bölgüdə** | Dəstək təsirinin təsirinə məruz qalmayan qeyri-iştirakçılar | Məlumatlandırmaq: Maraqlı tərəfi qiymətləndirmənin gedişatı və nəticələri barədə məlumatlı saxlamaq | Orta səviyyədə uyğunluq | Yaymaq | Qiymətləndirmə barədə məlumatlandırılacaq auditoriya kimi |
| **Dəstək tədbirində birbaşa iştirak etməyən digər maraqlı qruplar**<br>**Məsələn: ərazidə işləyən digər inkişaf təşkilatları; vətəndaş cəmiyyəti təşkilatları; digər təşkilatlar, özəl bizneslər, qeyri-hökumət maraqlı tərəflər və s.** | İkinci dərəcəli benefisiar və hüquq daşıyıcıları | Məlumatlandırmaq: Maraqlı tərəfi qiymətləndirmənin gedişatı və nəticələri barədə məlumatlı saxlamaq | Orta səviyyədə uyğunluq | Yaymaq | Qiymətləndirmə barədə məlumatlandırılacaq auditoriya kimi |

## *Əlavə 9: Qiymətləndirmə çərçivəsi*

Bu çərçivə qiymətləndirmənin istiqamətləndirilməsi üçün mühüm alətdir. O, meyar və sualların siyahısından hazırlanıb və qiymətləndirmə heyətinə, Qiymətləndirmə üzrə Metodiki Qrupa və UNCT-ə əsas qiymətləndirmə arqumentlərinin öyrənilməsində kömək edir. Çərçivə qiymətləndirmə meyarlarını və suallarını, göstəriciləri və ya uğur standartlarını, məlumat mənbələrini və məluma toplama üsullarını göstərir.

| Qiymətləndirmə sualları | Göstəricilər/uğur standartları | Məlumat mənbələri | Məlumat toplama üsulları |
|---|---|---|---|
| **Uyğunluq və strateji mövqe**<br><br>1. UNAPF-ın hökumətin və digər maraqlı tərəflərin strategiyalarına münasibətdə mövqeyi nə dərəcədə stratejidir?<br><br>2. UNAPF nəticələri hazırkı proqram dövrünün əvvəlində müəyyən edilmiş məsələlər, onların səbəbləri və çətinliklər baxımından, habelə milli siyasətlər və strategiyalar kontekstində aktualdırmı?<br><br>3. UNAPF nəticələri beynəlxalq səviyyədə razılaşdırılmış məqsədlər və öhdəliklər, BMT sisteminin işini istiqamətləndirən norma və standartlar (o cümlədən CEDAW, CPRD, CRC və s., Azərbaycanın qoşulduğu bütün beynəlxalq ətraf mühit və insan hüquqları sazişləri, digər müvafiq insan hüquqları standartları və qiymətləndirmələr) baxımından aktualdırmı?<br><br>4. UNAPF sənədi BMT-nin təşkilatları və Hökumət qurumları tərəfindən onların fəaliyyətlərinin planlaşdırılmasında, məqsədlərin təyin olunmasında və əməkdaşlıq zamanı istifadə olunubmu? | UNAPF-ın nəticələri və spesifik tədbirləri ilə milli prioritet və hədəflər (məs."Azərbaycan 2020: Gələcəyə baxış) arasında uzlaşmaya dair dəlillər<br><br>Maraqlı tərəflər arasında UNFP nəticələri və seçilmiş milli prioritetlər arasında əlaqələr barədə ortaq təsəvvür<br><br>UNAPF sənədində və nəticələr çərçivəsində beynəlxalq səviyyədə razılaşdırılmış məqsəd və öhdəliklər, norma və standartların aydın müəyyən edilməsi<br><br>Maraqlı tərəflər təsdiq edir ki, UNAPF sənədi BMT-nin təşkilatları və Hökumət qurumları tərəfindən onların fəaliyyətlərinin planlaşdırılmasında, məqsədlərin | UNAPF sənədi və icra hesabatları<br><br>Birgə illik icmal görüşlərinin hesabatları, 2017, 2018 və 2019<br><br>Rezident Əlaqələndiricinin illik hesabatları, 2016-2018-ci illər üzrə<br><br>UNAPF-n 2017, 2018 və 2019-cu illər üzrə müştərək iş planları<br><br>İstiqamətləndirici Komitənin | Masaüstü təhlil<br><br>UNAPF Nəticə Qrupları ilə görüşlər<br><br>BMT təşkilatlarının nümayəndələri ilə görüşlər/müsahibələr<br><br>1-ci, 2-ci və 3-cü prioritet sahələrə məsul milli maraqlı tərəflərlə müsahibələr/görüşlər<br><br>UNCT, Rezident əlaqələndirici və digər maraqlı tərəflərlə məlumatlandırma görüşü<br><br>Qeyri-hökumət maraqlı tərəflərlə görüş |

| | | | |
|---|---|---|---|
| | təyin olunmasında və əməkdaşlıq zamanı istifadə olunub. | iclaslarının protokolları | İnkişaf tərəfdaşları ilə görüş |
| **Tərtibat:**<br><br>1. Hazırkı UNAPF nə dərəcədə nəticəyönümlü, ardıcıl və spesifik çərçivə kimi tərtib olunub?<br><br>2. UNAPF-ın icra təqvimi, resurslar və planlaşdırılan Ölkə Proqramları, layihələr və proqram strategiyalarını nəzərə alaraq, gözlənilən nəticələrin əldə olunması realdırmı?<br><br>3. Cari nəticələrin tərtib olunma üsulu BMT sisteminin töhfəsini müəyyən etməyə (nəticələri BMT ilə əlaqələndirməklə) imkan verirmi? Gözlənilən nəticələr və göstəricilər bu baxımdan "SMART" meyarlara cavab verirmi? Növbəti UNAPF üçün nəyi yaxşılaşdırmaq olar?<br><br>4. Nəticə göstəriciləri, hədəfləri və ilkin vəziyyət məlumatları tez-tez toplanılırmı, etibarlı və yaxşı keyfiyyətlidirmi? | UNAPF nəticə əsaslı idarəetmə metodologiyasına uyğun olaraq, nəticələrin məntiqi aydın müəyyən edilmiş nəticə və məhsulları əks etdirir.<br><br>UNAPF-ın Nəticələr Çərçivəsinin UNDG/UNEG təlimatlarına və "SMART" meyarlarına əsasən qiymətləndirilməsi<br><br>Nəzərdə tutulan nəticələr UNAPF-ın vaxt çərçivəsi, resursları və ölkə üzrə planlaşdırılan tədbirlər üçün reallığa uyğundur.<br><br>UNAPF-ın monitorinqini aparmaq asandır və onu qiymətləndirmək mümkündür.<br>"SMART" göstəricilər hər bir nəticə və məhsula təyin olunub<br><br>Göstəricilər, ilkin vəziyyət məlumatları və hədəflər icra zamanı əldə olunan irəliləyişi qiymətləndirmək üçün yetərlidir<br><br>Nəticə Çərçivəsinin monitorinq və qiymətləndirmə məqsədləri üçün | UNAPF sənədi<br><br>UNAPF nəticə qruplarının həmsədrlərinin görüşü, görüş protokolları, 7 dekabr 2018 | Masaüstü təhlil<br><br>UNAPF Nəticə Qrupları ilə görüşlər<br><br>BMT təşkilatlarının nümayəndələri ilə görüşlər/müsahibələr<br><br>1-ci, 2-ci və 3-cü prioritet sahələrə məsul milli maraqlı tərəflərlə müsahibələr/görüşlər<br><br>UNCT, Rezident əlaqələndirici və digər maraqlı tərəflərlə məlumatlandırma görüşü |

| | | | |
|---|---|---|---|
| | istifadəçilər üçün asanlığı barədə dəlillər və maraqlı tərəflərin düşüncələri | | |
| **Effektivlik:**<br><br>1. UNAPF nəticələrinin milli prioritetlərə nail olunmasına töhfə və UNAPF çərçivəsində əks olunan göstəricilər baxımından reallaşması istiqamətində nə dərəcədə irəliləyiş əldə olunub?<br><br>2. UNAPF nəticələrinə və milli inkişaf məqsədlərinə doğru irəliləyişə müsbət və ya mənfi töhfə verən amillər hansılardır? Hər hansı gözlənilməyən nəticələr (əgər varsa) milli inkişafa mənfi və ya müsbət formada necə təsir göstərib və onlar nə dərəcədə qabaqcadan proqnozlaşdırılıb və idarə olunub?<br><br>3. UNAPF milli potensialların (o cümlədən milli səviyyədə icra və institusional quruculuq), siyasi və hüquqi çərçivələrin gücləndirilməsinə və tərəfdaşlıqların qurulmasına nə dərəcədə nail olub?<br><br>4. UNAPF üç nəticə sahəsi ilə əlaqəli siyasətlərin formalaşdırılmasına və icrasına nə dərəcədə təsir göstərib?<br><br>5. UNAPF məlumatların cins, yaş, coğrafi yerləşmə və s. üzrə dezaqreqasiyasını təmin etmək üçün məlumatların toplanması və təhlili üzrə potensialı nə dərəcədə gücləndirdi və ayrı-seçkiliyə məruz qalan | UNAPF sənədinə nəzərən əldə olunmuş faktiki nəticələrin müqayisəsi və nəticə göstəricilərində müsbət tendensiyaların müəyyən edilməsi<br><br>Proqram maraqlı tərəfləri əldə olunmuş nəticə və məhsulllar, eləcə də imkanlar və məhdudiyyətlərin konkret nümunələrini göstərə bilər<br><br>Faktiki məhsulların gözlənilən nəticələrə önəmli töhfə verməsi gözləniləndir.<br><br>Maraqlı tərəflər yeni bacarıqlar, qabiliyyətlər və xidmətlərin institusional performans və/yaxud davranışlarda dəyişikliklərə necə gətirib çıxardığına dair nümunələr təqdim edə bilər<br><br>BMT tərəfindən UNAPF çərçivəsində dəstək göstərilən nəticələrin milli prioritetlərə töhfə verdiyinə dair ağlabatan dəlillər | UNAPF sənədi və icra hesabatları<br><br>Birgə illik icmal görüşlərinin hesabatları, 2017, 2018 və 2019<br><br>Rezident Əlaqələndiricinin illik hesabatları, 2016-2018-ci illər üzrə<br><br>BMT təşkilatları tərəfindən aparılmış qiymətləndirmələr və aralıq icmallar, məs.BMTİP tərəfindən ÖPQ layihəsi, UNİCEF tərəfindən aralıq icmal | Masaüstü təhlil<br><br>UNAPF Nəticə Qrupları ilə görüşlər<br><br>BMT təşkilatları ilə görüşlər<br><br>1-ci, 2-ci və 3-cü prioritet sahələrə məsul milli maraqlı tərəflərlə müsahibələr/görüşlər<br><br>UNCT, Rezident əlaqələndirici və digər maraqlı tərəflərlə məlumatlandırma görüşü<br><br>Qeyri-hökumət maraqlı tərəflərlə görüş<br><br>İnkişaf tərəfdaşları ilə görüş |

| | | | |
|---|---|---|---|
| və əlverişsiz vəziyyətdə olan qurumlara prioritet diqqət yetirilibmi?<br><br>6. UNCT öz fəaliyyət göstəricilərini yaxşılaşdırmaq üçün tərəfdaşlıq münasibətlərindən (vətəndaş cəmiyyəti, özəl sektor, yerli hökumət, parlament, milli insan hüquqları institutları, beynəlxalq inkişaf tərəfdaşları) necə istifadə edib?<br><br>7. Büdcə ayırmaları, resursların cari və planlaşdırılan mobilizasiyası ilə əlaqəli çətinliklər nələrdir və onlar nəticələrin əldə olunmasına necə təsir edə bilər? | Dezaqreqasiya olunmuş məlumatların toplanması və təhlili üzrə potensialın artmasına dair dəlillər<br><br>Mövcud və yeni tərəfdaşlıqların mövcudluğu<br><br>Resursların cəlb olunması üzrə gözlənilər və faktiki performans və nəticələrin əldə olunmasına təsir | UNAPF-n 2017, 2018 və 2019-cu illər üzrə müştərək iş planları<br><br>İstiqamətləndirici Komitənin iclaslarının protokolları | |
| **Səmərəlilik:**<br><br>1. UNAPF həm hökumət, həm də BMT təşkilatlarının hər biri üçün əməliyyat xərclərinin azaldılmasına nə dərəcədə və hansı formada töhfə verib? Əməliyyat xərcləri hansı yollarla daha da azaldıla bilər?<br><br>2. Nəticələr kifayət qədər aşağı/ən aşağı mümkün xərclərlə əldə olunubmu?<br><br>3. Təşkilatlar əməliyyat xərclərini azaltmaq və nəticələri gücləndirmək üçün harmonizə edilmiş prosedurlardan nə dərəcədə istifadə edib?<br><br>4. BMT-nin əlaqələndirici fəaliyyəti əməliyyat xərcləri azaltmış və UNAPF-ın icrasının səmərəliliyini artırmışdırmı? | UNAPF nəticələrin xərc və faydaları, tətbiq olunan icra modullarının səmərəliliyi barədə müsbət təsəvvürlər<br><br>UNAPF nəticələrin xərc və faydaları, istifadə olunan icra modullarının səmərəliliyi barədə təsəvvürlər (israf və təkrarlamanın önlənməsi)<br><br>UNAPF-ın BMT təşkilatları və tərəfdaş hökumət qurumları üçün əməliyyat xərclərinə necə təsir etməsinə dair dəlillər və təsəvvürlər<br><br>İşgüzar Əməliyyatlar Strategiyasında əldə olunmuş | BMT-nin İşgüzar Əməliyyatlar Strategiyası 2018-2020 | Masaüstü təhlil<br><br>UNAPF Nəticə Qrupları ilə görüşlər<br><br>BMT təşkilatlarının nümayəndələri ilə görüşlər/müsahibələr |

| | | | |
|---|---|---|---|
| 5. UNAPF nəticələri optimallaşdırmaq və səylərin təkrarlanmasını önləmək üçün təşkilatlar arasında nə dərəcədə faktiki sinergiyalar yaradıb və razılaşdırılmış səyləri əks etdirib? | irəliləyişə dair dəlillər (məs.birgə satınalma, uzunmüddətli müqavilələr, ortaq ofislər)<br><br>Sinergiyalar (nəticələri optimallaşdırmaq və təkrarlanmanı önləmək üçün razılaşdırılmış səylər) vasitəsilə səmərəlilik baxımından əldə olunmuş qazanclar | | |
| **Dayanıqlılıq:**<br><br>1. UNAPF çərçivəsində əldə olunmuş nəticələr və istifadə olunan strategiyalar nə dərəcədə dayanıqlıdır: 1) milli inkişafa töhfə baxımından və 2) UNAPF-ın ayrı-ayrı BMT təşkilatları arasındakı əməkdaşlıqda yaratdığı əlavə dəyər baxımından?<br><br>2. UNAPF-ın şərait yaratdığı qarşılıqlı uzlaşma, əməkdaşlıq və /yaxud sinergiyalar nəticələrin dayanıqlılığının artmasına töhfə veribmi?<br><br>3. Milli potensiallar nə dərəcədə və hansı formada gücləndirilib?<br><br>4. İnsan hüquqları və gender bərabərliyi aspektləri baxımından institusional quruculuq və institusional gücləndirmə nə dərəcədə baş tutub?<br><br>5. UNCT töhfə vermiş olduğu nəticələrin itirilməməsini təmin etmək üçün adekvat risk təhlili aparıbmı və zəruri tədbirlər görübmü? Əldə olunmuş | Milli qanun, siyasət, normativ-hüquqi aktlar, strategiyalar və ya planlarda UNAPF nəticələrinin və strategiyalarının dayanıqlılığını təmin edən konkret dəyişikliklərə dair dəlillər<br><br>Pilot təşəbbüslərin miqyasının genişləndirilməsi<br><br>Milli büdcə və/yaxud digər donor resursların əlavə ayrılması<br><br>Nailolma səviyyələrini saxlamaq üçün mövcud institusional potensial<br><br>UNAPF nəticələrinin/dayanıqlılığı barədə təsəvvürlərin çarpaz yoxlanması | UNAPF sənədi və icra hesabatları<br><br>Birgə illik icmal görüşlərinin hesabatları, 2017, 2018 və 2019<br><br>Rezident Əlaqələndiricinin illik hesabatları, 2016-2018-ci illər üzrə<br><br>BMT təşkilatları tərəfindən aparılmış qiymətləndirmələr | Masaüstü təhlil<br><br>UNAPF Nəticə Qrupları ilə görüşlər<br><br>BMT təşkilatlarının nümayəndələri ilə görüşlər/müsahibələr<br><br>1-ci, 2-ci və 3-cü prioritet sahələrə məsul milli maraqlı tərəflərlə müsahibələr/görüşlər<br><br>UNCT, Rezident əlaqələndirici və digər maraqlı tərəflərlə məlumatlandırma görüşü |

| | | | |
|---|---|---|---|
| faydalar zaman keçdikcə nə dərəcədə qalır və ya qalmaq ehtimalı var?<br><br>6. UNAPF milli tərəfdaşlar tərəfindən proqramlara sahibliyin artmasına kömək edibmi? | Həm strateji, həm də proqram səviyyələrində maraqlı tərəflər qurumların proqram nəticələrinin dayanıqlılığını təmin etmək üçün istifadə etdiyi yollara dair nümunələr göstərə bilər<br><br>Ehtimalların və risklərin proqram icmalları zamanı və irəliləyiş barədə hesabatvermə üçün nəzərə alındığına dair dəlillər | və aralıq icmallar, məs.BMTİP tərəfindən ÖPQ layihəsi, UNİCEF tərəfindən aralıq icmal | Qeyri-hökumət maraqlı tərəflərlə görüş<br><br>İnkişaf tərəfdaşları ilə görüş |
| **Beş proqramlaşdırma prinsipi:**<br><br>1. İnsan hüquqları prinsipləri və standartları UNAPF-da nə dərəcədə əksini tapıb və ya təşviq olunub? İnsan hüquqları yanaşması nə dərəcədə və hansı formada insan hüquqları ilə bağlı narahatlıq doğuran məsələlərin UNAPF-a inteqrasiyasının mümkün üsullarından biri kimi əks olunub?<br><br>2. UNAPF öz məqsədinə nail olmaq üçün insan hüquqları və gender bərabərliyi standartlarından və prinsiplərindən (məs.iştirak, ayrı-seçkilik, hesabatlılıq və s.) nə dərəcədə istifadə edib və onları təşviq edib?<br><br>3. Gender bərabərliyi və ədalətliliyi konsepsiyaları UNAPF-da nə dərəcədə və hansı formada əks olunub (təyin olunmuş konkret hədəflər və məqsədlər, cins üzrə dezaqreqasiya olunmuş məlumatlar və göstəricilər və s. baxımından)?<br><br>4. UNCT-nin "SWAP gender qiymət cədvəli" üzrə qiymətləndirməsi nəticəsində əldə olunan tövsiyələr/tədbirlər planı, o cümlədən gender üzrə | UNAPF strategiyaları, nəticə və göstəriciləri insan hüquqları sahəsində ratifikasiya olunmuş sazişlərin standartlarına, o cümlədən beynəlxalq əmək standartlarına və müqavilə orqanlarının hesabatlarının əsas tövsiyələrinə cavab verir.<br><br>UNAPF strategiyaları, nəticə və göstəriciləri gender təhlilinin məlumatlarına və qadın və kişilərin problemlərlə fərqli şəkildə necə üzləşməsi barədə müəyyən anlayışa əsaslanıb.<br><br>Əsas UNAPF göstəriciləri gender üzrə dezaqreqasiya olunub<br><br>UNAPF sənədində və digər sənədlərdə (1) səbəb-nəticə | UNAPF sənədi və icra hesabatları<br><br>Birgə Gender Təftişi<br><br>Gender üzrə Tematik Qrupun 2017 və 2018-ci illər üzrə illik hesabatları<br><br>Nəticə Qruplarının sahələrarası məsələlər üzrə hesabatları (insan hüquqları, DİM-lər, kommunikasiya) | Tematik Qruplarla görüş (insan hüquqları, gender, DİM-lər)<br><br>Masaüstü təhlil<br><br>UNAPF Nəticə Qrupları ilə görüşlər<br><br>BMT təşkilatlarının nümayəndələri ilə görüşlər/müsahibələr<br><br>1-ci, 2-ci və 3-cü prioritet sahələrə məsul milli maraqlı tərəflərlə müsahibələr/görüşlər<br><br>Qeyri-hökumət maraqlı tərəflərlə görüş |

| | | | |
|---|---|---|---|
| dezaqreqasiya olunmuş məlumatlar üzrə minimum standartların qarşılanması və UNAPF çərçivəsində gender məsələlərinin aktuallaşdırılması üçün ayrılmış büdcəni izləmək qabiliyyətinə dair tövsiyələr/tədbirlər necə yerinə yetirilib?<br><br>5. Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi prinsipi növbəti UNAPF strategiyaları və nəticə çərçivələrinə daha yaxşı necə inteqrasiya oluna bilər?<br><br>6. UNAPF özünün milli inkişaf nəticələrinə töhfəsini gücləndirmək üçün ətraf mühitin dayanıqlılığı ilə bağlı prinsiplərdən səmərəli şəkildə istifadə edibmi:<br><br>7. UNAPF nəticələrin məntiqi əlaqəliliyini təmin etmək və monitorinq və qiymətləndirmə çərçivəsi yaratmaq üçün Nəticələrə Əsaslanan İdarəetmədən adekvat dərəcədə istifadə edibmi? UNAPF-ın nəticələr çərçivəsi yeni ortaya çıxan məsələləri və onların səbəblərini, habelə UNAPF dövründə qarşıya çıxan çətinlikləri nəzərə almaq üçün kifayət qədər uyğunlaşma qabiliyyətinə malik idimi?<br><br>8. UNAPF-da milli potensialın inkişaf etdirilməsinə adekvat dərəcədə diqqət yetirilibmi?<br><br>9. Nəticə və göstəricilər BMT-nin dəstək tədbirlərində heç kəsin kənarda qoyulmamasını təmin edəcək şəkildə nəticələri ölçmək üçün uyğundurmu? | təhlilinin, (2) rol-model təhlilinin və (3) potensialdakı boşluqların təhlilinin dəlilləri<br><br>UNAPF strategiyaları, nəticə və göstəriciləri əsas insan hüquqları prinsiplərini nəzərə alır: (1) ayrı-seçkiliyə yol verməmə və bərabərlik; (2) iştirak və inklüzivlik; (3) hesabatlılıq və qanunun aliliyi<br><br>Maraqlı tərəflər insan hüquqlarına əsaslanan yanaşma və gender bərabərliyinin UNAPF-ın icrası zamanı necə tətbiq olunduğuna dair nümunələr göstərə bilər<br><br>Proqram tədbirlərini həssas qruplara uğurla ünvanlandığına və təqdim olunduğuna dair dəlillər<br><br>UNAPF sənədi, MİP-lər, monitorinq və hesabatvermədə nəticə əsaslı idarəetmənin prinsiplərindən istifadə edildiyinə dair dəlillər<br><br>Ətraf mühitin dayanıqlılığı prinsipinin UNAPF sənədində və onun icrasında əks etdirildiyinə dair dəlillər<br><br>Potensialın inkişaf etdirilməsi prinsipinin UNAPF sənədində və | | |

| | | | |
|---|---|---|---|
| | onun icrasında əks etdirildiyinə dair dəlillər | | |
| **Əlaqələndirmə:**<br><br>1. BMT təşkilatlarının müqayisəli üstünlükləri (o cümlədən universallıq, bitərəflik, könüllü və qrant xarakterli töhfələr, çoxtərəflilik) xüsusən BMT təşkilatlarının və ölkədə fəaliyyət göstərən digər inkişaf təşkilatlarının xüsusi mandatlarına münasibətdə milli kontekstdə nə dərəcədə və hansı formada istifadə olunub?<br><br>2. UNAPF milli inkişaf prioritetləri istiqamətində irəliləyiş baxımından BMT-nin proqramları arasında daha yaxşı sinergiyaların əldə olunmasına nə dərəcədə və hansı formada töhfə verib? UNAPF təşkilatlar tərəfindən birgə proqramlaşdırmanı gücləndiribmi və/yaxud konkret birgə proqramlarla nəticələnibmi?<br><br>3. Mövcud əlaqələndirmə mexanizmləri, o cümlədən UNAPF-ın İstiqamətləndirici Komitəsi, Nəticə Qrupları və Tematik Qruplar (insan hüquqları, gender, DİM-lər, kommunikasiya və monitorinq və qiymətləndirmə) nəticələrin birgə uzlaşdırılmasını və nəticələrin təqdim olunmasında, monitorinq, hesabatvermə və planlaşdırmada effektivlik və səmərəliliyin təmin edilməsində nə dərəcədə adekvatdır?<br><br>4. BMT və onun tərəfdaşları nəticələrin daha effektiv və səmərəli çatdırılması üçün öz işlərini daha | BMT-nin müqayisəli üstünlüklərindən nə dərəcədə yaxşı istifadə olunduğuna dair maraqlı tərəflərin təsəvvürləri<br><br>UNAPF-ın BMT təşkilatları arasında daha böyük uzlaşma və birgə əməkdaşlıq üçün faydaları haqqında təsəvvürlərin çarpaz yoxlanması<br><br>UNAPF-ın BMT təşkilatları və tərəfdaş hökumət qurumları arasında əməkdaşlığın yaxşılaşdırılması üçün faydaları haqqında təsəvvürlərin çarpaz yoxlanması<br><br>UNAPF üzrə idarəetmə tədbirlərinin (nəticə qrupları, istiqamətləndirici komitə, tematik qruplar) mövcudluğu və onların nailiyyətlərlə bağlı informasiya və məlumatların (məs.illik hesabatlar) istifadəçi üçün rahat axınına gətirib çıxarması | UNAPF sənədi və icra hesabatları<br><br>Birgə illik icmal görüşlərinin hesabatları, 2017, 2018 və 2019<br><br>Rezident Əlaqələndiricinin illik hesabatları, 2016-2018-ci illər üzrə<br><br>BMT təşkilatları tərəfindən aparılmış qiymətləndirmələr və aralıq icmallar, məs.BMTİP tərəfindən ÖPQ layihəsi, UNİCEF tərəfindən aralıq icmal | Masaüstü təhlil<br><br>UNAPF Nəticə Qrupları ilə görüşlər<br><br>BMT təşkilatlarının nümayəndələri ilə görüşlər/müsahibələr<br><br>UNAPF-ın Monitorinq və Qiymətləndirmə Qrupu, BMT-nin Kommunikasiya Qrupu və Əməliyyatlar üzrə İdarəetmə Heyəti ilə görüşlər<br><br>1-ci, 2-ci və 3-cü prioritet sahələrə məsul milli maraqlı tərəflərlə müsahibələr/görüşlər<br><br>UNCT, Rezident əlaqələndirici və digər maraqlı tərəflərlə məlumatlandırma görüşü |

| | | | |
|---|---|---|---|
| yaxşı uzlaşdırmaq üçün birgə iş planlaşdırması imkanlarından nə dərəcədə istifadə edə bilib?<br><br>5. UNAPF milli inkişaf gündəliyi və UNAPF-ın nəticə sahələri üzrə effektiv tərəfdaşlıqları və strateji ittifaqları (məsələn, Hökumət daxilində, milli tərəfdaşlarla, beynəlxalq maliyyə institutları ilə və digər xarici dəstək qurumları ilə) təşviq edibmi?<br><br>6. Təşkilatlar tərəfindən dəstəklənən proqramlar UNAPF-ın nəticələrinə nail olmağa kömək etmək baxımından bir-birinə dəstək göstəribmi? Birgə proqramlaşdırma nəticəsində ayrı-ayrı təşkilatlar tərəfindən səmərəlilik və ya proqram dəstəyi gücləndirilibmi?<br><br>7. Müxtəlif UNAPF tərəfdaşları arasında vəzifə və öhdəliklər aydın bölüşdürülübmü, nəticələrə nail olunmasına kömək edibmi və icra prosesinin gedişində icra mexanizmlərinə əsas etibarilə əməl olunubmu? | UNAPF-ın icrasının monitorinqi, öyrənmə və hesabatvermənin effektivliyi barədə maraqlı tərəflərin müsbət təsəvvürləri<br><br>UNAPF proqramlaşdırması və təşviqatı ilə əlaqəli yeni tərəfdaşlıqlar və ittifaqlara dair dəlillər<br><br>Birgə proqramlar və birgə proqramlaşdırma və onların BMT təşkilatları arasında effektivliyi barədə təsəvvürlərə dair dəlillər | | Qeyri-hökumət maraqlı tərəflərlə görüş |